

***Seyid Həsən Tağızadə***
***(1878-1970)***

**AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI**
**akademik Z.M.Bünyadov adına**
**ŞƏRQŞÜNASLIQ İNSTİTUTU**

**ƏFŞAN HEYDƏR QIZI ŞƏFİYEVA**

# SEYİD HƏSƏN TAĞIZADƏ VƏ İRANIN MODERNLƏŞMƏSİ

**B A K I - 2 0 1 6**

*Azərbaycan Milli Elmlər Akademiyası*
*akad. Z.M.Bünyadov adına Şərqşünaslıq İnstitutunun Elmi Şurasının*
*qərarı ilə çap olunur.*

***Elmi redaktor:***
**Solmaz Rüstəmova-Tohidi**
*Tarix üzrə elmlər doktoru*

***Rəyçilər:***

**Nərgiz Çingiz qızı Axundova**
*AMEA-nın İctimai Elmlər Bölməsinin akademik-katibi,*
*AMEA-nın müxbir üzvü*

**Musa Cəfər oğlu Qasımlı**
*Tarix üzrə elmlər doktoru, professor*

Ə.Şəfiyeva. **"Seyid Həsən Tağızadə və İranın modernləşməsi."** Bakı, "Araz" nəşriyyatı, 2016, 272 səh.

*Monoqrafiya XIX əsrin II yarısı, XX əsrin son rübünə qədər İranda modernləşdirmə uğrunda aparılan hərəkata, modernləşdirmə cərəyanlarına, eyni zamanda İranın görkəmli siyasi, ictimai və dövlət xadimi Seyid Həsən Tağızadənin öz ölkəsinin modernləşməsi prosesində roluna, bu prosesin başlıca məqamlarına və xüsusiyyətlərinə həsr olunmuşdur. Monoqrafiyada Seyid Həsən Tağızadənin şəxsiyyəti, elmi fəaliyyəti, ictimai düşüncələri və ideologiyası geniş tədqiq edilmişdir.*

*Kitab tarixçilər, həmçinin, müasir Şərqin sosial-mədəni tarixi ilə maraqlanan geniş oxucu kütləsi üçün nəzərdə tutulmuşdur.*

**İSBN 978-995-377-825-9**

©AMEA Şərqşünaslıq İnstitutu, 2015

## MÜNDƏRİCAT

**Ön söz**.........................................................................................4
**GİRİŞ** ........................................................................................ 11

*I FƏSİL.*
**XIX-XX əsrin əvvəllərində İranda**
**ilk modernləşdirmə cəhdləri və modernləşmə**
**ideologiyasının meydana gəlməsi**........................................... 31
XIX əsrin sonları - XX əsrin əvvəllərində İranda
sosial-iqtisadi, siyasi və mədəni vəziyyət................................. 31
İranda XIX əsrdə islahat aparmaq cəhdləri............................... 49
İranda modernləşmənin ilk ideoloqları...................................... 62

*II FƏSİL.*
**Seyid Həsən Tağızadənin ictimai-mədəni və**
**elmi fəaliyyəti**.............................................................................. 81
S.H.Tağızadənin dünyagörüşünün formalaşması ..................... 81
Seyid Həsən Tağızadənin ictimai-mədəni fəaliyyəti ................ 95
Seyid Həsən Tağızadənin elmi fəaliyyəti ............................. 109

*III FƏSİL.*
**Seyid Həsən Tağızadənin İranı**
**modernləşdirmək cəhdləri**.................................................... 124
S.H.Tağızadənin siyasi sistemin modernləşməsi
sahəsində fəaliyyəti ................................................................ 124
S.H.Tağızadənin modernləşdirmə sahəsində ideoloji
fəaliyyəti .................................................................................. 153
**Nəticə**........................................................................................ 204
**Ədəbiyyat** ................................................................................. 212
**Xülasə**: (Rus dilində, İngilis dilində) .................................... 231
**Adlar göstəricisi** ....................................................................... 235

## Ön söz

XIX əsrin ortalarından başlayaraq Qərbdən gələn güclü siyasi-ictimai və fəlsəfi-mədəni fikir dalğasının təsiri qarşısında yeniləşmə, modernləşmə zərurəti ilə üzləşən Şərq dünyasında, o cümlədən İranda ən əvvəl bu fikrin daşıyıcıları yetişmişdir. İranda və həmçinin Azərbaycanda modernləşmə ictimai fikrinin ilk ideolaqlarının yazılı irsi və bu istiqamətdə maarifçilik fəaliyyətinin nəticəsi olaraq XX əsrin əvvəllərində tarix səhnəsinə modernləşməni İran cəmiyyətinə tətbiq edən ictimai-siyasi xadimlər çıxmışlar ki, türk-azərbaycan əsilli Seyid Həsən Tağızadə bu cərgədə ən görkəmli yeri tutur. 92 il ömür sürmüş (1878-1970) bu son dərəcə istedadlı, savadlı, geniş dünyagörüşlü, fəal və işgüzar insan mühüm tarixi hadisələrlə zəngin uzun və eyni zamanda ziddiyyətli həyat yolu keçmiş, bir çox hallarda bu hadisələrin önündə olmuş, lakin ən müxtəlif siyasi şəraitlərdə belə İranın modernləşmə məsələsi Tağızadənin bütün siyasi, ictimai və hətta elmi fəaliyyətinin əsas xəttini təşkil etməklə onu İranın dövlətçilik tarixində xüsusi yeri olan bir şəxsiyyət səviyyəsinə qaldırmışdır.

Lakin bu "xüsusi"lik Tağızadənin yalnız çoxsahəli fəaliyyəti ilə məhdudlaşmır. XX əsrin siyasi sarsıntılar, müharibələr və inqilablar dövrü olmaqla yanaşı, eyni zamanda bir çox xalqlar, o cümlədən Azərbaycan xalqı üçün milli dirçəliş, milli haqlar uğrunda mübarizə və milli dövlətçiliyin əldə edilməsi yolunda tarixi şərait və geniş imkanlar açdığı nəzərə alınarsa, Seyid Həsən Tağızadə şəxsiyyəti bir Azərbaycan türkünün İran dövlətçiliyinin yeni, modern əsaslarda qurulması məqsədini öz amalı - həyat kredosu seşməsi kimi bir fenomeni anlamağa açar verir.

Sovet İttifaqı dağıldıqdan, kommunist ideologiyası aradan getdikdən, Azərbaycan Respublikası öz müstəqilliyini bərpa edərək yeni, modern dövlət quruculuğuna başladıqdan sonra və xüsusilə Şərq-Qərb sivilizasiyası ilə bağlı müzakirələr yenidən güc topladığı bir zamanda ənənəvi Şərq ölkəsi olan İranda bir əsr öncə modern dövlətçilik uğrunda mübarizə və bu mübarizənin başında duran bir Azərbaycan türkünün - Seyid Həsən Tağızadənin şəxsiyyəti və çoxşaxəli fəaliyyəti xüsusi aktuallıq kəsb etmişdir.

Azərbaycan iranşünaslığı elmində öz sözünü deməyə başlayan tarix üzrə fəlsəfə doktoru Əfşan Şəfiyevanın oxuculara təqdim edilən **"Seyid Həsən Tağızadə və İranın modernləşməsi"** monoqrafiyası deyilənlərə sübutdur. Əvvəlcədən qeyd edilməlidir ki, bu əsər bir əsrə yaxın bir dövrü, digər tərəfdən İranda modernləşmə prosesinin gedişini, onun ideya-əməli daşıyıcılarından birinin, bəlkə də birincisi sayılan Seyid Həsən Tağızadənin fəaliyyətini izləməyə tam imkan verir və bu baxımdan müəllifin öz qarşısına qoyduğu əsas vəzifə yerinə yetirilmiş sayıla bilər.

Qeyd olunmalıdır ki, kitabın Giriş hissəsində modernləşmə nəzəriyyəsinin ümumi prinsipləri, onun Şərq-İran cəmiyyətinə nüfuz və təsiri, həmçinin bu prosesdə şəxsiyyətin rolu kimi məsələlərin müasir dövr və tələblər baxımından aktuallığını şərh etməklə müəllif oxucunu kifayət qədər ciddi və mürəkkəb olan bir mövzu ilə tanışlığa hazırlayır. Bu zaman müəllifin özünün mövzu ətrafında kifayət qədər geniş mənbə və elmi-populyar ədəbiyyat, həmçinin memuar ədəbiyyatı və dövrü mətbuatla yaxından tanış olduğu, xüsusilə S.H.Tağızadənin yaradıcılığını tam şəkildə öyrəndiyi, onun haqqında İranda və Qərbdə dərc olunmuş müxtəlif dilli ədəbiyyatı izlədiyi və onlardan çox uğurla bəhrələnərək öz tədqiqatına cəlb etdiyi üzə çıxır ki, bu da təqdirəlayiq hal kimi qiymətləndirilməlidir.

Monoqrafiyanın - "XIX-XX əsrin əvvəllərində İranda ilk modernləşdirmə cəhdləri və modernləşmə ideologiyasının meydana gəlməsi" adlanan I fəsli tədqiqat mövzusuna cox maraqlı və məzmunlu bir tarixi ekskurs sayila bilər. 3 paraqrafdan ibarət olan bu fəsli Ə.Şəfiyeva XIX əsrin sonları-XX əsrin əvvəllərində İranda sosial-iqtisadı, siyasi və mədəni vəziyyət, XIX əsrdə ölkədə islahatlar aparmaq cəhdləri və İranda modernləşmənin ilk ideolaqları kimi konkret mövzular üzərində quraraq S.H.Tağızadənin yetişdiyi və dünyagörüşünün formalaşdığı mühit və şərait haqqında dolğun təsəvvür yaratmağa müvəffəq olmuşdur.

Seyid Həsən Tağızadənin ictimai, siyası və elmi fəaliyyəti tədqiq edilən II fəsildə müəllif monoqrafiya qəhrəmanının ictimai-siyasi nəzərlərinin formalaşması prosesini izləyərək onun aldığı təhsilin istiqamətləri, gənc Tağızadənin dünyağörüşünün inkişaf dinamikasını göstərmiş, yiyələndiyi bilik və nəzərlərini özünün ictimai-mədəni fəaliyyətində hansı sahələrlə və hansı usullarla reallaşdırdığını konkret faktlar və hadisələr əsasında araşdırmışdır. Bu fəaliyyətin hər hansı istiqamətdə - siyasi-dövlət quruculuğu, parlament - qanunvericilik, yaxud yeni ruhlu mətbuatın təşkili və s. – aparıldığından asılı olmayaraq onun bilavasitə İranda yeni – modern düşüncənin həyata keçirilməsi niyyətinə xidmət etdiyi müəllif tərəfindən faktlar və sənədlərə istinadən tam əsaslandırılmışdır. Bu fəsildə həmçinin S.H.Tağızadənin elmi fəaliyyəti ayrıca tədqiq edilərək, onun əsərləri, ilk növbədə elmi-populyar mətbuatın yaradıcısı, naşiri, coxsaylı elmi məqalələrin müəllifi və tərcüməçisi kimi geniş yaradıcılığı haqqında son dərəcə dolğun bir təsəvvür yaradılır. Müəllif xüsusilə Tağızadənin başlıca elmi əsəri - "Qədim İran təqvimi" monoqrafiyasını dərin təhlil edir. Xüsusi vurğulanmalıdır ki, Ə.Şəfiyeva tamamilə haqlı olaraq bu təhlili həmin əsərin konkret obyekti, yəni bu təqvimin xüsusiyyətlər

üzərində deyil, onun məhz yeni, modern – qərb tarixşünaslıq metodologiyası baxımından araşdırması faktı əsasında aparmış və beləliklə Tağızadənin elmi fəaliyyətini çox üzvü surətdə monoqrafiyanın mövzusu ilə üzlaşdırmışdır.

Monoqrafiiyanın "İranın modernləşməsində Seyid Həsən Tağızadənin rolu" adlanan III fəslində monoqrafiya müəllifinin diqqəti artıq sırf modernləşmə prosesi ilə bağlı məsələlər üzərində cəmlənmiş, Tağızadənin İranın modernləşmə sahəsində geniş və bəzən ziddiyyətli fəaliyyəti 2 istiqamətdə - siyasi sistemin modernləşməsi və modernləşmənin ideologiyasının yaradılması – araşdırmışdır. Birinci istəqamətlə bağlı tədqiqatlarında müəllif İranda Məşrutə hərəkatı başlayandan Tağızadənin əsasən bu sahədə mübarizəsi və İran məclislərində deputat kimi aparıcı mövqeyi, cıxışları, bu fəaliyyətin İran qanunvericiliyinə təsiri, töhfəsi və d., məsələlər üzrə - birbaşa İranın siyasi sisteminin yeniləşməsi və təkmilləşməsi işində rolunu və yerini göstərə bilmişdır.

2-ci istiqaməti, Tağızadənin İranda modernləşmənin ideoloqu kimi fəaliyyətini araşdırarkən Ə.Şəfiyeva zəngin faktoloji mənbələr – Tağızadənin məqalələri, çıxişları, bəyanatları və s. əsasında onun modernləşmə və vesternizasiya məsələlərinə dair baxışlarını, bu ideoloji-mədəni proseslərə münasibətdə meydana çıxan ziddiyyətləri, ayrı-ayrı zaman kəsikliklərində onun nəzərlərində baş verən dəyişiklikləri və digər bu kimi məqamları üzə çıxarmış, onların səbəb və köklərini elmi şəkildə təhlil və şərh etmişdır. Tədqiqatının əsas yekunu kimi müəllif belə bir nəticəyə gəlmişdir ki, ictimai fəaliyyətə modernləşdirici – praktik kimi başlayan S.H.Tağızadə XX əsrin 20-ci illərinin əvvəllərində qatı vesternləşdirmə tərəfdarı kimi çıxış etmiş və tədricən modernləşmənin vesternizasiya xəttindən uzaqlaşaraq, kamil modernləşmə mövqeyində bərqərar olmuşdur. "S.H.Tağızadə modern-

ləşməyə İran dövlətinin və İran xalqının (əhalisinin, vətəndaşlarının) mənafeyi baxımından yanaşaraq, həmin hadisənin əsas ünsürlərinin geniş şərhini verir, modernləşmiş cəmiyyət modelini İranın real durumu ilə müqayisə edərək, İran cəmiyyətinin inkişaf və tərəqqisinin XX əsrin 60-70-ci illərdə yeganə obyektiv-elmi proqramını irəli sürür. Artıq qeyd edildiyi kimi, həmin proqramın əsas komponentlərini tam (ən yüksək) azadlıq, həqiqi vətənpərvərlik, sağlam millətçilik (dövlətçilik) və plüralizm təşkil edir. Modernləşmiş cəmiyyət mərhələsinə yüksəlmək üçün həmin dörd əsas prinsip bərqərar edilməlidir".

Qeyd olunmalıdır ki, monoqrafiyanın bütün fəsilləri boyu S.H.Tağızadənin həyat yolu və zəngin bioqrafiyası ardıcıl olaraq izlənmişdır. Bu zaman onun dövlət qulluğunda, xüsusilə xarici ölkələrdə səfir olduğu, daha sonra İran üçün taleyüklü məsələlərin həll olunduğu siyasi təlatümlərlə dolu tarixi dövrlərdə (məs. Rza-şahın siyasi səhnəyə gəlməsi, yaxud Müsəddiq dövrü) müxtəlif mühüm siyasi-ictimai məsələlərə münasibəti və tutduğu mövqe geniş əks olunmuşdur.

Bu da qeyd olunmalıdır ki, müəllif öz əsərində S.H.Tağızadənin Qafqazla bağlı əlaqələrinə və xüsusilə Şimali Azərbaycan və Azərbaycanın siyasi xadimləri ilə münasibətlərinə ayrıca diqqət yetirmiş, S.H.Tağızadənin Azərbaycanın görkəmli siyasi xadimi, müstəqil Azərbaycan dövlətçiliyinin ideoloqu və yaradıcısı M.Ə.Rəsulzadə ilə ən yaxin dostluğu, onların 1909-1911-ci illər birlikdə İranda ilk avropatipli yeni, demokratik mətbuatın – "İran-e nou" qəzetinin əsasını qoyması, ümumiyyətlə, bu iki böyük şəxsiyyəti bir-birinə bağlayan telləri və bu əməkdaşlığın siyasi-ictimai əhəmiyyəti kimi məsələləri ilk dəfə elmi şəkildə tədqiqat obyekti edərək, Azərbaycan tarixi və şərqşünaslıq elminə gətirmişdir.

Burada bir məqama diqqət yetirilməlidir ki, S.H.Tağızadənin bir azərbaycan türkü olduğu halda nə üçün İran dövlətçiliyi mövqeyində durduğu mövzusu monoqrafiyada ayrıca qoyulmuş problem kimi xüsusi olaraq araşdırılmasa da, müəllif bu məsələnin üstündən yan keçməmiş, Tağızadənin etnik-milli və dövlətçilik baxışlarını tədqiq etmiş və bu xadimin özünün həmin məsələlərə münasibətindən çıxış edərək, onun dövlətçilik mövqeyinə üstünlük verməsi səbəblərini açıqlamışdır. Bu baxımdan, Tağızadənin Vətən, Dövlət, Hakimiyyət, Şovinizm, Millətçilik və s. bu kimi anlayışlara dair nəzərlərinə həsr edilən səhifələr monoqrafiyanın ən maraqlı, oxunaqlı, eyni zamanda tədqiqatçının özünün də mövqeyini müəyyənləşdirməyə imkan verən hissəsidir. Və burada tam əminliklə demək olar ki, azərbaycanlı alim bu, olduqca həssas mövzuları qaldırmaqla müstəqil düşüncəli bir tədqiqatçı kimi tam obyektiv mövqedə durduğunu nümayiş etdirir və Tağızadənin görüşlərini dərindən araşdırmaqla ona qərəzsiz – tənqidi münasibətini ortaya qoyur.

Təbii ki, bir məqalə çərçivəsində istər S.H.Tağızadənin özünün şəxsiyyəti, istərsə də ona həsr edilmiş elmi əsərin bütün məziyyətləri haqqında geniş danışmaq mümkün deyildir. Lakin tam əminliklə demək olar ki, t.ü.f.d. Əfşan Şəfiyevanın oxuculara təqdim olunan bu monoqrafiyasında Seyid Həsən Tağızadənin bir ictimai, siyasi və dövlət xadimi, İranda modernləşmənin ideoloqu olmaqla filosof və mütəfəkkir, qanunvericilik və parlamentarizmin əsasını qoyan hüquqşünas, elm və mətbuat sahəsində yüksək professional, İranı beynəlxalq münasibətlər və dünya siyasətində təmsil edən diplomat, eləcə də özünəməxsus orijinal düşüncə sahibi və nəhayət, yüksək əxlaq, insaniyyət və humanistlik nümayiş etdirən alicənab, səmimi bir insan kimi geniş miqyaslı portreti yaradılmışdır. Bir məqam da xüsusi vurğulanmalıdır ki,

müəllif eyni zamanda XX əsr İran tarixinin ən maraqlı bir dövrünü bu tarixi yaradanlardan birinin - S.H.Tağızadənin şəxsiyyəti fonunda tədqiq etməyə müvəffəq olmuşdur.

Burada tədqiqata cəlb edilmiş müxtəlif xarici dillərdə kifayət qədər geniş ədəbiyyat və ümumən, monoqrafiyanın mənbəşünaslıq bazası xüsusi qeyd edilməlidir. Belə ki, müəllifin bir sıra İran və Qərb mənbələrini və müəllif əsərlərini ilk dəfə elmi dövriyyəyə gətirməklə yalnız öz tədqiqat işini deyil, həmçinin Azərbaycanın tarixşünaslıq, şərqşünaslıq və iranşünaslıq elmlərini qiymətli mənbələrlə zənginləşdirdiyini söyləmək olar. Eyni zamanda Seyid Həsən Tağızadənin Azərbaycan-türk əsilli olduğunu vurğulamaqla və onun həyat və fəaliyyətinin Şimali Azərbaycanın ziyalı və siyasi xadimləri, ilk növbədə Məhəmməd Əmin Rəsulzadə ilə bağlı səhifələrini tədqiqat obyekti etməklə azərbaycanlı iranşünas alim Tağızadəyə və onun dövrünə həsr edilmiş elmi əsərlər arasında özünün yeni sözünü deməyə müvəffəq olmuşdur. Tədqiqatın ümumi əhəmiyyətinə gəldikdə isə Əfşan Şəfiyevanın İran tarixi və tarixdə şəxsiyyətin rolu kontekstində yazılan və elmi-nəzəri baxımdan əsaslı, inandırıcı və ciddi bir tədqiqat olan bu əsəri son dövrlərdə yalnız Azərbaycan iranşünaslığında deyil, beynəlxalq iranşünaslıq elmində qiymətli tədqiqat sayıla bilər.

**Solmaz Rüstəmova-Tohidi,**
*Tarix elmləri doktoru*

*Atam Heydər Şəfiyevin əziz xatirəsinə*
*həsr olunur.*

# G İ R İ Ş

XX əsrin ortalarında modernləşmə nəzəriyyəsi, daha doğrusu, onun nəzəri istiqamətləri meydana gəlmiş, bu nəzəriyyə cəmiyyətin inkişafı məsələlərinin işlənib hazırlanmasına və ənənəvi cəmiyyətin müasir cəmiyyətə transformasiya olunmasının izahına əhəmiyyətli töhfə vermişdir. Müasir dövrdə modernləşmə nəzəriyyəsi modernləşmənin ilkin şərtlərinin və əsas amillərinin yeniləşən dünyanın ayrı-ayrı hissələrində müxtəlif çəkiyə və rola malik olduğunu göstərir; belə ki, bu nəzəriyyə Qərb cəmiyyətinin müasir cəmiyyətə çevrilməsinin aparıcı amillərini müəyyən bir yöndə, Şərq cəmiyyətinin ənənəvi cəmiyyətdən müasir cəmiyyətə keçidini isə fərqli yöndə izah edir. İstənilən halda modernləşmə ictimai həyatın bütün sahələrində baş vermiş və baş verməkdə olan əsaslı dəyişiklikləri, ənənəvi cəmiyyətdən müasir cəmiyyətə doğru inkişafı nəzərdə tutur; eyni zamanda modernləşmiş cəmiyyəti ənənəvi cəmiyyətdən fərqləndirən əsas meyarları: iqtisadi sahədə – sənayenin inkişafı; siyasi sahədə – hakimiyyət və idarəetmənin rasional formalarının təkamülü, siyasi və qanunverici institutlara nəzarət etməyə qadir olan kğtləvi informasiya vasitələrinin mövcudluğu; sosial sahədə – vətəndaş cəmiyyətinin formalaşmasını müəyyən edir.

Modernləşmiş cəmiyyət maşın texnologiyası ilə işləyən rasional və dünyəvi həyat yönümlü cəmiyyətdir. Modernləşmiş cəmiyyətdə hakimiyyət tam legitimliyə əsaslanır və liberal demokratik dövlət bərqərar olur. Belə cəmiyyətdə insan elmə inanır, hadisələri rasional izah edir və avtoritetdən asılı deyildir [33; 51; 80; 85; 92].

Modernləşmənin iki növünü – üzvi (və ya ilkin təbii-tarixi proses, Qərbdə modernləşmə) və qeyri-üzvi (və ya modernləşmiş

cəmiyyətlərin təcrübəsi, institutları və s. istifadə etmək, "arxadan çatan", inkişaf etmiş, Qərb mühitinə daxil olmayan ölkələr, Şərq ölkələri), üç modelini: Vesternizasiyasız modernləşmə, modernləşməsiz vesternizasiya, "arxadan çatan" modernləşməni [56; 57; 58; 60; 76], hətta bunların hamısını "milli modernləşmə modeli" ilə əvəz etməyi təklif edirlər [57; 76]. Həmin modellər əslində bütövlükdə modernləşmənin deyil, qeyri-üzvi modernləşmənin, "arxadan çatan" modernləşmənin müxtəlif variantlarını əks etdirir. Əslində üzvi – ilkin modernləşmənin "modernləşmə-moderniti", qeyri-üzvi – ikinci "arxadan çatan" modernləşmənin həmin anlayışa sinonim olan və eyni zamanda üzvi moderləşməyə münasibəti əks etdirən "vesternizasiya" termini ilə ifadə olunması daha məntiqi və anlaşıqlı olmalı idi.* Lakin "vesternizasiya" istilahı tədricən modernləşmənin məhdud – sosial-mədəni sferasını əks etdirdiyindən qeyri-üzvi modernləşmənin fərqli yolları yuxarıda qeyd edilən modellərlə təsbit olunur [30; 48].

Göründüyü kimi, Qərbdən kənarda modernləşmənin qeyri-üzvi növü modellərdən və ya tiplərdən birinə uyğun şəkildə baş verir. Ona görə belə hesab edilir ki, Şərqdə modernləşmə subyektiv amilin iradə və əzmindən asılı olur və sosial-mədəni və siyasi sferada Qərb nümunəsi əsasında başlanır [51]. Dünya təcrübəsi göstərir ki, qeyri-üzvi modernləşmə əslində üzvi modernləşmənin yolunu, hazır nümunə mövcud olduğundan, daha qısa zamanda və asan şəkildə təkrar edir. Ona görə, demək olar ki, modernləşmə cəmiyyətin sistem şəklində təkamülü olduğundan onun bütün sferalarını əhatə edir və hər hansı bir sferanın inkişaf etməməsi həmin cəmiyyətin tam modernləşmə mərhə-

---

* Qeyd. "Vesternizasiya" – "west" (ingiliscə "qərb" sözündən götürülmüşdür), "qərbləşmə" mənasındadır; monoqrafiyada bundan sonra "vesternizasiya" istilahından istifadə olunacaq.

ləsində bərqərar olmadığını göstərir. Ona görə də sənayeləşmə modernləşmə prosesinin yeganə iqtisadi əsasını təşkil edir və sənayeləşməmiş modernləşmə bərqərar ola bilməz, hərçənd sənayeləşmə avtomatik olaraq modernləşməni təmin etmir. Təkrar edirik ki, modernləşmə ictimai həyatın bütün sahələrinin inkişafını nəzərdə tutur. Modernləşmə prosesi yaşayan ölkələrdə baş verən müxtəlif "böyümə" konfliktlərinin kökü əslində modernləşmədəki asimmetriyadan, nisbətsizlikdən irəli gəlir.

İran modernləşmə sahəsində uzun və ziddiyyətli bir yol keçmiş və keçməkdə olan müsəlman Şərqi ölkələrindən biridir.

XIX əsrin əvvəllərindən aparıcı Avropa dövlətlərinin geosiyasi maraq dairəsinə cəlb edilən İran Rusiya ilə müharibələrin elə ilk mərhələsində (1804-1813) özünün Avropa dövlətlərindən, xüsusən hərbi sahədə geriliyini aydın dərk edərək, həmin geriliyi Avropanın elmi, texniki, hərbi nailiyyətlərindən istifadə etməklə aradan qaldırmağa cəhd etmişdir. Həmin cəhd geri qalmış feodal cəmiyyətinin sürətli tərəqqisinə, dövlətin hərbi qüdrətinin artmasına güclü təsir göstərməsə də, İranın Qərb mədəniyyəti ilə yaxından tanış olmasına şərait yaratmışdır.

Müəyyən fasilələrlə də olsa, İranın hakim dairələrinin mütərəqqi nümayəndələri ölkədə Türkiyə vasitəsi ilə mənimsənilən Avropa nümunəsində islahatlar həyata keçirməyə cəhdlər göstərmişlər. XIX əsrin sonlarına doğru yuxarıdan modernləşdirmə hərəkatı sona çatsa da, aşağıdan modernləşmə hərəkatı və eyni zamanda modernləşmə ideologiyası formalaşmağa başlamışdır. Beləliklə, modernləşmə İranın ictimai, siyasi, mədəni həyatının mühüm bir ünsürünə çevrilmiş və Qərb mədəniyyətinə münasibətdə özünü aydın şəkildə göstərməyə başlamışdır.

XX əsrin əvvəllərində, xüsusən 1905-1911-ci illər İran inqilabı zamanı modernləşmə sahəsində daha ciddi, əsaslı və

geniş addımlar atılmışdır və modernləşmə və Qərb mədəniyyətinə münasibət, demək olar ki, hərtərəfli formalaşmışdır. İslam dəyərlərinin hakim mövqeyi altında modernləşdirməni həyata keçirmək prinsipi qalib gəlmişdir. Lakin Rza şahın hakimiyyəti illərində (1925-1941) İslam dininin hakim mövqeyi formal olaraq rədd edilməsə də, ictimai-mədəni sahədə modernləşdirmə siyasəti aparılmış və həmin siyasət onun varisi Məhəmməd Rza Şah (1941-1978) dövründə də davam etdirilmişdir. Lakin həmin illərdə modernləşdirmə və Qərb mədəniyyətinə münasibət geniş ideoloji mübarizə obyektinə çevrilmiş, ölkənin sağ və sağ-mühafizəkar qüvvələri mədəni-məişət sferasında modernləşməyə geniş ideoloji müqavimət göstərmiş və yenidən İslam dininin hakim mövqeyinin bərpa olunması uğrunda çıxış etməyə başlamışlar.

1925-1941-ci illərdə modernləşməyə əsasən ruhanilər və onların güclü təsiri altında olan aşağı təbəqələr müqavimət göstərirdisə və bütün gənc intellektuallar və yeni siyasi qüvvələr onu dəstəkləyirdisə, 1950-70-ci illərdə artıq mədəni-mənəvi modernləşməyə qarşı "anti-qərbçilik" adı altında böyük bir cəbhə meydana gəlmiş və nəinki mədəni-mənəvi dəyərlərin ənənələrlə əvəz olunması, həm də İslam dininin hakim mövqeyinin bərpa edilməsi uğrunda çıxış etməyə başlamışdılar.

1978-1979-cu illər İran inqilabı ictimai həyatın bütün sahələri ğzərində İslam dini və ruhanilərin hakimiyyətini bərqərar edərək mədəni, mədəni-məişət sahəsində aparılmış modernləşdirmə siyasəti və onun nəticələri üzərindən xətt çəkərək İslam prinsiplərini həyata keçirməyə şərait yaratmışdır. İslam inqilabının qələbəsindən sonra məhdud mənada modernləşmə (vesternizasiya) rədd edilmiş, ictimai-siyasi sahədə İslam prinsiplərinin nəzarəti altında, iqtisadi sahədə əvvəlcə məhdud, sonra geniş şəkildə modernləşmə həyata keçirilməkdə davam etmişdir.

İnqilabdan sonra İranda yalnız Qərb, onun dəqiq, təbiət elmlərini, texnika və texnologiyasını şərtsiz mənimsəmə, inkişaf etdirmək kursu həyata keçirilirdi. İran-İraq müharibəsindən (1980-1988) sonra İranda ictimai həyatın, xüsusən onun mədəni-məişət sferasının dini normalara tabe edilməsinə qarşı müqavimət hərəkatı meydana gəlməyə başlamışdır. Başqa sözlə, müasir İranda modernləşmə və Qərb mədəniyyətinə münasibət ictimai həyatın ən aktual problemlərindən birinə çevrilmişdir.

1978-1979-cu illər İran inqilabından sonra İranda həyata keçirilmiş modernləşdirmə siyasətinə, Qərb dəyərlərinə yenidən baxılmağa, modernləşdirmədə fəal rol oynamış ictimai-siyasi elm xadimlərinin modernləşdirmə sahəsində fəaliyyətlərini yenidən, bu dəfə mənfi aspektdə qiymətləndirilməyə başlanmışdı. Həmin şəxsiyyətlər arasında Seyid Həsən Tağızadə xüsusi yer tutur. Başqa sözlə, S.H.Tağızadənin modernləşdirmə sahəsində fəaliyyəti müasir İran ictimai fikrinin aktual mövzularından birini təşkil edir.

Mövzunun aktuallığının mühüm cəhəti Şərq ölkələrində Şərq-Qərb mədəni sintezinin gğngğn aktual problemi olması ilə bağlıdır. Həmin problem Şərq-Qərb mədəniyyətlərarası ünsiyyətinin başlıca məkanlarından olan Azərbaycan üçün də aktualdır; dünya ictimaiyyəti Azərbaycanda həmin məsələnin olduqca uğurla həll edildiyini vurğulayır.

Modernləşdirmə məsələsində S.H.Tağızadənin rolunun öyrənilməsi bir tərəfdən onun yalnız Cənubi Azərbaycanı deyil, həm də müəyyən mənada Şimali Azərbaycanı təmsil etməsi, İranın hakim millətçi elita sıralarında olsa da, heç vaxt azərbaycanlı köklərini unutmayan, hakim millətçilik və şovinizmə qarşı mübarizə aparan bir siyasi və elm xadimi olması ilə, digər tərəfdən Cənubi Azərbaycanın tarixi və görkəmli şəxsiyyətlərinin həyat və fəaliyyətini öyrənməkdə yeni prinsiplərin bərqərar olması

ilə bağlıdır. Belə ki, Sovet dönəmində yalnız sol təmayüllü hərəkat və şəxsiyyətlər öyrənilir, millətin sosial strukturunun digər komponentləri ya öyrənilmir, ya da mənfi aspektlərdən nəzərdən keçirilirdi. Bununla da bütöv təsəvvür əldə olunmasına imkan yaranmırdı. Seyid Həsən Tağızadə Azərbaycan xalqının sağ təmayüllü sosial qruplarının, liberal sağ ziyalılarının nümayəndəsidir.

S.H.Tağızadə həm siyasi, həm də elmi sahədə uzun müddət fəaliyyət göstərmiş, bütün həyatı və fəaliyyəti ərzində liberal prinsipləri müdafiə etmiş ən nüfuzlu, təkcə Cənubi Azərbaycanın deyil, həm də bütün İran cəmiyyətinin nadir şəxsiyyətlərindən biridir. S.H.Tağızadənin yalnız modernləşdirmə sahəsində deyil, bütün sahələrdə fəaliyyətinin öyrənilməsi Azərbaycan xalqının, onun ziyalılarının doğru, obyektiv tarixini yazmaq, eləcə də İranda milli münasibətlərin xarakteri və mahiyyətini düzgün anlamaq baxımından çox zəruri və aktualdır.

Mövzunun aktuallığının digər bir mühüm aspekti Azərbaycan iranşünaslığında həmin məsələnin indiyə qədər öyrənilməməsidir. Belə ki, modernləşmə məsələsi İranın ictimai-siyasi, mədəni həyatı üçün aktual olaraq qalır, buna görə də modernləşmə hərəkatının görkəmli nümayəndələrindən olan S.H.Tağızadənin fəaliyyətinin öyrənilməsi xüsusi əhəmiyyət kəsb edir.

Monoqrafiya XIX əsrin sonu - XX əsrin 60-cı illərini əhatə edir. Xronoloji çərçivənin başlanğıc hüdudu, bir tərəfdən, İranda modernləşmə hərəkatının başlanğıcı, digər tərəfdən, Seyid Həsən Tağızadənin fəaliyyətinin başlıca məqamlarının formalaşdığı dövrdür. Xronoloji çərçivənin son hüdudu XX əsrin 60-cı illəri olaraq götürülmüşdür ki, bu da Seyid Həsən Tağızadənin fəaliyyətinin sonuncu mərhələsinə müvafiqir. Bu xronoloji çərçivədən İranın modernləşmə istiqamətində inkişafı, modernləşmə ilə bağlı İrandakı siyasi və ideoloji fəaliyyətin başlıca hadisələri

baş vermişdir. İranlı müəlliflərdən biri – Behnam Cəmşidin qeyd etdiyi kimi, "Əgər İranın modernləşmə istiqamətində hərəkatını bir neçə mərhələyə – başlanğıcdan 1925-ci ilədək, 1925-1940; 1940-1952; 1952-1979-cu illərə bölsək, deyə bilərik ki, S.H.Tağızadə bütün mərhələlərdə az-çox, lakin hiss ediləcək dərəcədə iştirak edib" [119, s.7]. Başqa sözlə desək, hazırki monoqrafiyanın xronoloji çərçivəsi seçilərkən, araşdırılan problemin hər iki cəhəti – həm İrandakı modernləşmə hərəkatının vacib məqamları, həm də bu modernləşmədə böyük rolu olan Seyid Həsən Tağızadənin fəaliyyət dönəmi nəzərə alınmışdır.

Qeyd edək ki, Azərbaycan Respublikasında, İranda ümumən modernləşmə hərəkatına həsr olunmuş tədqiqat işi aparılmamışdır. Bununla belə, modernləşmənin bir çox aspektləri yeni dövr İranın ictimai-iqtisadi, siyasi, mədəni həyatına həsr olunmuş tədqiqat işlərində bu və ya digər dərəcədə öz əksini tapmışdır. Araşdırdığımız mövzunun tarixşünaslıq və mənbəşünaslıq bazasının bir özəlliyi də ondan ibarətdir ki, qısa icmalını verdiyimiz ədəbiyyatın bir qismi həm tədqiqat, həm də mənbə rolunu oynayır (bu tip əsərlər əsasən İran ədəbiyyatına xasdır). Yeri gəldikcə, biz bunları xüsusi qeyd edəcəyik.

İranda ümumən modernləşmə hərəkatı tarixini araşdıran ən görkəmli alimlərin – Azərbaycan şərqşünaslarının aşağıdakı tədqiqatlarını göstərmək zəruridir: məsələn, M.İ.Şəmsin doktorluq dissertasiyası İranda maarif sferasında modernləşdirməyə həsr olunmuşdur. Dissertasiyada maarif sahəsi ilə bağlı digər sahələrdə baş verən yeniləşməyə də toxunulmuşdur [61].

Ş.Ə.Tağıyevanın əsərlərində aqrar münasibətlərdə, eləcə də kənd təsərrüfatı istehsalı sahəsində baş verən dəyişikliklər [19; 20], R.Seyidovun monoqrafiyasında sənaye, maliyyə və həmin sahələrlə bağlı olan sahibkarlar təbəqəsinin formalaşması və sənaye isteh-

salı sferasında baş verən yeniliklər geniş əksini tapmışdır [52]. Z.Z.Abdullayevin monoqrafiyasında İranda sənaye istehsalı sahəsində baş verən dəyişikliklərin özünəməxsusluğu və həmin özünəməxsusluğun işçi təbəqəsinin formalaşmasının spesifik xüsusiyyətlərini şərtləndirməsi geniş tədqiq olunmuşdur [24]. Başqa sözlə, İranda iqtisadi, o cümlədən aqrar münasibətlərdə baş verən dəyişikliklər və onların müvafiq sosial qrupların formalaşmasına təsiri, sosial strukturda baş verən dəyişikliklər ayrıca tədqiq olunmuşdur. Qeyd edilən tədqiqat əsərləri islahat və modernləşdirmə ideyalarının yerli qaynaqlarını düzgün dərk etməyə əsaslı yardım edir.

T.A.İbrahimovun monoqrafiyasında cəmiyyətdə baş verməkdə olan əsaslı dəyişikliklərin siyasi proseslərə təsiri, o cümlədən dəyişikliklərin sürətlənməsinə yönəlmiş ictimai, ictimai-siyasi birlik, cəmiyyətlər təşkil olunması geniş əks olunmuşdur [10].

H.Hatəminin monoqrafiyasında [6] İranda islahat və modernləşdirmə tərəfdarı olan ziyalıların ölkədən xaricdə ideoloji (mətbuat) fəaliyyəti öz əksini tapmışdır. N.R.Babayeva öz monoqrafiyasında [28] Cənubi Azərbaycanın və faktiki olaraq İranın modernləşdirmə ideoloqları olan maarifçilərinin ideoloji fəaliyyətini nəzərdən keçirmişdir. V.Mustafayevin monoqrafiyasında İranda, xüsusən Cənubi Azərbaycanda və azərbaycanlılar mühitində baş verən iqtisadi, siyasi, mədəni yeniləşməyə qısa şəkildə nəzər salınmışdır [14].

İranın özündə ölkənin yeniləşməsi və modernləşməsi tarixinə, problemlərinə çoxsaylı əsərlər həsr olunmuşdur [94; 95; 96; 100; 104; 110; 113; 116; 119; 129;181; 206; 213; 216]. Həmin əsərlərdə yeniləşmə və modernləşmə ideyalarını irəli sürüb, müdafiə edən görkəmli ziyalıların həyatı, bilavasitə modernləşmə və müasirləşmə məsələləri nəzərdən keçirilir.

Keçmiş Sovet (rusdilli) iranşünaslığında İranda islahat hərəkatı, modernləşmə, həmin hərəkatların özünəməxsus xüsusiyyətləri ölkənin tarixinə həsr olunmuş ümumiləşdirici əsərlərdə [26; 32; 36; 37; 39], eləcə də İranın dini, mədəni, siyasi həyatını əks etdirən əsərlərdə [25; 29; 34; 35; 49, 62], həmçinin İranın, əslində əsasən Cənubi Azərbaycanın tanınmış maarifçilərinə həsr olunmuş monoqrafiyalarda və bu mövzu geniş, lakin hakim kommunist ideologiyası prizmasından şərh olunmuşdur [44; 55; 59]. Əlavə etmək lazımdır ki, Sovet iranşünaslığında İranda "Qərbləşmə" və modernləşmə prosesləri daha geniş şəkildə əks olunmuşdur. Həmin əsərlərdə qoyulan məsələlər və əldə edilən nəticələr bir çox cəhətdən az aktuallığını saxlamaqdadır.

XIX, XX əsrlər İran tarixinin müxtəlif tərəfləri, o cümlədən islahatlar, modernləşmə prosesi ingilisdilli müəlliflər, xüsusən əslən iranlı müəlliflər tərəfindən geniş işıqlandırılmışdır [65; 66; 67; 71; 73; 75; 79; 83; 86; 90; 239].

İranda islahat və modernləşmə hərəkatının tarixinə, onun müxtəlif aspektlərinə, mərhələlərinə, nümayəndələrinə XX əsrin əvvəllərindən başlayaraq müxtəlif səpkili çoxsaylı əsərlər həsr edilmişdir. Modernləşdirmənin tarixşünaslığı XX əsrin 70-ci illərinin sonlarına kimi (1978-1979-cu illər inqilabı) əsasən müsbət məcrada davam etmişdir. XX əsrin 60-cı illərindən İranda anti-modernləşmə və əsasən anti-qərbləşmə ədəbiyyatı formalaşmağa başlayır [100]. İran inqilabından sonra İranda daha çox anti-qərbləşmə məzmunlu ədəbiyyat formalaşır [106; 123; 182; 191; 200; 201; 203; 224; 231]. Modernləşmə və qərbləşmənin obyektiv tarixinin yazılması, dəyərləndirilməsi məsələsi ilə xaricdə yaşayan liberal, demokratik və İranda mövcud rejimə qarşı müxalif mövqedə duran müəlliflər məşğul olurlar [69; 70; 72; 74; 78; 81; 82; 91; 102; 107;183; 208].

Lakin bir sıra obyektiv səbəblərdən İranda modernləşmə məsələsinə həsr olunmuş ədəbiyyatla geniş şəkildə tanış olmaq imkanı məhdud olduğundan və xaricdə meydana gəlmiş və internet saytlarında yerləşdirilmiş ədəbiyyatdan (mətndən bütöv şəkildə) istifadə etmək müəyyən şərtlərlə məhdudlaşdırıldığından onlardan lazımi şəkildə istifadə etmək də müəyyən problemlərin yaranmasına səbəb olmuşdur. Bununla belə, imkan daxilində həmin əsərlərdən istifadə etməyə səy göstərilmişdir.

Tanınmış mühacir müxalif filosof Ramin Cahanbəylinin redaktorluğu ilə nəşr olunmuş kitabın giriş hissəsində İranda XX əsrdə formalaşan modernləşmə ideologiyasında müəyyən rol oynamış M.Ə.Camalzadə, Ə.Ə.Dehxoda və M.Ə.Foruğinin həmin sahədə əsas ideyaları öz əksini tapmışdır. Burada göstərilir ki, M.Ə.Camalzadə Qərb sivilizasiyası ilə müəyyən formada qarşılıqlı əməkdaşlıq məsələsini, Ə.Ə.Dehxoda modernləşmənin ayrı-ayrı komponentlərinin seçmə üsulu ilə mənimsənilməsi, M.Ə.Foruği isə "müasir sivilizasiya" ideyasını irəli sürürdü [78].

İrana yeni Qərb mədəniyyəti – modernləşmə ideyalarının nüfuz etməsi, ilk İran modernləşmə ideoloqlarının həyat və fəaliyyətinə həsr olunmuş, eləcə də onların həmin məsələ ilə bağlı bəzi materialın və yazılarından parçalar yerləşdirilmiş yazının (saytın) girişində modernləşmənin tarixinə, həyata keçirilən bəzi tədbirlərə, irəli sürülən ideyalara qısa nəzər salınır və belə bir nəticəyə gəlinir: "İllər keçəndən sonra İran cəmiyyətində müzakirə olunan siyasi və ideoloji məsələlərin çoxu böyük səylər göstərilməsinə baxmayaraq, yenə də həmin şəkildə qalmaqdadır. Qoyulmuş suallara verilən cavablar heç vaxt aydın nəticə verməmişdir" [63].

İranda modernləşmə hərəkatının tarixi, onun ilk mərhələsi (1905-1911-ci illər inqilabı) və bir sıra xüsusiyyətləri S.H.Tağızadənin bir çox yazılarında, çıxışlarında kifayət qədər obyektiv, ardıcıl, nisbətən sxematik şəkildə əks olunmuşdur [147; 149; 160;

174]. S.H.Tağızadə XX əsrin 50-60-cı illərindəki çıxışlarında İranın həqiqi mənada modernləşmə səviyyəsinə yüksəlməsi üçün çox mərhələlər keçməli olduğunu vurğulamışdır [135, s. 426]. S.H.Tağızadənin məsələlərə obyektiv, elmi, hərtərəfli yanaşma tərzini nəzərə alaraq onun çıxışları və yazılarını İranda modernləşmə prosesinin tarixi və vəziyyətini öyrənmək üçün mühüm mənbələrdən biri hesab etmək olar.

Yuxarıda göstərilən ədəbiyyata baxmayaraq, Azərbaycan Respublikasında, keçmiş SSRİ və müasir Rusiya iranşünaslığında S.H.Tağızadənin, nəinki modernləşmə sahəsində fəaliyyətinə, onun bütövlükdə siyasi, elmi, ictimai, mədəni fəaliyyətinə dair heç bir tədqiqat işi aparılmamışdır. İranda isə S.H.Tağızadənin həyat və fəaliyyətinə dair çoxsaylı nəşrlər, bioqrafik səpkili məqalələr, bir sıra kitablar həsr edilmişdir. S.H.Tağızadənin həyat və fəaliyyəti haqqında ilk kitab 1943-cü ildə yazılmışdır [216]. Kitabda S.H.Tağızadənin fəaliyyəti onun bioqrafiyası fonunda əks etdirilir və yüksək dəyərləndirilir.

Bir qədər sonra S.H.Tağızadənin özü tərəfindən yazılmış bioqrafiyası XX əsr Cənubi Azərbaycanın görkəmli şəxsiyyətləri haqqında yazılmış kitabda çap olunmuşdur [213]. Bu əsər də bizim üçün həm nəzəri əhəmiyyət kəsb edir, həm də araşdırmanın mənbə bazasını təşkil edir.

XX əsrin 60-cı illərində S.H.Tağızadə haqqında müxtəlif jurnallarda çoxsaylı yazılar dərc edilmiş, onun siyasi, ictimai, elmi fəaliyyəti, şəxsi keyfiyyətləri yüksək qiymətləndirilmişdir. İranda nəşr olunan “Rahnəmaye ketab” jurnalının saylarından biri S.H.Tağızadənin vəfatı ilə bağlı onun haqqında yazılmış məqalə və xatirələrə həsr olunmuşdur [111; 130; 192; 193; 214; 222; 234; 236; 237]. Bu xatirələr hazırki monoqrafiyanın yazılmasında istifadə olunan əhəmiyyətli mənbələrdəndir.

İranın XIX əsrin sonlarından XX əsrin son rübünə qədərki tarixinə, xüsusən siyasi, beynəlxalq münasibətlər, mədəni hadisələrinə həsr olunmuş əsərlərdə S.H.Tağızadənin fəaliyyətinin bu və ya digər cəhəti öz əksini tapmışdır. Bunlara misal olaraq Əhməd Kəsrəvinin [206], Firudin Adəmiyyətin [95], Turac Atabəyinin [4], İrəc Əfşarın [236], doktor Hüseyn Ərdəkaninin [108] əsərləri və yazılarını göstərmək olar.

İran İslam inqilabından sonra S.H.Tağızadənin həyat və fəaliyyəti diqqəti cəlb etməkdə davam etmiş və bu, ona həsr olunmuş müxtəlif səpkili yazıların və əsərlərin artmasına səbəb olmuşdur. Bu ədəbiyyatda artıq Tağızadəyə münasibət birmənalı müsbət deyildir. Bu baxımdan inqilabdan sonra S.H.Tağızadə haqqında yazılan yazıları iki qrupa ayırmaq olar: İran İslam Respublikasının hakim ideologiyası mövqeyindən yazılan yazılar və əsasən S.H.Tağızadənin fəaliyyətinin "mənfi" anti-dini, dünyəvi, "anti-milli" cəhətlərini əks etdirən əsərlər. Onun fəaliyyətini obyektiv, müsbət, modernləşmə mövqeyindən əks etdirən yazılar xaricdə meydana gəlmiş və gəlməkdədir. S.H.Tağızadə haqqında inqilabdan əvvəl və sonra çoxsaylı yazıların meydana gəlməsinə baxmayaraq, uzun müddət onun fəaliyyəti elmi araşdırmaların obyektinə çevrilməmişdir. Bizə məlum olduğuna görə, S.H.Tağızadənin həyat və fəaliyyətinə indiyə kimi iki magistr işi həsr olunmuşdur. Bunlardan birincisi 1998-ci ildə Hollandiyanın Utrext Universitetində yerinə yetirilmişdir [88] və S.H.Tağızadənin 1906-1918-ci illəri əhatə edən fəaliyyətini modernləşmə kontekstində araşdırır. İkinci magistr işi Tehran Universitetində 2009-cu ildə yerinə yetirilmişdir [229]. Magistr dissertasiyanın internet versiyasının girişi ilə (15 səh.) tanış olmağa icazə verilir və yazının girişində məsələnin öyrənilməsi dərəcəsindən danışarkən tədqiqatçı S.H.Tağızadə haqqında yazılmış kitabdan [106] bəhs edən

məlumatın kifayət qədər mənbə bazasına malik olmadığını qeyd edir və kitabın müəllifinin birtərəfli mövqeyini tənqid edir.

1978-1979-cu illər inqilabından sonra sosial-mədəni, mənəvi həyatda İslam dini norma və dəyərlərinin bərqərar olunmasına ciddi səy göstərən teokratik rejim həmin sferaya Qərb təsirinin qarşısını almaq üçün geniş, ideoloji fəaliyyət göstərməyə başladı. Həmin fəaliyyət “Qərbin mədəni hücumundan müdafiə” şüarı ilə aparılırdı.

Qeyd etmək lazımdır ki, 1978-1979-cu illər inqilabından sonra sosial-mədəni, mənəvi həyatda islam dini norma və dəyərlərinin bərqərar olunmasına ciddi səy göstərən teokratik rejim həmin sferaya Qərb təsirinin qarşısını almaq üçün geniş, ideoloji fəaliyyət göstərməyə başladı. Həmin fəaliyyət “Qərbin mədəni hücumundan müdafiə” şüarı ilə aparılırdı. Hakim rejim mədəni sferada “müdafiə”ni gücləndirmək üçün inqilabdan əvvəl aparılmış modernləşdirmə siyasətinin, modernləşmə ideoloqlarının və tanınmış nümayəndələrinin tənqidinə, modernləşdirməyə qarşı ideoloji mübarizəyə xüsusi əhəmiyyət verir. Yeniləşmə, modernləşmə xadimlərini nüfuzdan salmaq üçün ideoloji sferada iki istiqamətdə iş aparılır. Həmin cərəyanın siyasi, ictimai, mədəniyyət xadimlərinin Qərbin əlaltısı olduğunu və onların milli-dini dəyərlərə xəyanət etdiklərini əsaslandırmağa çalışılır. Həmin xadimlər əsasən din-siyasət dixotomiyasına münasibət prizmasından dəyərləndirilir. Onlar dinin siyasətdən ayrılması ideologiyasının yaradıcıları, fəal siyasi tərəfdarları və Qərb dövlətlərinin “əlaltıları” olmaqda və ya siyasi, ictimai, mədəni komprodorluqda ittiham edilirlər.

Hazırda İran İslam Respublikasının lideri yanında fəaliyyət göstərən Mədəniyyət müəssisəsi tərəfindən modernləşdirmə ideoloqları və praktiklərinə həsr olunmuş seriya nəşr etdirilir. “Qərb mədəni təcavüzündən asılı ziyalıların rolu” seriyasından olan

kitablardan birincisi İran modernləşdirməsinin ilk ideoloqlarından olan Mirzə Mülküm xana, ikinci kitab Məhəmməd Əli Foruğiyə, üçüncü kitab Mirzə Fətəli Axundzadəyə həsr olunmuşdur. Dördüncü kitab [123] modernləşdirmə ideoloqları və praktikləri arasında xüsusi yer tutan, “qərbçiliyin peyğəmbəri” hesab edilən S.H.Tağızadəyə həsr olunmuşdur.

Kitabın girişində tərtibçilərin əsas diqqətinin qərbpərəst ziyalıların formalaşmasının mənəvi-psixoloji əsasına və həmin prosesə təsir edən amilləri müəyyən etməyə yönəltmələri qeyd edilir [123, s. 7]. Qərbpərəstlik anlayışını ötəri və qısa şəkildə müəyyən edən tərtibçilər Qərbdə siyasi sistemin təşkilinin hakim prinsipi olan dinin siyasətdən ayrılması ideyasını irəli sürən, bu və ya digər şəkildə dəstəkləyən ziyalıları qərbpərəst elan edirlər. Bu əsas prinsipdən əlavə, qərbpərəstlik etiqadsızlıq, guya, bundan irəli gələn mənəviyyatsızlıq kimi də dəyərləndirilir [123, s. 12, 17].

Kitabda, həmçinin S.H.Tağızadə İngiltərəyə xidmət etməkdə və Mason lojasının üzvü olmaqda günahlandırılır [123, s. 154, 199]. Göründüyü kimi, tərtibçilər mövcud siyasi sistemin və hakim ruhani təbəqənin maraqlarından çıxış edərək Qərb mədəniyyətinin və ya modernləşdirmənin siyasi aspektinin yalnız bir ünsürünü - dinin siyasətdən ayrılmasını əsas meyar hesab edərək S.H.Tağızadənin siyasi, ictimai, mədəni, elmi fəaliyyətini dəyərləndirməyə çalışırlar.

Yuxarıda qeyd edildiyi kimi, modernləşdirmə ictimai həyatın bütün sferalarının yeniləşməsi mənasında başa düşülsə də, İran İslam Respublikasında İslam dini prinsipləri və normalarının hakim mövqeyi şəraitində ictimai həyatın əsas sferaları Qərb prinsipləri və normalarına uyğun fəaliyyət göstərdiyindən yalnız dinin siyasətdən ayrılması, mədəni-məişət məsələlərinə münasibət qərbpərəstlik prizmasından dəyərləndirilir. Ona görə,

S.H.Tağızadənin ümumi təhsilin genişləndirilməsi, ümumi savadlılığın yüksəldilməsi, Qərb elmi metodologiyasına əsaslanan elmi fəaliyyəti qərbpərəstlik kimi qiymətləndirilmir. Deməli, S.H.Tağızadənin ictimai, siyasi, elmi fəaliyyəti ifrat ideoloji prizmadan və məhdud çərçivədə dəyərləndirilir.

Kitab ayrı-ayrı müəlliflər tərəfindən yazıldığından və sonra bir-biri ilə müqayisə edilmədiyindən təkrarlara və səhvlərə yol verilmişdir. Məsələn, kitabda S.H.Tağızadənin 1904-cü ildə xaricə ilk səfərindən danışılarkən onun Tiflisdə 1 ay qaldığı [123, s. 25] göstərilsə də, başqa bir yerdə S.H.Tağızadənin Tiflisə bir neçə səfər etdiyi və bütövlükdə 2 il orada qaldığı göstərilir [123, s. 47-48]. Kitabda bir yerdə S.H.Tağızadənin VI çağırış İran parlamentinə deputat seçilmədiyi [123, s. 34], digər yerdə onun VI Məclisin üzvü olduğu [123, s. 175] qeyd olunur. Kitabda belə səhvlərə tez-tez rast gəlinir.

Bununla yanaşı, kitabda S.H.Tağızadənin xatirələrində, onun çoxsaylı bioqrafiyalarında qeyd olunmamış bir sıra faktlar yer almışdır. Kitabda, həmçinin tənqid məqsədi ilə də olsa, S.H.Tağızadənin fəaliyyətinin bəzi cəhətləri nisbətən geniş işıqlandırılmışdır. Məsələn, kitabda qeyd edilir ki, S.H.Tağızadə "Demokrat Partiyasını demokratiya, liberalizim və tərəqqinin əsası" hesab edirdi [123, s. 146]. Kitabda modernləşmə və vesternləşmənin hazırki İran rejimi üçün qəbuledilməz əsas prinsip və dəyərləri - dinin siyasətdən ayrılması, ruhanilərin siyasətdən kənar edilməsi, əxlaqi dəyərlər sahəsində plüralizm, öz əksini tapmışdır [123, s. 9]. Kitabda Qərb təhsilli ziyalılar İslam dininin dini prinsip, norma və dəyərlərinin, ruhanilərin, deməli, mövcud siyasi rejimin düşməni elan olunurlar. Seriyanın məqsədi bir daha belə ziyalıların əl-qol açmasına, Qərb siyasətinə yardım etmələrinə imkan verməməkdir [123, s. 209].

Bütövlükdə, kitab tərtibçilərin öz qarşılarına qoyduğu məqsədə baxmayaraq, S.H.Tağızadəni İran cəmiyyətinə tanıtmaq baxımından mühüm vasitə kimi dəyərləndirilə bilər.

S.H.Tağızadə haqqında yazılmış ikinci kitab İran İslam Respublikası Təhlükəsizlik Nazirliyi Tarixi Sənədləri Araşdırma Mərkəzində hazırlanmışdır. Kitab 1941-1961-ci illərə aid SAVAK-ın S.H.Tağızadə ilə bağlı sənədlər toplusundan ibarətdir və istifadə etdiyimiz mənbələr içərisində xüsusi yer tutur. Kitabın tərtib edilməsində əsas məqsəd S.H.Tağızadənin Mason lojasının üzvü olduğunu [182, s. 9] və İngiltərəyə xidmət etdiyini [182, s. 14, 16, 17] sənədlər əsasında sübut etmək olsa da, ittihamın birinci bəndinə aid heç bir sənəd dərc edilməmişdir.

Topluda S.H.Tağızadənin həyat və fəaliyyəti qısa və sxematik şəkildə verilmiş və onun fəaliyyəti yuxarıda qeyd edilən mövqedən dəyərləndirilmişdir. Kitabda S.H.Tağızadənin bioqrafiyası, şəxsi-uçot vərəqindəki qeydlər dəfələrlə əks olunmuş, bundan əlavə onun ictimai, siyasi, pedaqoji və s. fəaliyyəti ilə bağlı çoxlu sayda hesabat, raport, mülahizə, iqtibaslar verilmişdir.

Kitabın əsas xüsusiyyətlərindən biri də sənədlərdə adları çəkilən şəxslər və təşkilatlar haqqında ətraflı məlumatın verilməsidir. Sənədlərdə 1957-ci ilə qədər S.H.Tağızadəyə simpatiya, bundan sonra isə tənqidi münasibət öz əksini tapmışdır. Kitab faktiki olaraq sənədli informasiya mənbəyi kimi istifadə edilə bilər. Həmin kitabda S.H.Tağızadəyə həsr olunmuş digər yazılarda rast gəlinməyən bir sıra maraqlı faktlar qeyd olunmuşdur.

Kitabda S.H.Tağızadənin qədim və yeni elmlərə dərindən yiyələndiyi [182, s. 54], alman, fransız, ingilis, ərəb, rus, türk dillərini bildiyi göstərilir [182, s. 54]. S.H.Tağızadənin 1929-cu ildə nəşrə başlayan "Təqəddüm" jurnalının naşirlərindən biri olduğu [182, s. 43], partiya-siyasi fəaliyyəti haqqında məlumatlar [182, s. 39] və s.

qeyd olunmuşdur. Haqqında danışılan hər iki kitab qarşıya qoyulan məqsəddən asılı olmayaraq S.H.Tağızadənin təbliği üçün mühüm əhəmiyyətə malikdir. Tənqidi baxımdan olsa da, S.H.Tağızadənin azadlıq, liberalizm, dinin siyasətdən ayrılması və s. haqqında baxışlarının geniş şəkildə əks və şərh olunması onun fəaliyyətinin mütərəqqi xarakter daşıması baxımından ən yaxşı dəlildir.

Mövcud rejim öz ideoloji düşməninə son zərbə vurmaq istəsə də, obyektiv olaraq onun daha yaxından tanınması və rəğbət qazanmasına zəmin yaratmışdır.

İran İslam Respublikasında dövlət xətti ilə Siyasi Araşdırmalar Mərkəzində hazırlanmış, ilk iri həcmli kitabın rekvizitləri ilə internetdə tanış olmaq mümkündür [106]. Kitabla tanışlıq zamanı məlum olur ki, onun müəllifi əsas diqqəti S.H.Tağızadənin "qərbpərəst", "Mason", "İngilis agenti" olmasını göstərməyə yönəltmişdir. Yuxarıda qeyd edildiyi kimi [229], kitab "tamamilə birtərəfli və qərəzli" mövqedən yazılmışdır.

Qeyd edildiyi kimi, mühacir müxalif iranlı müəlliflər S.H.Tağızadənin həyat və fəaliyyəti haqqında obyektiv yazılarla çıxış etməyə üstünlük verirlər. Xaricdə (ABŞ-Vaşinqton) nəşr olunan "İranname" jurnalının xüsusi buraxılışı Seyid Həsən Tağızadənin fəaliyyətinin müxtəlif sahələrinə, o cümlədən siyasi modernləşdirmə, Almaniyadakı fəaliyyətinə (1915-1918) həsr olunmuşdur [117; 118; 120; 204; 217; 235].

Toplunun müəlliflərindən biri C.Behnam S.H.Tağızadənin modernləşmə fəaliyyətinə əsasən, "Kave" jurnalının ikinci dövrünün birinci (1920, №36) nömrəsində çap olunmuş məşhur vesternləşməyə çağırış haqqında qısa yazısını nəzərdən keçirərək, onun birinci mərhələdə modernləşmə praktikası ilə, sonralar modernləşmə ideologiyasının yaradılması ilə məşğul olduğunu qeyd edir [120, s. 58].

Toplunun digər müəllifi tanınmış mühacir iranlı alim M.Ə.H.Katozyan S.H.Tağızadənin fəaliyyətinin siyasi aspektlərini nəzərdən keçirərək, həmin fəaliyyəti üç mərhələyə ayırır. Müəllifin fikrincə, 1911-ci ilə qədərki dövrü əhatə edən birinci mərhələdə S.H.Tağızadə inqilabçı, 1911-1934-cü illəri əhatə edən ikinci mərhələdə mülayim islahatçı, 1934-cü ildən sonrakı dövrü əhatə edən üçüncü mərhələdə idealları kənara qoymuş bir siyasətçi kimi çıxış edir [204, s. 13, 19, 20, 23]. Müəllif belə hesab edir ki, S.H.Tağızadə əvvəldən mütərəqqi siyasi şüura malik idi, sonralar onun siyasi şüuru daha da inkişaf edərək, o dərəcəyə çatdı ki, heç kim tərəfindən anlaşılmadı [204, s. 24].

S.H.Tağızadənin modernləşdirmə sahəsində fəaliyyəti haqqında məlumata, həmçinin İranda modernləşdirməyə həsr olunmuş müxtəlif yazılarda rast gəlinir. Həmin yazılarda S.H.Tağızadənin modernləşdirmə sahəsində fəaliyyəti çox qısa şəkildə əks olunur. "İranda liberalizm" adlı yazıda qeyd edilir ki, S.H.Tağızadə, M.Ə.Camalzadə və M.Ə.Foruği XX əsrin əvvəllərində fərqli modernləşdirmə (liberalizm) konsepsiyaları irəli sürmüşlər [84].

Hazırki tədiqatın mənbə bazası kifayət qədər materialı ehtiva edir və biz onların əksəriyyətini nəzərdən keçirdik. Qeyd edək ki, Seyid Həsən Tağızadənin çoxcəhətli fəaliyyəti təkcə sənədlərdə, müxtəlif səpkili, rəsmi yazılarda deyil, eləcə də onun fərqli yerlərdə çıxışlarında, müxtəlif mövzulu yazılarında geniş əks olunmuşdur. Onun elmi, ədəbi, publisistik, epiqrafik (məktubları) və s. irsi müəllifin 15 cildliyində toplanmışdır. Bunların arasında avtobioqrafik xarakterli xatirələri [150] xüsusi yer tutur. S.H.Tağızadə haqqında tədqiqat işləri, tərtib edilən bioqrafiyalar, fəaliyyətinin əsas sahələri və mərhələlərini əks etdirən yazılar, əsasən həmin xatirələrə əsaslanır.

S.H.Tağızadənin xatirələri onun bioqrafiyasını hazırlayanların tədqiqatlarında əsas mənbə funksiyasını yerinə yetirir və xatirələrdə əks edilən tarixi hadisələr haqqında verilən məlumatlar obyektiv xarakter daşıdığından ilkin mənbə kimi istifadə edilə bilər.

S.H.Tağızadənin çoxcildlik elmi, elmi-publisistik, siyasi-ideoloji irsinin müəyyən hissəsi monoqrafiyanın əsas mənbə və ədəbiyyat bazasını təşkil edir. Tədqiqat işinin S.H.Tağızadənin modernləşmə ideologiyası sahəsində fəaliyyəti ilə bağlı hissəsi onun yazıları, çap olunmuş çıxışlarının mətnləri əsasında yazılmışdır.

Nəhayət, bir cəhətə xüsusi diqqət yetirilməlidir. Belə ki, İran İslam Respublikasının rəsmi ideoloqları və tərəfdarlarının, İran siyasi rejiminə müxalif, mühacir və əsasən obyektiv mövqe tutan müəlliflərin yazılarında S.H.Tağızadənin fəaliyyətinin əks cəhətləri işıqlandırılır və bir-birinə zidd mövqedən dəyərləndirilir. Bu da həqiqətin aşkar edilməsinə yardım edir.

Hazırki monoqrafiyanın əsas məqsədi – XIX əsrin II yarısından və XX əsrin son rübünə qədər İranda baş verən ictimai-siyasi, sosial-iqtisadi proseslərin gedişində ölkənin müasirləşdirilməsi istiqamətində atılmış addımları, bu sahədə tanınmış ictimai-siyasi xadimlərdən və ziyalılardan biri olan Seyid Həsən Tağızadənin, İranın modernləşdirilməsində rolunu və yerini müəyyənləşdirməkdən, bunlara aydınlıq gətirməkdən ibarətdir. Qeyd olunan məqsədi nəzərə alaraq, monoqrafiyada aşağıdakı vəzifələr qarşıya qoyulmuşdur:

- XIX əsrin II yarısında İranda siyasi, sosial-iqtisadi vəziyyətin təhlili əsasında ölkədə modernləşmə prosesini tarix elminin son nailiyyətləri və qaynaqları əsasında tədqiq etmək;
- İranda modernləşmə hərəkatının yaranması və bu ideyaların formalaşması prosesini, islahat cəhdlərini tədqiq edərək onların mahiyyətini açmaq;

- İranda modernizm ideyalarının ilk ideoloqlarının fəaliyyətini araşdırmaq;

- S.H.Tağızadənin ictimai-siyasi görüşlərini nəzərdən keçirərək, onun ictimai-siyasi xadim kimi formalaşması prosesini izləmək;

- İranın daxili və xarici vəziyyəti zəminində ölkənin siyasi və iqtisadi müstəqilliyi ilə əlaqədar S.H.Tağızadənin fəaliyyətinin obyektiv işıqlandırmaq;

- İran xalqının mədəni tərəqqisi işində S.H.Tağızadənin elmi-ədəbi fəaliyyətini qiymətləndirmək;

- İranda modernləşmə prosesində əsas S.H.Tağızadənin yerini və rolunu göstərmək.

Monoqrafiyada Azərbaycan tarixşünaslığında və şərqşünaslıq elmində ilk dəfə olaraq XIX əsrin II yarısı, XX əsrin son rübünə qədər İranda modernləşdirmə uğrunda hərəkat, modernləşdirmə cərəyanları, ölkənin modernləşdirilməsində Azərbaycan ziyalısı Seyid Həsən Tağızadənin rolu xüsusi tədqiqat obyekti olmuşdur. Bu məqsədlə ilk dəfə olaraq, İranda son zamanlar çapdan çıxmış sənədli materiallar və monoqrafiyalar Azərbaycan şərqşünaslıq və tarix elmində elmi dövriyyəyə gətirilmişdir.

Monoqrafiyanın mühüm yeniliyindən biri S.H.Tağızadənin Məşrutə hərəkatı dövründəki fəaliyyətinə aydınlıq gətirmək, onun mühacirət dövründə xarici ölkələrdə göstərdiyi fəaliyyəti izləmək olmuşdur. Həmçinin bu prosesdə Azərbaycanın bir sıra ictimai-siyasi xadimləri (məsələn, M.Ə.Talıblı, M.Ə.Rəsulzadə və b.) ilə əlaqələrinin üzə çıxarılması və araşdırılması da işin elmi dəyərini artırır. Monoqrafiyadakı mühüm yeniliklərdən biri də S.H.Tağızadənin elmi-pedaqoji, ədəbi, naşirlik fəaliyyətinə aydınlıq gətirilməsi, onların ilkin qaynaqlar əsasında öyrənilməsi olmuşdur.

# I FƏSİL

# XIX-XX ƏSRİN ƏVVƏLLƏRİNDƏ İRANDA İLK MODERNLƏŞDİRMƏ CƏHDLƏRİ VƏ MODERNLƏŞMƏ İDEOLOGİYASININ MEYDANA GƏLMƏSİ

## XIX - XX əsrin əvvəllərində İranda sosial-iqtisadi, siyasi və mədəni vəziyyət

XIX əsrdən İranda başlayan siyasi proseslər bir-biri ilə qlobal və regional üstünlük uğrunda mübarizə aparan Fransa, İngiltərə və Rusiyanın bu ölkəni öz xarici siyasət orbitinə cəlb etməyə yönəlmiş siyasətləri ilə müəyyən olunur. Belə ki, XIX əsrin əvvəllərində İngiltərə Fransanın və Rusiyanın İran ərazisindən keçməklə Hindistana doğru hərəkətinin qarşısını almaq üçün İranda bir qədər əvvəl hakimiyyətə gəlmiş Qacarlar sülaləsi (1794-1925) ilə diplomatik əlaqələr qurur, bu məqsədlə də İranla müqavilə imzalayır (1801). Lakin ingilis hakim dairələri artıq Cənubi Qafqazı işğal etməyə başlayan Rusiyaya qarşı müharibəyə girməli olan İrana heç bir yardım göstərmir. Bundan narazı qalan İran hakimiyyəti Rusiya ilə Fransa münasibətlərində yaranan gərginlikdən istifadə etməyə çalışaraq Fransa ilə müqavilə (1807) imzalayır. Lakin İrana hərtərəfli yardım vəd edən və İran ordusunu yenidən qurmağa başlayan Fransa elə həmin il Rusiya ilə münasibətlərini qaydaya saldığından İrana marağını itirir və bu ölkədəki ordu quruculuğuna yardımını dayandırır. Rusiya ilə müharibə aparan İran İngiltərənin siyasi münasibətləri bərqərar etmək cəhdlərinə müsbət cavab verir və həmin ölkə ilə ilkin (1809) və əsas müqavilə (1814) imzalayır. İlkin müqaviləyə əsasən, İngiltərə İrana maliyyə yardımı göstərməkdən və silah-sursatla təchiz etməkdən əlavə, fransızların başladıqları ordu

quruculuğunu davam etdirmək öhdəliyini götürür. Lakin məlum olduğu kimi, İran 1804-1813-cü illərdə Rusiya ilə apardığı müharibədə məğlub olaraq imzaladığı Gülüstan sülh müqaviləsinə əsasən, Cənubi Qafqaza olan iddialarının böyük qismindən imtina etməli olur.

Məğlubiyyətlə barışmaq istəməyən İran İngiltərənin maliyyə yardımı və yeni yaradılmış Cənubi Azərbaycan ordusunun köməyi ilə 1826-1828-ci illərdə Cənubi Qafqaz uğrunda Rusiya ilə yeni hərbi əməliyyatlara başlayır, lakin ağır məğlubiyyətə uğrayır. İran dövlətinin varlığı üçün yaranan təhlükə İngiltərənin diplomatik səyləri nəticəsində aradan qaldırılsa da, 1828-ci ildə İran və Rusiya arasında imzalanan Türkmənçay sülh müqaviləsinə əsasən, İran Cənubi Qafqaza tək nəzarət iddiasından həmişəlik əl çəkməli olur. Rusiya ilə müharibə İran dövləti və cəmiyyətinin Avropanın inkişaf etmiş ölkələrindən, Rusiyanın ordusu və hərbi texnikasından çox geri qaldığını üzə çıxarmaqla yanaşı, eyni zamanda İranın Avropa dövlətləri ilə qeyri-bərabər müqavilələr imzalamasının başlanğıcını qoyur. Müharibədə qalib gəlmiş Rusiya Cənubi Qafqazı işğal etməklə kifayətlənməyərək, həm də İranın daxili işlərinə qarışmaq üçün hüquqi əsas (Maddə 6 - vəliəhdin hakimiyyətə gəlməsinə yardım göstərmək hüququ) [189, s. 3] əldə edir.

Rusiya hələ 1813-cü ildə Gülüstan sülh müqaviləsinin maddələrində kapitulyasiya rejimi şərtlərini təsbit etsə də, İranla geniş ticarət əlaqələri qurmaq və rus tacirləri üçün əlverişli şərait yaratmaq məqsədilə 1828-ci ildə Türkmənçay sülh müqaviləsi ilə paralel olaraq, sülh müqaviləsi kimi hüquqi qüvvəsi olan ayrıca bir Ticarət müqaviləsi bağlayır. Bu traktatda Gülüstan sülh müqaviləsinin ticarət haqqında maddələri təkrar olunurdu və ruslara kapituliyasiya hüquqları verilməsi təmin olunurdu. İran qanunları və adəti xaricilərə daşınmaz əmlakı satın almağı, icarəyə götürməyi qadağan etsə də, traktatın 5-ci maddəsinə əsasən ruslara yaşayış və anbar üçün bina kirayəyə götürməyə və satın almağa icazə verilirdi. Traktatın 9-cu

maddəsi xüsusi olaraq nəzərdə tuturdu ki, İran Əyalət və Vilayət hakimləri müqavilənin şərtlərinə əməl etmədikdə tutduqları vəzifədən kənar edilməlidirlər [168, s. 403-404; 36, s. 141].

Kapitulyasiya rejiminin vacib iqtisadi şərti – idxal olunan mallardan dəyərinin 5%-i həcmində gömrük rüsumu müəyyən olunması və xarici tacirlərin daxili gömrük və digər rüsumlardan azad olunması idi. 1828-ci il Ticarət müqaviləsinə əsasən, Rusiya tacirləri sərbəst şəkildə İrana gələ bilər, ölkənin istənilən yerində ticarətlə məşğul ola bilərdilər [168, s. 399; 36, s. 135]. Xarici tacirlərin daxili rüsumlardan azad edilməsi İran ərazisində yerli tacirləri onlarla müqayisədə qeyri-bərabər vəziyyətə salırdı. İranlı tacirlər başqa ölkələrdə xarici tacirlərlə bərabər hüquqlara malik olsalar da, öz ölkələrində daha aşağı hüquqlara malik idilər.

Qeyd edək ki, müqavilənin İran üçün mənfi nəticələri özünü dərhal göstərə bilməzdi. Üstəlik, İranın xarici ticarəti zəif idi və 1837-ci ilə qədər iranlı tacirlərin əlində qalmışdı. Lakin yerli tacirlərin bəzi səbəblərdən maliyyə şərtlərini yerinə yetirə bilməmələri 1837-ci ildə İranın xarici ticarətinin əcnəbilərin əlinə keçməsinə səbəb oldu. Xarici ticarətdən xeyli sıxışdırılan iranlı tacirlərin avropalılarla rəqabət aparmaq imkanları da xeyli məhdudlaşdı [36, s. 153].

Rusiya ilə müharibədən sonra İngiltərə İranın əsas müttəfiqi və iqtisadi-ticarət tərəfdaşı olsa da Rusiya tədricən İranla münasibətlərini bərpa edərək öz mövqeyini möhkəmləndirməyə başlayır. Rusiyanın İrana yeni səfiri gəldikdən (1832) sonra İngiltərə ilə rəqabət mübarizəsi yeni mərhələyə qədəm qoyur. Tərəflər bir-birinin İranda mövqeyinin möhkəmlənməsinə və bundan irəli gələn perspektiv məqsədlərin həyata keçirilməsinə mane olmağa çalışırlar. Həmin mübarizənin ilk nəticəsi özünü artıq 1837-ci ildə göstərdi. Belə ki, Məhəmməd şah (1834-1848) hələ atası Abbas Mirzə ilə başladıqları (1833) və Abbas Mirzənin ölümü ilə yarımçıq qalmış Herat xanlığını İrana tabe etmək siyasətini davam etdirərək 1837-ci

ildə Herat səfərinə başladı. İngiltərənin etirazına baxmayaraq, 1837-ci ilin noyabrında Heratı mühasirəyə alsa da, keçmiş müttəfiqinin hərbi təcavüz təhdidi altında mühasirəni qaldıraraq qoşunları geri çəkməli oldu (1838, avqust). Herat səfərinin başlanması ilə İngiltərə İran ordusunda olan hərbi müşavir və təlimatçılarını geri çağırır və bununla da iki ölkə arasındakı hərbi əməkdaşlıq başa çatır.

Herat hadisələrinin yekunu Rusiyanın uğuru idi; üstəlik, Herat səfəri İngiltərənin İranla diplomatik əlaqələrinin kəsilməsinə səbəb oldu. İngiltərə-İran diplomatik əlaqələri yalnız 1841-ci ildə bərpa olundu: İngiltərə diplomatik əlaqələri bərpa etməklə yanaşı, İranla ticarət sazişi bağlayaraq, Rusiyaya verilən kapitulyasiya rejimi hüquqlarında nəzərdə tutulan imtiyazlar aldı [36, s. 151; 154, s. 777-778].

Herat xanlığını özünə tabe etmək məqsədindən imtina etməyən İran İngiltərənin təzyiqlərinə baxmayaraq, 1853-cü ildə başlanan "Şərq müharibəsi"ndən (Osmanlı-Rusiya müharibəsində İngiltərə və Fransa Osmanlı Türkiyəsinin müttəfiqi kimi iştirak edirdilər) istifadə edərək, 1856-cı ildə növbəti dəfə Herata hərbi səfərə başladı. İran silahlı qüvvələri Herat şəhərini asanlıqla ələ keçirsələr də (1856), İngiltərənin İrana müharibə elan etməsi və ölkənin cənubunu işğal etməyə başlaması ilə Nəsrəddin şah Herat şəhərini boşaldaraq, qoşunlarını geri çəkməyə məcbur oldu. 1857-ci ildə bağlanan sülh müqaviləsi ilə İran Herata olan iddialarından həmişəlik əl çəkməli oldu. İkinci Herat kampaniyası (1856) İranın Avropa dövlətlərinə (dəqiq desək, Avropanın Şərqdəki iddialarına) qarşı son açıq silahlı çıxışı idi.

Bundan sonra İrana xarici kapitalın "dinc" nüfuzu mərhələsi başlanır. Başqa sözlə, İrana kapital ixracı və İrandan xammal idxalı genişlənməyə başlayır. İranın ingilislər tərəfindən "ram"edilməsindən sonra Avropa ölkələrinin həmin ölkəyə siyasi, iqtisadi maraqları artır. İranla diplomatik və siyasi əlaqələr yaradan Avropa ölkələri, ilk növbədə iqtisadi maraqlarını təmin etmək üçün ticarət sazişləri də bağlayaraq kapituliyasiya hüquqları əldə edirlər. Belə ki, 1855-ci ildə

Fransa, 1856-cı ildə ABŞ, 1857-ci ildə İngiltərə (təkrarən), Avstriya-Macarıstan, Belçika, İsveç, Norveç və Danimarka, 1861-ci ildə Yunanıstan, 1862-ci ildə İtaliya, 1873-cü ildə Almaniya və İsveçrə İranda kapituliyasiya hüquqları qazanırlar [29, s. 497].

Avropa ölkələrinin İran ilə iqtisadi-ticarət əlaqələri 1869-cu ildə Süveyş kanalının istifadəyə verilməsi nəticəsində sürətlə genişlənməyə başladı. Bu, özünü ilk növbədə İran körfəzi və Karun çayında ticarət gəmiçiliyinin sürətlə inkişaf etməsində göstərmişdi [52, s. 33]. İran Rusiya və İngiltərədən başqa, Fransa, Almaniya, İtaliya, Türkiyə, ABŞ və s. ölkələrlə geniş ticarət əlaqələri qururdu [165, s. 89].

Bununla belə, İranın əsas ticarət tərəfdaşları İngiltərə və Rusiya idi. İngiltərə İranla Fars körfəzi vasitəsilə, Rusiya isə Cənubi Azərbaycan vasitəsilə iqtisadi-ticarət əlaqələrini genişləndirirdi. Əvvəllər İranın xarici ticarətində İngiltərə aparıcı mövqeyə sahib idisə, tədricən Rusiya burada öz mövqeyini gücləndirməyə başlayırdı. Qeyd edək ki, İngiltərə İrana daha çox satış bazası kimi baxırdısa, Rusiya, xüsusən XIX əsrin sonlarına yaxın bu ölkəyə xammal bazası kimi baxırdı. Rusiya-İran və İngiltərə-İran sülh müqavilələri İranı siyasi cəhətdən asılı vəziyyətə salmaq üçün zəmin hazırlayırdısa, kapitulyasiya hüquqları verən iqtisadi-ticarət müqavilələri iqtisadi asılılığın hüquqi əsasını təşkil edirdi. Qeyri-bərabər inkişaf səviyyəsində qərar tutan İran və Qərb ölkələri arasında, xüsusən İngiltərə və Rusiya ilə iqtisadi-ticarət əlaqələrinin genişlənməsi onun tədricən həmin ölkələrdən asılı vəziyyətə düşməsinə səbəb olur.

İranın Qərb ölkələrindən, xüsusən də Rusiya və İngiltərədən asılılığının artmasının əsas mərhələsi XIX əsrin 60-cı illərindən, xaricilərə çoxsaylı imtiyazların (konsessiyaların) verilməsi ilə başlanır.

İrandan ilk imtiyazı İngiltərə almışdı. Belə ki, İngiltərənin müstəmləkəsi olan Hindistanda 1856-cı ildə baş vermiş Sipahi üsyanından sonra müstəmləkəyə operativ nəzarəti təmin edən birbaşa rabitə yaradılması zərurəti ortaya çıxmışdı. Həmin məqsədlə İngiltərə

İrandan keçməklə Hindistanın sərhədlərinə qədər teleqraf xətti çəkmək üçün İranla 1862-ci ilin dekabr ayının 17-də ilk saziş bağladı. Həmin sazişə görə İngiltərə İran hökumətinin hesabına teleqraf xətti çəkmək və istismar etmək üçün imtiyaz aldı. İngiltərə İranla 1865, 1868, 1872 və 1901-ci illərdə teleqraf sazişləri bağladı. İngilis hökuməti İran hökumətini məcbur etmişdi ki, İngilis təbəəsi baron Röytərə 70 illik imtiyaz versin (1872). İmtiyaz, demək olar ki, İranın yeraltı, yerüstü sərvətləri, infrastruktur və s. sahələrini bir nəfərin sərəncamına verirdi. Lakin ölkədə yaranan narazılıq və Rusiya diplomatiyasının səyi nəticəsində bu imtiyaz həmin ildə ləğv edildi.

İngilislər 1888-ci ildə Karun çayında gəmiçilik, 1889-cu ildə Şahənşah bankı təşkil etmək, 1872-ci ildə Röytərə verilmiş və tez də ləğv edilmiş imtiyazın əvəzi olaraq 1890-cı ildə tənbəki, 1901-ci ildə neft imtiyazları alırlar. İngiltərənin İranda əsas rəqibi Rusiyada 1879-cu ildə İranda kazak polkları nümunəsində süvari polku təşkil etmək, 1879-cu ildə teleqraf, 1888-ci ildə balıqçılıq, 1890-cı ildə bank, 1891-ci ildə sığorta və nəqliyyat imtiyazları, Belçika 1880-ci ildə qumarxana, 1898-ci ildə vergi, az sonra poçt işinin təşkili, Fransa 1900-cu ildə arxeoloji qazıntılar aparmaq, Yunanıstan 1907-ci ildə meşələrin istismarı sahəsində imtiyazlar alırlar [36, s. 184-189].

Beləliklə, Birinci Dünya Müharibəsinə qədər İranda digər xarici təbəələrlə müqayisədə ingilislərə və ruslara 45 imtiyaz verilmişdi [73, s. 111; 165, s. 89]. Həmin imtiyazlardan yalnız tənbəki imtiyazı geniş xalq kütlələrinin etirazı və üsyanı nəticəsində 1892-ci ilin əvvəlində ləğv edildi.

Rusiya və İngiltərə siyasi və iqtisadi-ticarət kanallarından əlavə kapital ixracı forması olan imtiyazlar əldə etməklə İranı tamamilə asılı vəziyyətə salırlar.

XIX əsrin II yarısından etibarən genişlənməkdə olan qeyri-bərabər iqtisadi-ticarət əlaqələri, imtiyazlar şəbəkəsi İranın iqtisadi durumuna, iqtisadiyyatının strukturuna və bundan irəli gələn siyasi-

iqtisadi və sosial münasibətlərə böyük təsir göstərir. İranın xarici ölkələr üçün satış bazarına çevrilməsi iqtisadiyyatın təbii-tarixi inkişaf mərhələsinin yarımçıq qalması, sənətkarlığın əsas mərhələləri keçmədən tənəzzül etməsinə, ölkənin xammal bazasına çevrilməsi isə daha çox kənd təsərrüfatının struktur dətişikliyinə uğramasına, yeni istehsal sahələrinin daha çox bu sferada meydana gəlməsinə səbəb olurdu.

İranın siyasi, iqtisadi asılılığının güclənməsi hakim təbəqələrin xarici dövlətlərin müttəfiqinə çevrilməsinə və ölkədəki feodal münasibətlərinin konservasiya edilməsi siyasətinin yeridilməsinə gətirib çıxarırdı.

Eyni zamanda xarici iqtisadi-ticarət əlaqələrinin genişlənməsi, xüsusən ticarət əkinçiliyinin yaranması, başqa əsasda və birtərəfli şəkildə olsa da yeni iqtisadi münasibətlərin, yeni sosial strukturun meydana gəlməsinə şərait yaradır. Yeni münasibətlərin daşıyıcıları həmin münasibətlərin hüquqi cəhətdən təsbit edilməsi və inkişafı üçün şərait yaradılmasını tələb edir. Biz bunu İranın siyasi, iqtisadi, sosial, mədəni sahələrinə və etnik münasibətlərinə qısa nəzər salsaq aydın görə bilərik.

XIX əsrin sonları - XX əsrin əvvəllərində yarımmüstəmləkəyə çevrilmiş İran aqrar ölkə idi. Əhalinin ¾-dən çoxu kənddə yaşayırdı. Kənd təsərrüfatı natural xarakter daşıyırdı [20, s. 19] və bu sahədə ən bəsit əmək alətlərindən istifadə olunurdu. Əsas istehsal vasitəsi olan torpaq feodallara məxsus idi. İranın dünya təsərrüfat sisteminə intensiv şəkildə cəlb olunması və bir sıra kənd təsərrüfatı məhsullarının xarici bazara çıxarılması ilə torpaq üzərində mülkiyyət münasibətlərində mühüm dəyişikliklər baş verir. Torpaq uğrunda mübarizənin genişlənməsi xüsusi torpaq mülkiyyətinin xüsusi çəkisinin artmasına səbəb olur.

Sahibkarın şəxsiyyətinin və əmlakının toxunulmazlığının qorunmaması, yüksək rütbəli məmurların özbaşınalığı, sərmayə sahibinin müxtəlif bəhanə və üsullarla sərmayədən məhrum edilə bilməsi ta-

cirləri, varlı məmurları, sələmçiləri, hətta ali ruhaniləri öz sərmayələrini daşınmaz mülkiyyət almağa məcbur edirdi. Bu da xüsusi torpaq mülkiyyətinin genişlənməsinə səbəb olurdu. Öz növbəsində, getdikcə pula ehtiyacı artan hakim sülalə dövlət torpaqlarının satışını genişləndirməklə, həmçinin icma və kəndli torpaqlarının zorla ələ keçirilməsi ilə özlərinə məxsus xüsusi mülkiyyətlərini durmadan artırırdı.

Pul vergisinin artması isə əmtəə-pul münasibətlərinin inkişafı ilə deyil, xarici ticarətin artması şəraitində pula olan tələbatın genişlənməsi ilə sürətlənir və kəndlilərin müflisləşməsinə, nəticədə kəndlərin boşalmasına səbəb olur [83, s. 165; 45, s. 21]. Torpaq üzərində xüsusi mülkiyyətin genişlənməsi kənd təsərrüfatının strukturunda və kənddə istehsal münasibətlərində mühüm dəyişikliyə səbəb olur. İranın dünya təsərrüfat sisteminə cəlb olunması texniki bitkilərin becərilməsinin genişlənməsinə və burada əmtəə təsərrüfatının üstün mövqe tutmasına şərait yaradır [20, s. 24]. Xüsusi torpaq mülkiyyətinin genişlənməsi siyasi hakim təbəqənin iqtisadi hakimiyyətinin zəifləməsinə səbəb olur.

İran əhalisinin ¼-ni köçəri və yarımköçəri tayfalar təşkil edirdi. Onların öz yaylaq və qışlaq və ya mövsümi köç əraziləri vardı. Həmin ərazilər formal olaraq tayfanın ümumi ərazisi hesab edilsə də, baş verən iqtisadi proseslərin təsiri ilə həmin ərazilər də faktiki olaraq tayfa başçıları və onların yaxınlarının xüsusi mülkiyyətinə çevrilməkdə idi. Kənddə xüsusi torpaq mülkiyyətinin artmasına baxmayaraq, aqrar münasibətlər yarımfeodal qaydalar əsasında tənzimlənirdi. Bununla belə, kənddə əmtəə təsərrüfatı forması məhdud olsa da təşəkkül tapırdı. Yeni münasibətlər daha çox bağçılıq və su təsərrüfatında möhkəmlənirdi. İri şəhərlərin ətrafında yerləşən bağ təsərrüfatlarında, həmçinin quyu-kəhriz qazılması və təmir edilməsində muzdlu işçilər çalışırdılar. Böyük şəhərlərə yaxın olan kəhrizlərin suyu pulla satılırdı. İranda xarici bazarın tələbatı ilə əlaqədar olaraq texniki bitkilərin istehsalı genişlənirdi və məhz

burada yeni münasibətlər meydana gəlib inkişaf edirdi [20, s.88-90 ]. Bununla belə, çoxsaylı torpaqsız və az sayda torpaq sahibi olan kəndlilər iri torpaq sahiblərinin torpaqlarında feodal icarə qaydaları ilə icarədar qismində çalışırdılar. Formalaşmaqda olan xüsusi torpaq mülkiyyəti sahibləri də kəndlilərlə münasibətlərini feodal qaydaları əsasında, hətta bir qədər ağırlaşdırılmış şəkildə qururdular .

Beləliklə, torpağa münasibətdə xüsusi mülkiyyət sahibi kəndliyə münasibətdə feodalizmə xas olan qaydaları təmsil edirdi. Bütövlükdə, aqrar sahə dəyişikliklərin baş verdiyi, ziddiyyətlərin kəskinləşdiyi əsas sahə idi, çünki sərbəst pul vəsaitinə malik olan bütün təbəqələrin nümayəndələri eyni zamanda torpaq mülkiyyətçisi kimi çıxış edirdi. Yeni torpaq sahibləri ən azı iki iqtisadi, sosial, mədəni və s. sahəni təmsil edirdilər. Onların statusu kimi mövqeləri də ikili xarakter daşıyırdı.

Köçəri və yarımköçəri əhalinin məskunlaşdığı və ya mövsümi köç ərazisində yarı-feodal, yarı-patriarxal münasibətlər hakim idi. Tayfa başçılarının artıq xeyli dərəcədə feodal xanlara çevrilməsi və bunun nəticəsində sıravi köçərilərin durumunun pisləşməsinə baxmayaraq, onların vəziyyəti oturaq kəndlilərin (rəiyyətin) vəziyyətindən daha yaxşı idi. Çünki onlar daha az mükəlləfiyyətlər yerinə yetirir, daha az vergi verir və ya heç vergi vermirdilər. Şah qubernatorlarının tayfa ərazilərində hakimiyyəti çox məhdud idi. Bir qayda olaraq köçərilərdən şah süvari hissələri təşkil olunurdu. Bir çox köçəri və yarım-köçəri tayfalar qonşuluqdakı oturaq ərazilərə sistematik basqınlar edib talanlarla məşğul olurdular. İranda nisbətən çoxsaylı tayfaların mövcudluğu, oturaq rayonlara sistematik basqınları, suvarma sistemlərini dağıtmaları və s. köçərilərin oturaq həyata keçməsinə mane olur və nəticədə feodal münasibətlərinin dağılması və yeni münasibətlərin bərqərar olmasınaləngidici təsir göstərirdi.

İran əhalisinin ¼-ə qədəri şəhərlərdə yaşayırdı. Şəhər əhalisinin əksəriyyətini sənətkar, tacir və xırda ticarətçilər, xidmət sahəsinin

digər sahələrində çalışanlar təşkil edirdi. Şəhərlər, həmçinin iri feodalların, hərbi və mülki məmurların yaşadığı yer idi. Şəhərdə XIX əsrdə kənd və şəhər sənətkarlığı, ev sənayesi geniş inkişaf edirdi [32, s. 47]. Hətta bəzi hallarda sadə manufakturaya keçid üçün də şərait meydana gəlmişdi. Lakin bütövlükdə orta əsrlərdə sex quruluşu hakim idi. Sənətkar bəsit əl əməyinə əsaslanır və bazar üçün işləyirdi.

Avropa sənaye məhsullarının İrana ixracının getdikcə artması sənətkarlığın nəinki inkişafının qarşısını alır, hətta bir çox sahələrin mövcudluğunu təhlükəyə salırdı. XX əsrin əvvəllərindən Avropa sənaye mallarının İrana ixracının xeyli genişlənməsi vəziyyəti daha da pisləşdirmişdi. Dövlət və ayrı-ayrı şəxslər tərəfindən müxtəlif vaxtlarda fabrik, zavod təsis etmək cəhdləri əsasən uğursuzluğa düçar olmuşdu. İranın xarici ticarəti, həmçinin tacirlərin sosial baxımdan qeyri-bərabərliyi ilə xarakterizə olunurdu. İrana sənaye məhsulları idxal olunur, buradan isə kənd təsərrüfatı və məhdud miqyasda sənətkarlıq məhsulları ixrac edilirdi.

İranda ticarətlə məşğul olan iranlılarla xaricilər arasında mövcud olan hüquqi bərabərsizliyin əsasını İranın geriliyi və asılı vəziyyəti, asılılığı hüquqi cəhətdən təsbit edən kapitulyasiya rejimi təşkil edirdi.

Beləliklə, İranda iqtisadi-ticarət münasibətləri öz müxtəlifliyi ilə fərqlənirdi. İranlılar xaricdə əsasən İran malları ilə, öz ölkələrində isə əsasən xarici və yerli mallarla ticarət edirdilər. İranlı tacir xarici tacirin həm rəqibi, həm də yardımçısı rolunda çıxış edirdi. Xarici məhsulların artan idxalı nəticəsində şəhərlərdə ticarət genişlənir, sənətkarlıq əsasən tənəzzülə uğrayırdı. Ticarətin genişlənməsi nəticəsində XIX əsrin ikinci yarısında İranın şəhər əhalisi xeyli artmış, əmtəə-pul münasibətləri xeyli möhkəmlənmişdi. Şəhərlər arasında mübadilə münasibətləri xeyli inkişaf etmişdi.

Ticarətin, xüsusən də xarici ticarətin inkişafı, xarici ticarət firmaları ilə rəqabət potensialının artması, maliyyə, ticarət, nəqliyyat və

s. şirkətlərin yaradılmasına şərait yaradırdı. XIX əsrin 80-ci illərindən başlayaraq İranda müxtəlif şirkətlər təsis edilirdi [96, s. 245].

İranın siyasi quruluşu da təzadlı xarakter daşıyırdı. Ölkədə feodal monarxiya sistemi hökm sürürdü. Monarxiya hakim feodal torpaq sahiblərinin maraqlarını təmsil edirdi; hakimiyyəti mənşəcə Azərbaycan türklərindən olan Qacarlar sülaləsi idarə edirdi. Şah ölkənin mütləq hakimi, təbəələrin malının və canının "sahibi" idi. Formal olaraq torpaqların əsas hissəsi dövlətə və ya onun başçısı olan şaha məxsus idi. Qeyd edildiyi kimi, XIX əsrin sonlarına doğru dövlət torpaqlarının (xalisə) xeyli hissəsi satılaraq xüsusi mülkiyyətə çevrilmişdi. Amma buna baxmayaraq, şah hüquqi nöqteyi-nəzərdən özünü bütün torpaqların sahibi hesab edir, insanların mülklərini zəbt edir və onları xalisəyə çevirir, bəzən hər hansı bir torpaq sahibinin müəyyən məntəqədəki mülkünü alaraq ona başqa məntəqədə torpaq verirdi [41, s. 12].

Ölkəni şahın adından faktiki olaraq sədr-əzəm (baş nazir) idarə edirdi. Sədr-əzəmdən əlavə, digər vəzirlər olsa da, onlar sədr-əzəmə tabe olduqlarından elə bir rol oynamırdılar. Bəzi vəzirliklərin (nəqliyyat, vəqf, nəşriyyat) nə ayrıca yeri, nə də ştatı yox idi. Əsas nazirliklər hərbi, maliyyə və xarici işlər nazirliyi idi. Vəzir vəzifəsinə təyinat əlaqələrdən, şaha, sədr-əzəmə verilən rüşvətin miqdarından asılı idi və bu vəzifəyə feodal aristokratiyasının nümayəndələri, bəzən Qacar şahzadələri təyin olunurdu.

XX əsrin əvvəllərinə qədər İranın dövlət idarə etməsində iltizam sistemi, rüşvətxorluq geniş yayılmışdı. Ölkə əyalət və vilayətlərə bölünürdü. Əyalətə və mühüm vilayətlərə şahın oğulları, ən yaxın qohumları və yaxın adamları vali və hakim təyin olunurdu. Əyalət və vilayətlərə təyinat və onların idarə olunmasında eyni prinsiplər hökm sürürdü. Bəzən hakimlər xidmət yerinə getmir, öz yerlərinə oğullarını, müavinlərini göndərirdilər. Vali və hakimlər əyalət və vilayətlərə qazanc və gəlir mənbəyi kimi baxırdılar.

Mərkəzi hakimiyyətin yerlərdə nəzarəti nisbi, çox zaman formal xarakter daşıyırdı. Hakimlər vergini təyin edir, yığır, daxili gömrük rüsumlarını toplayır, məhkəmə qurur, cəza verir, hətta pul belə kəsirdilər (1877-ci ilədək). Məhkəmələr orta əsr xarakteri daşıyırdı. Bəzi valilər, xüsusən şahın oğulları əsil feodal knyazları idilər. Bütövlükdə hakimlərin özbaşınalığının həddi-hüdudu yox idi.

İranın hərbi quruluşuna gəlincə, nizami və qeyri-nizami hissələrdən ibarət olan İran ordusu kağız üzərində 150 min, həqiqətdə isə 20 min nəfərdən, tamamilə döyüş qabiliyyətini itirmiş hissələrdən ibarət idi. Əsgərlər rəsmi keçid üçün marşla yeriş öyrənmək və yaşayış vasitələri əldə etməklə məşğul idilər. XIX əsrin sonlarına doğru ordu tənəzzül və dağılma mərhələsini yaşayırdı. Yalnız rusların 1879-cu ildən təşkil və rəhbərlik etməyə başladıqları İran kazak briqadası az-çox döyüş qabiliyyətli hərbi hissə olsa da, o da əsasən şahı, yüksək rütbəli şəxsləri mühafizə etmək, konsulluqlar, diplomatik missiyalar, nazirliklər, arsenallar, bank şöbələri yanında mühafizə (qaravul) xidməti yerinə yetirmək, ölkədə iğtişaşları yatırmaq və əhalidən vergi toplamaq funksiyalarını yerinə yetirirdi [50].

İran polietnik struktura malik idi. Ölkənin əsas əhalisini irandilli farslar, türkdilli azərbaycanlılar və türkmənlər, kürdlər, bəxtiyarilər, lurlar, bəluclar, giləkilər, mazandaranlılar, ərəblər təşkil edirdi. Yalnız azərbaycanlılar və farslar milli formalaşma mərhələsinə qədəm qoymuş və ən çox inkişaf etmiş etnoslar hesab edilirdi. İran əhalisinin böyük əksəriyyəti müsəlman şiələrdən ibarət idi.

İran əhalisi orta əsrlərə xas sosial struktura malik idi. Əhali əsasən feodallardan və kəndlilərdən ibarət olsa da, bunların arasında müxtəlif sosial qruplar-ruhanilər, məmurlar, tacir və sənətkarlar dururdu. Əhalini, həmçinin idarə edənlərə, hakimiyyət sürənlərə və idarə olunanlara, yaxud istehsal və qeyri-istehsalla məşğul olanlara, nəhayət, vergi yığanlara (vergi hesabına yaşayanlara) və ödəyənlərə bölmək olardı. İranlıların XX əsrin əvvəllərində cəmiyyətin sosial

strukturu haqqında təsəvvürü 1906-cı ildə ilk İran Parlamentinə seçkilər haqqında qanunda öz əksini tapmışdı. Seçki qanunu parlamentə seçkilərin sosial qruplar və ya zümrələr (kuriyalar) üzrə keçirilməsini nəzərdə tuturdu. Həmin qruplar, yəni seçmək və seçilmək hüququ olan sosial qruplar aşağıdakılardan ibarət idi: şahzadələr və Qacarlar nəslinin nümayəndələri; ruhanilər; feodal aristokratiyası; tacirlər; mülkədarlar; əkinçi kəndlilər; sənətkarlar [35, s. 28].

Göründüyü kimi, məmurlar, xidmət sferasında çalışanlar, muzdlu işçilər və hətta hərbçilər bura daxil edilməmişdi. Yüksək rütbəli məmurların və hərbçilərin ayrıca silk kimi göstərilməməsi həmin qrupların siyasətdə iştirakına yol verilməməsi ilə bağlı idi. Hər halda, İran əhalisinin sosial strukturu feodalizm münasibətlərinə uyğun idi, çoxşaxəliliyi, mürəkkəbliyi, ara formalarının çoxluğu ilə səciyyələnirdi. Siyasi münasibətlər baxımından sosial struktur nəzərdən keçirilirsə, onda, ilk növbədə feodal münasibətlərinin daşıyıcıları və yeni münasibətlərin formalaşmaqda olan daşıyıcılarını fərqləndirmək zəruridir. Feodal və yarım-feodal münasibətlərinin daşıyıcıları Qacar sülaləsi, feodal aristokratiyası, köçəri və yarımköçəri tayfa başçılarından ibarət idi. Feodalizmdən yeni münasibətlərə keçid mərhələsini əks etdirən sosial qruplar yarım-feodal mülkədarlar və ya yeni torpaq sahibləri, iri tacirlər və yaxud mülkədar-tacirlər, tacir-mülkədarlardan ibarət idi. Bunlar birincilərdən torpaq üzərində xüsusi mülkiyyətə malik olmaları ilə fərqlənirdilər, lakin iqtisadi sferada feodalizmə xas olan normalara uyğun davranırdılar.

Daxili ticarətlə məşğul olan tacirlər, sənaye sahibkarları və ya milli sahibkarlar, sənətkarlar yeni münasibətlərin daşıyıcıları idilər.

Birinci qrup sayca az iqtisadi, siyasi mövqeyinə görə aparıcı rol oynayırdı. İkinci qrup iqtisadi cəhətdən daim güclənsə də, siyasi cəhətdən hüquqsuz idi, müxalifətdə duraraq siyasi hüquqlar əldə etməklə mövqeyini möhkəmləndirməyə çalışırdı. İqtisadi cəhətdən güclənməkdə olan həmin təbəqə siyasi hakimiyyətdə iştirak etməyə,

öz fəaliyyəti üçün daha əlverişli şəraitin yaradılmasına çalışırdı. Həmin şəraiti müstəqil siyasət yeridə biləcək, ölkədə qayda-qanun yaratmağa qadir ola biləcək, müəyyən qanunlar qəbul edərək, onların həyata keçirilməsini təmin edə biləcək siyasi hakimiyyət yarada bilərdi. Buna görə həmin təbəqə xarici asılılığın azalması, yeni münasibətlərin hüquqi cəhətdən təsbit edilməsi, onların inkişafı üçün şərait yaradılması uğrunda çıxış edirdi [37, s. 28].

Həm feodal münasibətlərinin, həm xaricilərin təzyiqindən, həm yerli məmurların özbaşınalığından, həm xaricilərlə qeyri-bərabər rəqabətdən əziyyət çəkən üçüncü qrup obyektiv olaraq həm hakim dairələrə, həm də xaricilərə qarşı müxalif mövqedə dururdu. Üçüncü qrupa xarici bazarla bağlı olan tacir-mülkədarlar yaxın mövqe tuturdular. Onlar öz maraqlarını təmin etmək üçün yalnız siyasi hüquqlar tələb etmir, həm də yeni münasibətlərin formalaşmasını, inkişafını təmin edə biləcək yeni qaydaların bərqərar olmasını tələb edirdilər.

Hakim təbəqə ilə bağlı olmayan həmin təbəqə öz şəxsiyyəti və əmlakının toxunulmazlığını təmin edə biləcək hakimiyyət və qayda-qanunun bərqərar olunması uğrunda çıxış edirdi. Onlar xarici tacirlərin təzyiqinin qarşısının alınmasını, yerli tacirlərə də xarici tacirlər üçün yaradılmış şəraitin tətbiq olunmasını, daxili maneələrin, məmur özbaşınalığının qarşısının alınmasını, bir sözlə, ölkədə ticarətin inkişafı və genişlənməsi üçün şərait yaradılmasını, qanunlar qəbul edilməsini, ən əsası isə ölkənin müstəqilliyinin möhkəmləndirilməsini tələb edirdilər [37, s. 28]. Amma həmin qrup təkbaşına yeni qaydaların bərqərar edilməsini təmin etməyə qadir deyildi. Yarımfeodal münasibətlərin daşıyıcısı olan hakim dairələr belə münasibətlərin bərqərar olmasında maraqlı deyildilər. Onlar öz maraqlarını xarici dövlətlərin İranda maraqlarını təmin etmək yolu ilə, onlarla qurduqları ittifaqın yardımı ilə təmin edirdilər. Xarici dövlətlər də mövcud hakim dairələrin köməyi ilə öz maraqlarını təmin edə bildikləri üçün yeni qaydaların bərqərar olmasında maraqlı deyildilər. Çünki yeni qaydalar

İranın daim artmaqda olan xarici asılılığını zəiflədə bilərdi. Qeyd edildiyi kimi, İranın xarici dövlətlərdən asılılığının əsası rus-İran, ingilis-İran müharibələrindən sonra İranın qalib dövlətlərlə bağladıqları sülh və ticarət müqavilələri ilə qoyulmuşdu.

Türkmənçay sülh müqaviləsi (1828) Rusiyaya İranın daxili işlərinə birbaşa, Ticarət haqqında xüsusi müqavilə isə dolayısı ilə qarışmağa əsas verirdi. Belə ki, sülh müqaviləsinə əsasən, Rusiya vəliəhd Abbas Mirzənin şahlıq taxtına çıxmasına yardım etməyi öz öhdəsinə götürürdü. Ticarət haqqında xüsusi saziş öz təsirini artıq, demək olar ki, dərhal, yəni Məhəmməd şahın hakimiyyəti illərində (1834-1848) göstərməyə başlamışdı. Belə ki, konsullar öz ölkələrinin nümayəndələrini və iranlı agentlərini müdafiə edir, onların tələbi ilə vilayət hakimləri tez-tez dəyişdirilirdi.

Ticarət əlaqələrinin genişlənməsi ilə xarici kapitalın İrana ixracının yeni forması - yuxarıda haqqında danışılan xaricilərin İranda imtiyazlar alması mərhələsi başlanır. İmtiyazlar və xarici ticarət İngiltərə və Rusiyanın İranda möhkəmlənməsi və onun yarımmüstəmləkəyə çevrilməsi üçün böyük nüfuzetmə kanalları idilər. Amma bununla yanaşı, həmin dövlətlər əldə etdikləri ilə qane olmayaraq, İranda öz mövqelərini möhkəmlətmək üçün daim yeni vasitələr axtarırdılar. 1900-cü ilin əvvəllərində Rusiya (1901) və İngiltərənin (1903) İranla bağladığı yeni gömrük sazişləri İran bazarını həmin ölkələrin mallarının üzərinə daha geniş açdı [35, s. 17].

İranın güclü və inkişaf etmiş Qərb dövlətlərinin xarici siyasət orbitinə və dünya təsərrüfat sisteminə cəlb olunması onun ictimai həyatının bütün sferalarına güclü təsir göstərərək, Qərb ölkələrindən, əsasən, Rusiya və İngiltərədən asılı vəziyyətə düşməsini şərtləndirdi. Xarici ölkələrin, ilk növbədə Rusiya və İngiltərənin İranda iqtisadi mövqeyinin güclənməsi həmin dövlətlərin İranın hakim dairələri, yerli feodallar, o cümlədən, xüsusən İranın cənubunda tayfa başçıları, yüksək rütbəli hərbi və mülki məmurlarla sıx əlaqələr yaratmasına,

onların vasitəsi ilə ölkənin siyasi həyatına birbaşa müdaxilə etməsinə şərait yaradırdı. Həmin dövlətlər müxtəlif vasitələrlə hakim dairələrin nümayəndələrini öz əlaltılarına çevirməyə nail olur, formal olaraq onların şəxsi və qrup mənafeyini müdafiə etməklə faktiki olaraq ölkədə mövcud olan feodal münasibətləri və qayda-qanunlarının qorunub saxlanmasına çalışırdılar.

XIX əsrin sonlarına doğru Rusiyanın İran hakimiyyətində, İngiltərənin isə hakimiyyətdən kənar dairələrdə nüfuzu xeyli gücləndi. Bu da İranın siyasi həyatına olduqca mənfi təsir göstərirdi. İran elitası özünə deyil, xarici dövlətin himayəsinə arxalandığından həmin dövlətin maraqlarının ifadəçisinə çevrilmişdi. Bütün bunların nəticəsində İranın hakim feodal dairələri ilə xarici dövlətlərin ittifaqı meydana gəlmiş və hakim dairələr İranın deyil, xarici dövlətlərin maraqlarının təmsilçisi kimi çıxış edirdilər. Bu isə siyasi asılılığın ən yüksək həddə çıxdığını, ölkənin yarımmüstəmləkəyə çevrildiyini göstərirdi. Belə ki, İran nəinki siyasi qərarlar qəbul etməzdən əvvəl, hətta nazir və valilərin təyin edilməsindən əvvəl İngiltərə və Rusiya səfirlərinin razılığını almalı idi. Xarici nüfuzun güclənməsi, xarici əlaqələrin genişlənməsi yuxarıda qeyd edilən iqtisadi, siyasi dəyişikliklər və nəticələrlə bərabər, digər dəyişikliklərə də səbəb oldu. Belə ki, Fransa Hindistana doğru irəliləmək planında İrana mühüm yer ayırdığından 1807-ci ildə İranda Avropa tipli ordu yaratmağa başladı. Həmin işi fransızları əvəz etmiş ingilislər davam etdirdilər. Yeni tipli ordu quruculuğu ilə bağlı olaraq silah zavodları təsis edildi, kitab çapı, tərcümə işi, xaricə təhsil almağa tələbə göndərilməsi kimi tədbirlər həyata keçirildi. İran hakim dairələrinin mütərəqqi nümayəndələrinin təşəbbüsləri nəzərə alınmazsa, demək olar ki, İranın iqtisadi, ictimai, mədəni həyatında əsas yeniliklər xaricilərə konsessiyalar verilməsindən sonra meydana gəlmişdi.

Teleqraf imtiyazları nəticəsində İranda tamamilə yeni texniki qurğular, rabitə vasitəsi və fəaliyyət sahəsi meydana gəldi. Teleqrafla

eyni zamanda Avropa nümunəsində poçt xidmətinin təşkilinə başlandı. Yeni rabitə vasitəsi mərkəzi hakimiyyətin teleqraf xətti çəkilmiş ərazilərə nəzarətini nisbətən asanlaşdırırdı.

Nəqliyyat imtiyazları yol şəbəkəsinin yenilənməsi və genişlənməsinə səbəb oldu. Yalnız XIX əsrin 80-ci illərinə qədər artıq ölkədə 4000 km-ə qədər şose və qeyri-şose yolları çəkilmişdi [110, s. 90]. Yol şəbəkəsinin genişləndirilməsi daxili əlaqələri, o cümlədən ticarət əlaqələrini asanlaşdırırdı. Kapituliyasiya rejimi iranlıları xarici dövlətlərin öz təbəələrinə münasibəti və xarici ölkələrdə ticarətin vəziyyəti ilə (daxili gömrük və rüsumların yoxluğu) tanış edirdi.

Bank imtiyazları İranda maliyyə sahəsində tamamilə yeni təsisatların yaranmasına şərait yaratmaqla iranlıları yeni fəaliyyət sahəsi və maliyyə əməliyyatları ilə tanış etdi.

Bundan əlavə getdikcə çoxalan xarici səfirliklər, konsulluqlar, ticarət, gəmiçilik firmaları iranlıların xaricilərin iş rejimi, işə münasibəti, şəxsi həyat tərzi ilə bilavasitə tanış olmasına imkan yaradırdı.

İranın Qərb dövlətləri ilə əlaqələrinin nəticələrindən biri də müxtəlif xarici ölkələrin missioner təşkilatlarının İrana üz tutması və burada geniş fəaliyyət göstərməyə başlaması idi. İranda xarici, missioner məktəbləri, əsasən, XIX əsrin I yarısının ikinci rübündən başlayaraq təsis edilməyə başlandı. İlk missioner məktəbini amerikalılar 1836-cı ildə Cənubi Azərbaycanda təsis etdilər [61, s. 14]. Həmin məktəblər ilk vaxtlar, əsasən, İran xristianları üçün nəzərdə tutulsa da, sonralar orada müsəlman iranlılar da təhsil almağa başladılar. İlk vaxtlar xristianlar üçün məktəblər təsis edən amerikan və fransızlardan fərqli olaraq, ingilislər zərdüştlər üçün məktəblər təsis etdilər [61, s. 19].

Missioner məktəblərində dinin tədrisi mühüm yer tutsa da, dünyəvi fənlərə də geniş yer verilirdi. Missioner məktəblərində iranlılar üçün tamamilə yeni olan üsullarla tədris aparılır, yeni fənlər tədris olunurdu. İlk məktəbini 1840-cı ildə təsis edən Fransanın

Lazar missioner təşkilatı 1885-ci ilə qədər İranda artıq 76 oğlan və qız məktəbi təsis etmişdi [107, s. 283].

İranda ABŞ ingilis Yevangeliya məktəbi, Stüart adına kollec, Fransa İttihad mədrəsəsi, Almaniya texniki fənlər məktəbi, Rusiya ticarət məktəbi təsis edilmişdi.

İranın xarici siyasi, iqtisadi-ticarət əlaqələrinin artması, mədəni əlaqələrin genişlənməsinə, iranlıların Avropa siyasi, iqtisadi, mədəni həyatı ilə yaxından tanış olmasına şərait yaradırdı. Bu da öz növbəsində Avropa mədəniyyətinin bir sıra ünsürlərini mənimsəməklə yanaşı, İran həyatını Avropa nümunəsində yenidən qurmaq təşəbbüsləri və ən əsası, ideyasının yaranması, inkişafı və genişlənməsinə səbəb olurdu.

Beləliklə, xarici siyasi, iqtisadi əlaqələrin genişlənməsi və intensivləşməsi bir tərəfdən İranın iqtisadi, siyasi asılılığını gücləndirir, mövcud feodal qayda-qanunlarının qorunmasını təmin edir, digər tərəfdən obyektiv olaraq iqtisadi münasibətlərdə yeni ünsürlərin meydana gəlməsinə, yeni sosial qrupların formalaşmasına və onların milli müstəqillik və ya asılılığın azaldılması, yeni münasibətlərin inkişaf etməsi üçün siyasi, hüquqi şəraitin yaradılmasını tələb etməsinə şərait yaradırdı. Xarici iqtisadi, siyasi, mədəni əlaqələr çox çətinliklə də olsa, Avropa dövlətlərinin bütün səylərinə baxmayaraq, obyektiv olaraq İran cəmiyyətinin feodalizmdən azad bazar iqtisadiyyatı sisteminə keçməsinə şərait yaradır, cəmiyyətin bütün sferalarında köhnə ilə yeni yaranmaqda olan ünsürlər arasında ziddiyyətin meydana gəlib dərinləşməsinə səbəb olurdu. Cəmiyyətin mütərəqqi ünsürləri qarşısında duran əsas məsələ həmin ziddiyyətin həlli yollarını müəyyən etməkdən ibarət idi. Bu ziddiyyət yeninin xeyrinə həll edilərdisə, onda ölkənin müstəqilliyi və tərəqqisi də təmin olunardı. İranın xarici əlaqələrinin genişlənməsinin əsas yekunlarını aşağıdakı kimi xülasə etmək olar.

- İranın satış bazarı və xammal mənbəyinə çevrilməsi;

- İran iqtisadiyyatının öz inkişafında sənaye istehsalı səviyyəsinə yüksələ bilməməsi;

- İranın xarici əlaqələrinin, əsasən, İngiltərə və Rusiya ilə məhdudlaşması;

- İranın siyasi, iqtisadi cəhətdən Qərb dövlətlərindən asılı, yarım-müstəmləkə vəziyyətinə düşməsi.

İranın hərbi, iqtisadi, mədəni cəhətdən Avropa ölkələrindən xeyli geri qalması ölkənin mütərəqqi siyasi və ictimai xadimlərini, geniş ziyalı təbəqəsini ciddi narahat edirdi. Bu ictimai qüvvələr həmin geriliyi aradan qaldırmaq üçün müxtəlif yollar axtarır və çıxış yolunu iqtisadi, siyasi, sosial sferalarda əsaslı islahatlar keçirilməsində görürdülər. Məhz bu mərhələdə İranın mütərəqqi ziyalıları ölkənin geriliyinin aradan qaldırılmasının zəruriliyini əsaslandırır və modernləşmə ideyasını geniş təbliğ etməklə, onun ideologiyasını yaratmağa başlayırlar.

## İranda XIX əsrdə islahat aparmaq cəhdləri

Birinci Rusiya-İran müharibəsində (1804-1813) ilk məğlubiyyətlərdən sonra İranın faktiki hakimi, Azərbaycan əyalətinin valisi - vəliəhd Abbas Mirzə İranın Rusiyadan hərbi cəhətdən xeyli geri qaldığını anlayaraq, həmin geriliyi qısa zamanda aradan qaldırmaq üçün İranda əsaslı islahatlar və yeniləşdirmə cəhdlərini həyata keçirməyə başlayır. İranın müharibədə uğursuzluqları diqqəti ilk növbədə ordu quruculuğuna yönəldir. Abbas Mirzə çıxış yolunu müasir silahlarla silahlanmaqda görürdü [108, s. 49].

Ordunu yenidən qurmaq və müasir silahlarla silahlandırmaq üçün İran Fransanın 1806-cı ildə irəli sürdüyü müttəfiqlik təklifini qəbul edib, Fransaya xüsusi nümayəndə göndərərək, 1807-ci ilin mayında müqavilə imzaladı. Müqaviləyə əsasən Fransa İran ordusunun təşkil edilməsi və yeni silahlarla təchiz edilməsində ona

yardım göstərməli idi. Müqavilənin həmin şərtini yerinə yetirmək və digər məqsədlərlə Fransadan general Qardanın başçılığı ilə çoxsaylı hərbi missiya həmin il İrana gələrək Avropa tipli hərbi hissələr təşkil etməyə başladı. Lakin 1807-ci ilin iyul ayında Fransa Rusiya ilə sülh müqaviləsi bağladığından, onun İrana marağı zəiflədi.

Müqavilənin bağlanmasından az sonra fransız hərbi təlimatçıları İran ordusundan geri çağırıldı. Yaranmış vəziyyətdən istifadə edən ingilislər İranla 1809-cu ildə ilkin müqavilə imzaladılar. Müqavilədə, o cümlədən İrana hərbi təlimatçılar və silah göndərilməsi də nəzərdə tutulurdu. 1810-cu ildə İrana gələn ingilis kapitanı C.Malkolm özü ilə bir qrup təlimatçı və top silahları, 1811-ci ildə yeni təyin olunmuş ingilis səfiri isə xeyli miqdarda silah, sursat və yeni ingilis hərbi təlimatçıları gətirdi. 1813-cü ildə bağlanmış İran-Rusiya sülh müqaviləsindən sonra Rusiyanın Cənubi Qafqazda möhkəmlənməsinin qarşısını almaq üçün İngiltərə 1814-cü ildə ilkin müqavilə əsasında İranla yeni müqavilə imzaladı. Müqavilədə İranda ordu quruculuğunun davam etdirilməsinə yönəlmiş tədbirlər öz əksini tapmışdı.

İranda yeni tipli ordu təşkil edilməsi 1807-ci ildə başlansa da, yalnız 1814-cü ildə Rusiya ilə müharibə başa çatdıqdan sonra bu proses ardıcıl və hərtərəfli xarakter kəsb etdi. Cənubi Azərbaycanda təşkil olunan yeni ordunun formalaşması əsasən 1821-ci ildə başa çatdı. Yeni ordu 1000 nəfərlik nizami piyada, 800 nəfərlik nizami süvari, 250 nəfərlik artilleriya hissələrindən fouçlardan (polk və ya batalyon) ibarət idi. Həmin polkların ümumi sayı 30-a çatırdı. Avropa tipli yeni ordu xarici təlimatçıların rəhbərliyi ilə müntəzəm hərbi təlimlər keçir, kazarmalarda qalır və məvacib alırdılar. Yeni ordu ingilis silahları ilə təchiz edilmişdi. Abbas Mirzə yeni ordunun silah təminatını yaxşılaşdırmaq üçün Təbrizdə top və tüfəng zavodları inşa etdirmişdi [71, s. 55-59; 112].

Ordu həyatı ilə bağlı nizamnamələri və hərbi ədəbiyyatı tərcümə etmək üçün tərcümə idarəsi təşkil edilmişdi. Yeni yaradılan müəssisələrdə işlərə rəhbərlik edə biləcək milli mütəxəssislər tərbiyə etmək üçün Abbas Mirzə 1811-ci ildə 2, 1815-ci ildə isə 5 nəfər gənci Avropaya təhsil almağa göndərmişdi. Onlar hərb sənətinin sirlərini, mühəndisliyi, silah istehsalını (tüfəngqayırma), tibb elmini və xarici dilləri öyrənməli idilər [228]. Avropada təhsil almış həmin gənclər bir müddət sonra Cənubi Azərbaycanda elmin, maarifin, mətbuatın inkişafında mühüm rol oynadılar. Onlar ilk mətbəənin, kitab çapının, qəzet nəşrinin, dünyəvi məktəblərin və s. əsasını qoydular.

Ümumiyyətlə, İrandan xaricə təhsil almaq üçün tələbə göndərilməsi böyük fasilələrlə də olsa, mütəmadi davam etmiş və XX əsrin 20-ci illərinin sonundan qanuni, mütəşəkkil və sistematik xarakter almışdı. Belə ki, Abbas Mirzə, Məhəmməd şah, Nəsrəddin şah zamanı, konstitusiyalı rejim bərqərar olduqdan sonra xaricə təhsil almağa tələbə göndərilmişdir. Bütövlükdə, həmin dövrdə xaricdə təhsil almağa təqribən 250 nəfər gənc göndərilmişdi [86].

Bu dövrdə mətbəə işinin də Avropa standartlarında qurulmasına başlanmışdı. Abbas Mirzənin göstərişi ilə Təbrizə ilk çap maşınları gətirilmişdi. Belə ki, Moskva və Peterburqda çap işi ilə tanış olan Mirzə Cəfər və Mirzə Əsədulla Təbrizi İrana qayıdarkən özləri ilə çap avadanlığı gətirdilər və Abbas Mirzənin Avropadan gətirdiyi çap dəzgahlarında işə başladılar (1818) [62, s. 69]. Çap işi Təbrizdə meydana gəldiyindən, sonralar İranda təsis edilən mətbəələr "basmaxana", mətbəə işçiləri "basmaçı" adlanmışlar. Qeyd etmək lazımdır ki, 1824-cü ilə qədər mətbəələr yalnız Cənubi Azərbaycanda - Təbriz, Urmiya, Ərdəbil, Xoy şəhərlərində fəaliyyət göstərmişdir. Yalnız 1824-cü ildə Mirzə Cabbar Təbrizi Tehranda ilk mətbəə təsis etdi: Mirzə Cabbar bir neçə xarici dil bilirdi, xarici ölkələrdə diplomat kimi çalışmış, 1851-ci ildə Tehranda təsis edilən ilk rəsmi qəzetin – "Ruzname-ye Vəqayeye İttifaqiyye" qəzetinin redaktoru olmuşdu. O,

Avropa qəzetlərindən tərəqqi ilə bağlı yazıları tərcümə edərək, rəsmi nəşrlərdə dərc etdirən ilk publisist və naşirlərdən biri idi.

Qeyd edək ki, Abbas Mirzənin saray əyanlarını bəzi imtiyazlardan məhrum edən islahatları ona qarşı müxalifətin yaranmasına səbəb oldu. İrana Avropa mədəniyyəti nümunələrinin gətirilməsinə müxalif olan din xadimləri də Abbas Mirzəni müdafiə etmədilər [114, s. 129]. Rusiya ilə müharibədə (1826-1828) məğlubiyyət isə Abbas Mirzənin mövqeyini xeyli zəiflətdi və yeni tipli ordu əsasən öz varlığını qoruyub saxlasa da, digər sahələrdə islahatlar və yeniləşdirmə tədbirləri yarımçıq qaldı. Daha doğrusu, yeni tipli ordu öz varlığını daha çox zahiri cəhətdən saxladı, hətta sonralar da Fouç strukturuna əsaslanan yeni hərbi hissələr təşkil edilirdi. Həmin hissələr İran ənənəsi və Avropa strukturu elementlərini özündə birləşdirirdi. Belə ki, polk əvvəlki daxili struktura uyğun təşkil olunsa da, onlara yerli xanlar və xan nəslindən olanlar komandirlik edir, həmin polk çox zaman onun himayəsində olan hərbi hissə sayılırdı.

Abbas Mirzənin yeniləşdirmə tədbirlərindən yalnız kitab çapı əsaslı şəkildə bərqərar olub inkişaf etdi. Lakin burada da Avropa çap texnikasının son nailiyyətlərindən – qurğuşun çapından deyil, daş basmasından istifadə edilirdi və bu proses 20 ildən çox bu şəkildə qaldı.

Hər halda, Abbas Mirzənin sayəsində Avropa mədəniyyətinin iki ünsürü - nizami ordu strukturu və kitab çapı İrana gətirilərək, hərbi və mədəni həyatın mühüm tərkib hissələrinə çevrildi.

İranda köklü islahat, daha doğrusu, inqilabi dəyişikliklər ideyası ilə Babilik hərəkatının banisi, sosial mənşəyi xırda tacir olan Şirazlı Əli Məhəmməd (1819-1850) çıxış etdi. 12-ci imamın tezliklə zühur edəcəyini təbliğ edən Şeyxiyyə təriqətinin ardıcıllarından olan Məhəmməd Əli 1843-cü ildə təriqət başçısı Seyid Kazım Rəştinin vəfatından və varis təyin etməməsindən istifadə edərək, 1844-cü ildə özünü Bab (Qapı, 12-ci imamın öz iradəsini insanlara çatdırdığı va-

sitə), 1847-ci ildə isə zühur etmiş Mehdi adlandırdı. O, Qurani-Kərimin özünün yazdığı "Bəyan" kitabı ilə, şəriətin isə bu kitabda müəyyən edilən qaydalarla əvəz olunmasını, onun ideyaları əsasında yaradılacaq müqəddəs səltənətin ictimai həyatını, davranış normalarını və s. müəyyən etməyə çalışırdı. "Bəyan" hər biri 19 fəsildən təşkil olunmuş 19 hissədən ibarətdir. Bunlardan 11-i çap olunmuş, 8-i isə daha geniş yayılaraq rus dilinə tərcümə edilmişdir [40]. Lakin yeni "peyğəmbər" həbs edilərək, 1850-ci ildə edam edildi. Onun ardıcılları 1848-1852-ci illərdə bir sıra məntəqələrdə üsyan qaldıraraq ədalətli səltənət prinsiplərini həyata keçirməyə cəhd etsələr də, üsyanlar hökumət qüvvələri tərəfindən amansızlıqla yatırıldı və babilik tərəfdarları uzun müddət şiddətli şəkildə təqib edildi [36, s. 172; 27]. Başqa sözlə, İranda dini bayraq pərdəsi altında aşağıdan köklü dəyişikliklər cəhdi də uğursuzluğa düçar oldu.

Babilik hərəkatı gücləndiyi zaman hakimiyyətə gələn gənc Nəsrəddin şahın (1848-1896) 45 yaşlı təcrübəli sədr-əzəmi Mirzə Tağı xan mərkəzi hakimiyyəti möhkəmləndirmək üçün geniş islahatlara başladı. 1844-1847-ci illərdə Türkiyə-İran sərhəd danışıqlarında İran nümayəndə heyətinə başçılıq etmiş Mirzə Tağı xan Osmanlı imperiyasında həyata keçirilən islahatlarla (1839-1876-cı illər Tənzimat) yaxından tanış olmuşdu [96, s. 165]. Mirzə Tağı xan ordunun yenidən qurulması, ordudakı intizamsızlığa və səhlənkarlığa, xəzinə pullarının oğurlanmasına qarşı, kəndli-feodal münasibətlərini qaydaya salmaq, feodalların hüquqlarını məhdudlaşdırmaq, kəndlilərin mükəlləfiyyətlərini dəqiq müəyyən etmək sahələrində, dövlət vəzifələrinin satılması, rüşvətxorluğa qarşı ciddi tədbirlər həyata keçirdi. Məmurların xeyli hissəsi ixtisar olundu, maaşları yarıbayarı azaldıldı. Fətəli şahın törəmələri olan şahzadələrin çoxu gəlir mənbəyindən – tiyuldan məhrum edildi, onlara maaş vəd edildi.

Mirzə Tağı xan vali və hakimlərin özbaşınalığına qarşı tədbirlər həyata keçirirdi. O, karvan yollarında təhlükəsizliyin təmin

olunmasına xüsusi diqqət yetirirdi. Tacirlər, ticarətin genişlənməsinə mane olan qubernatorlar, məmurlar cəzalandırıldı. İngilispərəst qubernator və digər vəzifəli şəxslər kənar edilir, onlar xarici dövlət nümayəndələrindən daha az asılı olan şəxslərlə əvəz olunurdu.

Sədr-əzəm ali ruhanilərin dövlət işlərinə təsirini məhdudlaşdırmağa çalışır, onları cəzalandırmaqdan çəkinmirdi. İslahatlara qarşı təbliğat aparan Təbriz şeyxülislamını Təbrizdən sürgün etmiş, Tehran imam-cüməsini isə bəst hüququndan məhrum etmişdi.

Mirzə Tağı xan sənayenin inkişafını təşviq edir (toxuculuq fabriki), daxili və xarici ticarəti inkişaf etdirmək, maarifi yaymağa çalışırdı. Sədr-əzəm İranda silah istehsalını (top və yüngül silah zavodu) təşkil etdi, mədən işləri müəssisəsi yaratdı, idxalı məhdudlaşdırmaq üçün tədbirlər gördü [101, s. 127]. Tehranda bazar, bir neçə karvansara inşa edildi.

İranda maarifi genişləndirmək, yeni tipli məktəb təsis etmək üçün gənclər Avropa və Rusiyaya təhsil almağa göndərildi, İrana xarici müəllimlər dəvət olundu. Onların iştirakı ilə yeni tipli orta-ali (ali) məktəbin təsis edilməsinə başlandı və sədr-əzəm vəzifəsindən kənar edildikdən bir neçə gün sonra həmin məktəbin - Darülfünunun açılışı oldu (27 noyabr 1851-ci il). 1851-ci ildə isə İranda ilk qəzetin – “Ruzname-ye Vəqayeye İttifaqiyyə”nin nəşrinə başlandı.

Aparılan islahatlar İranın maliyyə vəziyyətini xeyli yaxşılaşdırdı, büdcə kəsiri aradan qaldırıldı. Bu islahatların ən mühüm nəticəsi isə mərkəzi hakimiyyətin möhkəmlənməsinə, sosial, iqtisadi münasibətlərin mövcud çərçivədə müəyyən dərəcədə ədalətli şəkildə tənzimlənməsinə, babiliyin sosial bazasının məhdudlaşmasına və son nəticədə, üsyanların yatırılmasına zəmin yaratdı. Lakin 1851-ci ildə Babi üsyanının yatırılması müəyyən dərəcədə islahatların gedişinə öz təsirini göstərdi. Üsyanın yatırılması ilə mərkəzi hakimiyyətin, feodalların və ruhanilərin mövqeyi xeyli gücləndi və onların hakimiyyətini təhdid edən əsas amil aradan qaldırıldı. Məhz bundan sonra islahatlardan narazı qalan, lakin

onlara dözməli olan qüvvələr fəallaşdılar. Göründüyü kimi, islahatlar yuxarı dairələrin əksəriyyətinin və ingilislərin maraqlarına toxunurdu. Ona görə də həmin qüvvələr islahatlara və Mirzə Tağı xana qarşı mübarizədə birləşdilər.

İslahatdan narazı qüvvələrə şahın anası və Tehran ruhanilərinin başçısı rəhbərlik edirdi. Onları ingilislər təhrik və himayə edirdilər. Müxaliflər hələ 1849-cu ildə Tehran qarnizonunun bir neçə polkunun sədr-əzəmə qarşı çıxışını təşkil etdilər. Ruhanilər sədr-əzəmə qarşı açıq təbliğat aparırdılar. Gənc Nəsrəddin şah ilk vaxtlar sədr-əzəmi müdafiə edirdi, bunun bir əlaməti kimi bacısını da ona ərə verdi. Lakin sonralar şahı inandıra bildilər ki, sədr-əzəmin əsas məqsədi şahı devirməkdir.

Babilik üsyanı və Xorasanda Salar üsyanı (1848-1851) yatırıldıqdan sonra hakim dairələr, o cümlədən Nəsrəddin şah öz hakimiyyəti üçün təhlükənin aradan qaldırıldığına əmin olub, Mirzə Tağı xanın xidmətindən imtina etdi.

Bütün bunların nəticəsində 1851-ci ilin noyabr ayında Mirzə Tağı xan sədr-əzəm vəzifəsindən kənarlaşdırılaraq, Kaşana sürgün edildi və 1852-ci ilin əvvəlində öldürüldü [36, s. 172-177]. Mirzə Tağı xanın öldürülməsindən bir qədər əvvəl rəsmi açılışı olmuş Darülfünun və qəzet nəşrindən başqa, onun həyata keçirdiyi bütün islahatlar ləğv olundu.

Beləliklə, yuxarıdan başlanmış və ictimai həyatın bütün sahələrini əhatə edən islahatlar geniş sosial dayağı olmadığından iflasa uğradı. İslahatların iflasa uğraması ilə xarici dövlətlərin nüfuzunun güclənməsinə yol açıldı. Çünki Mirzə Tağı xanın islahatları mərkəzi hakimiyyəti gücləndirməyə və İngiltərənin nüfuzunu məhdudlaşdırmağa yönəlmişdi.

İranda bundan sonra əsaslı islahatlar keçirməyə təşəbbüs edilmədi. Yalnız siyasi-hüquqi sferada bəzi yeniliklər həyata keçirməyə təşəbbüslər göstərildi. Belə ki, 1856-cı ildə ikinci Herat

kampaniyasında şəhəri ələ keçirməyə nail olan Nəsrəddin şah, İngiltərənin İrana qarşı müharibə elan edib cənub məntəqələrini işğal etməyə başlamasından sonra Heratı boşaltmalı oldu və özünün ingilispərəst sədr-əzəmi Mirzə Ağa xanı vəzifəsindən kənar edərək, 1858-ci ildə Avropa nümunəsində 6 vəzirdən ibarət hökumət təşkil etdi. Hökumətə başçılıq etmək üçün Şura adlandırılan quruma sədr təyin etdi.

Nəsrəddin şahın növbəti addımı "Dövlət şurası"nın işini təkmilləşdirmək, onun qərar qəbul etmə bazasını müəyyənləşdirmək məqsədi ilə 1859-cu ildə Məşvərət Məclisi (İctimai Məsləhətxana Məclisi) təşkil etməsi oldu. Nəsrəddin şahın fərmanına görə Şuranın işində ölkənin nüfuzlu və bilikli adamları dövlət işləri barədə öz rəyini bildirməli, öz təklifini irəli sürməli və onların əsasında hökumətin başçısı qərar qəbul etməli idi. Fərmanda deyilirdi: "Əlahəzrətin hər bir nökərindən, məmləkətin müdrik adamlarından, fikir sahiblərindən tələb olunur ki, məmləkətin mənafeyi və ümumi işləri ilə bağlı həyata keçirilə biləcək tədbirlər haqqında öz fikirlərini Şuranın sədrinin hüzurunda bəyan etsinlər və Şura üzvləri irəli sürülən təkliflər barəsində öz rəyini bildirsinlər" [109, s. 144].

Məşvərət Məclisi İranın müasir tarixində potensial olaraq qanunvericilik səlahiyyətinə malik olan rasional əsaslara, sırf adət qanunlarına əsaslanan ilk təsisat idi. Maraqlıdır ki, qurumun daxili nizamnaməsində şəriətlə bağlı heç bir işarə belə yox idi [97, s. 62]. Qeyd edilən yeni qurum daha çox parlamentin hüquq və qanunvericilik komissiyasına bənzəyirdi, çünki şura üzvləri bir növ kənardan dəvət olunmuş ekspertlərin rəy və təkliflərini dinləyərək, qərar qəbul edirdilər.

Qeyd edilən təsisat İranın yeni dövr siyasi tarixində parlamentli siyasi rejimə doğru atılan mühüm addım olsa da, hər iki təsisatın nəzərdə tutulmuş şəkildə fəaliyyəti uzun sürmədi. Nəsrəddin şah siyasi sistem üzərində eksperimentlərini davam edərək, üçlü, ikili vəzirlik sistemlərini də təcrübədən keçirdi, əvvəlki sədr-əzəm

vasitəsi ilə idarəetmə sistemini bərpa etdi, hərçənd "Dövlət Şurası" və "Məşvərət Şurası" terminləri işlənməkdə davam edirdi. XIX əsrin 70-ci illərində İranda siyasi-hüquqi sferada yeni islahat cəhdi edildi. Belə ki, 1871-ci ildə sədr-əzəm təyin edilən Mirzə Hüseyn xan Moşir-od-Dövlə idarəetmə sahəsində Türkiyə nümunəsində islahatlar keçirməyə başladı.

1870-ci ildən Nəsrəddin şahın Ətəbata - İraqda şiələrin müqəddəs dini şəhərlərinə səfərini təşkil edən İranın Türkiyədəki səfiri (1858-1870) Mirzə Hüseyn xan həmin ilin sonlarında ədliyyə, vəzaif və ouqaf (ədliyyə, vəzifələr və vəqflər) naziri, 1871-ci ildə hərb naziri və qısa müddətdən sonra isə sədr-əzəm təyin olundu. Nəsrəddin şah ölkənin idarə edilməsini tamamilə yeni sədr-əzəmə tapşırdı, o, yalnız qərarları və tədbirləri haqqında şaha məlumat verirdi. Belə geniş səlahiyyətlər əldə etmiş yeni sədr-əzəm Türkiyədə həyata keçirilmiş islahatlar, xüsusən də Tənzimatın (1839-1876) ikinci mərhələsində (1856-1876) vətəndaşların hüquq bərabərliyi və digər məsələlərlə bağlı qəbul olunmuş qanunların nümunəsində hüquqi sferada islahatlar keçirməyə başladı. O, İranın tanınmış islahat tərəfdarları olan maarifçiləri - M.Mülküm xanı və M.Yusif Müstəşar-od-Dövləni də bu işə cəlb etdi.

Ədliyyə nazirliyi və ədalətxanalar haqqında 119 maddəlik (Türkiyədə qəbul olunmuş qanun da 119 maddə idi) qanun hazırlandı. Türkiyədə olduğu kimi, qanun əyalətlərdə hərbi başçılar ilə mülki başçıların səlahiyyətlərini bir-birindən ayırır və idarəetməni mülkü məmurların ixtiyarına verirdi. Sədr-əzəm əməldə rüşvətxorluq və qohumbazlığa qarşı mübarizə aparır, onun yazılı göstərişini yerinə yetirməyənləri cəzalandırırdı [199]. O, Mirzə Tağı xanın ordu quruculuğu ilə bağlı vaxtilə hazırladığı layihəni həyata keçirməyə başladı. Bundan əlavə, gözətçi məntəqələri, hərbi məhkəmə, hərbi qə-zet, silah zavodu, Hərbi Şura təşkil etdi. Avstriyadan hərbi müşavirlər

dəvət edildi. O həmçinin “Ədliyyə” adlı qəzet təsis etdi. Mirzə Hüseyn xan İranda dəmir yolu çəkilməsini də planlaşdırırdı [199; 173].

Mirzə Hüseyn xan Sepəhsalar Moşir-od-Dövlə, həmçinin İranda müasir diplomatlar hazırlamaq üçün orta-ali siyasi elmlər məktəbi təsis etdi.

Mirzə Hüseyn xan Moşir-od-Dövlə İranın modernləşməsi tərəfdarı idi və ilk növbədə qanunlar qəbul edilməsinə çalışırdı. Sədr-əzəm modernləşmə, qanunçuluğun geniş yayılmasına şahı inandırmaq və dəstəyini qazanmaq üçün onun Avropaya rəsmi səfərini təşkil etdi (1873).

Mirzə Hüseyn xan İngiltərə ilə yaxınlaşmaq, ölkəyə xarici investisiya cəlb etmək tərəfdarı olduğuna, dəmir yolu çəkilməsinə xüsusi önəm verdiyinə, həmçinin xaricilərə imtiyazlar verilməsində maddi marağı olduğuna görə, 1872-ci ildə İngiltərə təbəəsi Julius Baron Röyterə, hətta İngiltərə rəsmi dairələrində dərin təəccüb doğuran imtiyazın verilməsinə nail oldu, lakin hər cür islahatlara müqavimət göstərən mühafizəkar, xüsusən ruhani qüvvələrin, eyni zamanda Rusiyanın ciddi etirazı sayəsində imtiyaz ləğv edildi (1873). Sədr-əzəmin əleyhdarları şaha təzyiq göstərərək, onun istefaya getməsinə (1873) nail oldular. O, sədr-əzəm vəzifəsindən kənar edilsə də, siyasi fəaliyyətini davam etdirdi, belə ki, 1874-cü ildə xarici işlər naziri təyin edildi.

Mirzə Hüseyn xan 1878-ci ildə İngiltərə Lordlar palatası nümunəsində şahzadə və əyanlardan ibarət Məşvərət Şurası təşkil etdi. Lakin bu islahat istiqamətində mühüm addım deyildi, belə ki, bütövlükdə, ona, xüsusən qanuni hakimiyyət yaratmaq sahəsində əsaslı islahatlar aparmağa imkan verilmədi və 1881-ci ildə müəmmalı şəkildə vəfat etdi [223].

Mirzə Hüseyn xan Sepəhsalar yüksək rütbəli ruhaniləri vahid bir təşkilatda birləşdirmək və onların təyinatını mərkəzi idarə aparatında cəmləşdirmək istəyirdi. Bu da ruhanilərin qəzəbinə səbəb

oldu. Ruhanilər onun yeni hökumət kabineti təşkil etmək addımına qarşı çıxdılar. O, şahı inandırmağa çalışırdı ki, islahatlar ruhanilərin iqtisadi və siyasi qüdrətini təhlükə altına alır. Lakin islahatlara qarşı güclü müqavimət Nəsrəddin şahı öz meylinin əksinə olaraq Mirzə Hüseyn xanı istefaya göndərməyə məcbur etdi.

Ruhanilərin müqaviməti nəticəsində M.H.Sepəhsaların islahatları baş tutmadı. M.H.Sepəhsalar İranda dəmir yolu çəkdirməyi planlaşdırırdı. O, yeni qanunlar əsasında yeni siyasi, dəmir yolu əsasında isə yeni iqtisadi sistem yaratmaq istəyirdi [199].

Mirzə Hüseyn xan Sepəhsaların bioqrafiyasının digər üzü də vardır. Belə ki, onun fəaliyyətinə tənqidi yanaşan müəlliflər M.H.Sepəhsaların bir qədər mənfəətpərəst, tamahkar bir şəxs olduğunu qeyd edirlər. Bəzi məlumatlara görə, o, Hindistanda diplomatik xidmətdə olarkən tanış tacirlərdən biri vəfat etmiş və onun mirası hesabına xeyli varlanmışdı [191]. 1856-cı ildə isə Tiflisdə diplomatik xidmətdə olarkən Cənubi Qafqazda baş verən qıtlıqdan istifadə edərək, oraya taxıl gətirilməsi nəticəsində külli miqdarda mənfəət əldə etmişdir. Xaricilərə imtiyaz verilməsi təkcə İranın tərəqqisi ilə izah edilmir, burada M.H.Sepəhsaların həmin sazişlərdən müəyyən gəlir əldə etməsi də təsirsiz deyildi [191].

Əlavə edək ki, "Qərb mədəni təcavüzündən asılı ziyalıların rolu" seriyasından kitablardan biri (1387/2008) Mirzə Hüseyn xan Sepəhsalara həsr edilmişdir [123].

Avropa ölkələrinə səfərlər (1873, 1878, 1889) edən Nəsrəddin şah Avropa mədəniyyətinin müxtəlif sahələri ilə yaxından tanış olduqdan sonra onların təsiri altında Avropa mədəniyyətinin bəzi ünsürlərini məhdud dairədə də olsa, tətbiq etməyə çalışırdı. Həmin sahədə həyata keçirilən tədbirlər əsasən dövlət aparatı və sarayın zahirən avropalaşdırılmasına yönəlmişdi. Belə ki, Nəsrəddin şah həmin səfərlərdən sonra bir neçə yeni nazirlik - daxili işlər, ədliyyə, maarif, poçt və teleqraf nazirliklərini təşkil etdi, əsasən, zabit

hazırlamaq məqsədi ilə bir neçə hərbi məktəb təsis etdi. Saray xidmətçilərinin geyimi bir qədər avropalaşdırıldı [36, s. 191].

Nəsrəddin şah 1888-ci ildə şəxsiyyətin azadlığı, əmlakın qorunması, sənayenin inkişafı haqqında fərman verdi, lakin fərman icra olunmadı. Nəsrəddin şah, həmçinin məhkəmə islahatı keçirməyə cəhd etdi, yəni şəriət-ruhani məhkəmələrinin hakimiyyətini məhdudlaşdırmaq istədi. Nəsrəddin şah, hətta qadınların küçədə çadrasız gəzməsinə icazə verilməsini də nəzərdə tuturdu [36, s. 191]. Sarayda avropalaşma tədbirləri və məhkəmə islahatı ruhaniləri şaha qarşı qaldırdı. Bundan sonra şahın yuxarıdan islahat keçirmək təşəbbüsü sona çatdı. Monoqrafiya mövzusu baxımından demək olar ki, İranda mədəni-məişət sferasında ilk modernləşmə, vesternləşmə və ya avropalaşma cəhdi məhz Nəsrəddin şah tərəfindən edilmişdir. Məsələn, sarayda Avropa mədəniyyətinin zahiri cəhətləri - məişət tərzi tətbiq edilmişdir ki, bu da vesternləşmə tarixində ilk addım hesab oluna bilər.

İranda yuxarıdan sonuncu islahat cəhdi 1896-cı ildə Müzəfərrəddin şahın sədr-əzəmi təyin edilmiş Mirzə Əli xan Əmin-od-Dövlənin adı ilə bağlıdır. O, ölkənin sosial-iqtisadi və mədəni inkişafına, xarici dövlətlərin təsirinin azaldılmasına yönəlmiş islahatlar həyata keçirməyə təşəbbüs etdi, lakin islahatlar xarici dövlətlərin və irticaçı qüvvələrin maraqlarına cavab vermədiyindən Əmin-od-Dövlə 1898-ci ildə vəzifəsindən kənar edildi [184].

Mühafizəkarlar hakimiyyətdə möhkəmləndikdən sonra şah özünün islahat planından əl çəkdi. Lakin qadağalara baxmayaraq, müxalifət yönümlü ədəbiyyat geniş yayılırdı. Nəhayət, onu da əlavə etmək lazımdır ki, XIX əsrin 80-ci illərindən başlayaraq maarif sahəsində "aşağıdan islahat", yəni yeni tipli milli (xalq və ya xüsusi) məktəblər təsis etməyə cəhdlər olunurdu. Müzəfərrəddin şahın hakimiyyəti illərində isə belə məktəblərin sayı artdı və coğrafiyası genişləndi. Bu illərdə ölkədə tənqidi, müxalif yönümlü müstəqil mətbuat orqanları yaranır. Başqa sözlə, islahat aparmaq, dəyişikliklər

etmək fikrini həyata keçirməyə hazır olan qüvvələr yaranmağa başlamışdı. Əslində, bu, İranda aparılmış məhdud, epizodik islahatların və Qərb mədəniyyəti ilə həm Avropada, həm də İranda tanışlığın intensivləşməsinin nəticəsi kimi dəyərləndirilə bilər. Deyilənləri yekunlaşdıraraq, İranda XIX əsrin ikinci yarısı, XX əsrin əvvəllərində modernləşmənin vəziyyətini belə qiymətləndirmək olar.

Qərb mədəniyyəti ilə təmaslar, Qərb dövlətləri ilə əlaqələr genişləndikcə İranın ictimai həyatının müxtəlif sahələrində modernləşmə istiqamətində dəyişikliklər, yeniləşmə baş verir. Qərb maddi və mənəvi mədəniyyət nümunələri və ilk növbədə mədəni-məişət nümunələri İran həyatına daxil olur və tədricən bu və ya digər şəkildə möhkəmlənir. İranda meydana gələn modernləşmə ünsürlərini müxtəlif cür qruplaşdırmaq olar. Monoqrafiya mövzusu baxımından belə yenilikləri iranlıların iqtibas etdikləri və avropalıların gətirdikləri nümunələrə bölmək daha münasib görünür, çünki bu bölgü iranlıların Qərb mədəniyyətinə münasibətini aydın şəkildə göstərir. Əvvəlcə onu qeyd edək ki, İranın Qərb ölkələrinin xarici siyasət orbitinə və bunun ardınca dünya təsərrüfat sisteminə daxil edilməsi onun təbii-tarixi inkişaf istiqamətini əsaslı şəkildə dəyişərək birtərəfli, eybəcər formada olsa da, Qərb tərəqqi magistralına çıxmasına zəmin hazırlayırdı. İranda yeni dövr üçün səciyyəvi olan iqtisadi münasibətlər və sosial dəyişikliklər baş verirdi. Başqa sözlə, İran Qərb iqtisadi və sosial dəyişikliklər yolu ilə getməyə başlayır və ya artıq Qərbin baza prinsipləri İranda fəaliyyət göstərməkdə idi.

Qərblilərin İrana gətirdikləri yeniliklərə yeni ordu təşkilatı, yeni silahlar, missioner məktəbləri, teleqraf, bank və mülki məhkəmə və ya dünyəvi məhkəmə sistemi və s. aid etmək olar.

İranın Qərbdən əxz etdiyi modernləşmə ünsürləri və ideyalarına kitab çapı, babiliyin şəxsiyyət, əmlak, ticarətlə bağlı yeni ideyaları, dünyəvi təhsil mərkəzləri, qəzet, yeni tipli xalq məktəbləri və elmi biliklər və s. aid etmək olar. Sonuncu 1871-ci ildə yaradılmış

tərcümə və çap evi (mərkəzi) 1881-ci ildə nazirliyə çevrilmiş təsisat tərəfindən Avropa dərslikləri və digər kitablarının tərcüməsi vasitəsi ilə meydana gəlirdi. İranlıların Avropanın maddi və mənəvi mədəniyyət nümunələri, ünsürləri, normaları və s. əxz etməsində Qərbin heç bir təzyiqi yox idi. İranlıları buna Qərbdən çox geri qalmaları və bu geriliyi aradan qaldırmaq zərurəti vadar edirdi. Məhdud sahələri əhatə edən modernləşmənin ümumi əhəmiyyəti ondan ibarət idi ki, İran XIX əsrin sonlarına doğru artıq Qərb mədəniyyətinin bəzi ünsürlərini öz həyatına daxil etmişdi və həmin ünsürlər öz üstünlüyünü daim nümayiş etdirirdi. Belə bir şəraitdə artıq fəaliyyət göstərən modernləşmə ünsürlərinin əhəmiyyətini, genişlənməsinin zəruriliyini, digər ünsürlərlə təkmilləşdirilməsinin vacibliyini əsaslandırmaq o qədər də çətin deyildi. Başqa sözlə, modernləşmə ideologiyasının yaranması üçün İranın özündə müəyyən maddi, təşkilatı, mədəni əsas mövcud idi. Yalnız bunları ideya-nəzəri baxımdan əsaslandırmaq və bundan çıxış edərək digər mühüm ünsürlərin və komponentlərin yaradılması və ya əxz olunmasının vacibliyini irəli sürmək qalırdı ki, bunu da maarifçilər və ya modernləşmə ideoloqları həyata keçirdilər.

## İranda modernləşmənin ilk ideoloqları

İranda yuxarıdan siyasi, sosial-iqtisadi, hüquqi islahat cəhdləri ümumən uğursuzluğa düçar olsa da, ölkənin dünya təsərrüfat sisteminə cəlb edilməsi onun iqtisadi və sosial strukturunda bəzi dəyişikliklərinin baş verməsinə zəmin yaratmışdı. Bundan əlavə, yuxarıdan mədəni sferada aparılan islahatlar, o cümlədən kitab çapı, təhsil, qəzet nəşri başlamış və aşağıdan hərəkatla çulğaşaraq daha da genişlənmişdi. Mədəniyyət sahəsində qismən tərəqqi tədricən müxtəlif sosial mənşəli, lakin yeni ideyaların daşıyıcısı olan ziyalıların formalaşmasına şərait yaratmışdı.

XIX əsrin ikinci yarısından etibarən avropalıların kütləvi şəkildə İrana gəlişi (müxtəlif imtiyazlarla bağlı), iranlıların Qərb ölkələri ilə bilavasitə təmaslarının genişlənməsi (ticarət, tələbə, təhsil, kəsbkarlıq və s.) və intensivləşməsi, əyan və zadəganların öz övladlarını təhsil almaq üçün Avropaya göndərmələri Qərb mədəniyyəti ilə daha yaxından tanış olmağa imkan verir və mütərəqqi baxışlı ziyalıları İranın geriliyini aradan qaldırmaq üçün yollar aramağa sövq edirdi. Onlar hakim dairələr tərəfindən aparılan epizodik islahatların daha dərin və geniş şəkildə davam etdirilməsi, islahatların aparılmalı olduğu əsas sferaların müəyyənləşdirilməsi məqsədilə islahat proqramını işləyib hazırlamağa, başqa sözlə, modernləşmə ideologiyasını formalaşdırmağa çalışırdılar.

Azərbaycan valisi - vəliəhd Abbas Mirzənin (1789-1833), Nəsrədin şahın və onun sədr-əzəmləri Mirzə Tağı xanın (1807-1852) və Mirzə Hüseyn xan Sepəhsaların (1836-1881) həyata keçirmək istədikləri islahatları nəzərə alsaq, deyə bilərik ki, İranda modernləşmə prosesi modernləşmə ideologiyasından əvvəl meydana gəlmişdir. Başqa sözlə, əvvəlcə modernləşmə sahəsində əməli addımlar atılmış, daha sonra onun nəzəri-ideoloji bazası yaranmağa başlamışdır. Modernləşmə prosesi tədricən İran ictimai həyatının ayrılmaz tərkib hissəsinə çevrildiyi kimi, modernləşmə ideyası da İran ictimai fikrinin mühüm, hətta aparıcı elementi olmuş və modernləşmə ideoloqlarının formalaşmasına zəmin yaratmışdır.

İranda modernləşmənin, hətta müəyyən şərtlərlə liberalizmin ilk ideoloqu adını yuxarıda qeyd etdiyimiz Əli Məhəmməd Bab hesab edilə bilər. Onun baxışlarında liberal elementlər – şəxsiyyətin hüquqları, əmlakın toxunulmazlığı, insanların bərabərliyi və s. öz əksini tapmışdır. Onu da qeyd etmək lazımdır ki, Əli Məhəmmədin liberalizm prinsipi yalnız gələcək Müqəddəs səltənətin babiliyi qəbul edən əhalisinə şamil edilirdi [36, s. 160]. Babilik dinini qəbul etməyənlər Müqəddəs səltənətdən qovulmalı, qeyri-babi kitablar məhv

edilməli idi. Babilər qeyri-babilərlə evlənə, eyni kampaniyada iştirak edə bilməzdilər. Babiliyi qəbul etməyənlərin əmlakı müsadirə olunmalı idi [64]. Ona görə Əli Məhəmmədi lokal, ideoloji prinsiplərə tabe edilən liberalizm ideoloqu hesab etmək olar. Əli Məhəmmədin sırf ideoloq olduğunu nəzərə alsaq, qeyd edilən liberalizm ünsürlərini əsas götürərək, onu mühafizəkar sistem çərçivəsində liberal-modernləşdirmə ideyalarının ilk iranlı müəllifi adlandırmaq olar.

Lakin Babilik nə hərəkat, nə də ideologiya kimi uğur qazandı və qazana da bilməzdi. Bunu Babın ideyalarını tətbiq etmək cəhdi aydın göstərirdi. Babilik, ilk növbədə tacirlərin maraqlarını ifadə etsə də, onun sənətkarlar, xırda tacirlər və kəndlilərin fəal iştirakı ilə həyata keçirilməsi zamanı ilkin liberal ideyalar ibtidai kommunizm prinsiplərinə transformasiya olundu. Üsyançılar dərhal xüsusi mülkiyyətin ləğv olunduğunu, əmlakın ümumiliyini elan edir, "vahid qazan" prinsiplərini tətbiq edirdilər [36, s. 161]. Deməli, Babın ideyalarının həyata keçirilməsi üçün zəmin, bu ideyaların elan olunduğu mahiyyətdə həyata keçirə biləcək qüvvə yox idi. Bununla belə, babilik hərəkatı feodalizmin əsaslarını laxladır və yeni münasibətlərin bərqərar olması üçün zəmin hazırlayırdı. Babilik hərəkatı məğlubiyyətə uğrasa da, İranda modernləşmə ideyası getdikcə möhkəmlənirdi.

Avropa mədəniyyəti ilə tanışlıq ilk vaxtlar ayrı-ayrı şəxslərin və ya nümayəndələrin Avropaya əsasən diplomatik missiya ilə gedişi nəticəsində deyil, həm də həmin şəxslərin Avropa haqqında təəssüratlarını qələmə alaraq çap etdirməsi vasitəsi ilə genişlənirdi. Mirzə Əbülhəsən xan Elçinin (1809-1811-ci illərdə İngiltərədə səfir) "Heyrətnamə", Mirzə Məhəmməd Hadi Ələvinin "Dəlil üs-Süfəra", Xosrov Mirzənin (1828-də Rusiyada səfir) "Ruzname-ye səfər", Rzaqulu Mirzənin "Səfərnamə", Əbdüllətif Şüstərinin "Töhfətül Aləm", Mirzə Fərrux xan Əmin-ol-Mülkün (1856-cı ildə İngiltərədə səfir) "Məxzənül-vəqayə" kitabları bu qəbildəndir. Yol qeydləri və səyahətnamə janrında yazılmış həmin kitablar iranlıları Avropa

mədəniyyəti ilə tanış edərək, həmin mədəniyyətə rəğbət və onun bir sıra ünsürlərini əxz etməyə meyl oyadırdı.

Yuxarıda qeyd etdiyimiz Darülfünunun təsis edilməsi və Avropa dərsliklərinin tərcümə edilməsi, təsis edilmiş ilk qəzetin səhifələrində Avropa həyatının bəzi sahələri haqqında məlumatlar verilməsi, 1871-ci ildə Tərcümə və nəşriyyat mərkəzinin yaradılması və burada dərsliklərlə yanaşı, tarix, coğrafiya və s. kitabların tərcümə edilərək çap olunması modernləşmə ideologiyasının formalaşmasına zəmin yaradırdı. İranlılar Avropa mədəniyyəti ilə yalnız Avropaya səfərləri zamanı və Avropa kitablarının tərcüməsi, yol qeydləri vasitəsi ilə deyil, həm də İranın özündə tanış olmaq imkanı qazanırdılar. Xarici ölkə səfirlikləri, konsulluqlar, müxtəlif yönümlü xarici şirkətlərdə çalışan iranlılar Avropa mədəniyyətinin müxtəlif ünsürləri ilə bilavasitə tanış olur, hətta onun normalarına uyğun davranışı mənimsəyirdilər. Həmin iranlılar öz gündəlik həyatlarında Qərb dövlətinin, Qərb insanının, Qərb mədəniyyətinin üstünlüklərini görürdülər.

İranın mütərəqqi əhval-ruhiyyəli siyasi xadimləri, ziyalıları İranın Avropadan geriliyinin səbəblərini araşdırmağa və həmin geriliyi aradan qaldırmaq üçün yollar axtarmağa və ya müəyyən islahatlar keçirməyə cəhd edir, ya da modernləşmənin zəruriliyini əsaslandırmağa, eyni zamanda modernləşmə proqramı irəli sürməyə cəhd edirdilər. Beləliklə, İranda modernləşmə ideologiyası və ideoloqları formalaşırdı.

İranlıların yekdil rəyinə görə İran cəmiyyətinin bütün sahələrinin, o cümlədən siyasi sistemin modernləşdirilməsinin ilk ideoloqu Mirzə Fətəli Axundov idi. Geniş erudisiyaya, elmi dünyagörüşünə sahib olan M.F.Axundov çoxşaxəli fəaliyyəti ilə cəmiyyətin maariflənməsi sahəsində böyük işlər görmüşdür. O, özünü müsəlman xalqları, o cümlədən İran xalqlarının nümayəndəsi hesab edir və onların tərəqqisi uğrunda mənəvi-ideoloji mübarizə aparırdı. Öz görüşlərində İrana xüsusi diqqət yetirən M.F.Axundov bu ölkədəki

gerilik və nöqsanları müxtəlif vasitələrlə və geniş şəkildə tənqid edir, onun tərəqqi yollarını müəyyən etməyə çalışırdı. Mirzə Fətəli Axundov iranlı mütəfəkkirlərlə və dövlət adamları ilə məktublaşır, fikir mübadiləsi aparırdı. Onun daha çox yazışdığı şəxslər Mirzə Mülküm xan, Mirzə Yusif xan Müstəşar-od-Dövlə, Mirzə Cəfər xan Moşir-od-Dövlə idilər [198, s. 62].

Şərq, o cümlədən İran mövzusu onun fəlsəfi, siyasətşünaslıq, ədəbi, elmi fəaliyyətinin qırmızı xəttini təşkil edirdi. Bu sahədə onun məşhur "Kəmalüddövlə məktubları" əsəri xüsusi yer tutur. M.F.Axundov həmin əsəri çap etdirə bilməsə də, əlyazması şəklində geniş yayılmasına nail olmuşdu. İranın mütərəqqi ziyalıları adı çəkilən əsərə böyük maraq göstərirdilər. O qeyd edirdi ki, "şəxsən özü məktubların 30 nüsxəsini İranın ictimai, siyasi xadimlərinə, ziyalılara göndərmişdir" [3]. Qeyd edilən əsər hind şahzadəsi Kəmalüddövlənin İran şahzadəsi Cəlalüddövləyə 3 məktubu və ondan aldığı bir cavab şəklində yazılmışdır. Məlum olduğu kimi, əsərdə Şərqin və İranın mövcud problemləri və onların həlli yollarından geniş şəkildə bəhs olunmuşdur. Əsərin ən əhəmiyyətli cəhəti konstitusiyalı monarxiya idarə formasının hərtərəfli təsviri və onun məziyyətlərinin göstərilməsidir. M.F.Axundov, eyni zamanda iranlılarda yenilik və qüdrətli dövlət qurmaq hissini oyatmaq üçün onların qədim tarixə malik olduqlarını və bir zamanlar dünyanın ən qüdrətli dövlətinə sahib olduqlarını xatırlatmağı vacib sayırdı.

M.F.Axundovun əsas tənqid hədəflərindən biri Şərqdə hakim olan qanunsuzluq idi. O, müsəlman xalqlarının bütün problemlərinin mənbəyinin fanatizm və despotizmdə cəmləşdiyini vurğulayırdı [129, s. 53]. O yazırdı ki, despotun zülmünün təsiri və ruhani fanatizmi İranın zəifliyi və gücsüzlüyünə səbəb olmuşdur. Despotizm Şərqə xas idarə forması olsa da, hakimiyyətdə olanların cəmiyyətin siyasi sistemində heç bir dəyişikliyə yol verməməsi ilə daha da güclənmişdir. Ona görə də, despotizmə görə məsuliyyət hakim dairələrin üzərinə

düşürdü. Fanatizm isə insanların düşünmədən doğru və yalan olan hər bir şeyə inanması və puç xəyallarda inadkarlıq göstərməsindən irəli gəlirdi [129, s. 53]. M.F.Axundov qanunsuzluğun ictimai-siyasi, sosial nəticələri haqqında deyirdi: "hər növ tənzimat və qanun elmə əsaslandığı üçün, nə qədər ki, xalq hamılıqla - kişili-qadınlı, Prusda (Almaniya), Amerikada və digər Avropa ölkələrində olduğu kimi, elmə yiyələnməsələr, tənzimat və qanunları anlamayacaq (ölkədə qanun və parlamentin, qanunla, konstitusiya ilə idarə olunan dövlətin əhəmiyyətini başa düşməyəcəklər) və onu qəbul edib icra etmək iqtidarında olmayacaqlar. Belə olan halda İslam ölkələri (padşahları) xalqı maarifləndirməmiş, boş yerə zəhmət çəkib ölkələrində yeni tənzimat və qanunların icrasına başlamasınlar" [2, s. 329].

M.F.Axundov xalqının xilasını ədalətli qanunlarda, taleyüklü qərarların qəbul edilməsində görürdü. Şərqdə, xüsusən İranda isə heç bir qanun yox idi. "Divanxanada bir dənə də olsun qanun kitabı yoxdur. Nə bir günahın cəzası bəllidir, nə də bir savabın əcri, kimin ağlına nə gələrsə, o hökmü də çıxarır" [1, s. 14]. M.F.Axundov qanunçuluq, qanunun hakimiyyəti, parlament təsis edilməsi, dinin siyasətdən ayrılması, ərəb əlifbasının dəyişdirilməsi, mütləq hakimiyyətin tənqidi, təcrübi elmlərə əsaslanmağın zəruriliyini vurğulayırdı. Onun İranda modernləşmə ideologiyasının yaranmasına təsiri və iranlıların ona münasibəti barədə bir qeydi xatırlatmaq zəruridir.

Artıq qeyd edildiyi kimi, İran İslam Respublikasında "Qərb mədəni təcavüzündən asılı ziyalıların rolu" rubrikasından üçüncü kitab Mirzə Fətəli Axundova həsr edilmişdir. Lakin şahlıq rejimi zamanı iranlı müəllif F.Adəmiyyətin M.F.Axundov haqqında yazdığı kitab "Əndişehaye Mirzə Fətəli Axundzadə" şahın həyat yoldaşı Fərəhin başçılıq etdiyi Pəhləvi Fondunun mükafatına layiq görülmüş, Məhəmməd Rza şah isə həmin kitabın çapına icazə vermişdir [123, s. 63; qeyd 7]. Bu qeydlər İranda M.F.Axundovun elmi, fəlsəfi, politoloji, bədii ədəbi irsinə böyük əhəmiyyət verildiyini göstərir.

İranda modernləşmənin ilk ideoloqlarından biri də Mirzə Mülküm xan (1833-1908) hesab olunur [119, s. 78]. Parisdə təhsil alıb İrana qayıdan Mirzə Mülküm xan [104, s. 18] 1850-ci ildə Xarici İşlər Nazirliyində tərcüməçi, 1852-ci ildən Darülfünunda tərcüməçi və müəllim (riyaziyyat) işləmiş, 1856-cı ildə İstanbulda İran səfirliyində işə göndərilmiş, bir neçə ay sonra Fərrux xan Qəffari Əmin-od-Dövlə ilə birlikdə İngiltərə ilə sülh danışıqlarında iştirak üçün tərcüməçi kimi Londona getmiş və 1857-ci ildə yenidən İrana qayıtmışdır. 1858-ci ildə Nəsrəddin şahın şəxsi tərcüməçisi və yavəri, 1858-ci ildə "Fəramuşxana"nın ("Unudulma evi") təsisçisi olmuş, 1859-cu ildə isə buna görə vəzifəsindən azad edilmişdir. Bağdada sürgün edildikdən bir müddət sonra - 1861-1870-ci illərdə İranın İstanbuldakı səfirliyində müşavir, 1871-ci ildə bir neçə ay yeni sədr-əzəm təyin edilmiş Mirzə Hüseyn xan Sepəhsaların müşaviri olmuşdur. 1872-ci ildə Londonda Nəsrəddin şahın İngiltərəyə səfərini hazırlamış, 1873-1889-cu illərdə İngiltərədə səfir və fövqəladə səfir vəzifəsində çalışmış, 1890-cı ildə Lotereya imtiyazı alması ilə əlaqədar işdən kənar edilmişdir. O, 1890-1898-ci illərdə "Qanun" qəzetini (London) nəşr etdirmiş, 1899-cu ildən ömrünün sonuna kimi (1908) İtaliyada səfir kimi bir həyat yolu keçmişdir [226; 190, s. 11].

1858-ci ildə Nəsrəddin şah Avropa tipli 6 nazirlikdən ibarət hökumət kabineti təşkil edərək, Mirzə Cəfər xan Moşir-od-Dövləni onun başçısı təyin etdi. Mirzə Mülküm xan yeni hökumətin təşkilinə yardım etmək məqsədilə "Kitabçeyi qeybi" və ya "Dəftəri tənzimat" kimi məşhur olan hökumətin islahatı haqqında ilk layihəni yazaraq, Mirzə Cəfər xan Moşir-od-Dövləyə təqdim etdi. Bu islahat layihəsi İranın modernləşmə tarixində ilk layihə hesab olunur [226]. Həmin layihəni siyasi sferanın modernləşməsinin ilk dəfə ideoloji baxımdan əsaslandırılması, M.Mülküm xanı isə modernləşmənin ilk ideoloqlarından biri hesab etmək olar. "Kitabçeyi qeybi" iki hissədən ibarətdir.

Kitabın birinci hissəsində Avropa ölkələrinin inkişaf etməsi və Asiya dövlətlərinin geri qalması səbəbləri açıqlanır və çıxış yolu idarəetmə aparatının Avropa qaydaları əsasında islah edilməsində görülür. Kitabın ikinci hissəsi yuxu kitabı kimi tərtib edilmişdir. Müəllif yuxuda idarəetmə sisteminin islahatında bilavasitə iştirak edir və islahatların məzmunu və mahiyyəti haqqında öz fikirlərini bildirirdi.

M.Mülküm xan mütləq monarxiya üsul-idarəsinin sivil formasını təklif edirdi: şah icra hakimiyyəti səlahiyyətlərini hökumət, qanunvericilik səlahiyyətini tənzimləmə Məclisi vasitəsi ilə həyata keçirməlidir. Qəbul edilən qanunda bütün vətəndaşların qanun qarşısında bərabərliyi elan olunmalıdır. Mirzə Mülküm şəxsiyyətin və əmlakın toxunulmazlığı, vicdan azadlığı prinsiplərini elan edirdi. O göstərirdi ki, islahat zamanı tənzimləmənin quruluşu, icra hakimiyyətinin və hökumətin strukturu, hakimiyyətin bölgüsü, hər bir nazirlik haqqında və digər məsələlərlə bağlı qanunlar nəzərdə tutulmalıdır. Qanuni hakimiyyətin bərqərar olması üçün 180 qanun hazırlanmalıdır. Həmin qanunlar əsasında İran gülüstana çevriləcəkdir [262].

Göründüyü kimi, M.Mülküm xan layihəsində mütləq monarxiya rejiminin saxlanmasının zəruriliyini vurğulasa da, ölkənin qanunlar vasitəsi ilə idarə edilməsinin vacibliyini və yeni dövr üçün xarakterik bir sıra liberal prinsipləri də göstərmişdir. Konstitusiyalı, parlamentli monarxiya ideyası açıq şəkildə irəli sürülməsə də, qanun çərçivəsində fəaliyyət göstərən mütləq monarxiya həmin ideyaya çox yaxındır. İslahatın əsas nəticəsi Qanunun hakimiyyətinin bərqərar olmasına nail olmaq idi.

Elə həmin vaxt M.Mülküm xan "Fəramuşxana" deyilən və tədqiqatçılar tərəfindən müxtəlif cür qiymətləndirilən (ilk mason lojası; ilk siyasi təşkilat və ya cəmiyyət) bir cəmiyyət təşkil edir. "Fəramuşxana"nın iclaslarında "cümhuriyyət", "qanun", "millətin hüququ" və s. mövzular ətrafında bəhslər olurdu [206, s. 11]. Lakin istər yuxarıda adı çəkilən layihəni, istərsə də "Fəramuşxana"nın

mövcudluğunu öz maraqları üçün zərərli hesab edən hakim dairələr cəmiyyətin fəaliyyətinə son qoyulması və M.Mülküm xanın İrandan sürgün olunmasına nail oldular.

Bununla yanaşı, “Fəramuşxana” İranın siyasi həyatına mühüm təsir göstərdi, yeni ideyaların yayılmasına, istibdad rejiminə qarşı narazılığın artmasına təkan verdi. O dövrdən başlayaraq İranda M.Mülküm xan haqqında kifayət qədər geniş və eyni zamanda müxtəlif yönümlü və ziddiyyətli mövqenin əks olunduğu ədəbiyyat meydana gəldi. İran İslam inqilabından əvvəl və sonra da İranın modernləşməsi, tərəqqisi, inkişafı və liberalizm tərəfdarları onun fəaliyyətini yüksək dəyərləndirirdilər. Onun İranda mövcud olan siyasi sistemi, davranış normalarını, dövlətin “güzəştlər” siyasətini tənqid etməsi [206, s. 11; 36, s. 194], konstitusiyalı monarxiya formasında “hüquqi dövlət”, liberal iqtisadiyyat, insan hüquqlarının təmin olunması, parlamentarizm və ideya və prinsipləri müdafiə etməsi xüsusi vurğulanırdı [104, s. 17; 226].

İran inqilabından (1978-1979) sonra İranda anti-qərbçilik ənənələrinin tərəfdarları tərəfindən yazılan yazılarda M.Mülküm xanın ictimai-siyasi fəaliyyətinin bir sıra, həqiqətən də, neqativ cəhətləri ön plana çəkilir və onun modernləşdirmə sahəsində fəaliyyətinin üstündən sükutla keçilməyə çalışılırdı. Qeyd edildiyi kimi, “Qərb mədəni təcavüzündən asılı ziyalıların rolu” seriyasından birinci kitab Mirzə Mülküm xana həsr edilmişdir [231]. Müəlliflərdən biri M.Mülküm xana müsbət münasibəti belə dəyərləndirir: “sonralar onun statusunu yüksəldib məşrutə (konstitusiya) hərəkatının öndərləri sıralarında yerləşdirmələri qəmli bir zarafatdan başqa bir şey deyildir” [207]. Həqiqətən də, M.Mülküm xan S.H.Tağızadənin sonralar tərif vermək istədiyi milli ideallar uğrunda mübariz [147, s. 223] səviyyəsinə uyğun gəlmirdi. Onun siyasi, ideoloji fəaliyyətinin şəxsi maraqlarına və ya İranın tərəqqisinə xidmət etdiyini dəqiq aydınlaşdırmaq çox zaman çətinlik törədir.

Çünki o, şəraitə və statusuna uyğun olaraq rejimi, xüsusən Qacar şahlarını həm kəskin tənqid, həm də tərif edə bilərdi. Bütün bunlara baxmayaraq, M.Mülküm xanın kəskin tənqidi yazıları, qanunun hakimiyyəti ideyasını əks etdirən əsərləri İranda tənqidi, siyasi şüurun oyanması və inkişafına mühüm təsir göstərmişdir.

Artıq Nəsrəddin şahın dövründə (1848-1896) onun yazılarının İranda yayılması qadağan edilmiş və həmfikirləri təqib olunmuşdur [35, s. 54-55]. Lakin şahın ölümündən sonra M.Mülküm xan İtaliyaya səfir göndərilmiş və bundan sonra o, rejimə qarşı müxalif mövqeyindən əl çəkmişdir. Bununla belə, onun yazıları iranlılar arasında yayılmaqda davam etmiş və modernləşmə tərəfdarı kimi şöhrət qazanmasında mühüm rol oynamışdır.

M.Mülküm xanın digər maarifçilərdən daha geniş tanınmasını bir neçə amillə izah etmək olar. Birincisi və ən mühüm amil onun hakim elitanı təmsil etməsi idi. Bu, onun sözlərini daha inandırıcı edirdi, çünki hadisələrə rejimin daxilindən baxırdı. İkinci amil onun öz ideyalarını müxtəlif üsullarla – bədii, publisistik, müəyyən dərəcədə nəzəri şəkildə müxtəlif oxucu kütlələrinə çatdırması idi. Bəlkə bu səbəbdən, S.H.Tağızadə qeyd edir ki, onun siyasi dünyagörüşünün formalaşmasında M.Mülküm xanın "payı" 80% olmuşdur [150, s. 383].

İranda modernləşmənin ən görkəmli nümayəndələrindən biri də, liberalizmin ideoloqu hesab edilə bilən Mirzə Yusif xan Müstəşar-od-Dövlə olmuşdur. Darülfünunda təhsil almış, 14 il Rusiyada (1853-1867) və 3 il Fransada (1867-1870) diplomatik xidmətdə olmuş Mirzə Yusif xan sədr-əzəm Mirzə Hüseyn xan Səpəhsalar tərəfindən İrana dəvət olunaraq yeni təsis edilmiş Ədliyyə nazirliyinə müşavir təyin edilmiş, Ədliyyə nazirliyi və ədalətxana haqqında qanunun hazırlanmasında yaxından iştirak etmişdir [81].

Mirzə Hüseyn xanın hüquqi islahatlar keçirmək təşəbbüsünü dəstəkləyən M.Y.Müstəşar-od-Dövlə yaranmış əlverişli vəziyyətdən istifadə edərək özünün ən məşhur əsəri olan “Yek kəlmə”ni nəşr etdirmişdir. Rusiyada xidmət edərkən həmin dövləti nümunə hesab edən, Fransaya gəldikdən sonra Rusiyanın həmin ölkədən çox geri qaldığını görən M.Y.Müstəşar-od-Dövlə Avropa ölkələrini İran üçün nümunə kimi qəbul etmiş və Fransada “Yek kəlmə” əsərini yazıb başa çatdırmışdır [183]. Kitabın çapı İranda böyük marağa səbəb olmuş və mənəvi (ideoloji), siyasi həyatın ən böyük hadisəsinə çevrilmişdir [81]. Əsasən Fransa Konstitusiyasının şərhindən ibarət olan “Yek kəlmə” əsərində Fransa konstitusiyasının 19 maddəsi səbt olunmuş, Qurandan və şəriətdən gətirilən istinadlarla möhkəmləndirilmiş və izah edilmişdir. M.Y.Müstəşar-od-Dövlə əsas diqqəti konstitusiyanın aşağıdakı prinsip və normalarına yönəltmişdir: hakimiyyətin (qanunverici və icraedici) bölüşdürülməsi, xalqın siyasi proseslərdə bilavasitə iştirakı (parlamenti seçmək, hamının dövlət vəzifəsi tutmaq hüququ, xalqın hökumətin bütün tədbirlərində iştirak etmək hüququ), azadlıqlar (şəxsi, yığıncaq, mətbuat və siyasi), məhkəmə işləri (məhkəmə prosesində bərabərlik, istintaq prosesində andlıların iştirakı) [28, s. 55]. O, mülki qanunların dini qanunlardan üstünlüyünü vurğulayır və qanunun dəyişilən və reallığa uyğun olmasını vacib hesab edirdi. Onun fikrincə, qanun cəmiyyət üzvlərinin əmlak və həyatının toxunulmazlığını təmin etməlidir [28, s. 54]. Mirzə Yusif xan Müstəşar-od-Dövlə “Yek kəlmə”əsərində konstitusiyalı rejimin strukturu, komponentləri, onların fəaliyyət mexanizmi və qarşılıqlı fəaliyyətinin geniş təsvirini vermişdir [28, s. 55].

Mirzə Yusif xan Müstəşar-od-Dövlə siyasi hakimiyyətin ruhani hakimiyyətdən ayrılmasının zəruriliyi fikrini irəli sürmüşdür. Əsərində Mirzə Yusif xan Müstəşar-od-Dövlə ölkənin tərəqqisi üçün lazım olan digər tədbirlərdən də danışmışdır. O, sənətkarlığın, milli sənayenin, elm və elmi düşüncənin inkişaf etdirilməsi, proporsional

vergi sistemi, cəhalət və xürafatın aradan qaldırılması, siyasi partiya və cəmiyyətlərin təşkilinin vacibliyini göstərirdi. Bununla belə, hüquqi dövlət ideyasının daşıyıcısı kimi M.Y.Müstəşar-od-Dövlə belə hesab edirdi ki, tərəqqi və inkişafın əsasında qanun və qanunçuluq durur. Onun fikrincə, əvvəlcə qanun qəbul edilməli, sonra islahatlara başlanılmalıdır, əks təqdirdə, "tarixi hadisələrin gedişi bizi buna məcbur edəcəkdir" [28, s. 52]. İngiltərə və Fransa siyasi sistemlərini nümunə sayan, Fransa konstitusiyasının əsas maddələrini öz konstitusiya layihəsinə daxil edən M.Y.Müstəşar-od-Dövlə belə nəticəyə gəlir ki, Şərq xalqları Avropa xalqları kimi hüquqi qanunlar tətbiq etməyincə, tərəqqi mümkün olmayacaqdır [28, s. 54]. O, müsəlmanların geriliyinin aradan qaldırılmasını onların "avropalaşma"sında görürdü, bunun üçün müsəlmanlar avropalılara yaxınlaşmalı, Avropa mədəniyyətini mənimsəməlidirlər. O əmin idi ki, Şərq xalqlarının qabaqcıl Avropa mədəniyyətini mənimsəmələri saatı çatmışdır, bu mədəniyyət müsəlman Şərqini simasızlaşdırmayacaq.

M.Y.Müstəşar-od-Dövlənin dediyi kimi, "Avropa ölkələrinin həqiqi vəziyyətini öz gözləri ilə görüb dərk etmək böyük insanların işidir" [28, s. 68]. M.Y.Müstəşar od-Dövlə təkidlə müsəlman xalqlarının xristianlarla yaxınlaşması, Şərq xalqlarının Avropa mədəniyyətini mənimsəməsi fikrini müdafiə edirdi [28, s. 68-69].

İran İslam Respublikasında maarifçilərin mənəvi irsinə yenidən baxış çərçivəsində M.Yusif xanın qanunun bütün ictimai-siyasi problemlərin çarəsi olduğunu əsaslandırmağa çalışması müsbət qiymətləndirilsə də, həmin qanunu başqa əcnəbi mənbədən əxz etməsi və xüsusən onun liberalizmi mənfi dəyərləndirilir [183].

Beləliklə, Mirzə Yusif xan Müstəşar-od-Dövlə "Yek kəlmə" əsərində siyasi sistemin modernləşməsinin liberal proqramını irəli sürmüşdür. Həmin proqramın mahiyyətini Avropa mədəniyyətini mənimsəmək prinsipi təşkil edirdi. Mİrzə Yusif xan Müstəşar-od-Dövlə əslində demokratik, liberal prinsiplərin hakim olduğu bir

cəmiyyətin təşkilinin proqramını irəli sürmüşdür. Bu proqramın İran şəraiti üçün ən gözlənilməz cəhəti dinin siyasətdən ayrılması və ruhanilərin dövlət işlərindən uzaqlaşdırılması, ümumiyyətlə, ruhanilərin məhkəmə işlərindən uzaqlaşdırılması, məhkəmə hakimiyyətindən məhrum edilməsi tələblərini əhatə etməsi idi. Belə ki, qeyd edildiyi kimi, Əli Məhəmməd Bab yeni "Müqəddəs səltənət" çərçivəsində bəzi demokratik, liberal prinsiplər elan edirdisə, M.Y.Müstəşar-od-Dövlə dinin və ruhanilərin hakimiyyətdən kənar olunması şəraiti çərçivəsində, yəni dünyəvi siyasi sistem çərçivəsində demokratik, liberal ideyalar irəli sürürdü. M.Y.Müstəşar-od-Dövlə bütöv demokratik, liberal və dünyəvi sistemin proqramını irəli sürmüşdür. Lakin onun öz dövrü üçün radikal görünən ideyaları çoxları tərəfindən, yəqin ki, mənimsənilə, "həzm edilə" bilmədiyindən, M.Y.Müstəşar-od-Dövlənin adı Məşrutə hərəkatının ideya-siyasi yaradıcıları arasında, demək olar ki, qeyd olunmur. Lakin M.Y.Müstəşar-od-Dövlədən sonra fəaliyyət göstərmiş digər modernləşdirmə ideoloqları siyasi sistemin modernləşdirilməsi məsələsində onun səviyyəsinə yüksələ bilməmişlər.

İranda modernləşmə ideyalarının yayılmasında Cənubi Azərbaycandan olan maarifçi, Şimali Qafqazda yaşayıb-yaratmış Mirzə Əbdürrəhim Talıbovun da (1834-1911) mühüm rolu olmuşdur [103; 124; 125; 126; 127; 128]. M.Ə.Talıbov fəaliyyətə bir əməkçi kimi başlayaraq, öz sahəsində uğura və müəyyən maddi təminata nail olduqdan sonra, 50 yaşlarından tamamilə yeni fəaliyyət sahəsinə – maarifçiliyə üz tutmuşdur. O, ilk növbədə, təbiət elmləri sahəsində biliklərini başqalarına ötürmək ehtiyacı hiss edərək, iranlıları həmin elmin sirləri ilə tanış etmək məqsədi ilə kitablar yazmağa başlamışdır. M.Ə.Talıbovun çap etdirdiyi ilk kitablar "Risaleye fizik" ("Fizika traktatı", İstanbul, 1893), "Səfineye Talibi ya Ketabe Əhməd" ("Talibinin gəmisi və ya Əhmədin kitabı", 2 cilddə, İstanbul, 1894, 1895), "Risaleye heyəte cədid" ("Yeni astronomiya

traktatı" (Kamille Flamaruonun əsərinin sərbəst tərcüməsi), İstanbul, 1895) sırf elmi məlumatları əhatə edir, hətta dərslik kimi nəzərdə tutulmuşdur.

İranda ictimai-siyasi vəziyyət gərginləşdikcə siyasi və mədəni canlanma yüksəldikcə və xüsusən Məşrutə (Konstitusiya) inqilabı başlanandan sonra M.Ə.Talıbov daha çox siyasi məzmunlu əsərlər nəşr etdirir və bir tərəfdən iranlıların siyasi şüurunun inkişafına yardım etməyə, digər tərəfdən Konstitusiya hərəkatının fəallarının və deputatların fəaliyyətini istiqamətləndirməyə çalışır. Onun "Məsalikül-möhsinin" ("Yaxşıların məsləkləri", 1905), "Məsail-ol-həyat" ("Həyat məsələləri", 1906), "İzahat dər xosuse azadi" ("Azadlığa dair izahatlar", 1908), "Siyasəte Talibi" ("Talibi siyasəti", 1911) adlı əsərləri Qərb mədəniyyətinə münasibət, siyasi liberalizm, sosial-demokratik ideyaların təbliği məsələlərinə həsr olunmuşdur [44; 102; 225].

M.Ə.Talıbovun Qərb mədəniyyətinə münasibəti "Məsail–ol-həyat" ("Həyat məsələləri") kitabında öz əksini tapmışdır. Müəllif ruhanilərin Qərb mədəniyyətinə münasibətinin araşdırılması formasından istifadə etmişdir. Əsərdə üç dini alim-ilahiyyatçı təsvir edilmişdir. Onlardan biri Qərbin yeni ideyalarını müsbət qiymətləndirərək müasir dünyanın qayda-qanunlarını mənimsəməyi lazım bilir. İkinci ilahiyyatçı müasirləşmə istiqamətində islahatların aparılmasının əleyhinədir. Üçüncü ilahiyyatçı isə ölkənin tam müasirləşməsi tərəfdarıdır. Bununla, M.Ə.Talıbov ruhanilərin məhdud hissəsinin yeniləşməyə müxalif olduğunu nəzərə çarpdırmağa, ruhaniləri yeniləşməyə dəstək verməyə çağırmağa çalışırdı. M.Ə.Talıbovun mühafizəkar ruhanilərə münasibəti kəskin tənqidi xarakter daşıyırdı [124, s. 111]. O həmçinin "şəriətin yeni şəraitə uyğun olan minlərlə əlavəyə ehtiyacı olduğunu" qeyd edirdi [125, s. 43].

M.Ə.Talıbov Qərb mədəniyyətinin mənimsənilməsinin vacibliyini Yaponiyanın nümunəsində əsaslandırmağa çalışaraq, "Məsail-ol-həyat" kitabında Yaponiya konstitusiyasının tərcüməsini vermiş-

dir. İngilis parlamentarizmini özünün idealı hesab edən [28, s. 53] M.Ə.Talıbov konstitusiyalı rejimin ətraflı şərhini vermişdir [28, s. 54]. O, konstitusiyadan danışarkən vurğulayırdı ki, konstitusiya padşahın və xalqın hüquqlarını aydın şəkildə müəyyən edən əsas qanundur [125, s. 104].

Qanunun əhəmiyyətini yüksək qiymətləndirən M.Ə.Talıbov qeyd edirdi ki, qanun olmayan ölkədə ədalət və maraqlar da yoxdur, maraq olmayan yerdə mədəniyyət, mədəniyyət olmayan yerdə xoşbəxtlik də yoxdur [127, s. 86]. O, belə hesab edirdi ki, xalqın siyasətdə iştirakı və qanunun hakimiyyəti iranlılarının bütün problemlərini həll edəcəkdir [124, s. 50]. Qısa şəkildə desək, M.Ə.Talıbov elmi biliklərin yayılmasına çalışır, azadlıq və qanunun hakimiyyəti ideyasını təbliğ edirdi. O, qərbin inkişafının sirrini elm, azadlıq və qanunun hakimiyyətində görürdü. M.Ə.Talıbov eyni zamanda milli adət-ənənələrin qorunub saxlanması tərəfdarı kimi çıxış edirdi [102].

M.Ə.Talıbovun modernləşdirmə fəaliyyətinə münasibət müxtəlifdir. Bəziləri belə hesab edir ki, o, “siyasi radikalizmə meyilli, sosial-demokrat məfkurəsinin tərcümanı” idi [122]. Digərləri belə hesab edir ki, M.Ə.Talıbov liberalları şəriətə əl gəzdirməkdən çəkindirirdi. O deyirdi: “Olmaya şəriətə əl gəzdirilə” [93]. Halbuki, rəsmi ideologiyada M.Ə.Talıbovun İslam dininə qarşı təbliğat apardığını, dünyəvilik, dinin siyasətdən ayrılması ideyasını müdafiə etdiyi ön plana çəkilir [123, s. 49-56].

Əslində M.Ə.Talıbov heç vaxt İslam dininin əsaslarını müzakirə obyektinə çevirməmiş, mənfəətpərəst ruhaniləri kəskin tənqid etmişdir [28, s. 67]. M.Ə.Talıbov maarifçilik və siyasi modernləşmə ideyalarının təbliği ilə XIX əsrin sonlarından məşğul olmağa başladığından, onun kitabları İranda geniş yayılaraq, Məşrutə inqilabının hazırlanmasında mühüm rol oynamışdır [206, s. 44]. Təsadüfi deyil ki, o, İranın ilk parlamentinə Təbrizdən nümayəndə seçilmiş, lakin

ruhanilərin ona qarşı geniş təbliğatı nəticəsində parlamentin işində iştirak etməmişdi.

M.Ə.Talıbovu geniş kütlənin maarifçisi, ziyalıların, modernləşmə tərəfdarları olan intellektualların ideoloqu adlandırmaq olar. Belə ki, onun "Azadlığa dair izahatlar" və "Talibinin siyasəti"əsərləri məhz bu intellektuallara ünvanlanmışdı.

İranın modernləşməsi ideoloqlarından biri də Cənubi Azərbaycandan olan, Qafqazda və Türkiyədə yaşayıb-yaratmış Zeynalabdin Marağayidir (1837-1910). Onun ictimai-siyasi və s. baxışları "İbrahim bəyin Səyahətnaməsi" adlı romanında [11; 209; 218] öz əksini tapmışdır. Daha çox İranın mövcud durumunu kəskin tənqid edən müəllif modernləşmə məsələsində M.Y.Müstəşar-od-Dövlə və M.Ə.Talıbova nisbətən daha mülayim və ziddiyyətli mövqe tuturdu. O, mötədil konstitusiya islahatı uğrunda çıxış edir və parlamentə məşvərətçi orqan kimi baxırdı [28, s. 53]. Z.Marağayi konstitusiyalı monarxiya ideyasını müdafiə edir, eyni zamanda monarxın "xoşməramı"ndan da ümidini üzmürdü [28, s. 57]. Z.Marağayi ruhaniləri kəskin tənqid edir və eyni zamanda yazırdı: "Müqəddəs İslam dini bizə ədalət və bərabərliyi hökm edir" [28, s. 43]. O, yeniləşmə və tərəqqinin zəruriliyini yüksək qiymətləndirirdi. Onun fikrincə, iranlılar elm və tərəqqiyə meyl etməsələr, dədə-baba qaydası ilə yaşamaqda davam etsələr, onların milli qürur və müstəqilliyi əbədi olaraq ayaqlar altında qalacaqdır [28, s. 59]. Z.Marağayi də Avropa mənəvi dəyərləri və nöqsanlı cəhətlərini qəbul etməyin əleyhinə çıxırdı, onun fikrincə, bu, "milli ənənələrin itirilməsinə" səbəb olar [28, s. 67].

Z.Marağayinin əsəri də İranda qadağan olunmuş kitablar sırasında idi. Bununla belə, bu əsərlər İranda çox geniş yayılmış və Konstitusiya hərəkatının genişlənməsində mühüm rol oynamışdır. S.Ə.Kəsrəvi yazırdı: " "İbrahim bəyin Səyahətnaməsi"nə gəldikdə deməliyəm ki, həmin əsərin dəyərini o kəslər bilir ki, onu o zamanlar

oxumuşlar və oxucuda yaratdığı təsirləri yaxşı xatırlayırlar. O günlərdə əksər insanların həyatın acısına, zəmanənin zülmünə adət etdikləri bir zamanda…bu kitabı oxumaqla sanki yuxudan ayılırdılar”. “İbrahim bəyin Səyahətnaməsi” iranlıların oyanışına güclü təkan verdi” [206, s. 45]. Nazim-ol-İslami Kermani özünün, əsasən, 1904-1911-ci illəri əhatə edən xatirələrdən ibarət olan “Tarixi bidariye iraniyan” adlı əsərində qeyd edir ki, “İbrahim bəyin Səyahətnaməsi” bütün kitablardan daha çox oxunan kitab idi. Gizli cəmiyyətlərdə onun kollektiv oxunuşu təşkil edilir və dinləyicilərə son dərəcə güclü təsir göstərirdi [184].

Abdulla Mostoufi də öz xatirələrində qeyd edir ki, məşrutə məfkurəsinin formalaşmasında H.Z.Marağayinin “İbrahim bəyin Səyahətnaməsi”, M.Ə.Talıbovun “Səfineyi Talibi ya Ketabe Əhməd” əsəri və Hindistanın (Pakistanın – Ş.Ə.) məşhur şairi İqbal-od-Dövlənin risalələri əsas rol oynamışdır [184]. Həmin əsərlərin əhəmiyyətini düzgün qiymətləndirmək üçün belə bir fakta da diqqət yetirmək lazımdır ki, “İbrahim bəyin Səyahətnaməsi”ndə İbrahim bəyin Z.Marağayinin evində “Səfineye Talibi ya Ketabe Əhməd”-i oxuduğu qeyd olunmuşdur [184].

Z.Marağayi əsasən İranda mövcud olan ictimai-siyasi durumu kəskin tənqid etmiş və bununla da mövcud vəziyyətin dəyişdirilməsinin zəruriliyini nümayiş etdirməyə çalışmışdır. Onun əsərinin təsir gücünü janr, üslub xüsusiyyətindən əlavə, həm də müəllifin kəskin tənqidi mövqeyi ilə izah etmək olar.

Beləliklə, yuxarıda haqqında məlumat verilən İranda modernləşmə ideoloqlarının ideyalarını ümumiləşdirərək, bu ideologiyanın əsas məqamlarını aşağıdakı kimi qeyd etmək olar:

- Modernləşmə ideologiyasının mərkəzi elementini siyasi sistemin modernləşdirilməsi ideyası təşkil edir. Siyasi sistemin modernləşdirilməsi qanunun hakimiyyətinin bərqərar olması ilə

mümkün ola bilər. Siyasi sistemin modernləşməsi siyasi və hüquqi sahədə digər yeniliklərin meydana gəlməsini şərtləndirir;

- Modernləşmə ideologiyasının mühüm ünsürlərindən biri elmin və savadlılığın yayılması ideyasıdır. Elmin və savadlılığın yayılması isə yeni təsisatların meydana gəlməsini tələb edir;

- Modernləşmə ideoloqları, ayrıca bəhs etməsələr də, yeniləşmənin digər daha mühüm sahələrinin - milli sənayenin, kənd təsərrüfatının, ticarətin, infrastrukturun yaradılması və inkişaf etdirilməsinin zəruriliyini vurğulayırdılar.

Beləliklə, modernləşmə ideoloqları İranın tərəqqisinin əsas ictimai, siyasi, mədəni istiqamətlərini və həmin sahədə aparılmalı olan islahatların proqramını bu və ya digər şəkildə işləyib hazırlamışdılar. Bu ideologiyanın əsas xüsusiyyəti qeyri-vesternləşmə və əsasən qeyri-liberal məzmuna malik olması idi. Lakin modernləşdirmə ideoloqlarının yazıları iranlıların ictimai, siyasi, mədəni şüurunun genişlənməsi, böyüməsi və inkişafının, bir sözlə, struktur və məzmun dəyişikliyinin yeganə mənbəyi deyildi. Modernləşmənin xüsusi fəaliyyət sahəsi, yəni ideologiya formasında meydana gəlməsi bir tərəfdən, cəmiyyət qarşısında duran problemlərin xeyli kəskinləşməsi, digər tərəfdən, həmin problemlərin həllində maraqlı olan sosial qüvvələrin formalaşdığını göstərirdi. Bu baxımdan, modernləşdirmə ideoloqları bir tərəfdən, ümummilli maraqları əks etdirirdilərsə, digər tərəfdən, formalaşmaqda olan yeni münasibətlər və sosial qüvvələrin maraqlarını ifadə edirdilər. İran cəmiyyəti öz problemlərini dərk edir, onun həlli yollarını arayır, müəyyən proqram irəli sürür, bu və ya digər dərəcədə onları həyata keçirməyə cəhdlər edirdi.

Hakim elitaya daxil olan mütərəqqi siyasi xadimlər, ziyalılar mövcud rejim çərçivəsində modernləşdirmənin zəruriliyi ideyasını təbliğ edirdilər. Bu hal, xüsusən ölkədə islahatlar aparıldığı illərdə geniş vüsət alır, lakin onların dayandırılması ilə dərhal zəifləyirdi. Bu

da həmin fəaliyyətin xaricə keçirilməsinə və deməli, istənilən halda davam etməsinə səbəb olurdu.

Beləliklə, XIX əsrin 50-ci illərindən başlayaraq İranda modernləşmə ideologiyası yaranmağa başlayır, təkmilləşir, genişlənir və inkişaf edirdi.

# II FƏSİL
# SEYİD HƏSƏN TAĞIZADƏNİN İCTİMAİ VƏ ELMİ FƏALİYYƏTİ

## S.H.Tağızadənin dünyagörüşünün formalaşması

XIX əsrin sonları - XX əsrin əvvəlləri, qeyd edildiyi kimi, İranın xarici asılılığının güclənməsi və yarımmüstəmləkəyə çevrilməsi, iqtisadi, siyasi, sosial və mədəni sferalarda yeni münasibətlərin meydana gəlməsi, xarici və daxili ziddiyyətlərin kəskinləşməsi, cəmiyyətdə yeni ilə köhnənin mübarizəsinin getdikcə genişlənməsi ilə xarakterizə olunurdu. Həmin ziddiyyətlər və mübarizə İranın ən inkişaf etmiş əyaləti olan Cənubi Azərbaycanda, xüsusən onun paytaxtı Təbriz şəhərində daha kəskin şəkil almışdı. Təbrizdə bu dövrdə artıq orta təbəqə yaranmış, milli sənaye obyektləri, maliyyə və ticarət birlikləri meydana gəlmişdi. Orta təbəqə yeni münasibətlərin bərqərar olmasına daha geniş şərait yaradılması uğrunda bu və ya digər vasitələrlə və müxtəlif formalarda mübarizə aparırdı.

Azərbaycan vilayətinin tarixən ənənəvi olaraq taxt-tacın varisi tərəfindən demək olar ki, müstəqil şəkildə, xüsusən 1896-cı ildən başlayaraq Məhəmməd Əli Mirzə tərəfindən idarə olunması əyalətdə siyasi, sosial, mədəni ziddiyyətlərin daha kəskin forma kəsb etməsinə şərait yaradırdı. Cənubi Azərbaycanın Rusiya və Türkiyə ilə həmsərhəd olması, onların vasitəsilə Avropaya çıxmaq imkanı əyalətdə xarici və daxili ticarətin inkişaf etməsinə, ticarət-əkinçiliyinin inkişafı iqtisadi münasibətlərin kəskinləşməsinə, o cümlədən ruhanilərin yuxarı təbəqəsinin daxil olduğu hakim dairələrin, qeyri-formal ittifaqının yaranmasına, onların vəliəhd ətrafında sıx birləşməsinə səbəb olurdu. Orta təbəqənin formalaşması isə həmin dairələrə qarşı müxtəlif üsul və vasitələrlə mübarizə aparılmasına

şərait yaradırdı. Cənubi Azərbaycanın siyasi-ictimai fəallıq baxımından İranın ən inkişaf etmiş əyaləti olmasının göstəricilərindən biri də mühacir müxalif mütərəqqi mətbuat orqanlarının azərbaycanlılar tərəfindən təsis edilməsi, İran maarifçiləri və ya modernləşdirmə ideoloqlarının cənubi azərbaycanlılardan ibarət olması idi.

Seyid Həsən Tağızadə belə bir yeniliklərin yaşandığı Təbriz şəhərində 1878-ci ildə ali ruhani (müctəhid) ailəsində dünyaya gəlmişdir. Onun atası Seyid Tağı Rusiya imperiyasının tərkibinə daxil olan Şimali Azərbaycanın Naxçıvan Vilayətinin (uyezdinin) Ordubad nahiyəsinin Vənənd kəndində doğulmuşdur. Həmin vaxtlarda Vənənddə 100-200 ailə yaşayırdı [150, s. 1, 12, 14].

S.H.Tağızadə Mir Haşimin nəslindəndir. Mir Haşimin oğlu Hacı Nasirin iki oğlundan biri Seyid İbrahim və onun dörd oğlundan böyüyü Ağa Seyid Əli hörmətli, bilikli və alim adam idi. Ağa Seyid Əlinin böyük oğlu Ağa Seyid İbrahim molla və axund olmuşdur; Təbrizdə məscidi və mehrabı var idi. Ağa Seyid İbrahimin üçüncü oğlu Seyid Tağı idi. Dördüncü oğlu Mir Kərim savadlı olub şeir bilicisi idi [150, s. 14-15]. Seyid Tağıdan başqa digər oğulların hamısı mülkədar idi. Seyid Həsən Tağızadənin atası gəncliyindən elm və təhsilə maraq göstərmiş və böyük qardaşı Ağa Seyid Əlinin himayəsi altında əvvəlcə Təbriz mədrəsəsində, sonra 17 il Nəcəfdə ali dini təhsil almışdır [150, s. 15]. 1872-ci ildə Təbrizə qayıdan Seyid Tağı Hacı Cabbar Şəbüstərinin oğlu Ağa Məhəmməd Cəfərin qızı ilə evlənmişdir. Ağa Məhəmməd Cəfərin anası Hacı Cabbar Şəbüstərinin qardaşı Hacı Abu Talıb Şəbüstərinin qızı idi. Başqa sözlə, Seyid Həsən Tağızadənin anası həm ata, həm də ana tərəfdən Şəbüstərilər (iki qardaş) nəslindən idi və adı çəkilən iki qardaş Şəbüstərin tanınmış və iri mülkədarlarından idilər [150, s. 16-17].

S.H.Tağızadənin atası əvvəlcə kiçik bir məsciddə imamlıq (pişnamazlıq) etmiş, sonra yaxınlıqdakı iri məscidin imamcüməsi Hacı Seyid Bağır Yəzdi ailəsi ilə birlikdə Nəcəfə köçdüyündən,

həmin məscidin imamcüməsi olmuş və vəfatına (1907) qədər həmin vəzifəni yerinə yetirmişdir [150, s. 17]. Yeri gəlmişkən, qeyd edək ki, ondan sonra həmin məsciddə onun böyük oğlu imamcüməlik etmişdir [150, s. 17-18].

S.H.Tağızadə istinad edilən xatirələrində onu da xüsusi qeyd edir ki, atası Rusiya təbəəsi hesab edilməsin deyə, adının Vənənddə mövcud olan doğum haqqında dəftərdən çıxarılmasına nail olmuşdur [150, s. 16]. Başqa sözlə, Seyid Tağı Rusiya vətəndaşlığından çıxaraq, İran vətəndaşlığını qəbul etmişdir. S.H.Tağızadə bu faktı atasının “kamil iranlı”lığı ilə izah edir. Seyid Tağının həmin addımının konkret motivi bizə məlum olmasa da, qeyd edə bilərik ki, həmin faktın S.H.Tağızadənin sonrakı həyatının bəzi məqamlarına təsiri olmuşdur: bununla, S.H.Tağızadə formal olaraq tam iranlı olduğunu vurğulamaq istəmişdir. Bütün bunlara baxmayaraq, S.H.Tağızadə yuxarıda deyildiyi kimi, həm Şimali (ata), həm də Cənubi Azərbaycanı (ana) təmsil edirdi.

S.H.Tağızadənin atası yüksək rütbəli ruhani kimi ömrünü ibadətdə keçirmişdir [150, s. 18]. S.H.Tağızadənin özünün yazdığına görə, atası 24 il ərzində (1873-1897) Təbrizin birinci dərəcəli ruhanisi - mərcəi olmuşdur. O, məsciddə şəriət məsələlərini də tədris edirdi, öz mədrəsəsi - dini mərkəzi var idi. Azərbaycan valisi - vəliəhd Müzəffərəddin Mirzə Seyid Tağının məscidində namaz qılırdı [150, s. 19]. Seyid Tağı imamcümə, müdərris idi, lakin hakimlik etmirdi. Zahid və təkliyə üstünlük verən bir insan idi [150, s. 20]. S.H.Tağızadənin atası övladlarının tərbiyəsində çox ciddi idi və ifrat quru müdərrislik tərəfdarı olub, onları gənclərə məxsus asudə vaxt keçirmək üsullarından uzaq saxlamağa çalışırdı [150, s. 20].

Ruhani ailəsində dünyaya göz açan S.H.Tağızadə özünün yazdığına görə, artıq 5 yaşında Qurani-Kərimi oxuyub bitirmişdir və fars dilini öyrənməyə başlamışdır [150, s. 24]. O, 8 yaşından mədrəsədə tədris olunan kitablarla tanış olmağa başlayır və müxtəlif

sahələrə aid 17-dən çox kitab oxuyur. S.H.Tağızadə təqribən 20 yaşına qədər mədrəsə təhsili almaqla məşğul olmuşdur [150, s. 25]. Seyid Həsən 14 yaşından etibarən mədrəsə təhsili ilə yanaşı, qədim və orta əsrlərə aid rasional elmlərə - hesab, həndəsə, riyaziyyat, astronomiya, hikmət, kəlam və s. elmlərə yiyələnməyə başlayır. Evklid, Ptolemey, Arximed və başqa görkəmli alimlərin əsərlərini mütaliə edir [150, s. 25]. S.H.Tağızadə tibb elminə də böyük maraq göstərir. Əvvəlcə qədim tibb ilə, 17-18 yaşlarından isə Avropa tibb elmi ilə tanış olmağa başlayır. Tibbin əsaslarına yiyələnmək üçün anatomiya, fizika, kimya, astronomiyanı öyrənir. Avropa kitablarını oxumaq üçün fransız dili ilə məşğul olur [150, s. 25].

1898-ci ildə Həsən Əli xan Goruslu Azərbaycan vilayətinə pişkar (valinin adından onun işlərini idarə edən) təyin edilir və dövrünün ən böyük alimlərindən hesab edilən doktor Məhəmməd Kermanşahini ("Kofra" kimi tanınırdı) şəxsi həkimi kimi özü ilə Təbrizə gətirir. S.H.Tağızadə 3 ildən çox müddət ərzində onun dərslərində iştirak edərək fizika, anatomiya, fiziologiya, patologiya elmlərini mənimsəyir [150, s. 30-31].

S.H.Tağızadə fransız dilini 6 il (1894-1899) ərzində öyrənmişdir [150, s. 26]. 1898-ci ildən başlayaraq əsas etibarilə Avropa elmlərinə yiyələnməklə məşğul olmuşdur [150, s. 26]. Nəhayət, 1899-cu və ya 1900-cu ildə Təbrizdə fəaliyyət göstərən Amerika məktəbinə daxil olmuş, iki ilə yaxın bir müddətdə ingilis dilində tədris olunan dərslərdə iştirak etmiş və bu dili də mənimsəmişdir. Eyni zamanda amerikalı müəllimlərin iştirakı ilə kimyəvi və mexaniki hərəkətləri nümayiş etdirən elmi fəlsəfi kitabı (yəni laboratoriya təcrübələri haqqında dərsliyi) mütaliə etmişdir [150, s. 31].

Göründüyü kimi, S.H.Tağızadə elmə və biliyə olan marağını, yəni informasiya və idrak tələbatını ödəmək üçün mövcud imkandan mümkün qədər istifadə etməyə çalışırdı. Böyüdüyü ailə mühitini nəzərə alsaq, bu, S.H.Tağızadə üçün o qədər də asan iş deyildi. Belə

kİ, S.H.Tağızadənin atası Seyid Tağı tam yüksək rütbəli bir ruhani olduğundan, İslam dininin və şəriətin mövqeyinin qorunması və yüksəldilməsinə çalışdığından, övladlarının əcnəbi təsirindən uzaq qalmasına ciddi əhəmiyyət verərək onların müasir elmlərlə və xarici dillərlə tanış olmalarına icazə vermirdi. S.H.Tağızadə yeni elmləri atası sağ olarkən ondan gizli şəkildə öyrənirdi. O, atasının dini təəssübkeşlikdən uzaq olduğunu qeyd etsə də, onun müasirliyə münasibətdə qatı mühafizəkar və qeyri-açıq fikirli bir şəxs olduğunu söyləmək olar. Bu baxımdan S.H.Tağızadənin atasının iradəsinin əleyhinə hərəkət etdiyi, başqa sözlə, maraq dairəsinin genişliyi və yeniliyə açıq olduğu müşahidə olunur. S.H.Tağızadənin atası ölümündən 8 ay əvvəl oğlunun yeni elmləri öyrənməklə məşğul olduğundan xəbər tutaraq, qəti şəkildə onu bu məşğuliyyətdən daşındırmağa çalışmışdı.

Lakin S.H.Tağızadə yeni elmlərlə məşğul olmağa davam etmiş və bu məşğuliyyətinə ara verməmişdir. O, yalnız yeni elmləri öyrənməklə kifayətlənməmiş, həm də İslam, xüsusən şiəlik aləmində bidətçi təriqət hesab edilən Şeyxiyyə təriqətinin əsasları ilə də maraqlanırdı. S.H.Tağızadə Şeyxiyyə təriqətinin əsaslarını Şeyx Əli Cavandan öyrənmiş, daha doğrusu, onunla birlikdə təriqətin banisi Şeyx Əhməd Ehsaninin kitablarını və onların şərhlərini dərindən mütaliə etmişdir [150, s. 26]. Şeyxiyyə təriqətinin əsas müddəaları məadi qəbul etməməsi və qeyb olmuş imamın yoxluğu müddətində imamla şiələr arasında vasitəçi rolunu oynayan və “kamil şiə” adlandırılan insanın olmasının zəruriliyinə inamdır [194]. Təbii ki, “kamil şiə” rolunda Şeyxiyyə təriqətinin başçısı çıxış etdiyindən ortodoksal şiəlik tərəfindən qəbul edilə bilməzdi, ona görə də bidətçilik hesab edilirdi.

S.H.Tağızadə 1891-1897 illərdə həm dini, həm də yeni elmləri öyrəndiyi halda, 1897-ci ildən sonra başlıca olaraq Avropa elmlərini öyrənməklə məşğul olmuşdur. 1898-ci ildən əvvəl S.H.Tağızadə bir

müddət Təbriz Darülfünununda (Müzəffəriyyə) təhsil almış, əsasən, həndəsə, hesab, coğrafiya, fiziologiya və s. elməri öyrənmişdir. S.H.Tağızadə xatirələrində qeyd edir ki, 1898-ci ildən Təbriz Darülfünununda fizika fənnini tədris etməyə qəbul olundu [150, s. 27]. Bu qeyd şübhə doğurur, çünki Azərbaycan maarifinin tədqiqatçısı İ.Şəms həmin məktəbin 1897-ci ildə Azərbaycanın yeni valisi, öz mühafizəkarlığı, istibdada, ruhanilərin təsirinə meylliliyi ilə fərqlənən vəliəhd Məhəmməd Əli Mirzə tərəfindən bağlandığını göstərir [61, s. 22].

Həmin dövrdə S.H.Tağızadə siyasi, ictimai və əsasən, yeni ideyaları özündə əks etdirən Avropa kitablarını, onların türk və ərəb dillərinə tərcümələrini, eləcə də ərəb və türk dillərində yazılan orijinal yazıları və fars dilində geniş yayılan mühacir qəzetlərini, xaricdə nəşr edilən maarifçilik ədəbiyyatını intensiv şəkildə mütaliə edirdi. S.H.Tağızadə xatirələrində göstərir ki, Fransa, Osmanlı, Misir kitablarını, maarifçilərdən M.Mülküm xanın, Ə.Talıbovun əsərlərini, İstanbulda fars dilində nəşr olunan "Əxtar" qəzetini (1875-1896) ardıcıl, Misirdə fars dilində nəşr olunan "Sürəyya", "Hikmət", "Pərvəriş", Kəlküttədə fars dilində nəşr olunan qəzetləri, H.Z.Marağayinin İstanbulda nəşr olunan və İranda qadağan olunan "İbrahim bəyin Səyahətnaməsi" əsərini, "Gənc türklərin" Parisdə nəşr olunan və gizli şəkildə İrana gətirilən "Şurayi ümumət" qəzetini və s. böyük maraqla mütaliə edirdi [150, s. 26].

S.H.Tağızadə 1896-1902-ci illərdə təhsil almaqla yanaşı, müəyyən dərəcədə siyasi fəaliyyətlə də məşğul olurdu. Həmin illərdə "siyasi məsələlərə, yeni mədəniyyətə, siyasi azadlığa, qadın azadlığına, xüsusən fikir azadlığına güclü maraq oyanmışdı" [150, s. 32]. S.H.Tağızadə Mirzə Mülküm xanın Qanunun hakimiyyətinin bərqərar edilməsi ideyasını, M.Ə.Talıbovun təbiət, ictimai, siyasi məsələlərə elmi yanaşma, sosial-demokrat məzmunlu ideyalarını, Z.Marağayinin İran ictimai həyatına kəskin tənqidi yanaşma üsulunu

mənimsəmişdir. S.H.Tağızadə özü adları qeyd edilən şəxsiyyətlərin, həm İranda məşrutə təfəkkürünün, həm də onun özünün dünyagörüşünün formalaşmasına mühüm təsir göstərdiyini qeyd etmiş və xüsusi olaraq M.Mülküm xanın həlledici təsirini vurğulamışdır. Yuxarıda qeyd edilmiş müəllif C.Behnam bunu belə izah edir ki, S.H.Tağızadəyə M.Mülküm xanın "heç bir İran ünsürü əlavə etmədən Avropa mədəniyyətini qəbul etməyə çağırması" [120, s. 58] həlledici təsir göstərmişdir. S.H.Tağızadənin dünyagörüşünün formalaşmasında, qeyd edildiyi kimi, çoxsaylı amillər rol oynamışdır.

Tamamilə yeni ictimai, siyasi ideyalarla tanış olan S.H.Tağızadə Təbriz şəhərində yenilik, modernləşdirmə tərəfdarları ilə əlaqə yaratmağa başlamışdır. S.H.Tağızadə və onun uşaqlıq yoldaşı, dostu, modernləşdirmə ideyalarının mənimsəmiş, yeni elmi bilikləri və xarici dilləri öyrənmiş Mirzə Məhəmməd Əli (sonra Tərbiyət) Təbrizin ən məşhur yenilikçisi hesab edilən, yeni ideyaları təbliğ edən qəzetlərin naşiri Mirzə Seyid Hüseyn xan ("Ədalət"), Ağa Seyid Məhəmməd Şəbustəri ("Əbülziya") və Məşhədi Ələsgər Ordubadi ("Millət") ilə əlaqə yaratmış və onlarla birgə kiçik bir dərnək (houze) təşkil etmişdir (1898). Bu dərnəkdə geniş fikir mübadiləsi aparılır, modernləşmə sahəsində zəruri olan məsələlər müzakirə edilirdi. Həmin qrupun üzvlərinin sayı sonralar artmışdır [150, s. 27].

Mirzə Hüseyn xan gənclik illərində bir müddət Həştərxanda qaldıqdan sonra Peterburqa gəlmiş və iki il orada yaşamışdır. Burada Seyid Camaləddin Əfqani ilə tanış olaraq əlaqə qurmuş və 1897-ci ildə Təbrizə qayıdaraq "Əlhədid", sonralar "Xəbər", "Ədalət", "Söhbət", "Ana dili" qəzetlərini nəşr etdirmişdir. "Əlhədid"qəzetinin redaktorunun evi S.H.Tağızadə, M.Şəbüstəri (Əbülziya), Əliqulu Səfərovun toplandığı və ictimai-siyasi məsələləri müzakirə etdikləri məkan idi. Onlar öz baxışlarını "Əlhədid" səhifələrində əks etdirirdilər. Qeyd edilməlidir ki, yenilikçi, müxalifət mövqeli qəzetin nəşri uzun sürmədi, cəmi 3 nömrəsini çap etmək mümkün oldu.

S.H.Tağızadə 1958-ci ildə həftəlik "Asiyayi cavan" qəzetinin müxbirinin suallarına cavab verərkən Təbrizdə konstitusiya qəbul olunmasından əvvəl azadlıq hərəkatının əsas nümayəndələrindən danışaraq 3 nəfərin adını çəkir: Mirzə Seyid Hüseyn xan Ədalət, Seyid Məhəmməd Şəbüstəri Əbülziya və Mirzə Məhəmməd Əli xan Tərbiyət [147, s. 280-281].

Bir müddət Rusiyada yaşamış Mirzə Hüseyn xan 1897-ci ildən "Əlhədid" qəzetini nəşr etdirməklə həmin vaxtdan azadlıq uğrunda fəaliyyətə başlamışdır. S.H.Tağızadə Mirzə Seyid Hüseyn xan Ədaləti konstitusiya hərəkatının liderlərindən və Cənubi Azərbaycanda məşrutiyyət ideyalarını yayan əsas sütunlardan biri hesab edir [147, s. 280]. O, qeyd etməyi bir daha zəruri sayır ki, Mirzə Seyid Hüseyn xan Ədalətin fədakarlığı və konstitusiya hərəkatını gücləndirmək sahəsində fəaliyyəti Məşrutə tarixinin mühüm tərkib hissəsidir [147, s. 281]. S.H.Tağızadə həmin üç nəfəri Cənubi Azərbaycanda məşrutiyyətin əsasının qoyulmasının öncülləri hesab edir [147, s. 281]. S.H.Tağızadə onlara nisbətən cavan olsa da, məşrutə tərəfdarları ilə təmas qurmuş, onlara yoldaş, həmkar və dost ola bilmiş, azadlıq və modernləşdirmə sahəsində fəaliyyət göstərmişdir [147, s. 281].

Beləliklə, S.H.Tağızadə mükəmməl dini təhsil almış və paralel olaraq şəxsi təşəbbüsü ilə dünyəvi elmləri və qabaqcıl ictimai-siyasi, mədəni ideyaları müxtəlif üsullarla mənimsəməyə çalışmışdır. S.H.Tağızadənin dünyəvi elmlərə və yenilikçi siyasi-ictimai ideyalara meyl göstərməsi, xatirələrində qeyd edilməsə də, Müzəffərəddin şahın hakimiyyətə gəlişindən (1896) sonra baş vermişdir.

Despotizm və zəif iradəlilikdə günahlandırılan Müzəffərəddin şahın hakimiyyətə gəlişi əslində İranın ictimai-siyasi, xüsusən mədəni həyatında müəyyən bir dəyişiklik və canlanmaya yol açmışdır. Bu, bir tərəfdən İranın bundan əvvəlki inkişafının, xarici və daxili ziddiyyətlərin kəskinləşməsindən irəli gələn mərkəzi hakimiyyətin son dərəcə zəifləməsi, digər tərəfdən, şahın müəyyən

dərəcədə mülayim və nisbətən mütərəqqi mövqeyi ilə izah oluna bilər. İlk illər onun sədr-əzəmi olmuş Mirzə Əli xan Əmin-od-Dövlə də ölkədə islahatlar aparılması tərəfdarı kimi çıxış edirdi. Belə ki, o, hələ Cənubi Azərbaycanda vəliəhd Müzəffərəddin Mirzənin pişkarı olarkən yeni tipli məktəblərin təsis edilməsini dəstəkləyirdi. Sədr-əzəm təyin olunduqdan sonra (1896-1898) İranda yeni tipli milli məktəblərin banisi hesab edilən Mirzə Həsən Rüşdiyyəni Təbrizdən Tehrana dəvət etmiş və onun paytaxtda yeni tipli ilk milli məktəblər təsis etməsinə yardım göstərmişdir. Məhz bundan sonra paytaxtda yeni tipli milli məktəblərin sayı sürətlə artmışdır.

Müzəffərəddin şahın hakimiyyətə gəlişindən sonra baş verən mühüm mədəni-mənəvi hadisələrdən biri də ölkədə müstəqil mətbuatın meydana gəlməsi idi. Həmin dövrdə paytaxtda və əsas əyalət mərkəzlərində, xüsusən Təbrizdə müstəqil mətbuat orqanları meydana gəlir, bir sıra hallarda sərt tənqidi mövqelərinə görə bağlansalar da, digərləri ilə əvəz olunurdular [12, s. 20-25]. Müstəqil mətbuatın meydana gəlməsi mövcud sistemin tənqidinin daxilə keçirilməsi və aşkar forma kəsb etməsi, eyni zamanda ideoloji müxalifətin genişlənməsi və güclənməsi demək idi.

Artıq 1900-1901-ci dərs ilində Tehranda 17, Təbriz, Məşhəd, İsfahan və Buşir şəhərlərinin hər birində bir yeni tipli məktəb fəaliyyət göstərirdi. Sədr-Əzəm həmçinin müstəqil mətbuat orqanlarının təsis edilməsini dəstəkləyirdi. Tehranda və Təbrizdə maarif əncümənləri, milli kitabxanalar təsis edilmişdi, artıq gizli siyasi cəmiyyətlər meydana gəlirdi. İlk belə gizli cəmiyyət 1901-ci ildə Tehranda yaradıldı. Onun fəaliyyətinə qısa müddətdən sonra son qoyulsa da, artıq belə cəmiyyətlər təşkil etmək meylinin qarşısını almaq mümkün deyildi. Maraqlıdır ki, Tehranda 1905-ci ildə yaradılmış "Gizli cəmiyyət"in üzvləri bəyan edirdilər ki, Müzəffərəddin şah yaxşı şahdır, onu əhatə edənlər fasid adamlardır [35, s. 58].

Tehranda və Təbrizdə baş verməkdə olan hadisələrin şahidi və iştirakçısı olan S.H.Tağızadə hər cür dəyişiklik və xüsusən yeniliyə həssas bir insan kimi ətrafda baş verənlərə biganə qala bilməzdi. Dini biliklərin keçmişə, əbədi, dəyişməz prinsip və normalara, dünyəvi biliklərin reallığa və gələcəyə bağlılığını müqayisə əsasında dərk edən gənc S.H.Tağızadənin dünyagörüşündə əsaslı dəyişikliyin baş verməsi təbii idi. Əlbəttə, əgər o, atası kimi yalnız dini biliklər mühitində qapanıb qalsaydı, ətrafda baş verənlərə biganə olsaydı, ruhani alim olmaq məqsədinin həyata keçirilməsinə çalışsaydı, həmin yeniliklərin onun üçün heç bir təsir qüvvəsi olmazdı. Xarakter etibarilə yeniliyə və gələcəyə can atan bir gənc kimi S.H.Tağızadə dünyəvi bilikləri öyrənməklə kifayətlənmir, artıq qeyd edildiyi kimi, ictimai-siyasi, mədəni həyatla bağlı yeni ideyaları da geniş şəkildə mənimsəməyə böyük səy göstərirdi. O, "həyatın bir neçə üzünün olduğunu və ya onun müxtəlif cür əks olunduğunu", dəyərləndirildiyini görərək onu hərtərəfli dərk etməyə və ya müxtəlif mənbələrdən alınan informasiya əsasında qavramağa çalışır və mənimsədiyi bilikləri real həyatda tətbiq etməyə səy göstərirdi. S.H.Tağızadənin xatirələrindən də göründüyü kimi, onun mütərəqqi, elmi dünyagörüşünün formalaşmasında dünyəvi biliklərdən əlavə, İran maarifçiləri, Şərq yenilikçiləri ("Gənc türklər" və Misir ərəbləri), İran mühacir qəzetləri həlledici rol oynamışlar. S.H.Tağızadə yenilikçi ideyaların təsiri altında öz bilik dairəsini genişləndirməkdə davam edirdi.

Fransız və ingilis dillərini öyrənməsi ona Qərb mədəniyyəti və dünyəvi elmlərlə daha yaxından, bilavasitə geniş miqyasda tanış olmağa və deməli, elmi dünyagörüşünün möhkəmlənməsinə əsaslı dərəcədə yardım etmişdir. Bunun əsas göstəricisi S.H.Tağızadənin ilahiyyat sahəsində ictihad dərəcəsi (şəriət məsələləri üzrə müstəqil qərar qəbul etmək səlahiyyəti) almaq üçün əsas ilahiyyat mərkəzi olan Nəcəf şəhərinə getməkdən imtina etməsi idi. S.H.Tağızadənin elmi dünyagörüşünün formalaşması, xüsusən Qərb nümunəsində

islahatlar, dəyişikliklər həyata keçirilməsinin zəruriliyi fikrinin möhkəmlənməsində onun Cənubi Qafqaza, Türkiyə, Misir və Livana səfərlərinin də böyük təsiri olmuşdur.

Seyid Həsən 1904-cü ilin əvvəllərində İranda vəba epidemiyası yayılmağa başlayanda dostu Mirzə Məhəmməd Əli Tərbiyət ilə birlikdə Cənubi Qafqaza səfər edərək Culfadan Naxçıvana gəlir. Burda o, yol tikintisi podratçısı kimi çalışan dostu Qurbanəli Şərifovdan Mirzə Mülküm xanın yazılarını alaraq üzünü çıxarır. Q.Şərifov M.Mülküm xanın bütün yazılarını toplayıb özündə saxlayırdı [150, s. 38]. Buradan onlar Naxçıvandan araba ilə iki gün yol gedərək İrəvana çatırlar. İrəvandan Uluxanlıya gələn S.H.Tağızadə və dostu ilk dəfə dəmir yolu ilə qatar görür və qatara minərək Tiflisə gedir. Tiflislə tanışlığı barədə S.H.Tağızadə yazır: "Tiflis bizim üçün Avropanın ilk qapısı idi, sanki Avropaya gəlmişdik, hər şey (dəstgah) Avropa və rus idi" [150, s. 38].

S.H.Tağızadə və dostu ay yarım Tiflisdə qalırlar. Onlar Tiflisdə Cənubi Qafqazın məşhur və sonralar tanınmış ziyalıları ilə tanış olmaq imkanı əldə edirlər. S.H.Tağızadə yazır ki, ən faydalı tanışlıq Tiflisdə türk dilində nəşr olunan "Şərqi rus" qəzetinin təsisçisi və redaktoru Məhəmməd Ağa Şahtaxtinski ilə oldu. "Şərqi rus" demək olar ki, Şərqdə (İran, Qafqaz və əlbəttə, İstanbul istisna olmaqla) Avropa tipli ilk gündəlik qəzet idi. S.H.Tağızadə M.A.Şahtaxtinskini çox təhsilli alim, son dərəcə yenilikçi bir şəxs kimi dəyərləndirir və qeyd edir ki, M.A.Şahtaxtinskinin İslam aləmində yenilikçilikdə tayı-bərabəri yox idi: "İstər Osmanlı, istər İran, istər Hindistan və bütün İslam ölkələrində". S.H.Tağızadə qeyd edir ki, M.A.Şahtaxtinski Rusiya, Fransa və Almaniyada təhsil almışdı və müasir dövr düşüncə sahibi idi. O, M.A.Şahtaxtinskini əsl avropalı adlandırır. O yazır: "Mən Şərqdə onun kimisini görmədim". M.A.Şahtaxtinskinin atası məntəqənin varlı şəxslərindən idi və o, öz mirasını mətbəə və qəzet işinə sərf edirdi [150, s. 39]. O, ərəb, türk (Osmanlı və Azərbaycan –

Ə.Ş.) dilləri üçün yeni əlifba tərtib edərək "Məhəmməd Ağa Əlifbası" adlandırırdı [150, s. 39]. S.H.Tağızadə M.A.Şahtaxtinskinin simasında modernləşdirmə tərəfdarının kamil nümunəsini, "avropalaşmış" bir şəxsi görürdü. M.A.Şahtaxtinski, qeyd edildiyi kimi, atasından qalmış mirası modernləşdirmə ideyalarının yayılmasına sərf edir, ərəb əlifbasının təkmilləşdirilməsi, hicabın aradan qaldırılması və digər modernləşdirmə amillərinin yayılması və həyata keçirilməsi uğrunda əməli fəaliyyət göstərirdi.

S.H.Tağızadə "Şərqi rus" qəzeti redaksiyasında çalışan gənc əməkdaşlar C.Məmmədquluzadə, Ö.F.Nemanzadə, və R.İsmayılovla da tanış olmuş və həmin şəxslərin haqqında özünün bəzi düşüncələrini qeyd etmişdir. S.H. Tağızadə qeyd edir ki, C.Məmmədquluzadə və Ö.F.Nemanzadənin M.A.Şahtaxtinski və R.İsmayılovla münasibətləri gərgin idi. C.Məmmədquluzadə və Ö.F.Nemanzadə R.İsmayılovu qatı ruspərəst, M.A.Şahtaxtinskini zəif millətpərəst hesab edirdilər. O yazır: "Mirzə Cəlil çox zarafatcıl və ifrat dərəcədə vətənpərvər idi" [150, s. 40]. "Şərqdə incə zövqlülükdə heç kim ona çatmazdı, onu "Molyer" ilə müqayisə etmək olar" [150, s. 40]. S.H.Tağızadə C.Məmmədquluzadənin xahişi ilə sonralar İrandan ona çoxlu yumoristik ədəbiyyat, "Gülsüm nənə" və s. kimi kitablar göndərmişdir. S.H.Tağızadə qeyd edir ki, C.Məmmədquluzadə ilə qısa zamanda yaxın dost oldular və o, iranlı qonaqlara çox mehriban münasibət göstərmişdir. S.H.Tağızadə Ö.F.Nemanzadəni "yaxşı insan", M.A.Şahtaxtinskini "tünd xasiyyətli, lakin yaxşı adam" kimi dəyərləndirir [150, s. 40-41].

S.H.Tağızadəyə ən çox təsir edən Tiflis şəhərində gördükləri olmuşdur. S.H.Tağızadənin ilk Avropa şəhəri, Avropanın qapısı adlandırdığı Tiflis şəhəri gecələr nura qərq olurdu, ona görə qonaqlar üçün "Avropa" idi. S.H.Tağızadə və dostu ilk dəfə Tiflisdə teatra, muzeyə gedirlər [150, s. 40]. Tiflis şəhəri Təbrizdən çox uzaqda yerləşməsə də, bu iki şəhər arasında böyük fərq var idi. Bu fərqin

əsasında Avropa mədəniyyəti dururdu və S.H.Tağızadə bunu çox yaxşı dərk edirdi. Təbii ki, buradan belə bir qənaətində daha da möhkəmlənirdi ki, fərqi aradan qaldırmaq üçün Avropa mədəni, texniki, elmi nailiyyətlərini mənimsəmək lazımdır. Başqa sözlə, S.H.Tağızadə Avropa mədəniyyəti haqqında kitablardan aldığı məlumatın doğruluğunu Tiflis şəhərinin nümunəsində real şəkildə hiss etmişdir.

Tiflisdən Batuma, oradan İstanbula gələn dostlar 6 aya qədər burada qalıb, əsasən, kitab, xüsusən də qadağan olunmuş kitabları mütaliə etməklə məşğul olmuşlar [150, s. 43]. S.H.Tağızadə İstanbulda "İbrahim bəyin Səyahətnaməsi" romanının müəllifi Hacı Zeynalabdin Marağayi və "Əxtər" qəzetinin keçmiş redaksiya heyəti ilə görüşür [150, s. 44].

İstanbuldan Misirə səfər edən S.H.Tağızadə 1905-ci ilin mart ayının 21-də – Novruz bayramı günü İsgəndəriyyəyə daxil olmuşdur. O, İsgəndəriyyə şəhərində nəşr olunan farsdilli mühacir "Çohrenəma" qəzetinin redaktoru Hacı Mirzə Əbdülhəmid İsfahani (Moəddəb-ol-Məmalik), Moin-od-Tüccar Rəşti ilə tanış olmuşdur. İsgəndəriyyədən Qahirəyə gələn S.H.Tağızadə burada farsdilli mühacir "Hikmət" qəzetinin redaktoru, "babilik hərəkatı haqqında kitab yazan və özünü dünyanın birinci alimi hesab edən" Mirzə Mehdi (Zəm-od-Dövlə, Rəis-ol-Hükəma) ilə də yaxın ünsiyyətdə olmuşdur. Altı aya qədər Qahirədə qalan S.H.Tağızadə həmçinin Misirin və ərəb dünyasının ən tanınmış yazıçılarından biri olan Curci Zeydan və mütərəqqi baxışlara malik olan Misir müftisi ilə də təmasda olmaq imkanı əldə etmişdir. S.H.Tağızadənin Misirə gəlməkdə məqsədi burada öz ideyalarını təbliğ etmək üçün mühacir qəzet təsis etmək olsa da, istilərə dözməyib xəstələnərək yayın axırlarında oradan Beyrut şəhərinə gəlir və 50 günə qədər burada qalır. Beyrutda mətbəəsi olan kitabxanadan çox faydalanır. Beyrutdan Dəməşqə gələn S.H.Tağızadə bir həftə həmin şəhərdə qaldıqdan sonra

İstanbula, oradan Tiflisə gəlir. Tiflisdə bir müddət istirahət etdikdən sonra 1905-ci ilin sonlarında Təbrizə qayıdır [150, s. 44-45].

S.H.Tağızadə xatirələrində İstanbul, Misir (İsgəndəriyyə və Qahirə), Beyrut və Dəməşqdə Avropa mədəniyyətinin görüntüləri haqqında heç nə demir, Tiflisdən aldığı təəssüratlara oxşar heç nə qeyd etmir. Bununla belə, o, həmin ölkələrdə, tanınmış modernləşdirmə tərəfdarları, xüsusən mütərəqqi iranlı maarifçi, yazıçı və jurnalistlərlə görüşür. Təbii ki, görüşlər zamanı Şərq-Qərb, Qərb-İran, İranın daxili vəziyyəti, problemləri və onlardan çıxış yolları geniş fikir mübadiləsi obyektini təşkil edir. Bütün bunların nəticəsində S.H.Tağızadə İranda modernləşmə uğrunda siyasi vasitələrlə mübarizə aparmağın zəruriliyinə tam əminlik hasil edir. Bunu hələ Qahirədə olarkən "Hikmət" qəzetində çap etdirdiyi ilk iri həcmli, proqram xarakterli məqaləsində - risaləsində əks etdirmişdir. "Əhvale konuniye İran ya mohakemate tarixi" (İranın hazırki durumu və ya tarixin məhkəməsi) adlı məqaləsində S.H.Tağızadə İranın keçmiş tarixinə, şanlı müstəqillik və inkişaf etmiş ölkə mərhələlərinə nəzər salaraq və müasir dövrlə müqayisə apararaq belə nəticəyə gəlir ki, İranın nicatı Qərb mədəniyyətini mənimsəməkdədir [213, s. 428-429]. Həmin məqalə "Həbl-ol-Mətin" qəzetində və Təbrizdə ayrıca kitabça kimi çap olunur. Bu məqalə S.H.Tağızadənin elmi, siyasi, mədəni, ideoloji axtarışlarının mühüm bir mərhələsinin yekunu və yeni mərhələnin başlandığını əks etdirən mühüm əsər hesab edilə bilər. Məqalə S.H.Tağızadənin öyrənmə, mənimsəmə mərhələsinin yekunu, həyat kredosunun seçimi, yeni elmi dünyagörüşünün, modernləşmə tərəfdarı olduğunun göstəricisi və nəhayət, gələcək fəaliyyət proqramı kimi dəyərləndirilə bilər. S.H.Tağızadə ilk uzunmüddətli səfərdən Təbrizə qayıtdıqdan sonra dərhal və birbaşa siyasi istibdada qarşı fəaliyyətlə məşğul olmağa başlayır [150, s. 47].

## S.H.Tağızadənin ictimai-mədəni fəaliyyəti

S.H.Tağızadə uzun, çoxşaxəli, ziddiyyətli və məhsuldar bir həyat yolu keçdiyindən onun ictimai fəaliyyətini ayrıca nəzərdən keçirmək zərurəti vardır. İranın xarici asılılığının gücləndiyi, daxili ziddiyyətlərin dərinləşdiyi, xarici asılılığa, daxili istibdada qarşı mübarizənin genişləndiyi bir şəraitdə dünyagörüşündə əsaslı dəyişikliklər yaranmış S.H.Tağızadə müstəqil şəkildə xarici dilləri və elmi bilikləri mənimsəməyi davam etdirməklə yanaşı, ictimai fəaliyyətlə də məşğul olmuşdur. O, ictimai fəaliyyətə maarifçi kimi başlamışdır. Əsasən, Cənubi Azərbaycandan olan İran maarifçi-lərinin yolunu davam etdirən Tağızadə gənc nəslin müasir biliklərə yiyələnməsinə şərait yaratmaq məqsədi ilə həmfikir gənclərlə birlikdə 1898-ci ildə yeni tipli "Tərbiyət" məktəbi təsis etmişdir. Təsisçilər həmin məktəbdə müasir fənləri və xarici dilləri tədris etməyi qarşılarına məqsəd qoymuşdular. Qeyd etmək lazımdır ki, Təbrizdə, Mirzə Hüseyn Kamalın şəhərin uzaq məhəllələrindən birində açdığı yeni tipli ibtidai məktəb istisna olmaqla müasir biliklər və xarici dilləri tədris edən ikinci belə bir məktəb yox idi [150, s. 26-27]. Məktəbdə coğrafiya, fizika, tarix, fransız, ingilis, rus dillərinin tədrisi də nəzərdə tutulurdu. Məktəbin təsis edilməsi haqqında elan yenicə yaradılmış qurğuşun şriftli mətbəədə çap edilmişdi.

Yeni məktəb və bidət hesab olunan qurğuşun şriftli mətbəə ruhanilərin, xüsusən Təbrizdə öz məscidi olan Ağa Seyid Əli Yəzdinin ciddi müxalifəti ilə üzləşdi və onun təhriki böyük iğtişaş təhlükəsi yaratdı. Ona görə "Tərbiyət" məktəbi bir neçə aydan sonra tam fəaliyyətə başlamadan öz işini dayandırmalı oldu. Az sonra, həmin ruhani Təbrizdən qovulsa da, məktəb daha öz fəaliyyətini bərpa etmədi.

S.H.Tağızadə və onun həmməsləklərinin maarifçilik sahəsində ilk addımı ruhanilərin müxalifəti səbəbindən uğursuz olsa da, onlar

həmin sahədə fəaliyyətlərini davam etdirdilər. Məhz bu illərdə S.H.Tağızadə fransız müəllifi Kamel Flamaryonun “Les merveiltes selests” (“Səma qəribəlikləri”) əsərini fransız dilindən fars dilinə tərcümə edir. Həmin tərcümə nəşr olunmasa da, bir müddət Təbrizdə təsis edilmiş “Loğmaniyyə” məktəbində tədris vəsaiti kimi istifadə edilir.

Az sonra S.H.Tağızadə və onun həmfikirləri yeni təşəbbüs göstərərək həmin il (1898) “Tərbiyət” adlı kitab mağazası təsis edirlər. Kitab mağazasında Avropadan, Misirdən, Türkiyədən gətirilən və günün tələblərinə cavab verən kitablar satılırdı. Qeyd edək ki, təsisçilərin həmin addımı uğurlu olmuş, bu mağaza Təbriz şəhərinin birinci dərəcəli ən böyük kitab mağazasına çevrilərək, yeniləşdirmə tərəfdarları arasında böyük nüfuz qazanmış və onların toplandığı bir mərkəz kimi modernləşdirmə hərəkatına mühüm xidmət göstərmişdir [150, s. 35]. Kitab mağazası 1908-ci ilə qədər fəaliyyət göstərmiş, lakin I çağırış İran parlamenti qovulandan sonra (23.06.1908) Təbrizə hücum edən Rəhim xanın quldur dəstələri tərəfindən qarət edilərək yandırılmışdır [150, s. 29].

1899-cu ildə Azərbaycan valisi Məhəmməd Əli Mirzənin şəxsi həkimi Loğman-ol-Məmalik vəliəhdin icazəsi ilə Təbrizdə böyük bir yeni tipli məktəb təsis edir və S.H.Tağızadə həmin məktəbdə fizika fənnini tədris etməyə dəvət olunur. Dəvəti qəbul edən S.H.Tağızadə bir müddət həmin məktəbdə ödənişsiz əsaslarla fizika fənnini tədris etmişdir [150, s. 29-30]. Uzun illər həm də qədim və yeni təbabət elmini öyrənmiş S.H.Tağızadə məhdud miqyasda tibbi praktika ilə də məşğul olmuş və hətta Mirzə Məhəmməd Əli xan Tərbiyət ilə birlikdə bir əczaxana açaraq Avropadan (Almaniyadan) gətirilən keyfiyyətli dərmanlarla əhalini təchiz etməyə çalışmışlar [150, s. 31].

S.H.Tağızadənin fəaliyyətinin əsas istiqamətini, əlbəttə, maarifçilik təşkil edirdi. Həmin sahədə atılan addımlardan biri də 1901-ci ildə “Zadobum” adlı kitabın yazılıb çap olunmasıdır [131]. Oxuculara M.Ə.Tərbiyətin müəllifliyi ilə təqdim olunan kitabın əsas

hissəsini, sonralar xatirələrində dəfələrlə qeyd etdiyi kimi, S.H.Tağızadə yazmışdır [150, s. 32]. Kitab oxucuları qədim İran tarixinə dair məlumatlar, dünyanın etno-linqvistik mənzərəsi, Hind-Avropa dilləri ailəsi, nəhayət, İranın etno-linqvistik, konfessional mənzərəsi haqqında məlumatla tanış edir. Təəssüf ki, İran haqqında ölkəşünaslıq xarakterli bu kitablarda qeyri-İran dilli etnik birliklər, o cümlədən türklər (azərbaycanlılar) haqqında heç bir məlumat verilməmişdir [150, s. 49].

Həmin vaxtlar S.H.Tağızadə ərəb dilinin qrammatikasına aid kitab hazırlamış, bu kitab çap olunmasa da, bəzi məktəblərdə dərs vəsaiti kimi istifadə olunmuşdur [150, s. 32].

S.H.Tağızadənin maarifçilik sahəsində fəaliyyətinin birinci, başlanğıc mərhələsinin ən mühüm göstəricilərindən biri də İranda ilk elmi jurnalın nəşri ilə səciyyələnir. 1902-ci ilin sonlarında S.H.Tağızadə və onun ən yaxın həmməsləkləri olan Mirzə Məhəmməd Əli xan Tərbiyət, Mirzə Seyid Hüseyn xan Ədalət, Mirzə Yusif xan Etesam-ol-Mülk özlərini dövri mətbuat orqanı təşkil etmək sahəsində sınamağı qərara aldılar. Onlar lazımi hazırlıqlar gördükdən sonra 1903-cü ilin yanvar ayının 30-da "Gəncineyi fünun" ("Biliklər xəzinəsi") adlı yeni, elmi-informasiya xarakterli, yarım aylıq jurnalın ilk nömrəsini nəşr etdirdilər [150, s. 35].

Jurnalın hər nömrəsi 16 səhifədən, 4 hissə və ya rubrikadan ibarət idi. Birinci hissə elm və texnika yeniliklərinə ayrılmışdı. Həmin hissəni jurnalın təsisçiləri olan əməkdaşları birlikdə hazırlayırdılar. İkinci hissə incəsənət, tarix və ədəbiyyata həsr olunmuş yazılardan ibarət idi və onu Məhəmməd Əli xan Tərbiyət hazırlayırdı. Üçüncü hissədə fransız müəllifi Gustav Leonun "Les premiers civilization" ("Qədim sivilizasiyalar") əsərinin tərcüməsi verilirdi. Tərcümə S.H.Tağızadə tərəfindən yerinə yetirilirdi. Dördüncü hissə Jül Vernin "20 min mil su altında" kitabının Mirzə Yusif xan Etesam-ol-Mülk tərəfindən edilən tərcüməsindən ibarət idi [150, s. 35-36; 11, s. 26-27].

M.Y.Etesam-ol-Mülk həmin kitabı türk dilindən tərcümə edirdi [147, s. 206]. Jurnalı çap edərkən belə nəzərdə tutulmuşdu ki, son üç hissəni ardıcıl toplamaqla ayrıca əsərlərin kitab halında tərcüməsinə nail olmaq olar. Lakin jurnalın nəşri cəmi bir il davam etdiyindən həmin kitabların tərcüməsi başa çatdırılmadı. Jurnalın, xüsusən də Tehranda geniş oxucu marağına səbəb olmasına, az da olsa, gəlir gətirməsinə baxmayaraq, vəba epidemiyasının yayılması ilə əlaqədar onun nəşrini dayandırmalı oldular [150, s. 35].

Göründüyü kimi, S.H.Tağızadə ictimai fəaliyyətinin ilk mərhələsində İran cəmiyyətini yeni biliklər və ideyalarla tanış etmək məqsədilə maarifçiliyin müxtəlif sahələri ilə məşğul olmağa səy göstərmişdir. Onu da əlavə etmək lazımdır ki, S.H.Tağızadə həmin dövrdə ictimai fəaliyyətlə yanaşı, öz bilik və bacarığını təkmilləşdirməyi də davam etdirmişdir. Başqa sözlə, o həm öyrənir, həm də mənimsədiyi biliyi cəmiyyətin maraqları istiqamətində tətbiq etməyə çalışırdı.

"Gəncineyi fünun" jurnalının nəşrinin başa çatması ilə S.H.Tağızadənin ardıcıl ictimai fəaliyyətinin birinci mərhələsi sona çatır. Bundan sonra onun həyatında baş verən müxtəlif və mühüm hadisələr ictimai fəaliyyətlə qeyri-ardıcıl məşğul olmasına səbəb olur.

Artıq qeyd edildiyi kimi, o, özünün birinci xarici səfəri zamanı Misirdə qəzet nəşr etməyə cəhd etsə də, məqsədini həyata keçirə bilməmiş və yalnız "Hikmət" qəzetində mühüm bir məqalə dərc etdirməklə kifayətlənməli olmuşdur.

S.H.Tağızadə 20 yaşından başlayaraq xaricdə nəşr olunan farsdilli qəzetlərdə məqalələr dərc etdirirdi [182, s. 54]. Xarici səfərdən qayıdan S.H.Tağızadə Tehranda Konstitusiya haqqında fərman verildiyini eşidib paytaxta gedir və bir qədər sonra deputat seçilməsi xəbərini alaraq parlament iclaslarının müşahidəçisindən tam səlahiyyətli üzvünə çevrilir və onun siyasi fəaliyyəti başlanır.

S.H.Tağızadə birinci çağırış Məclisin (1906-1908) deputatı olmaqla yanaşı, Tehranda təşkil olunmuş ən nüfuzlu və çoxsaylı üzvləri olan Azərbaycan əncüməninə rəhbərlik edir. Lakin hər iki vəzifəni icra etmək çətinlik yaratdığından az keçməmiş əncümənin sədrliyindən istefa verir [150, s. 84-85].

Tehranda deputat kimi fəaliyyət göstərdiyi müddətdə paytaxt qəzetlərində məqalələr dərc etdirir. Məhəmməd Əli şahın Məclisə qarşı mübarizəsi sonuncunun zor gücünə silahlı çevriliş nəticəsində qovulması ilə başa çatır. Məclisin liderlərindən biri, öz radikal mövqeyi ilə fərqlənən S.H.Tağızadə İngiltərə səfirliyinə sığınmalı olur və ingilis səfirliyinin himayəsi altında İrandan sürgün edilir. İngiltərəyə gələn S.H.Tağızadə tanınmış şərqşünas prof. E.Braunun yardımı ilə Kembric universitetinin kitabxanasında kataloq tərtibçisi kimi fəaliyyət göstərməklə yanaşı, "Times" qəzetində İran inqilab-çılarının əleyhinə, Rusiyanın xeyrinə yazılmış bir məqaləyə İranda imtiyaz sahibi olan İngiltərə parlamentinin deputatlarından bir nəfərin yardımı ilə cavab məqaləsi dərc etdirir [150, s. 101-102]. O həmçinin Londonda Kral Mərkəzi Asiya elmi cəmiyyətində İranın müasir vəziyyəti haqqında məruzə ilə çıxış edir [150, s. 103]. Başqa sözlə, İngiltərə ictimai rəyinin inqilab hərəkatına müsbət münasibətinin formalaşmasına çalışır. S.H.Tağızadə və bir neçə nəfər digər keçmiş deputat ingilis qəzetlərində, xüsusən "Daily news", "Daily Chronical", "Manchester Guardian" qəzetlərində İran hadisələri ilə bağlı yazılar dərc etdirirlər. Belə məqalələrdən biri – "Times" qəzetində "Manifest" başlıqlı yazı Rusiyanın əleyhinə yönəlmişdi və İngiltərədən öz mövqeyini bildirməsi tələb olunurdu. Həmçinin parlament komissiyalarının birində hər iki palatanın deputatlarının iştirakı ilə toplantı təşkil edildi və S.H.Tağızadə orada çıxış etdi. Toplantının nəticəsi kimi qəzetlərin birində "İngiltərədən kömək çağırışı" adlı məqalə dərc edildi [150, s. 100]. Bu növ yazıların yekunu kimi İngiltərə parlamentində "İran komitəsi" təşkil

olunur və S.H.Tağızadə ilə daha bir nəfər keçmiş deputat həmin komitəyə daxil edilirlər.

Təbriz üsyanının davam etdiyi bir zamanda S.H.Tağızadə Cənubi Azərbaycana qayıdaraq Azərbaycan əncümənində nitq söyləyir. Üsyan başa çatdıqdan sonra o, İran əncümənləri tərəfindən vəkil seçilərək, Azərbaycan əncümənin şahla danışıqlarında, xüsusən yeni seçki qanunun hazırlanması ilə bağlı əncümənin irəli sürdüyü tələblərin formula edilməsi və müəyyənləşdirilməsində məsləhətçi kimi yaxından iştirak edir [150, s. 129-130].

İkinci çağırış İran parlamentinə (1909-1911) deputat seçilmiş S.H.Tağızadə, anti-ruhani, dünyəvi mövqeyinə görə Nəcəf ali ruhaniləri tərəfindən fəaliyyətinin qadağan olunması haqqında fitva verilməsi səbəbindən 1910-cu ilin ortalarında İranı tərk etməyə məcbur olur və onun 15 il davam edən mühacirət həyatına başlayır.

Mühacirət həyatının tələblərinə uyğun olaraq S.H.Tağızadə, ilk növbədə məişət güzəranının təmin edilməsi məsələsini həll etməklə məşğul olsa da, meydana gələn imkandan İran, Şərq həqiqətlərini dünya ictimaiyyətinə çatdırmaq üçün səmərəli şəkildə faydalanmağa çalışır. 1911-1912-ci illərdə İstanbulda olarkən “Nəşri maarif” cəmiyyəti təsis edir [123, s. 30]. O, Parisə qısa müddətli səfər edərək iranlı tələbələr qarşısında “Cihadın növləri: ümumi təhsil” mövzusunda məruzə oxuyur [147, s. 229]. S.H.Tağızadə bu çıxışında elmin və ümumi təhsilin əhəmiyyətini tarixi faktlar, alman-fransız rəqabəti nümunəsində göstərməyə çalışmışdır [147, s. 229-247]. Əlavə etmək lazımdır ki, müxtəlif auditoriyalarda müxtəlif sahələrə aid çıxışlar S.H.Tağızadənin ictimai fəaliyyətinin mühüm ünsürünə çevrilmişdir.

İstanbuldan Londona gedən S.H.Tağızadə 1913-cü ilin yayında ABŞ-a səfər edir və bir müddətdən sonra dostlarından H.Kazımzadə İranşəhrin məsləhəti və köməyi ilə Parisdə nəşr olunan “İslam dünyası” jurnalında İranın, Türkiyənin və Ərəb ölkələrinin müasir durumu mövzusunda dörd məqalə çap etdirir [150, s. 178].

1914-cü ilin sonlarında Almaniya hökumətinin dəvəti ilə Berlinə gələn S.H.Tağızadə nəzərdə tutulduğu kimi şərqli və müsəlman əsirlər arasında anti-antanta təbliğatı aparmaqla deyil, "İran komitəsi" yaradaraq İranda İngiltərə və Rusiyaya qarşı aparılan mübarizəni təşkil etmək, oraya nümayəndələrini göndərmək, ideoloji dəstək göstərməklə, hərtərəfli yardım edir. Komitə Alman hökumətinin maliyyə vəsaiti ilə 1916-cı ildən fars dilində "Kave" jurnalını nəşrə başlayır. Jurnalın əsas vəzifəsi Antantaya qarşı ideoloji mübarizə aparmaq idi və onun baş məqalələrini və ictimai-siyasi məzmunlu materiallarını redaktoru S.H.Tağızadə hazırlayırdı.

S.H.Tağızadə "İran komitəsi"ndə fəaliyyət göstərdiyi zaman Danimarkanın ən böyük alimlərindən biri olan Corc Brandsin "Politkyen" qəzetində Rusiyanın əleyhinə məqalə dərc etdirməsindən xəbər tutur və Kopenhagenə gələrək alimlə görüşüb ona rusların və ingilislərin İranda törətdikləri özbaşınalıqlar haqqında əlavə məlumatlar verir [150, s. 187].

S.H.Tağızadə I Dünya müharibəsi illərində "Kave" jurnalının səhifələrində ara-sıra mədəniyyət sahəsinə aid yazılarla çıxış edirdi. Bu müharibədə ağır məğlubiyyətə düçar olan Almaniya "İran komitəsi"ni, "Kave" jurnalını, orada fəaliyyət göstərən iranlıları maliyyələşdirməyi dayandırdı. Bunun nəticəsində iranlıların çoxu Berlini tərk edərək Avropanın müxtəlif ölkələrinə üz tutdular, lakin S.H.Tağızadə Berlində qalaraq müstəqil şəkildə "Kave" jurnalının nəşrini davam etdirdi.

Jurnalın səhifələrində Avropa və dünyada müharibədən sonrakı vəziyyət, Rusiyada cərəyan edən tarixi hadisələr, Avropada gedən sülh danışıqları, İranla bağlı və İranda cərəyan edən hadisələr öz əksini tapırdı, eləcə də ictimai-mədəni məzmunlu yazılar dərc edilirdi.

S.H.Tağızadə ətrafına mütərəqqi iranlı gənc ziyalıları toplayaraq "Kave" jurnalını tamamilə yeni tərzdə nəşr etməyə çalışır. 1920-ci ilin əvvəlində nəşr edilmiş birinci (ardıcıl 36) nömrədə

S.H.Tağızadə jurnalın yeni dövrə – dinc quruculuq dövrünə daxil olduğunu və buna uyğun olaraq, fəaliyyətinin elmi-mədəni xarakter daşıyacağını bəyan etdi. Baş məqalədə S.H.Tağızadə qeyd edirdi ki, jurnalın nəşrinin, fəaliyyət xüsusiyyətlərinin bütün məsuliyyəti onun öhdəsinə düşür [154]. S.H.Tağızadə sonralar baş məqalədə böyük əks səda doğurmuş məşhur "qərbləşmə" şüarını irəli sürür.

Əsasən, elmi, tarixi, ədəbi yazılar dərc edən jurnal iranlıların tarixi, milli kimlik şüurunun formalaşmasına, Avropa mədəniy-yətinin mənimsənilməsinin zəruriliyini əsaslandırmağa xüsusi önəm verirdi. Başqa sözlə, S.H.Tağızadə yenidən, lakin daha geniş miqyasda və yüksək səviyyədə maarifçi rolunda çıxış edirdi.

V çağırış İran parlamentinə (fevral, 1924 – fevral, 1926) deputat seçilmiş S.H.Tağızadə 1924-cü ilin avqust ayında Tehrana qayıdaraq Məclisin işində iştirak etməklə yenidən siyasi fəaliyyət sahəsinə daxil olur. Həmin vaxt eyni zamanda baş nazir Rza xanın parlament deputatları və yaxın adamlarından təşkil etdiyi qeyri-formal Məşvərət şurasının işində iştirak edir. S.H.Tağızadə 1925-ci ildə Milli abidələr cəmiyyətinin müəssislər heyətinin üzvü seçilir [147, xronologiya]. 1926-cı ildə Tehran kitabxanasının təsis olunmasında iştirak edir [147, xronologiya].

S.H.Tağızadə 1926-cı ilin aprel ayında ABŞ-ın müstəqilliyinin 150 illiyi münasibəti ilə Filadelfiyada təşkil olunan sərgidə İran bölməsinə başçılıq etmək üçün həmin ölkəyə gedir, oradan Almani-yaya qayıdır və yalnız 1927-ci ilin mart ayında Tehrana gələrək VI çağırış Məclisə deputat seçilmiş olduğundan parlamentin işində iştirak edir. VII çağırış parlamentə deputat seçilmədiyindən bir müddət işsiz qalır və nəhayət, 1929-cu ilin əvvəlində Xorasana vali təyin edilir.

Bununla da S.H.Tağızadənin icra hakimiyyətində fəaliyyəti başlayır və bu fəaliyyət 1934-cü ilin ortalarına qədər davam edir. 1929-cu ildə "Təqəddüm" jurnalının nəşr olunmasında iştirak edir [182, s. 43]. S.H.Tağızadə Fransada səfir olarkən (1933-1934) Maarif

naziri Ələsgər Hikmət ondan yeni təsis etdiyi “Təlim və tərbiyə” jurnalında dərc etmək üçün məqalə yazmağı xahiş edir. S.H.Tağızadənin yazdığı birinci məqalə maraqla qarşılandığından, nazir ona bu əməkdaşlığı davam etdirməyi təklif edir. Qeyd edək ki, S.H.Tağızadə yazılarının uğurla qarşılanmasına baxmayaraq, imzasını qeyd etmirdi.

Yazdığı növbəti məqaləsinin birində S.H.Tağızadə müəllifin adını göstərərək yeni sözlər yaratmaqla məşğul olan Dilçilik və Ədəbiyyat Akademiyasının fəaliyyətini tənqid edir. Məqalədə Akademiyanın işinin yersiz olduğu, fars dilini təhrif etdiyi göstərilir. Müəllif həmçinin yazırdı: “Hökm olunub bu ifadə və sözlər işlənsin, ona görə ki, şah tərəfindən təsdiq olunub”. Yəni adı çəkilən Akademiya yeni sözlər tərtib edərək şaha təqdim edir və yalnız onun təsdiqindən sonra, bu sözlər istifadəyə buraxılırdı. S.H.Tağızadə məqalədə göstərirdi ki, bu işlər həmin sahənin mütəxəssisi olan qələm əhlinin işidir və əmr ya da hökmlə qüvvəyə minə biməz. S.H.Tağızadə həmçinin qeyd edirdi ki, qədimdən deyilir ki, qılınc qələmin işinə qarışmamalıdır [150, s. 256-257].

Qeyd edək ki, bu məqalə Tehran oxucularını iki yerə ayırdı: bir qrup oxucu müəllifin mövqeyini dəstəkləyir, bəziləri, dəqiq desək, yeni söz yaradanlar isə pisləyirdilər. Hadisələrin bu məcrası Rza şahı bərk qəzəbləndirmiş olur və onun göstərişi ilə bütün qəzetlərdə S.H.Tağızadənin əleyhinə kampaniya başlanır. Maarif naziri Moskvada səfərdə olduğundan onun müavinləri həbs edilirlər [150, s. 257].

“Conbeşi melliyi ədəbi” (“Milli ədəbi hərəkat”) adlanan həmin məqalə “Təlim və tərbiyət” jurnalının 5-ci ilinin 5-ci nömrəsində (1935) çap olunur [150, s. 257-258, qeyd 1]. S.H.Tağızadə bununla geniş miqyas alan purizm hərəkatına, fars dilinin, xüsusən vətəndaşlıq hüququ qazanan ərəb sözlərindən təmizlənməsinə və bu işin inzibati-amirlik üsulu ilə həyata keçirilməsinə etiraz edir. O, sonralar da fars dilinin ərəb sözlərindən təmizlənməsinə öz etirazını bildirirdi. Belə ki, 1948-ci ildə (23 fevral) Tehran Pedaqoji İnstitutunda çıxışı zamanı fars

və pəhləvi dillərindən danışmaqla yanaşı, akademiyanın fars dilini ərəb sözlərindən təmizləmək sahəsində fəaliyyətini nəinki faydasız, hətta ziyanlı bir iş adlandırır [213, s. 108].

1934-cü ildə səfir vəzifəsindən azad olunaraq Tehrana çağırılan S.H.Tağızadə şahın ona qarşı münasibətinin pisləşdiyini və həyatı üçün təhlükə yarandığını nəzərə alaraq İrana qayıtmaqdan imtina edir və mülki şəxs qismində yaşamağa davam edir. 1934-cü ilin sonlarında Almaniyaya gələn S.H.Tağızadə dostlarının köməyi ilə London Universitetinin Şərq dilləri məktəbinə fars dili və ədəbiyyatı müəllimi düzəlir və 1936-cı ilin əvvəlindən yenidən, lakin ən yüksək səviyyədə pedaqoji fəaliyyətə başlayır. S.H.Tağızadənin pedaqoji fəaliyyəti 1941-ci ilin payızına, yəni Rza şahın hakimiyyətdən kənarlaşdırılmasına qədər davam edir. S.H.Tağızadə xatirələrində pedaqoji fəaliyyəti zamanı daha hansı işlərlə məşğul olduğu barədə məlumat vermir, lakin digər mənbələrdə qeyd olunur ki, o, mülki şəxs kimi yaşadığı illərdə fars və xarici dillərdə bir neçə məqalə və kitab çap etdirmişdir [182, s. 58]. İngiltərədə "Qahşomari dər İrane qədim" ("Qədim İran təqvimi", fars dilində Tehranda və ingilis dilində Londonda) kitabını, tarix və tarixşünaslıq mövzusunda isə alman və ingilis dillərində 7 kitabça (məqalə) çap etdirir [99, s. 9].

1941-ci ilin ikinci yarısında o, İranın İngiltərədə səfiri təyin olunur və yenidən icra hakimiyyətində fəaliyyətə başlayır. 1947-ci ildə İrana qayıdaraq XV çağırış Məclisə deputat seçilir, 1949-cu ildə Senatın təsis edilməsindən sonra onun üzvü (senator) seçilir və bununla, yenidən qanunvericilik fəaliyyəti ilə məşğul olmağa başlayır. S.H.Tağızadə, demək olar ki, ömrünün sonuna kimi senator qismində fəaliyyət göstərir. 1947-ci ildə İrana qayıtdıqdan sonra onun ictimai-mədəni fəaliyyətinin yeni və demək olar ki, daha məhsuldar dövrü başlanır. Belə ki, 1951-ci ildə Ali Mədəniyyət Şurasına üzv təyin olunur və həyatının sonuna kimi həmin şuranın işində iştirak edir [123, s. 37].

Qeyd edək ki, Ali Mədəniyyət Şurası 1896-cı ildə Tehranda təsis edilmiş və yeni tipli, milli məktəblərin fəaliyyətini əlaqələndirmək, vahid qaydaya salmaq və digər məsələlərlə məşğul olan Tehran Maarif əncüməninin inkişafı nəticəsində meydana gəlmişdi. Belə ki, 1921-ci ildə Tehran Maarif əncüməni Ali Maarif Şurasına çevrilmiş, 1922-ci ilin mart ayının birindən isə Ali mədəniyyət (Fərhəng) şurası kimi fəaliyyət göstərməyə başlamışdı. 1952-ci ilə qədər öz işini davam etmiş həmin şura Maarif nazirliyinin yanında məşvərətçi orqan funksiyasını yerinə yetirərək, əsasən, orta təhsilin təşkili, tədrisin keyfiyyətinin yaxşılaşdırılması və s. məsələlərlə məşğul olurdu. 1952-ci ildən başlayaraq Şura bütün mədəniyyət məsələləri ilə məşğul olmuşdur. İctimai əsaslarla fəaliyyət göstərən Şuranın üzvləri mədəniyyət nazirliyinin təqdimatı ilə şah tərəfindən təyin olunurdu. Şuranın fəaliyyətində əvvəlki kimi təhsil müəssisələri mühüm yer tuturdu. Şura qəbul olunmuş qərarların icrasına nəzarət edirdi [196].

S.H.Tağızadənin həmin Şurada fəaliyyətinin xarakteri haqqında məlumat olmasa da, ehtimal etmək olar ki, o, ümumi təhsilin cəmiyyətin həyatında oynadığı mühüm rol haqqında fikirlərinə sadiq qalaraq təlim-tərbiyə və təhsil sisteminin genişləndirilməsi, bu sahədə inkişaf səviyyəsinin yüksəldilməsi, bütövlükdə maarif sahəsinin tərəqqisinə yönəlmiş qərarların qəbul və icra olunmasına xüsusi önəm vermişdir.

S.H.Tağızadə 1951-ci ildə Tehran Universitetinin İlahiyyat fakültəsində tarix fənnini tədris etməyə başlamışdır. Bəzi məlumatlara görə, o, universitetdə tarix kafedralarından birinin müdiri olmuşdur [182, s. 75]. S.H.Tağızadənin İranda ali pedaqoji fəaliyyəti 1957-ci ilə qədər davam etmiş və həmin il 73 yaşında bu vəzifədən təqaüdə çıxmışdır.

S.H.Tağızadə 1954-cü ildə Kitab nəşri və tərcüməsi müəssisəsinin idarə heyətinin üzvü və elmi müşaviri təyin edilmiş [147], 1956-cı ildən Şah yanında səltənət Şurasının üzvü olmuşdur [123, s.

37]. 1958-ci ilin əvvəllərində o, ABŞ Dövlət Katibliyinin “Yüksək rütbəli şəxsiyyətlərin mübadiləsi” proqramı çərçivəsində ABŞ-a iki aylıq səfər etmiş, Vaşinqtonda ABŞ-ın vitse-prezidenti, Senatın sədri vəzifəsini icra edən R.Nikson tərəfindən qəbul edilmiş və onun Senata təqdim olunması təşkil edilmişdir. S.H.Tağızadəni senatorlara Senatın respublikaçılar fraksiyasının rəhbəri Vilyam Toulend təqdim edərək onun haqqında qısa məlumat vermişdir.

S.H.Tağızadə Vaşinqtondan Mayamiyə gəlmiş, Harvard, Bil, Prinston universitetlərində Yaxın Şərq tədris proqramları ilə tanış olmuşdur [182, s. 74-76]. O, 1957-ci ildə Kolumbiya universitetində (Yaxın və Orta Şərq İnstitutunda) 7 ay “XX əsr Müasir İran tarixi”ni tədris etmişdir. Nyu-Yorkun Kolumbiya Universitetində “Qərb ideyalarının İranda yayılması” mövzusunda mühazirələr oxumuşdur [147, s. 307-319].

S.H.Tağızadə 1958-ci ildə UNESCO-nun İran komitəsinin nəzdində fəaliyyət göstərən “Fəlsəfə və humanitar elmlər cəmiyyəti”nin sədri seçilir [123, s. 38]. Qeyd edək ki, yaşlı nəsildən doktor Yəhya Məhəmmədi, doktor Ələkbər Siyasi, doktor Qulam Hüseyn Sədiqi və b. onun üzvləri idilər. S.H.Tağızadə cəmiyyət üzvlərinin elmi çıxışlarının 2 cilddə çap olunmasına nail olur [217, s. 104, 105]. 1958-ci ildə S.H.Tağızadənin təşəbbüsü ilə Təbrizdə F.Ruzvelt Fondunun İran şöbəsi təsis edilir. İlk vaxtlar fondun İranda nümayəndəliyinin başçısı S.H.Tağızadə hesab olunurdu, sonra onu başqa şəxs əvəz etmişdir. Tehran şöbəsi yaradıldıqdan sonra Təbriz şöbəsinə Təbriz Universitetinin müəllimi Ə.Karəng başçılıq etmişdir. F.Ruzvelt Fondu digər ölkələrdə, əsasən, amerikan ədəbiyyatının tərcüməsi ilə məşğul olsa da, İranda ali məktəblər üçün dərsliklər də nəşr olunur və yerli mütəxəssislər tərəfindən geniş istifadə edilirdi [182, s. 190-181].

S.H.Tağızadə 1958-ci ildə Tehranda ofset üsulu ilə nəşriyyatın yaradılmasında fəal iştirak etmiş [147], İranın Qızıl Xaç (Qızıl Şiro Xurşid) təşkilatının müəssislər heyətinin üzvü olmuşdur [182, s.

179]. O həmçinin BMT-nin yaranmasının il dönümü [147, s. 259-260], BMT-nin İnsan Hüquqları Bəyannaməsinin qəbul edilməsi günü münasibəti ilə [261-263] çıxışlar etmişdir.

S.H.Tağızadənin, yuxarıda qeyd edildiyi kimi, ictimai-mədəni fəaliyyətinin mühüm tərkib hissəsini onun müxtəlif auditoriyalarda müxtəlif mövzularda çıxışları təşkil edirdi. Onun Təbrizdə çoxsaylı çıxışları ictimai-mədəni irsinin mühüm hissəsini təşkil edir. Onun çıxışlarının əsas mövzularını ayrı-ayrı tarixi, elmi məsələlərdən əlavə, əsasən, modernləşmə hərəkatının erkən tarixi, məşrutə hərəkatının tarixi, həmin hərəkatla bağlı mühüm hadisələr, şəxsiyyətlər, modernləşmənin müasir problemləri və s. təşkil edirdi. S.H.Tağızadə bir sıra ictimai əhəmiyyətli məsələlərə öz münasibətini Senatda bildirməyi vacib sayırdı. Belə ki, o, 1959-cu ildə (19 iyun) Senatda "xarici dilin tədrisi" məsələsi ilə bağlı çıxış edərək [147, s. 292], senatorların və Senat vasitəsi ilə bütün ictimaiyyətin diqqətini ingilis dilinin tədrisinin sürətlə genişləndiyinə və onun fars dilinin mövqeyi üçün arzuolunmaz nəticələrinə yönəldir. S.H.Tağızadənin əsas iradı İranda dünya praktikasının əksinə olaraq xarici dilin (ingilis dili) ibtidai siniflərdə tədris olunması, hətta ingilis dilli uşaq bağçalarının təşkil olunmasına qarşı yönəlmişdi. İngilis dilinin tədrisinin genişlənməsi, natiqin fikrincə, fars dilində savadlılıq səviyyəsinin aşağı düşməsinə və bütövlükdə bu dilin varlığına təhlükə yaratmasına səbəb olur [147, s. 292-294]. Çıxışın mətni "İttilaat" qəzetində dərc olundu və "İradeyi Azərbaycan" qəzeti (04.07.1959) həmin çıxışın şərhinə həsr olunmuş "Senator Tağızadənin tarixi missiyası" adlı yazı dərc etmişdir. S.H.Tağızadənin çıxışı ölkədə geniş əks-səda doğurmuş, bütün qəzetlərin, yazıçı və jurnalistlərin diqqətini özünə çəkmiş və günün mövzusuna çevrilmişdir.

Qeyd edək ki, hakim dairələr S.H.Tağızadənin natiqlik qabiliyyəti və geniş nüfuzundan öz siyasətini həyata keçirmək üçün lazım gələndə bir dəstək kimi istifadə etməyə çalışırdılar. Məlum olduğu kimi, İranda 1960-cı illərin əvvəllərində başlanmış geniş

aqrar islahatlar 1962-ci ildə Cənubi Azərbaycanın Marağa mahalında kəndlilərə islahat şərtlərinə uyğun şəkildə torpaq payı verilməsi ilə başlanmışdır. Həmin tədbirə xüsusi önəm verən hakimiyyət dairələri S.H.Tağızadədən həmin münasibətlə çıxış etməyi xahiş etmişlər. Həmin mərasim Tehran radiosu ilə birbaşa bütün ölkəyə yayımlanırdı. S.H.Tağızadə həmin mərasimdə iştirak edənlərin şahidliyinə görə, çıxışının əvvəlində bəyan etmişdi ki, onun Məşrutə inqilabı illərində və ondan sonra, İctimaiyyun-amiyyun (sosial-demokrat) partiyasına üzv olandan iki əsas arzusu olmuşdur: "Birincisi, kəndlinin azadlığı, ikincisi dil azadlığı". Çıxışına davam edən natiq tədbirdə iştirak edən kəndlilərin hamısının türk (azərbaycanlı) olduğunu nəzərə alaraq türkcə danışacağını bildirdi və sözlərini Azərbaycan dilində davam etdirdi. Birinci və axırıncı dəfə idi ki, bir siyasi xadim Tehran radiosu ilə azərbaycanca danışırdı. S.H.Tağızadənin azərbaycanca çıxışı sonadək yayımlandı [166].

S.H.Tağızadənin ictimai-mədəni, elmi-ictimai fəaliyyət sahələrindən biri də İranın tarix və ədəbiyyatşünaslıq elmini Şərqşünasların Beynəlxalq Konqreslərində təmsil etməsi idi. O, çox vaxt İran elmi heyətlərinə başçılıq etmişdir. S.H.Tağızadə şərqşünasların Roma (1935), Kembric (1947, 1954), Münhen (1957), İbn Sinaya həsr olunmuş yubiley konfranslarında (Bağdad 1942, Tehran 1954) iştirak etmiş [147, s. 173, 195] və 1966-cı ildə Tehranda keçirilən Birinci Beynəlxalq İranşünaslıq Qurultayının sədri olmuşdur [147, s. 287].

Beləliklə, S.H.Tağızadə ictimai-mədəni fəaliyyətlə, demək olar ki, ardıcıl şəkildə məşğul olaraq, yeni ictimai-mədəni təsisatların yaradılmasında, yeni, mütərəqqi ideyaların, biliklərin yayılmasında yaxından və fəal surətdə iştirak etmişdir.

## S.H.Tağızadənin elmi fəaliyyəti

Seyid Həsən Tağızadənin modernləşmə sahəsində fəaliyyətini araşdırarkən elmi fəaliyyətinin də bəzi məqamlarına diqqət yetirmək vacibdir. Çünki bu mütəfəkkirin modernləşmə sahəsində fəaliyyəti elmi fəaliyyəti ilə üzvi surətdə bağlı olmuşdur. Seyid Həsən Tağızadənin yazılı irsini çapa hazırlayıb nəşr etməklə məşğul olan İrəc Əfşar onun xatirələrinə yazdığı qeydlərində göstədiyi kimi, onun fəaliyyətinin iki tərəfi vardır: "Biri siyasi və digəri elmi" [147, Müqəddimə, s. 2]. S.H.Tağızadəni bir çox müstəqil mövqeli müəllif-lər də "siyasətçi, ədib və müasir tarixçi" hesab edirlər [190].

S.H.Tağızadənin elmi fəaliyyətini təhlil edərkən onun nə sistemli orta, nə də klassik ali təhsil aldığını nəzərə almaq lazımdır. O, yalnız müasir elmə olan böyük marağı sayəsində müstəqil şəkildə xarici dilləri (fransız, ingilis), müxtəlif tipli məktəblərdə (Təbriz Darülfünunu, Təbriz Amerikan məktəbi) və ayrı-ayrı yüksək səviy-yəli müasir təhsilli şəxslərdən bir çox elmlərin əsaslarını öyrənmişdir. Onun müasir elmlərə böyük marağını hər şeydən əvvəl xarici dilləri öyrəndiyi zamanlarda tərcümə etdiyi kitablar göstərir. S.H.Tağızadənin biliklərinin müəyyən sistemə düşməsində onun qısa müddətə olsa da, Təbriz Darülfünununda və "Loğmaniyyə"də fizikanı tədris etməsinin də müəyyən təsiri olmuşdur. Onu da əlavə etmək lazımdır ki, S.H.Tağızadə ilk təcrübələrindən sonra ictimai elmləri daha ardıcıl və əsaslı şəkildə öyrənmiş və ömrü boyu mütaliə ilə məşğul olmuşdur. Təsadüfi deyil ki, SAVAK-ın S.H.Tağızadə haqqında tərtib etdiyi anket-sorğularda onun asudə vaxtını mütaliəyə və yazmağa sərf etdiyi qeyd olunur [182, s. 57].

S.H.Tağızadənin xarici dilləri bilməsi Avropa kitablarını orijinaldan oxumasına, ən əsası, Avropa müəlliflərinin araşdırma, ifadə tərzi, prinsip və üsulları ilə tanış olmasına, elmi təfəkkürünün formalaşmasına şərait yaratmışdır. S.H.Tağızadənin elm sahəsində

sonrakı fəaliyyətinə onun I çağırış Məclis qovulandan sonra İngiltərəyə gedərək Kembric Universitetində kataloq tərtibi ilə məşğul olmasının da rolu olmuşdur; çünki kataloq tərtibi əsərin məzmununu və əsas ideyasını çox qısa şəkildə əks etdirməyi tələb edirdi.

S.H.Tağızadənin alim kimi formalaşmasında həm Almaniyada, həm İngiltərədə, həm də İranda sonralar böyük və tanınmış alimlərlə yaxın əlaqələr qurması, elmi mühitdə qərar tutmasının mühüm rolu olmuşdur. S.H.Tağızadə məşhur alimlər D.Ross, İ.Markvart, İ.Bili, V.V.Minorsky, A.İ.Arberry, V.B.Henning, həmçinin iranlı alimlər M.Qəzvini, İ.Purdavud, M.İqbal, M.Minovi ilə yaxın elmi əməkdaşlıq münasibətləri qurmuşdu [147, Müqəddimə, s. 3]. Başqa sözlə desək, S.H.Tağızadə şəxsi səyi və təşəbbüsü sayəsində ictimai elmlər, xüsusən tarix və ədəbiyyatşünaslıq sahəsində mükəmməl bilik əldə etmişdir. Əlavə edək ki, S.H.Tağızadə tədqiqat obyektinə Avropa elmində mövcud olan yanaşma, tədqiqat üsul və prinsiplərini də bacarıqla mənimsəmişdir.

S.H.Tağızadənin elmi fəaliyyəti şərti olaraq, tərcümə fəaliyyəti, tədris və elmi jurnal təsis etməkdə iştirak etməsi ilə başlanır. S.H.Tağızadə uzun illər tibb elmini öyrənməklə məşğul olsa da, həmin sahədə ali təhsil almadığından, həmin elmi müstəqil şəkildə öyrənməyi davam etdirməmişdir. Təbriz ictimai-siyasi mühiti S.H.Tağızadənin siyasi məsələlərə daha çox maraq göstərməsinə və son nəticədə onun siyasətşünaslıq, tarix, ədəbiyyatşünaslıq sahəsində ixtisaslaşmasına səbəb olur.

S.H.Tağızadənin tarix və siyasətşünaslığa dair bilikləri onun ilk nisbətən iri həcmli "Zadobum" ("Vətən") kitabının tarix hissəsinin yazılmasında iştirakında təzahür etmişdir. S.H.Tağızadənin tarix, siyasətşünaslıq və ideologiya elmləri sahəsindəki biliklərinin bir hissəsi onun 1905-ci ildə Qahirədə fars dilində nəşr olunan "Hikmət" qəzetində dərc etdirdiyi "Təhqiqe əhvale konunuye İran ya mohakemate tarix" ("İranın hazırki durumu və ya tarixin mühakiməsi") adlı iri həcmli yazısında əks olunmuşdur [145]. Əgər birinci

yazını sırf elmi, daha doğrusu, elmi xülasə adlandırmaq olarsa, ikinci əsəri artıq müəllifin elmi-publisistik siyasətşünaslıq sahəsində fəaliyyətinin başlanğıcı hesab etmək olar.

S.H.Tağızadə I və II çağırış İran parlamentinin deputatı kimi fəaliyyət göstərərkən bir tərəfdən tarixi, hüquqi və politoloji biliklərini nümayiş etdirmək imkanı qazanmış, digər tərəfdən, ortaya çıxan mühüm məsələlər haqqında əsaslandırılmış mövqe nümayiş etdirmək təcrübəsi əldə etmişdir. Bu təcrübə sonralar onun İranın ictimai, siyasi, mədəni həyatının müxtəlif aktual məsələləri haqqında yazılarla çıxış etməsinə mühüm yardım göstərmişdir. S.H.Tağızadə I və II çağırış Məclisin deputatı kimi fəaliyyət göstərdiyi zaman Tehran qəzetlərində tez-tez yazılar dərc etdirmişdir. Həmin yazıların məzmunu haqqında müəyyən fikir söyləmək onların əlçatmazlığı səbəbindən qeyri-mümkündür. Bu boşluğu 1909-cu ildə təsis edilmiş İran Demokrat Partiyasının proqramını nəzərdən keçirməklə aradan qaldırmaq olar. Mənbələrdə proqramın S.H.Tağızadə tərəfindən yazıldığı barədə birbaşa məlumat qeyd olunmasa da, giriş hissəsindəki tarixi və politoloji məzmunlu qeydlər - qoyulan məsələ, yanaşma, müqayisə və proqnoz baxımından, onun S.H.Tağızadənin qələminin məhsulu olduğunu və ya onun yaxından iştirakı ilə yazıldığını söyləməyə əsas verir. S.H.Tağızadə partiyanın proqramında irəli sürülən məsələləri elmi-tarixi, tarixi qanunauyğunluq baxımından qiymətləndirməyə üstünlük verir [123, s. 110-111]. Qeyd edək ki, partiya proqramında S.H.Tağızadənin Qahirədə dərc etdirdiyi məqalənin əsas müddəaları müəyyən dərəcədə təkrar olunmuşdur.

S.H.Tağızadə ruhanilər tərəfindən II çağırış Məclisdən qovulduqdan sonra yenidən mühacirət etməyə məcbur olaraq Türkiyəyə getmiş və bir il yarıma qədər İstanbulda qalmalı olmuşdur. Xatirələrində mütəfəkkir qeyd edir ki, həmin müddətdə məişət problemlərini həll etməklə yanaşı, əsasən, mütaliə ilə məşğul olmuşdur. İstanbulda olarkən S.H.Tağızadə qısa müddət Parisə səfər edib iranlı tələbələr

qarşısında “Milli-cihadın növləri - ümumi təhsil” [147, s. 229-245] mövzusunda çıxış etmişdir. Çıxışda ümumi təlimin əhəmiyyətini göstərmək üçün 1871-ci ildə Almaniya-Fransa müharibəsində fransızların məğlubiyyətinin səbəbini ümumi təhsil sahəsinin geri qalma vəzifələri yerinə yetirərkən S.H.Tağızadə yenidən siyasi-ictimai, mədəni xarakterli yazılar çap etdirmişdir. 1925-ci ilin yazında nəşrə başlayan “Ayəndə” jurnalının redaktorunun xahişi ilə ilk nömrənin baş məqaləsini o yazmışdır. “Moqəddemate ayəndeyi rouşən” adlı bu məqalə (“Aydın gələcəyin ilkin şərtləri”) İran dövləti qarşısında duran əsas məsələlərin həllinin əhəmiyyətindən bəhs edirdi [140]. Məqalə işıqlı gələcəyin dörd əsas sütunu – milli birlik, təhlükəsizlik, dövlət idarələrinin islahatı, milli hakimiyyət və milli nümayəndəlik üsulunun islah edilməsi və dörd əsası – iqtisadi tərəqqi, xalq səhiyyəsi, xalq maarifi və xalqın mədəniyyət, tərəqqi, yeniləşmə, azadlığa doğru hərəkatı və onların əhəmiyyətinə həsr olunmuşdur. S.H.Tağızadə mülki, ictimai-siyasi məsələlərə elmi və obyektiv yanaşmağa çalışmışdır. Müqayisə üçün deyək ki, jurnalın naşiri və redaktoru Almaniyada politologiya doktoru dərəcəsi almış M.Əfşar İranın müstəqilliyinin möhkəmləndirilməsi üçün əsas çıxış yolunu qeyri-fars etnik birliklərin bütün sahələrdə assimilyasiya edilməsində görürdü [105, s. 5-7].

S.H.Tağızadə cəmiyyətin tərəqqisi və yeniləşməsində elmə və ümumi təhsilə xüsusi əhəmiyyət verdiyindən bu məsələ onun yazılarının əsas mövzusu olmuşdur. Artıq qeyd edildiyi kimi, hələ 1913-cü ildə Parisdə iranlı tələbələr qarşısında elmi və ümumi təhsil mövzusunda çıxış edərkən təhsili “Milli cihad”ın növlərindən biri və ya cihadın əsas növü adlandırmışdı [147, s. 229]. O, 1928-ci ildə həmin mövzuya yenidən qayıdaraq Tehran jurnallarının birində “Moqəddimeye təlime omumi ya yeki əz sərfəslhayi təməddon” (“Ümumi təhsil və ya mədəniyyətin baş fəsillərindən biri”) adlı məqalə dərc etdirir; adından da göründüyü kimi, S.H.Tağızadə ümumi təhsili mədəniyyətin əsas şərtlərindən biri hesab edirdi.

1928-ci ildə VI çağırış İran parlamentinin fəaliyyəti başa çatır və S.H.Tağızadə növbəti VII çağırış Məclisə deputat seçilməyərək işsiz qalır. Maarif nazirliyi ona yardım göstərmək məqsədilə müqavilə əsasında orta məktəblər üçün İran tarixinin Sasani imperiyasının (224-651) süqutundan sonrakı dövrü haqqında dərslik hazırlamağı tapşırır. S.H.Tağızadə dərsliyi yazmağa başlasa da, 1929-cu ilin əvvəllərində Xorasan vilayətinə vali təyin edildiyindən işi başa çatdıra bilmir, bununla belə, yaxın dostlarından birinin təklifi ilə hazırladığı materialı 1930-cu ildə çap etdirir. Həmin hissə "Əz Pərviz ta Çingiz" ("Pərvizdən Çingizə qədər") [137, müstəqil hissə, s. 78], yəni Sasanilərdən monqol istilasına qədərki dövrü əhatə edən fəsillər kimi çap olunsa da, S.H.Tağızadənin kitabın girişində də göstərdiyi kimi, yalnız Abbasilər sülaləsinin hakimiyyətə gəlişinə qədərki dövrü əhatə edir [137, kitabın ön sözü]. Həmin dövrün siyasi tarixini yazmağa çalışan müəllif hadisələri, əsasən, xronoloji ardıcıllıqla nisbətən obyektiv şəkildə işıqlandırmağa çalışmışdır.

S.H.Tağızadə, yuxarıda qeyd edildiyi kimi, 1934-cü ildə "Təlim və tərbiyət" jurnalında Dil və Ədəbiyyat Akademiyasının yeni söz yaradıcılığını və şahın həmin işə qarışmasını tənqid etmişdir [150, s. 256-257]. Böyük İran şairi Ə.Firdovsinin anadan olmasının 1000 illiyi (1934) münasibəti ilə tədbirlərdən biri də "Firdovsinin min illiyi" adlı xarici və iranlı müəlliflərin məqalələrindən ibarət toplunun çap edilməsi idi. S.H.Tağızadə xatirələrində qeyd edir ki, kitabın yarısı onun Firdovsi haqqında yazılarından ibarət idi. Həmin yazılar S.H.Tağızadənin 1920-1921-ci illərdə "Kave" jurnalında dərc etdirdiyi Firdovsi, "Şahnamə" haqqında yazılarından ibarət idi [139; 147; 149].

Rza şah S.H.Tağızadənin yazılarının kitaba daxil edilməsindən narazı qalmış və həmin işə rəhbərlik edən Maarif nazirliyindən izahat tələb etmişdi. Maarif naziri şaha məlumat verərək demişdi: "Bizim çap etdiyimiz kitab elmi məqalələrdən ibarətdir. Heç kim tərif olunmur" və onun özünün "filan şəxslə heç bir əlaqəsi yoxdur" [150, s. 258].

Əvvəlki bölmədə qeyd etdiyimiz kimi, şahın qəzəbindən ehtiyat edən S.H.Tağızadə Fransada səfir vəzifəsindən azad edildikdən sonra İrana qayıtmayıb Almaniyaya getmişdir. 1934-cü ilin ikinci yarısından 1935-ci ilin sonlarına kimi Almaniyada xüsusi şəxs qismində yaşamalı olmuşdur. Həmin vaxt S.H.Tağızadə elmi araşdırmalar aparmış və yarımçıq qalmış tədqiqatlarını tamamlamaqla məşğul olmuşdur. Bu dövrdə "Ərəb və Ərəbistan tarixi" əsərini yazmışdır [99, s. 6]. Yenə də həmin günlərdə özünün ən iri həcmli və əsas elmi əsəri olan "Qədim İran təqvimi" adlı əsərini qələmə almışdır [142].

S.H.Tağızadə əsərin ön sözündə (1935) qeyd edir ki, hələ 17 il əvvəl tanınmış alim Sir Denison Rossun məsləhətilə İranın qədim təqvimi ilə bağlı material toplamışdır və Almaniyaya gələndən sonra (1934) onları nəzərdən keçirərək kitab halına gətirməyi qərara almışdır [142, Ön söz]. Əsər 5 fəsil, nəticə və əlavələrdən ibarətdir. Birinci fəsil "Dəyişən və sabit il", ikinci fəsil "İran təqviminin tədrici təkamülü, dəyişməsi və təsirləri", üçüncü fəsil "Qonşu sivilizasiyaların İran təqviminə təsiri", dördüncü fəsil (tarixi) "Başlanğıcın hesablanması və illərin müəyyən edilməsi", beşinci fəsil "İslam mərhələsində İran təqvimi haqqında icmal" adlanır. Əlavələrdə qədim İran bayramları və xüsusi qeyd edilən günlərin siyahısı, Avesta təqvimindən istifadə edən müxtəlif xalqların təqvimlərində ay adlarının siyahısı verilmişdir. Kitaba həmçinin "Qədim İranda nücum elmi və hökmləri" haqqında hissə də əlavə olunmuşdur. Əsərin yazılmasında 291 ərəb, fars və türk dilində olan mənbədən, 165 Qərb müəllifinin əsərindən (cəmi 456 ad) istifadə olunmuşdur.

Müəllif Novruz haqqında "Yadigar" jurnalında dərc etdirdiyi və əslində "Qədim İran təqvimi" kitabının xülasəsi olan məqalədə həmin kitabın yazılmasında istifadə edilən mənbələr haqqında yazır: "Güman edirəm ki, bütün mənbələrə müraciət etmişəm və imkan daxilində həmin mövzu ilə bağlı Əhəməni, Pəhləvi, Avesta, Soqdiya parsik (pəhləvi istilahı), Manna, Çin, Kappadokiya, erməni (orijinal və ya

tərcümə), ərəb, fars, türk, alman, ingilis, fransız, dillərində bilavasitə, həmçinin mütəxəssislərin köməyi ilə italyan, rus, isveç, uyğur, babil, island (yəni norveçlərin qədim dili) dillərində olan hər bir yazını nəzərdən keçirmişəm" [147, s. 5]. Onu da əlavə etmək lazımdır ki, müəllif təqvimlə bağlı, demək olar ki, bütün Şərq mənbələrinə birbaşa və ya bilavasitə müraciət etməyə çalışmış və nəticədə bütün şərq təqvimləri, onların qarşılıqlı təsiri haqqında geniş məlumat vermişdir. Yuxarıdakı məlumatlar da müəllifin bütün müsəlman və Qərb mənbə və ədəbiyyatından geniş istifadə etdiyini və ya kafi mənbə bazasına malik olduğunu göstərir. S.H.Tağızadə öz əsərində qədim İran təqviminin formalaşmasını tarixi ardıcıl və hərtərəfli şəkildə, digər ölkə və xalqların təqvimləri ilə qarşılıqlı əlaqədə tədqiq etmişdir.

S.H.Tağızadə ön sözdə təvazökarlıq edərək öz əsərinin elmi əhəmiyyətini yüksək qiymətləndirməsə də, fars dilində həmin mövzuda tədqiqat əsərinin olmadığını, həmçinin əsərin mənbə baxımından istifadəsinin faydalı olduğunu və həmin sahədə gələcəkdə tədqiqat aparacaq alimlərə yardım göstərə biləcəyini də qeyd edir [142, Ön söz]. Həqiqətən də, Tağızadənin Qərb müəlliflərindən gətirdiyi istinadlar Şərq, Şərq müəlliflərindən gətirdiyi istinadlar Qərb araşdırıcıları üçün bir mənbə kimi son dərəcə qiymətli hesab edilməlidir. Müəllif araşdırmaları nəticəsində gəldiyi fikirləri əsərin yekun hissəsində qısa şəkildə şərh etmişdir. S.H.Tağızadə iranlıların təqvim tərtib etmək sahəsində baxışlarının tədricən formalaşdığı və dəyişdiyini tarixi və məntiqi ardıcıllıqla nümayiş etdirir.

Əsərin ən maraqlı mövzularından biri kimi "Qədim və müasir Novruz" adlı hissəni hesab etmək olar. Müəllifin fikrincə, Novruzun yeni il kimi bayram edilməsi qədim İran təqvimindən qalma yeganə əlamətdir. Nə il, nə ay, nə tarixin başlanğıcı qədim təqvimə deyil, Ərəb-İslam təqviminə əsaslanır. Novruzun da baharın ilk gününü bildirməsi türk sultanı Məlik şahın göstərişi ilə meydana gəlmişdir. Doğrudur, maliyyə ili üçün 12 illik şəmsi dövründən (periodundan)

istifadə olunurdu, amma illər və aylar İslam təqvimindən götürülmə idi. Bu təqvim geniş kütlə arasında yayılmamışdır. Yalnız 1925-ci ildə xüsusi fərmanla şəmsi təqviminə keçildi və qədim İran aylarının adı bərpa olundu. Baharın ilk günü ilin ilk günü elan olundu. Eyni zamanda 5 gün ilin axırına yox, birinci 6 ayın 31 gün, sonrakı beş ayın 30 gün müəyyən edilməsi ilə həll olundu. 12-ci ay 29 gün, uzun ildə 30 gün nəzərdə tutuldu.

"Novruz" məsələsi müəyyən ictimai, siyasi maraq doğurduğundan müəllifin həmin məsələ ilə bağlı digər bir yazısını da nəzərdən keçirməyi zəruri hesab edirik. S.H.Tağızadə Novruz haqqında ilk dəfə "Kave" jurnalında yazı dərc etdirmişdir [153; 156; 159; 161]. Əslində həmin yazı "Qədim İran təqvimi" əsərinin qısa xülasəsi, mənbə və faktlar göstərilmədən şərhidir. Müəllif yazır ki, Novruz Zərdüşt ilinin birinci gününün adı və fərvərdin ayının birinci günü idi [147, s. 4], Səlcuq sultanı Məlik şahın hökmü ilə 468 hicri ilində fərvərdin ayının 1-ni 18 gün qabağa çəkərək həqiqi günəş ilinə uyğunlaşdırdılar, həqiqi astronomik il ilə təqvim ili arasındakı fərqi də yunan və yuliyan təqvimi əsasında həll etdilər [147, s. 5]. Bununla da ilin qüsuru aradan qalxdı və onun başlanğıcı sabitləşdi [147, s. 5]. Yəni indi olduğu kimi hər 4 ildən bir ili 365 gün yox, 366 gün hesabladılar. İran ilinin başlanğıcının bahar fəslinin birinci gününə düşməsi Cəlali təqviminin yaradılması zamanından başlanır və bundan əvvəl şəmsi (günəş) ilinin başlanğıcı sabit deyildi və yerini dəyişirdi. Hətta Məlik şah dövründən sonra belə sabit Cəlali təqviminin təsis edilməsi geniş kütlələrin il və ay hesablamalarına elə bir təsir göstərmədi və onlar köhnə təqvimə üstünlük verirdilər [147, s. 6]. 1327-ci hicri şəmsi ilində (1948-ci il) hind parslarının və İran zərdüştlərinin təqviminə görə (onlar əvvəlki naqis il təqvimindən istifadə edirlər) fərvərdinin 1-i avqust ayının 4-nə düşmüşdür və 4 ildən sonra avqust ayının 3-də fərvərdin ayı başlanacaqdır. Müəllifin 5-ci qeyddə verdiyi fikir çox maraqlıdır. Müəllif göstərir ki, İranda

xalq kütləsi arasında Novruzun qədimdən baharın əvvəlində təsəvvür edilməsi haqqında yayılmış əqidənin möhkəm əsası yoxdur [147, s. 6]. 632-ci ildə İran ilinin birinci günü, yəni fərvərdin ayının birinci günü 16 iyuna, 652-ci ildə isə 11 iyuna düşmüşdür [147, s. 7].

Kitabda xülasə 3-16-cı səhifələri əhatə edir. Həmin kitabın 16-cı səhifəsində verilən qeyddə göstərilir ki, S.H.Tağızadə Novruz haqqında "İran-Amerika" cəmiyyətində də mühazirə oxumuşdur və onun mətni külliyyatın I cildində çap olunmuşdur.

Göründüyü kimi, S.H.Tağızadə elmi araşdırma üçün irəli sürülən əsas metodoloji tələblərə – tarixilik, obyektivlik, məntiqlik, hadisələri digər hadisələrlə qarşılıqlı əlaqə və təsirdə tədqiq etmək, dəyişmək və inkişafda nəzərdən keçirmək tələblərinə əməl etmişdir. Müəllif qeyd edir ki, əsərin elmi aparat baxımından iki nöqsanı vardır: 1) Ərəb, fars və pəhləvi mənbələrindən istinadlar orijinalda olduğu kimi verilməyib; 2) Bəzi mənbələrin səhifələrinin sayı və ya Avropa kitabxanalarındakı əlyazmaların rekvizitləri göstərilməmişdir. Bununla yanaşı, istinad edilən fikrin mənası artırılıb - əskilmədən verilmişdi [142, Müqəddimə, səhifələr nömrələnməmişdir]. S.H.Tağızadə bütün elmi əsərləri həmin prinsiplərə əməl etməklə yazmışdır, ona görə də bir sıra hallarda İran "elmi-ideoloji" fikrində hakim olan müddəalardan fərqli nəticələr əldə etmişdir. Yuxarıda bunların bir neçəsi qeyd edildiyindən, S.H.Tağızadənin daha bir neçə fərqli nəticəsini əks etdirməyi məqsədəuyğun sayırıq.

S.H.Tağızadə Zərdüştün tarixi ilə bağlı iki yazısında [143; 152] Qərb zərdüştlüyünün nailiyyətlərini qısa şəkildə nəzərdən keçirərək Avropa şərqşünaslığında əksəriyyət tərəfindən qəbul olunmuş fikri, yəni Zərdüştün e.ə. VII-VI əsrlərdə yaşadığını müdafiə edir və iranlılar arasında, xüsusən müasir hind zərdüştləri arasında yayılmış və Zərdüştün tarixini bir neçə min il qədimləşdirən rəvayətlərin və "elmi" təşəbbüslərin heç bir əsası olmadığını göstərir.

S.H.Tağızadə qədim İran tarixi ilə bağlı araşdırmaların uzun illər olduqca mühüm problem təşkil etdiyini belə izah edir: "İranlıların qədim dövrlərdən Sasanilərin hakimiyyətinin sonlarına qədər vahid, sistematik tarixləri yox idi ki, hadisələrin baş verdiyi zamanı həmin tarixlə göstərsinlər [147, s. 51]. Sasanilərin hakimiyyəti illərində hər bir padşahın hakimiyyətə gəlməsi ilə yeni tarix başlanırdı" [147, s. 51].

S.H.Tağızadə yuxarıda qeyd edilən ikinci məqaləsində böyük İran şairi Ə.Firdovsi ilə bağlı İran millətçilik ideologiyasında kök salmış fikirlərdən tamamilə fərqli fikir irəli sürür. Məlum olduğu kimi, İran millətçiləri "Şahnamə" müəllifini İran millətçiliyinin ən böyük nümayəndəsi hesab edirlər, onun nəinki ərəb istilasına, hətta İslam dininə də qarşı çıxdığını sübut etmək istəyirlər. Ə.Firdovsinin "millətçiliyi"nin ən mühüm göstəricilərindən biri "Şahnamə" əsərində minimum ərəb sözlərindən istifadə etməsi hesab olunur. Həmin iddianı əsassız hesab edən S.H.Tağızadə göstərir ki, Sasani sülaləsinin hakimiyyətinin sonlarında İranın "Xotaynamə" adlı rəsmi tarixi tərtib edilmişdi və həmin kitab hicri təqvimi ilə II-III (m.VII-IX) əsrlərdə dəfələrlə ərəb dilinə tərcümə olunmuşdur. 957 ildə Tus valisi və komandan Məhəmməd ibn Əbdürrəzaq Tusinin göstərişi və himayəsi ilə bu kitab dəri (fars) dilinə də tərcümə edildi və "Şahnamə" adlandırıldı. Həmin kitab da "Şahnamə" kimi məşhur oldu. S.H.Tağızadə yazır: "Hamıya məlum olduğu kimi, həmin rəsmi tarixdə və Sasanilər dövrünün bütün tarixi və əfsanəvi kitablarında İranın həqiqi tarixindən, yəni madlar və onların dövləti, nə fars hakimləri və həxamənişilərdən heç bir əsər və xəbər yox idi, yalnız əhəmənilərdən sonuncu Dara, əşkanilərdən də çox az məlumat qeyd edilmişdir [147, s. 54]. Bunun müqabilində İran tarixi adlandırdıqları tarix qədim əfsanələrdən, yəni Avestadan götürülmüş əfsanə və nağıllardan … ibarət idi. Hətta Zərdüştdən də həmin kitabda əhatəli xəbər verilmirdi, yalnız Avestadan götürülmüş məlumat icmal

şəklində verilmişdir [147, s. 54]. Həmin tarixi də Dəqiqi fars dilində nəzmə çəkmişdir" [147, s. 54]. "Xotəknaməni" pəhləvi dilindən dəri dilinə kahinlər tərcümə etdiyindən onun dili "arxaik" və təmizdir, ərəb sözlərindən çox az istifadə olunub və onlara yaxın olan qədim sözləri də tərcümədə saxlamışlar. Bunun nəticəsində Dəqiqi və Firdovsi həmin mətni nəzmə çəkərkən onu leksik baxımdan böyük dəyişikliyə uğratmamışlar. Buradan S.H.Tağızadə belə bir nəticəyə gəlir: "Bu iş təbii şəkildə və ənənənin tələbi ilə yaranmış və qəsdən, məqsədyönlü baş verməmişdir, Firdovsinin "Şahnamə" əsərində 5%-dən də az ərəb sözü işlənməsinin səbəbi də bu idi" [147, s. 55].

S.H.Tağızadə qeyd edir ki, XIX əsrin II yarısından başlayaraq bir sıra əsassız, lakin xoşagələn "fikirləri" Ə.Firdovsi və onun kitabına aid edirlər və onu bugünkü anlamda bir şoubi millətçi adlandırırlar [147, s.55]. Hətta bəzən onun İslama münasibətinin səmimi olduğuna şübhə edərək zərdüştliyə meyilli, hətta anti-İslam hisslərinə malik olan bir şəxs hesab edirdilər. S.H.Tağızadə vurğulayır ki, bu əfsanələrin heç bir əsası yoxdur, Firdovsi nəinki həqiqi müsəlman idi, həmçinin şoubi deyildi, hərçənd ola bilər ki, anti-şoubi də deyildi; o, mütəssib şiə, yəni bugünkü mənada Rəşidin xəlifəsinə lənət oxuyan şiə də deyildi [147, s. 55].

S.H.Tağızadə İranda elmin tarixi haqqında yazır: "İranda elm haqqında kafi məlumatımız yoxdur, yalnız onu deyə bilərik ki, digər qədim xalqlarda olduğu kimi, təbiətə aid biliklərin və digər biliklərin əsasları dini kitabçalarda səbt olunduğundan, əsasən, xürafatdan başqa bir şey deyildi" [147, s. 64]. O, daha sonra qeyd edir ki, Avestanın mühüm hissəsi olan "Bundeheşen"də dünya və onun yaradılması haqqında verilən məlumat, çox güman ki, Avestadan götürülüb və çox yayqın, əsassız və xurafi baxışlardan başqa bir şey deyildir [147, s. 66]. İran tarixi ilə bağlı bir sıra məsələlərə aydınlıq gətirməyə çalışan S.H.Tağızadə onun irəli sürdüyü fikirlərin millətçilər tərəfindən qəbul edilməz olduğunu anlayaraq elmi

araşdırmanın əsas prinsip və məqsədini dəfələrlə xatırlatmalı olmuşdur. Zərdüştün tarixi haqqında yazısında bu məsələ ilə bağlı S.H.Tağızadə yazır: “Sonda faydasız olmazdı qeyd edək ki, elmi araşdırma zamanı bütün sahələrdə millətçilik meyli və həvəsi bir kənara qoyulmalıdır” [147, s. 27]. Zərdüştə həsr olunan ikinci yazısında S.H.Tağızadə həmin mövzuya qayıdaraq göstərir ki, vətənpərvərlik və millətpərəstlik özlüyündə bəyənilən keyfiyyətlər olsa da, həmin məsələdə mübaliğə və onu elmə daxil etmək yol verilməzdir [147, s. 53].

S.H.Tağızadənin bir qisim yazıları məşhur alimlərin fəaliyyətinə həsr olunmuşdur. Məsələn, böyük türk alimi Zəki Vəlidi Toqanın yubileyi ilə bağlı dərc olunan toplu üçün yazdığı “Sal və mahe qədime torkha” (“Türklərin qədim il və ayları”) adlı məqaləsində [147, s. 28-36; 151], Zəki Vəlidi Toqanı uzun illərdən bəri tanıdığını və onunla yaxın dost olduğunu qeyd edən müəllif, onun bütün Şərq dillərində Qərb araşdırma prinsipini tam mənimsəyən, geniş biliyə malik olan beş nəfər alimdən birincisi olduğunu vurğulayırdı [147, s. 28-39]. S.H.Tağızadə digər böyük, dünya şöhrətli alimlərə də obyektiv yanaşmaq nümunəsi göstərir. O qeyd edir ki, İbn Sina dünya şöhrətinə görə ən böyük alim hesab edilsə də, təbabət elmində Razi ilə müqayisə edilə bilməz. O, fikrini dəqiqləşdirərək yazır: “İbn Sina daha çox filosof, sonra həkim kimi məşhurdur” [147, s. 172]. S.H.Tağızadə İranın tanınmış alimi Mirzə Məhəmməd Qəzvinini İranda tənqidi tədqiqatın əsasını qoymuş alim kimi səciyyələndirirdi [163, s. 9].

Bu qeydlər göstərir ki, S.H.Tağızadə müasir anlamda alim deyəndə Qərb elmi metodologiyasını mənimsəmiş alimləri nəzərdə tuturdu. O, böyük alimlərə əsasən məşğul olduqları sahələrdəki nailiyyətlərinə görə qiymət verilməsinin tərəfdarı idi. Həmin qeydlər dolayısı ilə S.H.Tağızadənin də öz elmi fəaliyyətində, ilk növbədə, elmi prinsiplərə əməl etməyə çalışdığını göstərir. S.H.Tağızadə

alimin obyektivliyini yüksək qiymətləndirir və Şərqdə belə böyük alimlərin olduğunu xatırladırdı. O qeyd edirdi ki, Şərq alimləri arasında Həmzə İsfahani kimi milli təəssübkeşliyi, milli hisləri tarixşünaslıq və dilçilik məsələlərinə daxil edən alimlərlə yanaşı, bitərəflik və obyektivliyin nümunəsi olan Ə.R.Biruni kimi alimlər də olmuşdur [147, s. 67].

Ümumiyyətlə, S.H.Tağızadə tarix və dilçilik sahəsində elmi araşdırmalar aparan şəxslərə aşağıdakılara diqqət yetirməyi tövsiyə edirdi: 1.Toponimlərin və antroponimlərin zahiri oxşarlığından səhv nəticə çıxarmamaq; 2. Mötəbər və yoxlanılmış mənbələrdən, qədim və ilkin mənbələrin orijinalından istifadə etmək; 3. Tarixi və dilçilik araşdırmalarında milli təəssübkeşliyin təsiri altına düşməmək [147, s. 66].

Təəssüf ki, S.H.Tağızadənin elmi yaradıcılığı, demək olar ki, tədqiqatçıların diqqətindən kənarda qalmışdır. Bu baxımdan tanınmış mühacir iranlı (azərbaycanlı) alim Məhəmməd Əli Humayun Katozyanın S.H.Tağızadənin hadisələrə yanaşma tərzi haqqında fikri maraq doğurur. O göstərir ki, M.H.Tağızadənin siyasi, elmi fəaliyyətinin əsas xüsusiyyətlərindən biri məsələlərə "mövcud çərçivə xaricindən" yanaşması idi [204, s. 24]. M.H.Katozyan "mövcud çərçivə xaricindən baxmaq" anlayışını şərh edərək göstərir ki, belə yanaşma tərzinə adətən "elmi və obyektiv"yanaşma deyilir [204, s. 24]. O, daha sonra qeyd edir ki, belə yanaşmanın xüsusiyyətlərindən biri ondan ibarətdir ki, nadir hallarda öz dövründə dərk edilir və təsir göstərir [204, s. 24]. Ümumi qəbul olunmuş çərçivədən kənara çıxanların ideyalarını dərk etmədiklərindən onlara qarşı müxalif mövqe, hətta düşmənçilik göstərilir. Müəllif göstərir ki, bu deyilənləri müəyyən dərəcədə S.H.Tağızadəyə aid etmək olar [204, s. 24]. M.Ə.Katozyan bu şərtiliyi S.H.Tağızadənin İran haqqında fikirlərini, demək olar ki, ümumən hüzurunda bəyan etməməsi ilə əsaslandırır [204, s. 24-25]. Lakin haqqında danışılan iki məqaləsi göstərir ki, S.H.Tağızadə araşdırılan məsələlərə İran ictimai və elmi

fikrində qəbul olunmuş çərçivədən kənardan baxmağa çalışmış və ona görə də elmi, xüsusən də ideoloji köklü, “elmi” ictimaiyyəti qane etməyən elmi nəticələr əldə etmişdir. S.H.Tağızadə həssas məsələ olan din, dini təbliğat və təbliğat məsələsinə də elmi yanaşmağın zəruriliyini vurğulayırdı. O, İranda ruhanilərin elmi öyrənmək vaxtının çoxdan çatdığını, onların din ilə elmi əlaqələndirməkdə Türkiyə, Misir və digər ölkələrdən nümunə götürməsini xüsusi vurğulayırdı [147, s. 192].

Yuxarıda deyilənlər sistemli və klassik təhsil, xüsusən də ali təhsil almamış S.H.Tağızadənin Avropa elmi mühitində fəaliyyət göstərməsi nəticəsində Qərb və ya müasir elmi təfəkkür tərzinə yiyələndiyini, elmi araşdırmaları müasir metod, metodologiya və prinsiplərə uyğun şəkildə aparmağa böyük diqqət yetirdiyini göstərir. Bununla belə, S.H.Tağızadənin elmi fəaliyyətinə münasibət birmənalı deyildir. Onun siyasi, ideoloji müxalifləri “Tağızadənin hətta tarix və elmi araşdırma sahəsində elmi yazılarının faydasını inkar edirdilər” [147, Müqəddimə, s. 2]. İranın rəsmi dairələrində S.H.Tağızadəni böyük alim kimi dəyərləndirirdilər. SAVAK-ın 1956-cı il raportlarından birində göstərilirdi ki, S.H.Tağızadə “yüksək dərəcəli alim kimi” Ali Mədəniyyət Şurasına üzv seçildi [182, s. 60].

S.H.Tağızadənin İranda yüksək elmi nüfuz sahibi olmasının əsas göstəricisi onun şərqşünaslıq qurultaylarında çox zaman İran nümayəndə heyətinə başçılıq etməsidir. Vaxtilə London Universitetində S.H.Tağızadənin tələbəsi olmuş ingilis müəllifi sonralar qeyd edirdi: “S.H.Tağızadənin biliyi çox dərin və geniş idi, İran mədəniyyəti və sivilizasiyasının birinci dərəcəli bilicisi idi” [115, s. 81, 82].

S.H.Tağızadə daim öyrənmək, biliyini zənginləşdirmək, dərinləşdirmək və genişləndirməyə xüsusi əhəmiyyət verirdi. O, orta fars və ya pəhləvi dilini öyrənmiş, hətta həmin dildə bir sözün

düzgün oxunmasına nail olmuşdur [213, s. 108]. S.H.Tağızadə elmi fəaliyyətindən danışarkən bir məsələyə xüsusi diqqət yetirirdi. O, öz tərcümeyi-halında maraq dairəsinə daxil olan mənəvi dəyərlər sırasında "xalis elmi" ayrıca qeyd edirdi. Eyni zamanda öz elmi səlahiyyətlərini təvazökarlıqla belə dəyərləndirirdi: "Xalis elmlərə, tarix və ədəbiyyata olan bütün həvəsinə baxmayaraq, həmin elm sahələrində qeyd edilə biləcək elə bir biliyi (maye) yox idi" [213, s. 106]. Əslində isə S.H.Tağızadə İranın tarixi və ədəbiyyatı sahəsində hərtərəfli elmi biliyə malik olan, elmi fəaliyyətində obyektivliyi və həqiqəti hər şeydən üstün tutan nadir simalarından biri adlandırıla bilər. S.H.Tağızadə yalnız tədqiqatçı deyildi, o, eyni zamanda elmi biliklərin populyarlaşdırıcısı (kütləvi mühazirələr), ötürücüsü (müəllimlik fəaliyyəti), təşkilatçısı (elmi seminarların rəhbəri) və İran tarix elminin təmsilçisi (İranı beynəlxalq şərqşünaslıq, iranşünaslıq qurultaylarında təmsil etməsi) rolunda da çıxış edirdi.

S.H.Tağızadənin elmi fəaliyyətinə ümumi qiymət vermək o qədər də asan deyil. O nə tarixşünaslıq, nə də ədəbiyyatşünaslıq sahəsində xüsusi bir məktəbin yaradıcısı səviyyəsinə yüksəlmiş, bununla belə, demək olar ki, İranda həqiqi elmin, əsas meyarı obyektivlik və həqiqət olan tarixşünaslıq elminin formalaşması sahəsində ilk, lakin sabit və ardıcıl fəaliyyət göstərmiş alimdir. S.H.Tağızadədən əvvəl İranda Avropa tipli alim, demək olar ki, fəaliyyət göstərməmiş və həmin dövrdə İran tarixşünaslığı və ədəbiyyatşünaslığında onun rəhbər tutduğu obyektivlik və həqiqət prinsipləri tam bərqərar olmamışdır. S.H.Tağızadənin İran şəraitində elmi fəaliyyətinin əsas dəyəri də bundadır. Elmi fəaliyyətlə daha ardıcıl şəkildə məşğul olaraq İranın tarixi, mədəniyyəti, ədəbiyyatı ilə bağlı dəyərli əsərlər yazmışdır ki, onlar bu gün də öz aktuallığını saxlamaqdadır və Azərbaycan dilinə tərcümə olunması zəruridir.

# III FƏSİL
# SEYİD HƏSƏN TAĞIZADƏNİN İRANI MODERNLƏŞDİRMƏK CƏHDLƏRİ

## S.H.Tağızadənin siyasi sistemin modernləşməsi sahəsində fəaliyyəti

Seyid Həsən Tağızadə siyasi fəaliyyətə erkən yaşlarından başlamışdır. O, artıq 1899-cu ildə Təbrizdə mütərəqqi ziyalılar tərəfindən təşkil edilmiş gizli mərkəzin üzvü idi [150, s. 27]. Xarici siyasi ədəbiyyat, mühacir müxalif farsdilli mətbuat, İran maarifçilərinin əsərləri ilə tanışlıq və gizli mərkəzdə fəaliyyəti onun siyasi prioritetlərinin formalaşmasına zəmin hazırlamışdı. S.H.Tağızadənin siyasi baxışlarında əsas yeri azadlıq, xüsusən fikir azadlığı tutmağa başlayır, qadın azadlığı məsələsi də diqqətdən kənarda qalmırdı [150, s. 32]. 1905-ci ildə xaricdən ilk səfərindən qayıtdıqdan sonra S.H.Tağızadə ən yaxın dostları ilə birlikdə gizli şəkildə istibdad əleyhinə bilavasitə mübarizəyə başlayır [150, s. 46]. Onlar "şəbnamələr" (gizli vərəqlər) yazaraq xalqı üsyan və inqilaba çağırırdılar [190].

İranın xarici asılılığının güclənməsi, daxili ziddiyyətlərin kəskinləşməsi geniş xalq kütlələrinin narazılığının daha da genişlənməsinə səbəb oldu və 1905-1911-ci illər inqilabının başlanması ilə nəticələndi. İnqilabi hərəkat 1906-cı ilin avqust ayının 5-də Konstitusiya qəbul edilməsi haqqında fərman verilməsinə nail oldu. Azərbaycan valisi, vəliəhd Məhəmməd Əli Mirzə Təbrizdə vəziyyətə sərt nəzarəti həyata keçirdiyindən inqilabın ilk uğurunun siyasi həyata təsirinin qarşısını almağa nail ola bilmişdi. "Təbrizdə azadlıq, konstitusiya və parlamentdən xəbər-ətər yox idi" [150, s. 52].

S.H.Tağızadə inqilabı hadisələri yaxından izləmək və onlarda iştirak etmək üçün Tehrana getməyi qərara alır. O, Təbriz –

Naxçıvan – Tiflis – Bakı marşrutu ilə Cənubi Qafqazın ən böyük inqilab mərkəzi olan Bakı şəhərinə gəlir. Bakıda iranlıların "İctimaiyyun-amiyyun" siyasi təşkilatının fəalları ilə görüşür və məşhur maarifçi M.Ə.Talıbovun dəvəti ilə Temirxan Şuraya (Buynaksk şəhərinə) gələrək 4 gün onun qonağı olur [150, s. 53-54]. Qeyd edək ki, həmin görüşlərin S.H.Tağızadənin siyasi şüurunun sonrakı inkişafına, siyasi mövqeyinin formalaşmasına böyük təsiri olmuşdur.

Bakıdan hərəkət edən S.H.Tağızadə 1906-cı ilin oktyabrın 28-də Tehrana gəlir [150, s. 56]. O, Tehrana daxil olduğu zaman artıq Tehranda parlamentə seçki qanunu qəbul edilmiş (09.09.1906), parlament seçkiləri başa çatmış (05.10.1906) və Seçki qanununa uyğun olaraq paytaxtdan olan deputatların iştirakı ilə parlament fəaliyyətə başlamışdı (07.10.1906). Parlamentin iclaslarına ictimaiyyətin nümayəndələri də buraxıldığından S.H.Tağızadə bir aya yaxın müddət ərzində həmin iclaslarda tamaşaçı kimi iştirak etmişdir [150, s. 56.]

Cənubi Azərbaycanda seçkilər başa çatdıqdan sonra (1906, noyabr) əyalət əncüməni Tehrana, S.H.Tağızadəyə teleqram göndərərək onun tacir silkinin nümayəndəsi kimi İran parlamentinə Təbrizdən deputat seçilməsi haqqında məlumat vermişdir [150, s. 58]. S.H.Tağızadənin Təbrizdə seçki kampaniyasında iştirak etməmiş deputat seçilməsi onun Qahirədə çap etdirdiyi (1905) məqalə ilə əlaqələndirilir. Belə ki, o, Təbrizdən Tehrana yola düşdükdən sonra həmin məqalə Təbrizdə ayrıca kitabça kimi çap edilmiş və məşrutə tərəfdarlarının diqqətini cəlb etdiyindən tacirlər onu öz nümayəndələri kimi parlamentə deputat seçmişlər [170, s. 55].

S.H.Tağızadə deputat mandatının surəti əsasında 1906-cı ilin noyabrında İranın ilk parlamentində deputat kimi fəaliyyətə başlamışdır [150, s. 60; 227, 19]. Məclisin sədri S.H.Tağızadənin etibarnamənin surəti ilə Məclisə daxil olduğunu elan etmiş və deputatlar həmin münasibətlə onu təbrik etmişlər [227, 19]. S.H.Tağızadə deputat kimi Məclisə daxil olduqdan sonra keçirilmiş 7

iclasda çıxış etməmişdir [150, s. 61]. Məclisin həftədə 3-4 iclas keçirdiyini nəzərə alsaq, S.H.Tağızadənin təqribən iki həftə ərzində Məclisin işini, müzakirə olunan məsələləri və deputatları öyrənməklə məşğul olduğunu deyə bilərik. S.H.Tağızadə yalnız özünün iştirak etdiyi səkkizinci iclasda çıxış etmişdir [150, s. 61-62]. Həmin iclasda S.H.Tağızadə parlamentin spikerinə müraciətlə bildirir ki, artıq parlamentin səkkizinci iclasında iştirak edir və müzakirə olunan məsələlərlə hərtərəfli tanış olmuşdur. O, çıxış üçün 10 dəqiqə vaxt istəyir və çıxışına belə başlayır: "Bizim parlament çox naqisdir, daha pisi isə odur ki, inkişaf və təkamül yolu ilə getmir" [ 227, 34]. S.H.Tağızadə Məclisin daxili nizamnaməsindən danışaraq onun iş vaxtının, iclaslarının başlanma və qurtarma vaxtının məlum olmadığını qeyd edir. O, daha sonra inkişaf səviyyəsinə görə Avropa parlamentlərini müqayisə edərək bildirir ki, konstitusiya və parlament başqa ölkələrdə meydana gəldiyindən əgər həmin təsisatları qəbul ediriksə, bütövlükdə bütün prinsipləri, iş qaydası, vasitələri ilə birlikdə qəbul etməliyik. Müqayisə üçün qeyd edir ki, heç kim saat qurğusu alanda hansısa çarxını kənara qoyub almır. O, daha sonra Avropa parlamentlərində işin təşkili və hər hansı məsələnin hansı ardıcıllıqla və üsulla müzakirə olunduğunu ətraflı şərh edir [ 227, 34].

S.H.Tağızadənin ilk çıxışı onun tezliklə parlamentdə və ondan kənarda məşhurlaşmasına səbəb oldu [150, s. 61]. S.H.Tağızadənin İran parlamentinin deputatı kimi siyasi fəaliyyətə başlaması onun siyasi sistemi modernləşdirmək sahəsində baxışları və ideyalarının həyata keçirilməsi üçün mühüm əsas yaratmış oldu.

S.H.Tağızadə Məclisin işində iştirak etməyə başladığı zaman müzakirə olunan əsas məsələ İranın birinci konstitusiyası - Əsas Qanunu idi. Əsas Qanun şah, hökumət və Məclisin vəzifə, səlahiyyət və qarşılıqlı münasibətlərini müəyyən etməli idi. Müzakirələr gərgin mübahisələr şəraitində keçirdi. Deputatlar Əsas Qanun layihəsinin şahın Məclisi buraxmaq hüququ və Senatın təşkilini nəzərdə tutan

maddələrə kəskin etiraz edirdilər. Saray uzun müddət həmin məsələyə münasibət bildirməmiş, vəliəhd Məhəmməd Əli Mirzənin Tehrana gəlişini gözləmişdi. 1906-cı ilin dekabr ayının 16-da Tehrana gələn, dekabrın 20-də regent təyin edilən Məhəmməd Əli Mirzə həmin münasibətlə deputatları qəbul edir və saraya Əsas Qanunun layihəsinin müzakirəsinə başlamaq haqqında göstəriş verir. Saray həmin maddələrin qəbul edilməsini asanlaşdırmaq məqsədilə Məhəmməd Əli Mirzə adından öz əlavə və düzəlişini təklif edir. Məclisin əksəriyyəti, xüsusən sol deputatlar maddənin özü və sarayın düzəlişini rədd etsələr də, sonda vəliəhdin əlavəsinə düzəliş edərək qəbul edirlər. Qəbul olunmuş 48-ci maddəyə əsasən şah Məclisi Məclis ilə Senat arasında problem həll edilməyəndə Senat 2/3 səslə Məclisin buraxılması haqqında qərar çıxardığı halda buraxa bilər. Şah-Məclis qarşıdurmasında Məclis daha çox müdafiə mövqeyində dururdusa, Azərbaycan deputatlarının gəlişi ilə hücum mövqeyinə keçir. Belə ki, 1907-ci ilin fevral ayının 8-də Məclis 7 maddəlik ultimatumunu hökumətə təqdim edərək tələblərin yerinə yetirilməsini istəyir [35, s. 116-117].

1905-1911-ci illər İran inqilabının görkəmli tədqiqatçısı M.S.İvanov belə hesab edir ki, ultimatumun təşəbbüskarı Azərbaycan deputatları idilər [35, s.117]. Cənubi Azərbaycandan olan Dadizade Həmid qeyd edir ki, ultimatum Azərbaycan əncüməni tərəfindən hazırlanmış, Azərbaycan deputatları tərəfindən Məclisə təqdim edilmiş və Məclis də öz növbəsində onu hökumətə təqdim etmişdir [175]. 1907-ci ilin fevralın 19-da toplanmış Məclisdə Müstəşar-od-Dövlə dedi: "Bir neçə gün əvvəl Azərbaycan əhalisinin tələbləri 7 maddədə hökumətə təqdim (təklif) olundu" [227, 113]. Ultimatumda Azərbaycan əncüməninin konkret tələbinin yer alması (şahın yaxınlarından olan Saed-ol-Mülkün istefaya göndərilməsi) Azərbaycan deputatlarının Tehrana gəldiyi gün hökumətə təqdim edilməsi onun qabaqcadan Təbrizdə hazırlandığı fikrinin həqiqətə

daha yaxın olduğunu göstərir. Həmin tələblər sırasında Əsas Qanuna Əlavənin qəbul edilməsi və idarə formasının qəti şəkildə konstitusiyalı rejim elan edilməsi, mövcud əyalət və vilayət əncümənlərinin qanuniləşdirilməsi, ölkədə yerli əncümələrin təşkil edilməsi və onlara Məclisin mərkəzi icra hakimiyyətinə münasibətdə malik olduğu səlahiyyətlərə bərabər, lakin yerli hakimiyyətə münasibətdə daha artıq səlahiyyətlər verilməsi tələbləri daha önəmli idi [35, s. 117]. Şah ultimatumu qəbul etməyib, repressiyalara başlayır. Buna cavab olaraq Təbrizdə həmin gün üsyan baş verir. S.H.Tağızadənin yazdığına görə Təbrizdə kütləvi etiraz çıxışlarının baş verməsində onun mühüm rolu olmuşdur [150, s. 64].

Təbriz üsyanının təzyiqi altında geri çəkilməli olan şah ruhaniləri öz tərəfinə çəkmək üçün 1907-ci ilin fevral ayının 11-də xahiş edir ki, "məşrutə" – konstitusiya terminində israr etməyib onu "məşruə" (şəri) istilahı ilə əvəz etsin [35, s. 122]. Şahın təklifi deputatların, xüsusən Azərbaycan deputatlarının sərt müqaviməti ilə rastlaşır və səs çoxluğu ilə rədd edilir. Fevral ayının 11-də şah ultimatumda irəli sürülən əsas tələbləri yerinə yetirməyə razı olduğunu elan edir [35, s. 122].

Bununla da müasir siyasi sistem qurulması yolunda ilk mühüm addım atılmış olur. Yaranmaqda olan yeni siyasi sistem dini (şəriətə uyğun, şəri) deyil, konstitusiyalı rejim adlandırılır.

1907-ci ilin fevral ayının 12-də Əsas Qanuna Əlavəni, əslində, həqiqi konstitusiyanı hazırlamaq üçün 6 nəfərdən ibarət komissiya təşkil olunur. S.H.Tağızadə həmin komissiyanın üzvü seçilir [35, s. 173]. Konstitusiya komissiyası Avropa, xüsusən Fransa və Belçika konstitusiyaları əsasında Əsas Qanuna Əlavəni hazırlamaqla məşğul olur. Digər komissiya əyalət və vilayət əncümənləri haqqında qanun hazırlamağa başlayır. Qeyd edilməlidir ki, mühafizəkar qüvvələr, o cümlədən ruhanilər əyalət və vilayətlərin, bütövlükdə əncümənlərin mövcud olması və fəaliyyətinə qarşı çıxırlar [35, s. 163]. 1907-ci ilin

aprel ayının 9-da müctəhid M.Təbatəbai demişdir: “Bir halda ki, Məclis var, əncümələr artıqdır” [227, 67]. Buna baxmayaraq, aprel ayının 14-də “Əyalət və vilayət əncümələri haqqında qanun” qəbul edilir.

Qanun mühafizəkar dairələrin təsiri ilə əncümənlərə ultimatumda nəzərdə tutulan səlahiyyətlər əvəzinə vali və hakim yanında məşvərətçi səlahiyyətlərə malik olan bir qurumun səlahiyyətlərini verirdi. Yerli əncümənlər yerli əhali tərəfindən seçilən üzvlərdən ibarət seçkili orqan olub, yerli işlərlə bağlı bir sıra nəzarət funksiyalarına malik idilər [35, s. 164-167]. Bununla belə, İranda, ilk dəfə olaraq, demokratik əsaslarla, məhdud səlahiyyətlərə malik olsa da, yerli özünü idarəetmə orqanı yaradılması haqqında hüquqi əsas yaranmış oldu.

Konstitusiya komissiyası Əsas Qanuna Əlavəni hazırlayaraq baxılmaq üçün may ayının əvvəllərində müctəhidlər Seyid M.Təbatəbai, Seyid A.Behbehani və Şeyx F.Nuriyə təqdim edir. Əlavədən narazı qalan ruhanilər onların maraqları ilə bağlı bir sıra maddələrə (8, 19, 20) iradlarını bildirirlər. Belə ki, həmin maddələrdə ruhanilərin cəmiyyətdə aparıcı rolu nəzərə alınmırdı [35, s. 174-177]. Şeyx F.Nuri Məclis tərəfindən qəbul edilən qanun və qərarların İslam dini prinsiplərinə və şəriətə uyğunluğunu müəyyən etmək üçün müctəhidlər, ilahiyyatçılar və üləmalardan ibarət komissiyanın yaradılması və onun rəyinin dəyişməz olması haqqında təkliflə çıxış edir [35, s. 177]. Bundan istifadə edən şah may ayının 17-də Əlavəni imzalamaqdan imtina edir və onun mətnini yenidən müctəhidlərə göndərir. Bundan sonra Əlavə ətrafında şah və mühafizəkar qüvvələrlə modernist, dünyəvi və radikal qüvvələr arasında mübarizə başlanır. 1907-ci ilin avqust ayında İranın nüfuz dairəsinə bölünməsi haqqında İngiltərə-Rusiya sazişinin bağlanmasından sonra hər iki dövlətin şahın mövqeyini dəstəkləməsi nəticəsində Məclisin mövqeyi xeyli zəifləyir.

S.H.Tağızadə Əsas Qanuna Əlavəyə İslam dini və ali ruhanilərin nəzarət hüququ haqqında düzəlişə kəskin müqavimət göstərir. S.H.Tağızadə və tərəfdarları düzəlişin birbaşa Məclisdə oxunmasına qarşı çıxırlar. Onlar düzəlişin komissiyada oxunmasını tələb edir, bununla vaxt udaraq ictimai rəyin təzyiqindən istifadə edərək onu ya rədd etmək, ya da ən azı redaktə etməyə nail olmağa çalşırlar.

S.H.Tağızadənin səyi və Təbrizdən olan deputatların təzyiqi ilə düzəliş Məclisdə oxunmadı [123, s. 77-78]. S.H.Tağızadə qanunların şəriətə zidd olmaması ilə razılaşsa da, ali ruhanilərə nəzarət hüququ verilməsinin qəti əleyhinə idi. O deyirdi: "Əgər Əlavənin layihəsinin 22-ci maddəsində qanunların şəriətə zidd olmaması nəzərdə tutulursa, üləmanın nəzarət hüququnu ayrıca qeyd etməyə ehtiyac yoxdur" [123, s. 73].

İngiltərənin İrandakı səfiri Ser Sprinq Rays da qeyd edir ki, S.H.Tağızadə və Fəzləli Ağanın başçılığı ilə Təbriz nümayəndələrinin Əlavədə şəriət və ruhanilərlə bağlı düzəlişə kəskin etirazlarına baxmayaraq, düzəliş qəbul olunur [123, s. 94-95].

Fransanın və Belçikanın Əsas qanunları (1831) əsasında hazırlanmış Əlavə ruhanilərin etirazı və şahın siyasəti ilə İslam prinsiplərinə uyğunlaşdırıldı və ali ruhanilərə ali qanunvericilik səlahiyyəti verildi. Yəni Şeyx F.Nurinin təklifi Əlavənin 2-ci maddəsi kimi qəbul olundu və digər maddələr də İslam prinsipi və normalarına tabe edildi. S.H.Tağızadənin və Təbrizdən olan digər deputatların təzyiqi ilə Əlavənin layihəsində yer alan və ruhanilərin kəskin etirazına səbəb olan İran vətəndaşlarının hüquqi bərabərliyi haqqında 8-ci maddədə düzəlişə yol verilmədi. Əlavə 1907-ci ilin oktyabr ayının 3-də qəbul olundu və oktyabrın 7-də şah tərəfindən imzalandı. Bununla da S.H.Tağızadə, Azərbaycan deputatları və digər mütərəqqi deputatların Avropa tipli, dünyəvi konstitusiya qəbul etmək səyləri bir nəticə vermədi. İran yeni dövrə orta əsrlərin kölgəsi altında daxil oldu.

Bununla belə, Əsas Qanuna Əlavədə imkan daxilində ruhanilərin səlahiyyətlərinin məhdudlaşdırılmasına səy göstərildi. Belə ki, 71-ci maddədə bütün şikayətlərin dünyəvi məhkəmələrə göndərilməsi və dünyəvi məhkəmələrin şikayətə hansı məhkəmədə (dini, yoxsa dünyəvi) baxılması haqqında qərar qəbul etmək səlahiyyəti nəzərdə tutulurdu. 83-cü maddədə siyasi cinayət və mətbuatla bağlı işlərə andlıların iştirakı ilə dünyəvi məhkəmələrdə baxılması nəzərdə tutulurdu [35, s. 193-194]. Əlavənin dünyəvi məhkəmələrin səlahiyyətləri və vətəndaşların qanun qarşısında bərabərliyi maddələri yalnız S.H.Tağzadənin başçılığı ilə Azərbaycan deputatlarının kəskin etirazlarından sonra qəbul olundu [35, s. 191].

Birinci çağırış İran parlamentinin qanunvericilik sahəsində gördüyü mühüm işlərdən biri də 1908-ci ilin fevral ayının 8-də "Mətbuat haqqında qanun"un qəbul edilməsi idi. S.H.Tağızadə mətbuat qanununun mütərəqqi və liberal xarakter daşıması üçün ciddi səy göstərmişdi. Lakin Məclisin mühafizəkar qüvvələri Əlavənin əsas prinsipindən çıxış edərək həmin qanunun İslam dini prinsip və normalarına tabe edilməsinə nail oldular. Qanun mətbuatı azad və senzurasız elan edirdi. Eyni zamanda Maarif nazirliyi və polisə mətbuata nəzarət və müşahidə hüquqları verilirdi. İslam dininin əsaslarına qarşı çıxan qəzetlərin bağlanması nəzərdə tutulurdu. Əlavədə göstərildiyi kimi, söz və mətbuat azadlığı İslam prinsipləri və normalarına zidd olmamaq şərti ilə təmin edilə bilərdi [35, s. 271].

Bütövlükdə, qeyri-spesifik funksiyalar yerinə yetirməsinə baxmayaraq, birinci çağırış İran Məclisi qanunvericilik sahəsində məhsuldar fəaliyyət göstərmişdi. Birinci çağırış İran parlamenti Əsas Qanun (30.12.1906), Əsas Qanuna Əlavədən (07.10.1907) başqa, "Əyalət və vilayət əncümənləri haqqında qanun" (14.04.1907), "Rüşvətxorluq və şantaja qarşı mübarizə haqqında qanunlar" (05.03.1907) qəbul etdi. 1907-ci ilin mart ayının 26-da Məclis köhnə feodal institutu olan tiyulun ləğv olunması haqqında qərar qəbul etdi

[35, s. 159]. "Əyalət və vilayətlərin idarə edilməsinin təşkili haqqında qanun" (10.09.1907), "Mətbuat haqqında qanun" (08.02.1908), "Bələdiyyələr haqqında qanun" (1907), "Ticarət cəmiyyətləri haqqında qanun" (1907) və s. qanunlar qəbul edildi. Həmin qanunların hazırlanması, xüsusən müzakirəsi və onlara dünyəvi, işlək xarakter verilməsində S.H.Tağızadə yaxından iştirak etmişdir.

Birinci Məclis qanunvericilik fəaliyyəti ilə yanaşı, ölkənin idarə olunması, vətəndaşların ərizə və şikayətlərinə baxılması ilə də məşğul olurdu. Başqa sözlə, icra və məhkəmə hakimiyyəti funksiyalarını yerinə yetirirdi.

S.H.Tağızadənin birinci çağırış Məclisdə fəaliyyətinin əsas istiqamətlərindən biri Məclisin fəaliyyətinin bir tərəfdən daxili nizamnaməsinə, digər tərəfdən, səlahiyyət və vəzifələrinə uyğun olmasının təmin olunmasına yönəlmişdi. S.H.Tağızadə Məclisin fəaliyyətinin müəyyən bir qayda-qanuna uyğun olmasını, prosedur və reqlament qaydalarına əməl edilməsinə xüsusi əhəmiyyət verirdi. O, bu və ya digər məsələ ilə bağlı çıxış etməzdən əvvəl qeyd edirdi ki, hər bir işin bir qaydası olduğu kimi, Məclis də öz fəaliyyətində müəyyən qaydalara, daxili nizamnamə və onun tələblərinə əməl etməlidir. O, dəfələrlə spikerə, deputatlara həmin qaydaları xatırlatmış və onların həmin qaydalara əməl etmələrinə ciddi səy göstərmişdir. Başqa sözlə, S.H.Tağızadə İran parlamentinin inkişaf etmiş ölkələrdə fəaliyyət göstərən parlamentlər kimi işləməsinə çalışırdı. O, sivil qaydalarla fəaliyyət göstərən parlament səviyyəsinə yüksəlməyi İran Məclisinin əsas vəzifələrindən biri hesab edirdi [227, s. 34, 37, 70, 81, 97, 100, 124, 132, 136, 158, 270, 292, 316, 323, 389].

Xatirələrində də qeyd etdiyi kimi, S.H.Tağızadə birinci parlamentdə ən çox çıxış edən deputatlar sırasında yer tutaraq müzakirə olunan bütün məsələlərə fəal münasibət bildirir, bir sıra qanun layihələrinin hazırlanmasında, bir çox məsələlərin qaldırılmasında, qəbul edilmiş qərarların icra olunmasına nəzarət edilməsində ciddi

fəaliyyət göstərirdi. S.H.Tağızadənin birinci çağırış Məclisin işində fəaliyyətinin ikinci və daha mühüm hissəsi Əsas qanunda nəzərdə tutulan hakimiyyətin bölünmə prinsipinin həyata keçirilməsinə nail olmaq idi.

Yuxarıda göstərildiyi kimi, birinci çağırış İran parlamenti həm icra, həm də məhkəmə funksiyalarını yerinə yetirirdi. Xüsusən əhali bütün məsələlərlə bağlı Məclisə müraciət edirdi. S.H.Tağızadə Məclisin bilavasitə öz səlahiyyətinə daxil olan məsələlərlə məşğul olmasını vurğulamaqla kifayətlənmir, həm də həmin şəraitin yaradılması üçün müvafiq tədbirlərin görülməsi yollarını göstərməyə çalışırdı. Məsələn, S.H.Tağızadə təklif edirdi ki, Məclisin ayrıca bir komissiyası təşkil olunsun və həmin komissiya ərizə və şikayətlərlə tanış olub onları baxılmaq üçün müvafiq icra və məhkəmə orqanlarına göndərsin [227, s. 158, 294, 317]. S.H.Tağızadə Məclisin ona aid olmayan məsələlərlə məşğul olmasının qarşısını almaq üçün mümkün qədər tez bir zamanda bələdiyyə və ədliyyə orqanlarının yaradılmasının vacibliyini qeyd edirdi [227, s. 98, 147, 153]. O, Məclisin icra hakimiyyətinin işinə nəzarət funksiyasının lazımi səviyyədə yerinə yetirilməsinin əhəmiyyətindən tez-tez söz açırdı. S.H.Tağızadə qeyd edirdi ki, Məclis hər hansı bir məsələ haqqında qərar qəbul edib, onu müvafiq icra strukturuna təqdim etməklə kifayətlənməməlidir. Belə ki, bir çox hallarda hər hansı bir məsələ Məclisdə müzakirə olunur, onun müəyyən bir icra strukturuna göndərilməsi qərara alınır, lakin sonra həmin məsələnin həll edilib-edilmədiyi tamamilə unudulur. Ona görə, həmin məsələ yenidən Məclisin gündəminə çıxarılır. Buna yol verməmək üçün Məclis icra hakimiyyətinin fəaliyyətinə davamlı və ciddi nəzarət həyata keçirməlidir [227, s.70, 207, 302, 368].

S.H.Tağızadə yalnız Məclisin və deputatların Əsas qanuna əməl etməsini deyil, eləcə də nazirlər kabinetinin, ayrı-ayrı nazirlərin həmin qanuna ciddi riayət etməsini tələb edirdi. O, dəfələrlə öz

vəzifəsinin öhdəsindən gələ bilməyən nazirlərin Əsas Qanuna əməl edərək istefa verməsini tələb etmişdir [227, s. 116, 236, 409]. S.H.Tağızadənin bütün məsələlərdə müəyyən qanun çərçivəsində hərəkət edilməsini, mühüm məsələləri qaydaya salmaq, tənzimləmək üçün qanun qəbul edilməsinin zəruriliyini irəli sürərək, onu digər ölkələrin təcrübəsinə əsaslanması təklifi tezliklə Məclisin liderlərindən birinə çevrilməsinə zəmin hazırlamışdı. Bir çox hallarda deputatlar, hətta Məclisin spikeri hər hansı bir məsələnin S.H.Tağızadə tərəfindən şərhi ilə kifayətlənməyin və onun təklifinin qəbul olunması ilə razılaşmağın zəruri olduğunu qeyd etmişlər.

S.H.Tağızadə Məclisdə yalnız geniş tarixi və hüquqi biliklərə malik olduğunu nümayiş etdirməklə kifayətlənmir, bu və ya digər çıxışına başlayarkən sosial strukturun, çoxsaylı aşağı qrupların iqtisadi, ictimai həyatda mövqe və rolunu ön plana çəkir, hakimiyyət orqanlarını xalqın xidmətçisi adlandırırdı.

Qeyd edək ki, S.H.Tağızadənin Məclisin radikal qrupuna başçılıq etməsi və radikal çıxışları onun xalq arasında böyük nüfuz qazanmasına və eyni zamanda hakim mühafizəkar qüvvələrin, şah və onun sarayının dərin qəzəb və nifrətinə səbəb olurdu. Hətta şahın S.H.Tağızadəni öz əli ilə qətlə yetirmək məqsədi olması barədə şayiə yayılmışdı [150, s. 75]. Məlum olduğu kimi, Məclisin mövcudluğu ilə barışa bilməyən hakim mühafizəkar qüvvələr Rusiya və İngiltərənin dəstəyi ilə 1908-ci ilin iyun ayının 23-də antikonstitusion hərbi çevriliş edərək birinci Məclisi qovdular. Hərbi çevriliş zamanı bir neçə deputat həlak oldu, öldürüldü. Çoxlu sayda deputat həbs olundu və bir çoxları xarici səfirliklərə sığındı. İngilis səfirliyinə sığınan S.H.Tağızadə ölkədən 1,5 il müddətinə sürgün olunmaq şərti ilə səfirliyi və İranı tərk etməli oldu [150, s. 92].

Bununla da İranda başlanmış modernləşmə hərəkatı ağır məğlubiyyətə uğradı. Çevriliş İran cəmiyyətinin, xüsusən hakim mühafizəkar qüvvələrin, siyasi sistemin modernləşməyə hazır

olmadığını, İranın asılı olduğu Rusiya və İngiltərənin bu ölkənin inkişafını və müstəqilliyini təmin etməyə şərait yarada biləcək modernləşmiş siyasi sistemin bərqərar olmasını özləri üçün təhlükə hesab etdiklərini göstərdi. Eyni zamanda siyasi proseslərdə fəal iştirak etməyə başlamış və artıq müəyyən təcrübə əldə etmiş, öz gizli və leqal siyasi, demokratik təşkilatı olan orta təbəqələr və onları dəstəkləyən aşağı təbəqələr həmin məğlubiyyətlə barışmaq istəmirdilər.

İranın bütün sahələrdə ən inkişaf etmiş əyaləti olan Cənubi Azərbaycan və onun paytaxtı Təbriz şəhəri məşrutə ideyalarını yaşatmaq, konstitusiya rejiminin və inqilabın nailiyyətlərini qorumaq üçün üsyan bayrağı qaldırdı (1908, iyun). Şah rejimi bütün qüvvələri Təbriz üsyanını yatırtmağa yönəltdi.

Vəziyyətin bu istiqamətdə, irticaya doğru kəskin şəkildə dəyişdiyi bir şəraitdə İrandan sürgün olunan Tağızadə Bakıya gəlir. O dövr Bakıda yaşayan və geniş ictimai fəaliyyət göstərən iranlı icmasının tanınmış üzvləri, eləcə də yerli ziyalılar və ictimai xadimlər ilə görüşlər keçirən Tağızadə onları İrandakı son hadisələr, Məşrutə inqilabının gedişi, İran Məclisi ilə bağlı fikirləri ilə tanış edir. Qeyd olunmalıdır ki, həmin dövr Tağızadənin Bakıda tanış olduğu şəxslər arasında ondan müsahibə almağa gəlmiş gənc Məhəmməd Əmin Rəsulzadə də var idi. Bu görüşlərin yekunu kimi, Bakıdakı iranlıların xeyriyyə cəmiyyəti S.H.Tağızadəni maliyyə vəsaiti ilə təmin edərək, konstitusiya lehinə təbliğat aparmaq üçün Avropaya göndərdi [150, s. 92].

İlk əvvəl Londana gələn S.H.Tağızadə burada şah rejiminə qarşı geniş təbliğat fəaliyyəti ilə məşğul olmağa başlayır. Tanınmış şərqşünas prof. E.Braunun köməyi ilə müəyyən dərəcədə liberalizm tərəfdarı olan “Daily news”, “Daily Chronical”, “Manchester Guardian” qəzetlərinin vasitəsilə ingilis ictimai fikrinin diqqətini İrana yönəltməyə çalışan Tağızadə “Times” qəzetində “Manifest” adlı yazı dərc etdirir. İngiltərə parlamentinin bəzi deputatları

S.H.Tağızadənin fəaliyyətinə yardım göstərirlər. Onların səyi ilə S.H.Tağızadə nümayəndələr və lordların iştirakı ilə komissiyaların birində keçirilən iclasda Rusiyanın İranın işlərinə qarışması əleyhinə çıxış edir. Həmin iclasın nəticəsi kimi "İngiltərədən kömək" adlı məqalə dərc edilir və deputatlara paylanır. Orada parlament "İran komitəsi" adı altında yeni bir komissiya təşkil edir. S.H.Tağızadə və Moazed-od Səltənəni də komissiyaya daxil edirlər [150, s. 99-101]. S.H.Tağızadə "İran komitəsi"nin işində fəal iştirak edir, bir tərəfdən İran şahına, digər tərəfdən İranın nüfuz dairəsinə bölünməsi haqqında 1907-ci il ingilis-rus sazişinə qarşı çıxır [35, s. 218].

Londonda geniş ideoloji fəaliyyət göstərən S.H.Tağızadə 1908-ci ilin sonlarında Təbrizə qayıtdı. Bir qədər sonra Təbriz tam mühasirəyə alındı. Rusiya bundan istifadə edərək 1909-cu ilin aprel ayının sonlarında Cənubi Azərbaycana və onun üsyançı şəhərinə qoşun yeritdi və bununla üsyan başa çatdı. Əsas qüvvələrini Təbriz üsyanının yatırılmasına yönəldən şah hökuməti ölkənin digər əyalət, vilayətlərində, demək olar ki, nəzarəti əldən verdi. Bunun nəticəsində əvvəlcə vəziyyətdən istifadə etmək istəyən bəxtiyar tayfasının xanları, sonra Gilan inqilabçıları fəal hərəkətə keçdilər. Vəziyyəti düzəltməyə çalışan şah hökuməti müxtəlif manevrlərə əl atmağa, konstitusiyanı bərpa etmək vədini səsləndirməyə və məqsədinin ciddiliyini nümayiş etdirmək üçün yeni seçki qanunu hazırlanması haqqında göstəriş verdi. Yeni seçki qanunu hazırlamaq üçün şah hökuməti ilə müzakirələr aparmaq məqsədilə Azərbaycan əncüməni digər əncümənlər tərəfindən vəkil seçildi. Seçki qanununun hazırlanmasında S.H.Tağızadə qeyri-formal "baş məsləhətçi" kimi iştirak edirdi. Maraqlıdır ki, müzakirələrdə şah tərəfini də etnik azərbaycanlılar təmsil edirdilər.

İki ay davam edən müzakirələrdən sonra yeni seçki qanunu haqqında razılıq əldə edildi [150, s. 129-130]. Yeni seçki qanunu şah tərəfindən 1909-cu ilin iyul ayının 1-də təsdiq olundu [35, s. 395].

Yeni seçki qanununu S.H.Tağızadənin fəaliyyətinin nəticəsi hesab etmək olar, çünki həmin vaxt Təbrizdə qanunvericilik sahəsində ondan təcrübəli və nüfuzlu şəxs yox idi. Seçki qanununda seçki prosesini bir qədər sadələşdirmək və ən mühümü vilayətlərə ayrılan deputat yerlərinin həmin vilayətlərin əhalisinin sayına mütənasib formaya salmağa önəm verilirdi. Yeni qanuna əsasən silklər üzrə seçki qaydası ləğv edilir, iki pilləli seçki tətbiq edilirdi. Birinci mərhələdə səslərin yarıdan çoxunu almış şəxs seçilmiş hesab olunurdu. Deputatların sayı 120 nəfər, parlamentin fəaliyyət müddəti 2 il müəyyən olunurdu. Köçəri tayfalara (Azərbaycan şahsevənləri, bəxtiyarilər, qaşqaylar, fars xəmsə tayfaları, türkmənlər) bir səslə təmsil olunmaq hüququ verilirdi. Eyni zamanda xristian ermənilərə, assurlara, zərdüştlərə və yəhudilərə Məclisdə bir deputatla təmsil olunmaq hüququ verilirdi [35, s. 395-396].

Bununla seçki qanunu müxtəlif sosial qrupların (etnik, etno-dini) maraqlarının qanunvericilik yolu ilə təmin olunmasına şərait yaradırdı. Seçki qanunu deputat seçilmək üçün müəyyən əmlak və təhsil şərti də irəli sürürdü, eyni zamanda nəzərdə tutulurdu ki, dövlət qulluqçuları vəzifədən istefa verdikdən sonra seçki kompaniyasına qatıla bilər [35, s. 396]. Bir sözlə, bəzi yerli xüsusiyyətləri əks etdirən cəhətlər (şiə-müsəlman) nəzərə alınmazsa, yeni seçki qanunu Avropa ölkələrində mövcud olan seçki qanunları əsasında tərtib olunmuşdu. Bununla S.H.Tağızadə seçki qanununun modernləşdirmək sahəsində mühüm addım atılmasına nail ola bilmişdi.

Seçki qanununun seçki komissiyaları haqqında hissəsi dövlət orqanlarına müəyyən səlahiyyətlər nəzərdə tutduğundan o qədər də mütərəqqi və müasir hesab edilə bilməzdi. Görünür, qanunun həmin nöqsanları şah hökumətinə edilən güzəştlərin nəticəsində meydana gəlmişdir. Seçki qanununa əsasən seçki komissiyaları qubernatorların sədrliyi ilə fəaliyyət göstərməli idi. Qısası, seçki komissiyası hökumət nümayəndələri, yerli nüfuzlu, imkanlı şəxslərdən, ruhanilər-

dən təşkil edilir və seçki qanununun demokratikliyi və mütərəqqiliyini müəyyən mənada neytrallaşdırırdı. S.H.Tağızadənin həmin məsələdə fəaliyyətini yenə də müəyyən dərəcədə uğursuz hesab etmək olar. Öz növbəsində, deyilənlər İran reallığından irəli gəldiyindən S.H.Tağızadənin həmin reallıqla barışmaqdan başqa yolu yox idi. Sonralar S.H.Tağızadə ən qeyri-demokratik parlamentin belə mövcudluğunu parlamentin olmamasından daha dəyərli saydığını vurğulayırdı. Qısa şəkildə deyilsə, S.H.Tağızadə seçki qanununun modernləşdirilməsində yalnız yarımçıq addımın atılmasına nail ola bilmişdi.

Bu arada Məhəmməd Əli şahın manevrləri bir nəticə verməmişdi. Gilan mücahidləri və bəxtiyarı tayfasının birgə silahlı çıxışı nəticəsində 1909-cu ilin iyul ayının 16-da "inqilabi" qüvvələrə müqavimət göstərə bilməyən şah ingilis və rus siyasi nümayəndələrinin himayəsinə sığındı. Həmin gün fədai, bəxtiyar dəstələrinin başçılarından, şahzadələrdən, keçmiş nazirlərdən, keçmiş deputatlardan, müctəhidlərdən və iri tacirlərdən ibarət fövqəladə Ali Məclis parlament binasında toplaşaraq Məhəmməd Əlinin hakimiyyətdən devrildiyini və onun 14 yaşlı oğlu Sultan Əhmədin şah, ən yaşlı qacar şahzadəsi Ezd-ol-Mülkün regent təyin olunmasını elan etdi. Yeni müvəqqəti hökumət təşkil edildi. İkinci Məclisin çağırılmasına qədərki müddətdə nazirlər kabinetinin fəaliyyətinə nəzarəti həyata keçirmək üçün 25 nəfərdən ibarət Ali Komitə təşkil edildi. Həmin komitə avqust ayının 17-də 20 nəfərdən ibarət olan Ali İdarə Heyəti və ya "Direktoriya" ilə əvəz olundu. "Direktoriya"nın geniş səlahiyyətləri var idi və faktiki olaraq ölkənin idarə olunmasını öz əlində cəmləşdirmişdi [150, s. 146, 149; 35, s. 389-390].

Hökumətin qarşısında duran məsələlərdən biri fədai dəstələrini, xüsusən Qafqaz fədailərini tərksilah etmək və onların fəaliyyətinə son qoymaq idi. Məsələni dinc yolla həll etməyə çalışan hökumət fədailərin arasında nüfuzu olan şəxslərin yardımından istifadə etməyə

çalışırdı. Həmin məqsədlə Təbrizdə olan S.H.Tağızadəni təcili surətdə Tehrana çağıraraq onu Ali İdarə Heyətinə daxil etdilər.

Tehrana gələn S.H.Tağızadə ilk vaxtlar mücahidləri sakitləşdirməyə nail olsa da, sonradan onlar S.H.Tağızadəyə qarşı müxalif mövqeyə keçdilər [150, s. 151]. 1909-cu il sentyabrın 12-də Ali İdarə Heyəti 40 nəfərdən ibarət məşvərətçi komissiya ilə əvəz olundu. Başqa sözlə, hökumətin rolu gücləndi. Ali Komitənin əsas vəzifəsi II Məclisə seçkilər keçirmək idi. İkinci Məclisə seçkilərin keçirilməsi haqqında sərəncam iyul ayının 27-də verildi. Tehranda birinci pilləyə seçkilər avqust ayının 8-də başa çatdı. Ölkədə oktyabrın əvvəlində deputatların yarısı seçilmişdi, ayın axırında isə deputatların digər qismi Tehrana gəldi. Yeni seçki qanununa görə parlament işə başlaya bilərdi.

S.H.Tağızadə həm Tehrandan, həm də Təbrizdən II Məclisə deputat seçilmişdi. O, Təbrizi təmsil etməyə üstünlük verdi [150, s. 152]. 1909-cu ilin noyabr ayının 15-də II Məclisin təntənəli açılışı oldu. Parlamentin birinci iclasında ilk çıxış edən S.H.Tağızadə oldu. O, öz çıxışında konstitusiya və parlamentin bərpa olunmasında göstərdikləri xidmətə görə inqilab mücahidləri ilə yanaşı, ingilis şərqşünası prof. E.Brauna və mister Lincə öz minnətdarlığını bildirdi [213, s. 430; istinad 159].

Baş nazir Sepəhdar Nasir-ol-Mülk, Müstəşar-od-Dövlə, S.H.Tağızadə, Sani-od-Dövlə və Mötəmen-ol-Mülkdən ibarət xüsusi komissiyanın hazırladığı şah nitqinin mətnini oxudu. Nitqdə ölkədə xarici qoşunların olmasından narahatlıq və onların ölkəni tezliklə tərk edəcəklərinə ümid ifadə olunurdu. Nitqin mətnində ümumi formada hökumət idarələrində, xüsusən maliyyə sahəsində islahatlar aparmaq əzmi, qayda-qanunun və təhlükəsizliyin, o cümlədən yolların bərpa edilməsi məqsədi ifadə olunurdu [35, s. 398]. İkinci Məclisin fəaliyyətinin xüsusiyyətlərindən biri deputatların müəyyən fraksiyalarda birləşməsi idi. İkinci Məclisdə fəaliyyət göstərən əsas

fraksiyalar azlıq və ya “demokratlar”, “inqilabçılar” və çoxluq və ya “Etedaliyyun”, “mötədillər” fraksiyaları idi. Məclisdə digər fraksiyalar iştirak etsələr də, onların fəaliyyəti əsasən həmin iki fraksiyanın fəaliyyəti ilə müəyyən olunurdu.

Demokratlar Rusiya və İngiltərənin İranda siyasətinə və daxili İran irticasına qarşı daha kəskin, radikal mövqedən çıxış edirdilər [35, s. 402]. Xarici siyasət məsələsində mötədil mövqe tutan Etedaliyyun fraksiyası Rusiya və İngiltərə ilə saziş tərəfdarı idi və nadir hallarda onların siyasətinə qarşı çıxırdı. “Demokrat” və ya “inqilabçılar” fraksiyasına S.H.Tağızadə rəhbərlik edirdi. Onun rəhbərliyi ilə Demokrat fraksiyası I Məclisdə başlanmış, lakin bir çox cəhətdən uğursuzluğa düçar olmuş siyasi sisteminin modernləş-dirilməsi sahəsində fəaliyyətini davam etdirmişdi.

S.H.Tağızadənin başçılıq etdiyi Demokrat fraksiyasının siyasi sistemi modernləşdirmə sahəsində fəaliyyəti haqqında dolğun təsəvvür əldə etmək üçün həmin fraksiya üzvlərinin İranda ilk yeni leqal siyasi partiya – Demokrat Partiyası təşkil etmələrinə xüsusi diqqət yetirilməlidir. 1905-1911-ci illər inqilabının tədqiqatçısı M.S.İvanov qeyd edir ki, Demokrat Partiyası II Məclisdə fəaliyyət göstərən “ifrat”, “inqilabçı”, “demokrat” fraksiyası əsasında meydana gəlmişdir [35, s. 404]. Eyni zamanda göstərilir ki, Demokrat Partiyasının orqanı olan “İran-e nou” qəzeti 1909-cu ilin avqust ayından nəşrə başlamışdır [35, s. 406]. İkinci Məclisin 1909-cu ilin noyabr ayının 15-də fəaliyyətə başladığını, fraksiyanın ilin sonuna doğru formalaşdığını nəzərə alsaq, qeyd etməliyik ki, Demokrat Partiyası II Məclis açılandan əvvəl formalaşmalı və ya əsası qoyulmalı idi. “İran-e nou” qəzetinin II Məclisə seçkilər haqqında sərəncam verilməsindən az sonra nəşrə başlaması qəzetin ətrafına toplaşan ziyalıların ikinci Məclisə seçkilər kompaniyasında fəal iştirak etmək üçün müəyyən bir təşkilatda toplaşmasını tələb edirdi. Həmin ziyalılar qrupu seçkilərdə “inqilabçı” adı ilə çıxış etdiyindən və mütəşəkkil fəaliyyət göstərdiklərindən

faktiki olaraq siyasi təşkilat rolunda çıxış edirdilər. Bu mülahizələri nəzərə alaraq partiyanın seçki kampaniyası günlərində, yəni II Məclis işə başlamazdan əvvəl yarandığını söyləmək olar.

M.S.İbrahimov S.H.Tağızadəni Demokrat Partiyasının ən görkəmli xadimlərindən biri hesab edir [35, s. 405]. O, Demokrat Partiyasının ən nüfuzlu nümayəndələrindən olan Süleyman Mirzə İsgəndərinin ikinci Məclisdə Demokrat fraksiyasına başçılıq etdiyini yazır [35, s. 405]. Əslində isə S.H.Tağızadə Demokrat Partiyasının formal liderlərindən biri (MK-nın üzvü) və qeyri-formal lideri, eyni zamanda 1910-cu ilin iyul ayına qədər Məclisdə Demokrat fraksiyasının başçısı idi. Süleyman Mirzə İsgəndəri həmin vaxtdan fraksiyaya başçılıq etmişdir [172].

M.S.İvanov eyni zamanda Demokrat Partiyasının ən görkəmli xadimlərindən bir neçəsinin, o cümlədən S.H.Tağızadənin, ingilis imperialist dairələri ilə sıx əlaqədə olduğunu göstərir [35, s. 405]. O, iki nəfərin ingilislərlə bağlılığı haqqında müəyyən dəlillər göstərsə də, S.H.Tağızadə ilə bağlı heç bir fikir söyləmir. Demokrat fraksiyasının İngiltərə, xüsusən də Rusiyanın İrana təsirini azaltmağa çalışdığını qeyd edir [35, s. 405].

Həqiqətən də, S.H.Tağızadə istər birinci və ikinci Məclislərdə, istərsə də ondan sonra anti-rus yönümü ilə seçilirdi. Çox güman ki, bu cəhət M.S.İvanovun onu ingilislərlə sıx əlaqədə olan bir şəxs kimi səciyyələndirməsinə əsas vermişdir.

S.H.Tağızadənin başçılıq etdiyi İran Demokrat Partiyası ölkədə partiya sisteminin əsasını qoymuşdur. Siyasi partiyanın cəmiyyətin siyasi mədəniyyətinin və parlament sisteminin əsas göstəricisi olduğunu nəzərə alaraq S.H.Tağızadə və onun həmfikirlərinin siyasi sistemi Avropa nümunəsində parlament sisteminə keçirilməsinə zəmin hazırlamaq istiqamətində mühüm addım atdıqlarını söyləmək olar. Demokrat Partiyası ümummilli, müasir, siyasi partiya kimi fəaliyyət göstərməyə ciddi əhəmiyyət verirdi. Onun bir sıra vilayət və

şəhərlərdə, o cümlədən Xorasanda (Məşhəd) və Azərbaycanda (Təbriz) regional şöbələri fəaliyyət göstərirdi. Demokrat Partiyasına onun Mərkəzi komitəsi rəhbərlik edirdi, onun mərkəzi ("İran-e nou") və regional təşkilatlarının öz mətbuat orqanları (Təbriz – "Şəfəq", Məşhəd – "Novbahar") mövcud idi. Mətbuat orqanlarının adları demokratların modernləşdirmə uğrunda mübarizə apardıqlarının ən yaxşı ifadəsi idi. Nəhayət, Demokrat Partiyasının yeni tipli partiya kimi öz fəaliyyət proqramı vardı. Həmin proqram ictimai, siyasi, mədəni həyatın, ictimai münasibətlərin əsaslı şəkildə islah olunması, modernləşmə vəzifələrini müəyyən edirdi. Demokrat Partiyası siyasi sistemin modernləşməsinin mühüm şərtlərindən biri kimi siyasətin dindən ayrılması vəzifəsini irəli sürürdü [35, s. 406]. İran şəraitində, xüsusən Əsas Qanuna Əlavədə İslam dini və ruhanilərin qanunvericilik orqanları üzərində hakimiyyətinin təsbit edilməsindən sonra həmin prinsipin elan edilməsi son dərəcə radikal addım olmaqla demokratların siyasi sistemi modernləşdirmək uğrunda mübarizəni davam etdirmək əzmini göstərirdi. Əgər birinci Məclisdə S.H.Tağızadə yaradılmaqda olan siyasi sistemin müasir tələblərə cavab verməsinə maneə yaradan əngəlləri aradan qaldırmağa çalışırdısa, Demokrat Partiyasının proqramında modernləşmə prosesinin əsas şərtini müəyyən etməyə üstünlük verirdi. Demokrat Partiyasının proqramı S.H.Tağızadə və Demokrat fraksiyasının Məclisdə fəaliyyətinin əsas istiqamətlərini, məzmununu və mahiyyətinin əsasını təşkil edirdi.

Məclisdə əksəriyyət təşkil edən Etedaliyyun fraksiyası özünü partiya adlandırsa da, Demokrat Partiyasından fərqli olaraq partiya atributlarına – proqram, mərkəzi orqan və s. – malik deyildi. İkinci Məclisdə fəaliyyət göstərən inqilabçı, radikal demokrat və mühafizəkar Etedaliyyun fraksiyaları arasında əsas ixtilaf obyekti ictimai, iqtisadi, siyasi, mədəni islahatlar və onların aparılması üsulu idi.

Demokrat fraksiyası partiya proqramında nəzərdə tutulan vəzifələri həyata keçirmək üçün torpaq islahatı, əkin torpaqlarının

əkinçilərə verilməsi, dinin siyasətdən ayrılması məsələsini qaldırır [179] və Etedaliyyun fraksiyasının sərt müqaviməti ilə üzləşirdi. Demokratlar yeni qəbul olunan qanunların adət (adi) qanunlarına əsaslanmasını tələb edirdilər. Ona görə, məsələ şəriət və adət (adi) qanunlarının bir-birindən fərqləndirilməsi səviyyəsinə qalxdı və ruhanilərin siyasi işlərə qarışmaması tələbi şəklində özünü göstərdi və ruhanilərin ciddi narazılığına səbəb oldu [182, s. 10]. Demokrat fraksiyasının sekulyarist mövqeyi müctəhidlərin, o cümlədən S.A.Behbehaninin Etedaliyyun fraksiyasına yaxınlaşmasına səbəb oldu [182, s. 11]. Bu da demokratların mövqeyinin zəifləməsinə şərait yaradırdı. Buna reaksiya olaraq demokratların S.A.Behbehaninin mövqeyini tənqid etmələri gücləndi. Demokrat Partiyasının mətbu orqanlarında, demokratik və radikal mətbuat orqanlarında ruhanilərin tənqidi geniş vüsət aldı.

Ruhanilər və onların nəzarəti altında olan aşağı təbəqələrin nümayəndələri də öz növbəsində S.H.Tağızadəni dinin siyasətdən ayrılmasını müdafiə etdiyinə görə dinsiz adlandırırdılar. S.H.Tağızadənin qətl törətmiş axundu cəzalandırmağı tələb etməsi İslam tarixində rast gəlinməyən son dərəcə radikal tələb hesab edilərək ruhanilərin ona qarşı mövqeyini daha da sərtləşdirdi. Ruhanilərlə münasibətlərinin pisləşməsindən istifadə edən Etedaliyyun fraksiyası demokratların mövqeyini daha da zəiflətmək üçün “demokratları və Tağızadəni müstəmləkəçilərlə əməkdaşlıq etməkdə ittiham edirdilər” [186].

Seyid Abdulla Behbehaninin tərəfdarı olan əsnaf və qəsbkarların çoxu Etedaliyyun “partiyasını” müdafiə edirdi. Etedaliyyun və onun tərəfdarları sübut etməyə çalışırdılar ki, S.H.Tağızadə və demokratlar ruhanilərin düşmənidir. Maraqlıdır ki, Təbriz üsyanının (1908-1909) rəhbərləri, İranın milli qəhrəmanları sərdari-milli Səttar xan və salari milli Bağır xanda Etedaliyyun partiyasının tərəfdarı idilər [116].

Məclisdə S.A.Behbehaninin mövqeyini zəiflətmək, Etedaliyyun fraksiyası ilə yaxınlaşmasına mane olmaq üçün gizli cəmiyyətlər onu hədələməyə başladılar [182, s. 11]. S.H.Tağızadənin belə cəmiyyətləri idarə etdiyi iddia olunurdu [182, s. 11]. Bu, onun Tehranda fəaliyyət göstərən ən nüfuzlu, radikal, çoxsaylı Azərbaycan əncüməninin sədri olması ilə izah edilirdi. Artıq haqqında danışılmış və S.H.Tağızadə əleyhinə yazılmış rəsmi kitabda qeyd olunur ki, "Azərbaycan əncüməni"nin "Dəhşət komitəsi" adlı terror təşkilatı var idi. S.H.Tağızadə isə Azərbaycan əncüməninin rəhbəri idi [123, s. 115]. S.H.Tağızadə xatirələrində Azərbaycan əcüməninin sədri olması faktını təsdiq edir. Lakin o göstərir ki, həmin əncümənə 1907-ci ilin əvvəllərində qısa müddətə rəhbərlik etmişdir [150, s. 85]. 1909-cu ildə əncümənin sədri tamamilə başqa bir şəxs idi.

Məclisdə Demokrat–Etedaliyyun qarşıdurmasının gərginləşdiyi günlərdə tanınmış din xadimi, Məşrutə inqilabının rəhbərlərindən biri S.A.Behbehani terrora məruz qaldı. (15.07.1910). Terrorun kimin tərəfindən həyata keçirilməsini müəyyən etmək mümkün olmasa da, ictimai rəydə həmin hadisəni demokratların təşkil etməsi haqqında heç bir şübhə yox idi. Bundan istifadə edən ruhanilər Nəcəf din mərkəzindən S.H.Tağızadənin əleyhinə tədbir görməsini tələb etməyə başladılar. Müctəhidin qətlindən sonra "müxtəlif siniflərin (əsnaf) nümayəndələri Məclisin önündə toplaşaraq Tağızadənin cəzalandırılmasını tələb edirdilər, hətta etidalçı mücahidlərdən bir neçə nəfəri onu öldürmək istəyirdi" [186].

S.A.Behbehaninin öldürülməsindən sonra S.H.Tağızadə ruhanilərə qarşı düşmənçilikdə ittiham olunmağa başladı [179]. Bütün bunların nəticəsində Nəcəf məcrəyi təqlidləri (ali ruhani məqamları) Axund Molla Kazım Xorasani və Şeyx Abdulla Mazandarani S.H.Tağızadənin amalının (məslək) İslama və şəriətə zidd olduğu, Məclisin, ölkə və millətin işlərində iştirakının zərərli olduğunu əsas gətirərək onun Məclisdən və İrandan çıxarılması haqqında fitva

verdilər [150, s. 155; 182, s. 11; 123, s. 116, 118]. Çoxları S.H.Tağızadənin "kafir" elan olunduğunu güman edirdi. Lakin tacirlərin məktubuna cavab verən Nəcəf üləmaları S.H.Tağızadəni "kafir" elan etmədiklərini, onun siyasi amalının fasid olduğunu və müsəlman millətinin dininə zidd olduğunu elan etdiklərini qeyd etmişlər [123, s. 130]. Məclis Nəcəf üləmaları – mərcəi təqlidlərin tələbini tam yerinə yetirməyərək S.H.Tağızadəni deputat mandatından məhrum etməyib ona üç aylıq məzuniyyət verdi. Təbrizə gəlib dörd ay burada qaldıqdan sonra S.H.Tağızadə "rusların ona qarşı intriqasından" ehtiyat edərək [182, s. 56; 150, s. 158] Demokrat Partiyasının Azərbaycan təşkilatının qərarı ilə İranı tərk etdi [123, s. 119].

Beləliklə, S.H.Tağızadə ikinci çağırış Məclisin işində cəmi 8 ay (15.11.1909-15.07.1910) iştirak edə bildi. O, Tehranı tərk etdikdən sonra Məclisdə Demokrat fraksiyasına Süleyman Mirzə İsgəndəri başçılıq etdi. Demokrat fraksiyasının Demokrat partiyasının proqramı əsasında fəaliyyət göstərdiyini, proqramın S.H.Tağızadə və onun həmməsləkləri tərəfindən yazıldığını nəzərə alaraq ikinci çağırış Məclisin qəbul etdiyi mütərəqqi qanunlarda onun da "payı" olduğunu deyə bilərik.

İkinci çağırış İran parlamenti maariflə bağlı iki qanun qəbul etmişdir. 1910-cu ilin sentyabr ayının 2-də qəbul edilmiş qanun "Maarif nazirliyinin quruluşu və idarə edilməsi" adlanırdı. Qanun Maarif və Vəqf Nazirliyinin şöbələrinin fəaliyyətini uzlaşdırmağa, əlaqələndirməyə, uyğunlaşdırmağa yönəlmişdi. Qanuna görə nazirlik bundan sonra Maarif, Vəqf və Mədəniyyət (incəsənət) nazirliyi adlanmalı idi. Qanunda yalnız nazirliyin strukturu, idarə və şöbələrinin yeri, onların qarşılıqlı fəaliyyət mexanizmi müəyyən edilmirdi, həmçinin yeni maarifin təşkili, icbari və pulsuz təhsilin tətbiqi, müəllim kadrlarının hazırlanması, xaricə tələbə göndərilməsi, böyüklər arasında savadsızlığın ləğvi və s. məsələlər öz əksini tapmışdı [61, s. 38-39]. Maariflə bağlı ikinci qanun – "Maarifin əsas qanunu"

1911-ci ilin oktyabr ayının 29-da qəbul edildi. Qanunun maddələrində ibtidai təhsilin icbari olması, dövlətin məktəblər təsis etməsi, hər bir qəsəbə və kənddə ən az bir ibtidai məktəb təsis edilməsi, Tehran və əyalət mərkəzlərində ali məktəb təsis edilməsi, rayon və qəsəbələrdə məktəblərin dövlət tərəfindən təsis edilməsi və s. nəzərdə tutulurdu. Qanuna əsasən həmçinin vəqf pulları, mövcud mədrəsələrdə qayda-qanun, səhiyyə, təlim və tərbiyə maarif nazirliyinin ixtiyarına verilirdi. Mədrəsələrə aid olan torpaqlar Maarif nazirliyinin sərəncamına verilirdi [61, s. 39-40]. Yeni dövr İran maarifinin tədqiqatçısı İ.Şəms haqlı olaraq qeyd edir: “Ruhanilərin əsrlər boyu mədəni-maarif sahəsi üzərində ağalığı səbəbindən … qızlar və qadınlar üçün məktəb təsis edilməsi uzun müddət çətin həll olunan sosial problemlərdən biri olaraq qalmışdır» [61, s. 40].

İkinci çağırış Məclisin qəbul etdiyi “Ədliyyənin təşkili qaydaları haqqında müvəqqəti qanun” ruhanilərin məhkəmə sistemində rolunu xeyli məhdudlaşdırırdı [123, s. 113-114].

Demokrat Partiyasının bir sıra proqram tələbləri Demokrat fraksiyasının nailiyyəti Mostoufi-ol-Məmalikin baş nazir təyin ediləndən sonra Məclisə təqdim etdiyi (30.07.1910) və Məclis tərəfindən təsdiq olunmuş (24.08.1910) fəaliyyət proqramında öz əksini tapmışdır. Proqramda təcili olaraq xarici müşavirlərin dəvət olunması, polis və jandarmların yenidən qurulması, paytaxtda və əyalətlərdə Avropa tipli hərbi hissələrin yaradılması, onların yeni silahlarla silahlandırılması, maliyyə, vergi, məhkəmə və maarif islahatlarının aparılması, gənclərin xaricə təhsil almağa göndərilməsi, qanunları Məclisin iclasına çıxarmazdan əvvəl müzakirə etmək üçün Dövlət şurasının yaradılması nəzərdə tutulurdu [35, s. 435]. İranda tez-tez dəyişən hökumət kabinetləri şəraitində bu uzunmüddətli tədbirləri həyata keçirmək o qədər də asan deyildi. Proqram, qeyd edildiyi kimi, Demokrat Partiyasının modernləşmə xəttini əks etdirdiyindən müəyyən maraq doğurur. Əlavə etmək lazımdır ki,

S.H.Tağızadə İran cəmiyyətinin modernləşməsinin əsas şərtlərindən birini xarici müşavirlərin dəvət olunması hesab edir və sonralar da həmin məsələnin zəruriliyini vurğulayırdı [140, s. 19-22]. Proqramın maraq doğuran cəhətlərindən biri də Dövlət şurasının yaradılmasının nəzərdə tutulması idi. Həmin şuranın necə fəaliyyət göstərəcəyi və tərkibi haqqında məlumat olmasa da, onu ruhani komissiyasına alternativ hesab etmək olar. Bununla demokratlar ruhanilərin Məclisin fəaliyyətinə, qanunvericilik hakimiyyətinə təsirini tamamilə zəiflətmək istəyirdilər. Nəzərdə tutulan islahatlar isə İran cəmiyyətinin tərəqqi və modernləşməsinin mühüm şərtləri idi. Yeni hökumətin proqramının hazırlandığı vaxt S.H.Tağızadənin İranda (Təbrizdə) olduğunu nəzərə alaraq onun hazırlanmasında yaxından iştirak etdiyini söyləmək olar. S.H.Tağızadə İranda olduğu müddətdə hökumətin fəaliyyətini yaxından izləmiş, onun modernləşmə istiqamətində fəaliyyət göstərməsinin zəruriliyini demokrat nazirlərin diqqətinə çatdırmağa çalışmışdır [123, s. 138].

S.H.Tağızadə demokratlardan birinə məktublarında onların hökumətdə yeni qaydalarla fəaliyyət göstərməklə həmin qaydaların İranda möhkəmlənməsinə zəmin hazırlamasının zəruriliyini vurğulayırdı [123, s. 138-145].

S.H.Tağızadənin 1910-cu ilin sonunda İranı tərk etməsi ilə siyasi sistemi modernləşdirmək sahəsində birbaşa və məhsuldar fəaliyyət dövrü başa çatır.

1909-cu ilin ikinci yarısı, 1910-cu ildə S.H.Tağızadənin, onun başçılıq etdiyi Demokrat Partiyası və Demokrat fraksiyasının, eləcə də “İran-e nou” qəzetinin modernləşdirmə sahəsində məzmunlu, səmərəli və müəyyən dərəcədə məhsuldar fəaliyyət göstərməsində təqribən S.H.Tağızadə ilə eyni zamanda Tehrana gəlmiş tanınmış publisist və sosial-demokrat məfkurəli siyasətçi Məhəmməd Əmin Rəsulzadənin mühüm rolu olmuşdur. Belə ki, M.Ə.Rəsulzadə Tehrana gələndən az sonra mütərəqqi mövqeli ziyalılarla əlaqə

yaradaraq mənəvi-ideoloji və siyasi sahələrdə fəaliyyətə başlamışdır. 1909-cu ilin avqust ayında nəşrə başlayan “İran-e nou” qəzetinin faktiki, 1910-cu ilin ikinci yarısından həm də formal baş redaktoru olmuş, qəzetin ətrafına toplanmış ziyalılarla birlikdə İran Demokrat Partiyasının yaradılmasında fəal iştirak etmiş və onun Mərkəzi Komitəsinin üzvü seçilmişdir [23, s. 36]. İranda yekdilliklə qəbul olunan fikrə əsasən məhz M.Ə.Rəsulzadənin xidməti və səyi nəticəsində “İran-e nou” qəzeti ölkədə ilk Avropa tipli mətbuat orqanına çevrilmişdir. İran tarixşünaslığında M.Ə.Rəsulzadənin siyasi fəaliyyəti, xüsusən Demokrat Partiyasının fəaliyyətində iştirakı ilə bağlı qeydlər edilsə də (onun MK üzvü olması faktının göstərilməsi), Şimali Azərbaycanda bununla bağlı müəyyən dərəcədə ifrata varılsa da (partiyanın yaradıcısı və s.), bir məsələni xüsusi vurğulamaq lazımdır ki, Demokrat Partiyasının müəyyən dərəcədə müasir, yeni tipli partiya kimi təşkil edilməsində, onun Mərkəzi Komitə kimi rəhbər orqanının təsis edilməsi, partiya proqramının tərtib edilməsi, partiyanın yerli şöbələrinin yaradılması, yerli şöbələrinin mətbuat orqanlarının təsis edilməsində M.Ə.Rəsulzadənin mühüm rolu olmuşdur. Bu da, sözsüz ki, onun Şimali Azərbaycanda keçdiyi siyasi təcrübə əsasında mümkün idi. İranın siyasi və mətbuat həyatında meydana gələn həmin yenilik və ya modernləşmə sahəsində atılmış həmin addımlar müəyyən dərəcədə M.Ə.Rəsulzadənin xidməti kimi qiymətləndirilə bilər. Hərçənd S.H.Tağızadə siyasi və ideoloji mübarizə sahəsində daha böyük təcrübəyə malik idi.

İranın II çağırış Məclisi işə başladıqdan (15.11.1909) sonra S.H.Tağızadə ilə M.Ə.Rəsulzadə arasında qeyri-formal iş bölgüsü olduğunu qeyd etmək olar. Belə ki, S.H.Tağızadə Məclisdə partiya proqramının qanunvericilik səviyyəsində reallaşması sahəsində fəaliyyət göstərdiyi halda, M.Ə.Rəsulzadə partiyanın ideoloqu qismində fəaliyyət göstərir. Partiya proqramında irəli sürülmüş vəzifələrin izah edilməsi, partiya ideologiyasının daha da təkmilləşdirilməsi

ilə məşğul olurdu. Məhz bunun sayəsində qanunvericilik sahəsində modernləşmə istiqamətində bəzi nailiyyətlər əldə etmək, eyni zamanda Məclisdə Demokrat fraksiyasının fəaliyyətinə geniş ictimai dəstək təşkil etmək mümkün olmuşdur. Lakin bu əməkdaşlıq uzun sürməmiş əvvəlcə S.H.Tağızadə Məclisi (1910), sonra ölkəni (1910), onun ardınca M.Ə.Rəsulzadə İranı tərk etməli olmuşlar [181, s. 12]. Maraqlıdır ki, onlar 2 il müddətində Türkiyədə birlikdə mühacir həyatı yaşamış, burada M.Ə.Rəsulzadənin ictimai-siyasi görüşlərində müəyyən dəyişiıkliklər baş vermişdir. Özünün liberal, modernist mövqeyində qalan S.H.Tağızadə dostunun milli-demokratiya mövqeyinə keçməsini təqdir etməsə də bu, onların dostluq münasibətlərinə qətiyyən təsir göstərməmişdir.

1924-cü ildə İrana qayıdan, V və VI Məclisin işində müstəqil deputat qismində iştirak edən, 1928-ci ildən 1934-cü ilə qədər icra hakimiyyəti strukturlarında xidmət edən, 1934-1941-ci illərdə yenidən xüsusi şəxs kimi mühacir həyatı yaşayan 1941-ci ildən icra hakimiyyəti, 1947-ci ildən isə yenidən qanunvericilik (əvvəlcə Məclis, sonra Məclisin yuxarı palatası - Senat) hakimiyyətinə qayıdan S.H.Tağızadə siyasi sferanın modernləşməsi ilə bilavasitə məşğul olmamış, əsasən, həmin sahədə aparılan islahatları dəstəkləmiş və müasir, modern siyasi sistemin bərqərar olmasına əngəl törədən, mövcud qanunları pozan hərəkətlərə etiraz etmişdir. Belə ki, 1924-cü ildə Rza xanın başçılığı ilə həyata keçirilən mərkəzləşdirmə siyasətini dəstəkləmiş, lakin Qacar sülaləsinin devrilməsi haqqında qanun layihəsinin müzakirəsi zamanı (10.11.1925) məsələnin qoyuluşunun Əsas qanuna zidd olduğuna görə ona etiraz etmişdi [204, s. 14].

Baş nazir Rza xan Müəssislər Məclisi tərəfindən (1925, 6-12 dekabr), şah elan olunduqdan (1925, 12 dekabr) sonra mərkəzləşdirmə siyasətini və modernləşmə istiqamətində islahatları davam etdirdiyi üçün S.H.Tağızadə həm VI Məclisin (1926-1928) deputatı, həm də 1926-cı ilin əvvəllərində təsis etdiyi "Tərəqqi"

partiyasının lideri kimi Rza şahın fəaliyyətini dəstəkləmişdir. O, eyni zamanda Əsas qanuna əməl olunmasını, ədliyyə sisteminin yenidən qurulmasını, maliyyə, inzibati-idarə, maarif sahələrində islahatlar keçirilməsini tələb edirdi [37, s.42]. Bununla o və digər modernləşmə tərəfdarları Rza şahı modernləşmə istiqamətində hərəkət etməyə sövq edirdilər. S.H.Tağızadə 1927-ci ildə "Hərbi mükəlləfiyyət haqqında qanun"un (1925) tətbiq edilməsi zamanı Əsas Qanunun 8-ci maddəsinin (vətəndaşların qanun qarşısında bərabərliyi) tələbinin pozularaq ruhanilərə güzəştlər edilməsinə etiraz etmişdi [37, s. 80; 150, s. 213]. Buna görə ruhanilər mətbuatda və Məclisdə "Tərəqqi" partiyasına qarşı hücumlarını gücləndirmiş, partiyanı Avropa qarşısında diz çökməkdə və İslama ehtiram göstərməməkdə ittiham edirdilər [37, s. 80].

S.H.Tağızadə 1928-ci ildə VII Məclisə seçki kampaniyası zamanı hökumətin seçkilərə kobud müdaxiləsinə etiraz etmiş [150, s. 209], bunun nəticəsində parlamentə seçilməmiş, polis nəzarətinə götürülmüş və 7 ay işsiz qalmışdır [150, s. 209-211]. S.H.Tağızadə icra hakimiyyəti strukturlarında çalışarkən (1929-1934) yeni qaydalara uyğun fəaliyyət göstərməyə çalışırdı. Xorasanda vali vəzifəsində olduğu zaman (1929) hərbi dairə komandirinin vilayətin mülki işlərinə müdaxiləsinin qarşısını almış [213, s. 434, qeyd 167], 1930-1933-cü illərdə maliyyə naziri işləyərkən büdcəni tarazlaşdırmış, büdcə xərclərinə sərt nəzarət təşkil edərək işrafçılığın qarşısını ala bilmişdir [190]. S.H.Tağızadənin qərəzsizliyi, diqqətliliyi və ciddiliyi ölkənin maliyyə vəziyyətinə müsbət təsir göstərmişdi [99, s. 6].

S.H.Tağızadə V Məclisdə (1947-49) və Senatda (1950-1968) fəaliyyət göstərərkən Məhəmməd Rza şahı (1941-1979) müdafiə etsə də [123, s. 193-194], 1951-53-cü illərdə Müsəddiq hökumətinə qarşı fəaliyyət göstərməmiş və 1949-1969-cu illərdə siyasətdə, əslində, "güşəneşin" (qeyri-fəal) olmuşdur [204, s. 23].

S.H.Tağızadə 1957-ci ildə Müəssislər Məclisinin çağırılmasına (1959), nəzərdə tutulan qərarlara - Əsas qanuna hər cür dəyişiklik edilməsinə, şaha veto hüququ verilməsinə və s. etiraz edərək Senatın sədrliyindən istefa verir [182, s. 68].

Göründüyü kimi, S.H.Tağızadə siyasi fəaliyyətinin ikinci mərhələsində icra və qanunvericilik hakimiyyətində iştirak edərək, əsasən, mövcud qanunvericiliyin pozulması hallarına formal etirazlar etmişdir.

Beləliklə, S.H.Tağızadənin siyasi sferanı modernləşdirmə sahəsində fəaliyyəti əsasən birinci və ikinci Məclisdə deputat vəzifəsini icra etdiyi illəri əhatə edir. Həmin mərhələdə S.H.Tağızadə müasir, modern, Qərb tipli dünyəvi siyasi sistem haqqında baxış, bilik və ideyalarını reallaşdırmaq uğrunda böyük səy göstərmişdir. O, Məclisin müəyyən qayda-qanun çərçivəsində fəaliyyət göstərməsi, bütün ictimai, siyasi məsələlərin qanunlar vasitəsilə tənzimlənməsi, Məclisin qanunvericilik və nəzarət funksiyasını yerinə yetirməsi və ən mühümü şəri deyil, konstitusiyalı siyasi sistemin bərqərar edilməsi, qanunvericilik fəaliyyətinin adət (adi) qanunlara, dünyəvi qanunlara əsaslanması, dinin siyasətdən ayrılması, ruhanilərin siyasi sistemə nəzarətinin zəiflədilməsi və s. uğrunda ciddi mübarizə aparırdı. Əsas Qanunda bəzi maddələri, qəbul edilən qanunları nəzərə almasaq, deyə bilərik ki, S.H.Tağızadənin siyasi sferanın modernləşməsi sahəsində fəaliyyəti tam müvəffəqiyyət əldə edə bilmədi. Birinci mərhələdə S.H.Tağızadənin siyasi sistemi modernləşdirmə sahəsində ən böyük nailiyyəti kimi yeni tipli siyasi partiyanın yaradılmasını hesab etmək olar. Modernləşmənin əsasının qoyulmasını (konstitusiya və parlamentin meydana gəlməsi), modernləşmə istiqamətində çətinliklə də olsa, hərəkatın davam etdiyini nəzərə alaraq S.H.Tağızadənin siyasi sistemin modernləşməsi hərəkatında bütövlükdə mühüm rol oynadığını demək olar. Bununla belə, S.H.Tağızadənin fəal modernləşdirici rolu

modernləşmə prosesinin beynəlxalq şəraitin təsiri altında müvəqqəti dayanması (1911), hətta ondan bir qədər əvvəl (1910) başa çatır. Həmin mərhələdə S.H.Tağızadənin siyasi sferanın modernləşməsi hərəkatına başçılıq etməsi onun əleyhdarları və tərəfdaşları tərəfindən etiraf olunur.

İran İslam Respublikasının rəsmi ideoloqlarının fikrincə, S.H.Tağızadə İran parlament sisteminin İngiltərə və Fransa parlament sistemləri kimi təşkil olunması yolunda böyük fəallıq göstərmişdir [182, s.]. Onun I Məclisdə fəaliyyətinin mahiyyətinin əsasını dinin siyasətdən ayırmağa çalışması təşkil edirdi [182, s. 84]. Əsas qanuna Əlavə S.H.Tağızadənin təzyiqi nəticəsində qəbul olunmuşdur [182, s. 84]. Birinci Məclisdə S.H.Tağızadənin başçılıq etdiyi radikal azlıq üləmanın Əlavənin istənilən maddəsinə düzəliş etməsinə qarşı çıxırdı. Həmin azlıq Əlavənin 2-ci maddəsinə qəti etiraz edirdi [182, s. 8].

S.H.Tağızadənin siyasi fəaliyyətinə obyektiv qiymət verməyə çalışan yuxarıda haqqında danışılmış müəllif onu Məşrutə inqilabının liderlərindən, parlamentdə radikal konstitusiyaçıların birinci dərəcəli rəhbərlərindən biri hesab edir [204, s. 4, 5]. O qeyd edir ki, S.H.Tağızadə qısa zamanda birinci Məclisdə və ondan kənarda inqilab rəhbərlərindən biri kimi qəbul olunurdu [204, s. 5]. Müasir fikirli digər bir müəllif göstərir ki, S.H.Tağızadənin Əlavənin mütərəqqi maddələrinin hazırlanması və qəbul olunmasında mühüm rolu olmuşdur [118, s. 67]. Hətta S.H.Tağızadəyə antipatiyası ilə seçilən və XX əsrin 40-cı illərində İranda Məşrutə inqilabı haqqında sənədlər əsasında ilk iri həcmli nisbətən obyektiv əsərin müəllifi S.Ə.Kəsrəvi də onun bu inqilaba rəhbərliyini etiraf edirdi [182, s. 20].

S.H.Tağızadə İranda siyasi fəaliyyətinin ikinci mərhələsini əhatə edən 1924-1928-ci illərdə hökumətin siyasi sferanı və digər sahələri modernləşdirmək sahəsində fəaliyyətini fəal surətdə dəstəkləmişdi.

Nəhayət, siyasi fəaliyyətinin üçüncü mərhələsini əhatə edən 1947-1968-ci illərdə siyasi şərait və iştirakçılar tamamilə dəyişdiyindən onun siyasi sferanı modernləşdirmək sahəsində liderliyinə tələb olmadığı kimi, modernləşdirici hərəkata liderlik iddiası da meydana çıxmamışdır. Həmin mərhələdə S.H.Tağızadə daha çox İranda aparılmış və aparılmaqda olan modernləşmə tədbirlərinin ideala və Qərb siyasi, mənəvi mədəniyyətinin mahiyyəti və əsas prinsiplərinə uyğunluğu məsələləri üzərində fikirləşməklə, modernləşmənin zahiri və mahiyyəti arasındakı əlaqələrin müəyyən edilməsi, bu prosesin ilk nəticələrinin qiymətləndirilməsi və islah edilməsi məsələləri ilə məşğul olurdu.

## Seyid Həsən Tağızadənin modernləşdirmə sahəsində ideoloji fəaliyyəti

S.H.Tağızadə ictimai fəaliyyətə müasir, yeni tipli mədəni-maarif ocaqları təsis etməklə başlamış və elə bu mərhələdə modernləşmənin ideoloji komponenlərtini hazırlamaq sahəsində özünün ilk addımlarını atmışdı. Onun Qahirədə farsdilli "Hikmət" qəzetində dərc etdirdiyi "İranın çağdaş durumunun araşdırılması və ya tarixin məhkəməsi" adlı məqaləsi (1905) modernləşmənin tarixi zərurət olduğunu əsaslandırmağa yönəlmişdi. Məqalədə İran tarixinin qədim və orta əsrlər (Səfəvi sülaləsinin hakimiyyəti illəri, 1501-1736) dövrünü ölkənin ən şanlı dövrü hesab edən, həmin dövrdə özünəməxsus, müstəqil mədəniyyət yaratdığını, bundan sonra daim tənəzzül etdiyini vurğulayan S.H.Tağızadə müasir İranın asılılıqdan və gerilikdən çıxış yolunu, tərəqqi və inkişafının əsasını Qərb mədəniyyətini mənimsəməkdə görürdü. O vurğulayırdı ki, öz dövrünün mədəniyyətini qəbul etməyən hər bir millət məhvə məhkumdur və öz dövrünün mədəni millətləri tərəfindən məhv

ediləcəkdir [120, s. 58]. Müasir mədəniyyəti qəbul etməyin tarixi zərurət, tərəqqi və nicat yolu olduğunu bəyan edən S.H.Tağızadə modernləşmənin yeni ideologiyasının yaradılmasında ilk və əsas addım atır. O, modernləşmənin proqramının əsas ünsürünü – müasir və ya Qərb mədəniyyətini mənimsəməyin zəruri olduğunu müəyyən etməyə çalışır.

S.H.Tağızadənin modernləşmə ideoloqu kimi formalaşması onun birinci çağırış İran parlamentində fəaliyyəti zamanı baş vermişdir. O, Məclisdə müxtəlif hüquqi sənədlərin tərtibində iştirak etməklə, təkliflər verməklə kifayətlənməmiş, bu və ya digər prinsip və ideyaların hərtərəfli əsaslandırılması ilə məşğul olmuşdur. Başqa sözlə, o, birinci çağırış Məclisdə həm siyasi sferanın bilavasitə modernləşdirilməsi, həm də modernləşmə, xüsusən siyasi modernləşmə ideologiyasının yaradılması və təkmilləşdirilməsi ilə məşğul olmuşdur.

Məlum olduğu kimi, İranda modernləşmə ideologiyası S.H.Tağızadənin ictimai, siyasi, mədəni fəaliyyətinin başlanmasından əvvəl yaranmışdır. S.H.Tağızadə deputat kimi siyasi fəaliyyətə başladığı zaman həmin ideyaları həyata keçirməyə cəhd etmiş və yeni şəraitdə yeni ideologiya yaradılmasına səy göstərmişdir.

XX əsrin əvvəllərində İran üçün yeni hadisə olan liberalizm ideyaları yayılmağa və möhkəmlənməyə başladı. İranda liberalizm, əsasən, S.H.Tağızadə, M.Ə.Camalzadə və M.Ə.Foruği ilə təmsil olunmuşdu. Dünyəvi düşüncəli və maarifçi ziyalı olan S.H.Tağızadə dinin siyasətdən ayrılması, M.Ə.Foruği isə məhkəmə və icra hakimiyyətinin ayrılması ideyalarını təbliğ və müdafiə edirdi [84].

S.H.Tağızadənin I Məclisdə müzakirə olunan məsələlərə münasibəti əsasında onun modernləşdirmə, xüsusən siyasi modernləşdirmə ideologiyasının əsas ünsürləri haqqında müəyyən təsəvvür əldə etmək olar. Məhz S.H.Tağızadənin başçılığı ilə Azərbaycan deputatları Əlavənin qəbul edilməsinə, rejimin məşruə (şəriətə uy-

ğun) deyil, məşrutə (konstitusiya) rejimi olaraq inkişafına, Əlavədə İran vətəndaşlarının qanun qarşısında bərabərliyi maddəsinin, dünyəvi məhkəmələrin yaradılması haqqında, təhsilin dünyəvi xarakter daşımalı olması və dünyəvi təhsil sisteminin Maarif nazirliyinin ixtiyarına verilməsi haqqında maddələrin təsbit olunmasına nail oldular. Bütün bunlar S.H.Tağızadənin müasir, modernləşmiş siyasi, hüquqi, mədəni sistem təşkil edilməsini prioritet hesab etdiyini göstərir.

S.H.Tağızadənin siyasi modernləşmə ideologiyasının yaradılması sahəsində fəaliyyətinin yeni mərhələsi onun ikinci çağırış İran parlamentində (1909-1911) qısa müddətli (1909, noyabr – 1910, iyul) fəaliyyəti ilə başlanır. Həmin mərhələdə S.H.Tağızadə sələflərindən fərqli olaraq partiya təsisçisi və ideoloqu kimi çıxış edir, onun siyasi-ideoloji baxışları daha aydın forma kəsb edir. S.H.Tağızadənin yaxından iştirakı ilə hazırlanmış Demokrat Partiyasının proqramında siyasi, ictimai, mədəni, hüquqi sferaların modernləşməsi sahəsində əldə edilmiş nailiyyətlərin qorunması və yeni, bir sıra hallarda radikal tədbirlərin həyata keçirilməsi nəzərdə tutulurdu [35, s. 404; 54, s. 49-51].

Birinci Məclisdə dünyəvi konstitusiyanın qəbul edilməsinə nail ola bilməyən S.H.Tağızadə və onun həmfikirləri partiya proqramında dinin dövlətdən ayrılması uğrunda mübarizəni partiyanın ən mühüm vəzifəsi hesab edirdilər [123, s. 111]. Proqramın "Siyasi tərbiyə" hissəsində də siyasi qüvvənin ruhani qüvvədən tam ayrılması qeyd olunurdu [123, s. 111]. Proqramın preambulasında göstərilmişdi ki, XVII əsr Avropada modernləşdirmə, yeni dövrə keçid mərhələsi olduğu kimi, XX əsr də Şərq və İran üçün modernləşmə, kapitalizmin feodalizmi əvəz etməsi dövrüdür. İran həmin yolla getməyə məhkumdur [120, s. 59]. Proqramda partiya öz qarşısına icbari hərbi xidmət, icbari pulsuz təhsil, torpaqların rəiyyət arasında bölüşdürülməsi, yığıncaq və siyasi fəaliyyət (partiya) azadlığı və s. məsələləri təmin etməyi qoyurdu [120, s. 60].

Proqramda Əsas Qanuna Əlavədə təsbit edilmiş bir sıra demokratik azadlıqlar təkrar edilir, lakin həmin azadlıqlar dinin siyasətdən ayrılması tələbinə uyğun olaraq artıq İslam dini normalarına və şəriətə tabe edilmirdi. Başqa sözlə, proqram dünyəvi siyasi sistem və mədəni cəmiyyət qurmaq tələblərini irəli sürürdü. Yuxarıda qeyd edilən tələblər Əlavədə təsbit olunmamışdır. Proqram ikinci çağırış Məclisdə S.H.Tağızadənin başçılıq etdiyi Demokrat fraksiyasının qanunvericilik fəaliyyətinin ideya-siyasi əsasını təşkil edirdi. Demokrat fraksiyası II Məclisdə müzakirə olunan qanunların, o cümlədən maarif haqqında qanunun proqrama uyğun olaraq dünyəvi əsaslara dayanmasına çalışırdı.

İkinci Məclisdə, yuxarıda qeyd edildiyi kimi, qəbul olunmuş qanunlarda ruhanilərin səlahiyyətləri müəyyən dərəcədə məhdudlaşdırılsa da, S.H.Tağızadənin modernləşmə fəaliyyəti bütövlükdə böyük müqavimətlə qarşılaşdı və o, Nəcəf Mərcəi təqlidlərinin fitvası ilə Məclisi və İranı tərk etməli oldu (1910). S.H.Tağızadə cəmiyyətin yeni ideyaları qəbul etməyə hazır olmadığını, mühafizəkar qüvvələrin mövqeyinin güclü olduğunu və bütün bunların müəyyən dərəcədə savadlılıq səviyyəsinin aşağı olması ilə bağlı olduğunu dərk edirdi. Ona görə onun modernləşdirmə proqramında vurğu bir qədər dəyişir. O, əsas diqqəti maarif sisteminin modernləşdirilməsinin zəruriliyinə yönəldir. S.H.Tağızadənin fikrincə, dünyəvi təhsilin genişləndirilməsi, səviyyəsinin yüksəldilməsi, elmi biliklərin tədris edilməsi, elmi şüurun yayılması ictimai həyatın bütün sahələrində islahat aparmağa şərait yarada bilər. O, yeni təhsil haqqında baxışlarını İstanbulda yaşayarkən (1911-1913) Parisə qısa səfəri zamanı iranlı tələbələr qarşısında İran və Fransanın "oxşar" cəhətləri mövzusunda çıxışı zamanı ətraflı şərh etmişdir [133]. O, elmin böyük qüvvə olduğunu vurğulayaraq qeyd edir: "Həqiqi islahat, nicat və xilas, həqiqi vətənpərvərlik, yalnız və yalnız, yenə də yalnız elmlə mümkündür, yəni Avropa elmləri, bu əsrin elmləri, Qərb

mədəniyyəti, məktəblər, kitabxanalar və yenə də yeni məktəblər, Qərb kitablarının milli dilə tərcüməsi və yenə də məktəblər" [133, s. 241]. S.H.Tağızadə iranlıların elmə laqeyd münasibət bəslədiyini qeyd edərək deyir: "Əfsus ki, iranlılar elmin xilaskar rolu haqqında heç nə anlamırlar" [133, s. 244].

Qeyd etmək lazımdır ki, Avropa elmləri ilə, Avropada mövcud olan iqtisadi, siyasi, mədəni həyatla tanışlıq S.H.Tağızadənin özünün dünyagörüşünü kökündən dəyişdiyinə görə, o, elmə son dərəcə və haqlı olaraq böyük əhəmiyyət verirdi.

S.H.Tağızadə elmi üstüörtülü şəkildə İsa Məsihin "möcüzələri" ilə müqayisə edib, əsl möcüzəni elmin yaratdığını vurğulayaraq deyirdi: "Qərbdə mədəniyyət və elmin heyrətedici və möcüzə yaradan xarüqəladə təsiri ölkələri diriltdi. Fani və xəstə qocanı şərqli sağlam bir gəncdən də daha güclü edir" [133, s. 232].

S.H.Tağızadənin İranda modernləşmə uğrunda mübarizə aparmaq və öz ideyalarını yaymaq imkanı 1910-cu ilin sonlarında aradan qalxdığından və o, mülki şəxs kimi mühacir həyatı yaşadığından modernləşmə ideologiyasının yaradılması və inkişaf etdirilməsi ilə ardıcıl məşğul ola bilməmiş, buna imkan və şəraiti də olmamışdır. Yalnız 1915-ci ildə Berlinə gələrək yerli hökumətin maliyyə vəsaiti ilə İranda ingilislərə və ruslara qarşı mübarizəni təşkil etmək, ona siyasi, maddi (insani) və mənəvi ideoloji dəstək vermək üçün "İran komitəsi" və "Kave" jurnalını təsis etməklə belə bir şərait yarandı. Doğrudur, müharibə illərində "Kave" jurnalı, əsasən, anti-ingilis, anti-rus məzmunlu yazılar dərc etdiyindən, S.H.Tağızadə öz ideyalarını yaymaq imkanına malik deyildi, bununla belə, müharibənin sonlarına doğru o, jurnalın səhifələrində modernləşdirmə ideyasını əks etdirən yazılar da dərc etdirirdi. Lakin Almaniyanın məğlubiyyəti ilə Birinci Dünya Müharibəsi başa çatdıqdan sonra almanlar "komitə" və "Kave" jurnalını maliyyələşdirməyi dayandırdılar.

Birinci Dünya müharibəsindən sonra dünyada, Avropada və İranda baş verən mühüm hadisələr iranlı mühacir ziyalıları müxtəlif mətbu orqanlar təsis edərək öz ideyalarını yaymağa sövq edirdi. Belə bir şəraitdə S.H.Tağızadə mütərəqqi əhval ruhiyyəli gənc mühacir iranlı ziyalıları ətrafına toplayaraq 1920-ci ilin əvvəllərindən "Kave" jurnalının yeni dövrünün nəşrinə başladı. O, jurnalın birinci (ardıcıl 36-cı) nömrəsinin "Yeni dövr" adlı baş məqaləsində jurnalın fəaliyyətinin əsas istiqamətlərini, İran cəmiyyəti qarşısında duran əsas vəzifələr və mövcud olan problemlərin həlli yollarını müəyyən etməyə çalışmışdır [154]. S.H.Tağızadə İranın qarşısında duran üç məsələnin prioritet təşkil etdiyini vurğulayır. Birincisi, Avropa mədəniyyətini qeyri-şərtsiz qəbul etmək və yaymaq, Avropaya tam təslim olmaq, Avropa adət-ənənəsini, elm və texnikasını, həyat tərzini, bütün mövcud olanları, qəbul etmək, yalançı vətənpərvərlikdən irəli gələn hər cür xudpəsəndlik və mənasız iradları bir kənara qoymaq. İkincisi, fars dili və ədəbiyyatının qorunması, tərəqqisi, inkişafı və yayılması yolunda hərtərəfli səy göstərmək. Üçüncüsü, Avropa elmlərinin yayılması və hamının yeni məktəblər təsis etməyi alqışlaması və təşviq etməsi.

S.H.Tağızadə irəli sürdüyü vəzifələri özü və həmfikirləri adından qısa şəkildə belə ifadə edir: "İran zahirən, daxilən, cismən və ruhən avropalaşmalıdır, vəssalam" [154, s. 280].

Beləliklə, S.H.Tağızadənin modernləşdirmə və vesternizasiya ideologiyası struktur elementləri baxımından aydın və bütöv bir forma kəsb etmişdir. İdeologiyanın proqram hissəsi Avropa mədəniyyətini bütövlükdə qəbul etməkdən ibarətdir. Modernləşmə elementləri elm, texnika, Avropa təhsil sistemindən, vesternizasiya elementi isə Avropa həyat tərzi, adət-ənənələrinin qəbul edilməsindən ibarətdir. İrəli sürülən ikinci vəzifənin modernləşmə ilə heç bir əlaqəsi olmasa da, həmin məsələlərin vurğulanmasının öz səbəbi var idi və bu haqda aşağıda qeyd olunacaqdır. S.H.Tağızadə ilk

baxışda siyasi və iqtisadi sistemdən danışmır, lakin "bütün mövcud olanları" anlayışında həmin sahələrin də nəzərdə tutulduğunu güman etmək olar. Ən başlıcası isə S.H.Tağızadənin İranda İslam dininin gələcəyi ilə bağlı heç bir fikir söyləməməsidir. Bu da onun uğrunda mübarizə apardığı dinin siyasətdən ayrılması ideyası ilə izah oluna bilər. Başqa sözlə, milli dildən fərqli olaraq S.H.Tağızadəni "milli dinin" gələcək taleyi o qədər də maraqlandırmır, ona görə onun qorunması haqqında danışmırdı.

S.H.Tağızadə öz proqramını hərtərəfli şəkildə ölçüb-biçsə də, ona münasibəti həm İranda, həm xaricdə yaşayan iranlılar, həm də müxtəlif statuslu sosial təbəqələr arasında birmənalı qarşılanmamışdır. İranda bir qrup mətbuat orqanı S.H.Tağızadənin qərbləşmə ideyasına kəskin reaksiya göstərmişdir [116, s. 68].

İranın ən məşhur alimlərindən biri olan M.Qəzvini S.H.Tağızadənin mövqeyini müdafiə etmişdir [120, s. 59]. S.H.Tağızadənin gənc silahdaşlarından olan, Almaniyanın Leypsiq şəhərində fars dilində "Daneş və hünər" ("Elm və incəsənət") jurnalının nəşrinə başlayan M.Ə.Camalzadə əsas vəzifənin nə avropalılara qarşı durmaqda, nə onlara təslim olmaqda deyil, ardıcıl və gərgin işləməklə avropalıları tədricən dəf və rəf etməkdən, rasional davranışa yiyələnməkdən ibarət olduğunu göstərirdi [120, s. 60-61].

Berlində 1924-cü ildə fars dilində çap olunan "Firəngistan" jurnalı baş məqaləsində S.H.Tağızadənin mövqeyini müdafiə etmişdir. Baş məqalədə gənclər elan edirdilər ki, onlar İranın fitri əxlaqi mahiyyətini qorumaqla o "böyük sözü" həyata keçirmək əzmindədirlər [120, s. 61].

S.H.Tağızadənin dostu və silahdaşı Hüseyn Kazımzadə Almaniyada fars dilində nəşr etməyə başladığı "İranşəhr" jurnalında S.H.Tağızadənin ideyasına münasibət bildirərək yazırdı: "İran nə zahirən, nə fikrən, nə ruhən, nə də batinən avropalaşmalı, nə də bugünkü acınacaqlı vəziyyətdə qalmalıdır, tərəqqi etməli, özünəməxsus

mədəniyyət yaratmalıdır” [ 120, s. 61]. S.H.Tağızadənin əleyhdarları tərəfdarlarından çox idi, çoxları ona avropalaşma ideyasını irəli sürdüyünə görə həmlə edirdilər [120, s. 60].

S.H.Tağızadə onun ideyasına qarşı müxalifətə baxmayaraq, “Kave” jurnalında öz mövqeyini müdafiə edirdi, hərçənd mövqeyini bir qədər yumşaltmışdı. O göstərirdi ki, əcdadların adət-ənənələrinə deyil, xurafata, ictimai geriliyə alışqanlığı tərk etməyi zəruri hesab edir [120, s. 60-61].

İranda və xaricdə yaşayan ziyalılar tərəqqi, inkişaf və modernləşmə tərəfdarı idilər. Amma “vesternizasiya” ideyasına, yəni Avropa adət-ənənələri, davranış qaydaları, həyat və məişət tərzinə münasibət birmənalı deyildi, daha doğrusu, əsasən, mənfi idi. Onların əksəriyyəti ilk vaxtlar S.H.Tağızadənin irəli sürdüyü modernləşmə ideyasını qəbul edir, vesternizasiya ideyasını isə rədd edirdilər. İranın ictimai fikrində mühüm hadisə hesab oluna bilən, uzun müddət ictimai fikri özünə cəlb etmiş “başdan ayağa avropalaşma” ideyasının irəli sürülməsinin səbəbi nə idi?

Əvvəlcə qeyd olunmalıdır ki, S.H.Tağızadə haqqında müxtəlif səpkili əsərlər, yazılar yazmış müəlliflər, hətta tədqiqatçılar bizə məlum olduğu dərəcədə belə bir sual qoymamışlar. Onlar, artıq deyildiyi kimi, öz mövqelərinə uyğun olaraq S.H.Tağızadənin avropalaşma ideyasını ya müdafiə etmiş, ya kəskin tənqid etmiş, ya da münasibət bildirməmişlər.

XX əsrin 20-ci illərinin başlanğıcında S.H.Tağızadənin İranın nicatı, tərəqqi və inkişafının sistem halında avropalaşmaqda görməsini nə ilə izah etmək olar? Bu suala cavab vermək üçün həm məhəlli (İran), həm də qlobal (əsasən Avropa) səviyyədə baş verən mühüm hadisələri nəzərə almaq lazımdır.

Məlum olduğu kimi, Birinci Dünya Müharibəsi başlayandan sonra İranın millətçi (yəni müstəqil dövlətçilik) əhval ruhiyyəli qüvvələri, o cümlədən, bir çox siyasət adamları (deputatlar) yaranmış

vəziyyətdən istifadə edərək, Almaniya və Osmanlı dövlətlərinin yardımı ilə, onlarla eyni cəbhədə çıxış etməyə çalışmış, Milli hökumət təşkil edərək Rusiya və İngiltərəyə qarşı silahlı mübarizəyə başlamışdılar. Lakin İran cəbhəsində vəziyyətin tez-tez dəyişməsi, geniş dəstək təşkil etməyin mümkün olmaması, Tehran hökumətinin bitərəf mövqe tutmağa çalışması Milli hökumətin uzun müddət fəaliyyət göstərə bilməməsini şərtləndirdi. Əvvəllər nəzarət edilməyən ərazidə, sonra qısa müddətə osmanlıların nəzarəti altına keçmiş ərazidə fəaliyyət göstərmiş Milli hökumətin varlığı artıq 1916-cı ildə başa çatdı [36, s. 256-257].

Milli qüvvələrin milli müstəqillik uğrunda mübarizəsi 1915-ci ildən başlayaraq İran ictimai şüurunda İran kimliyi məsələsinin ön plana çıxmasına şərait yaradırdı. Milli müstəqillik uğrunda mübarizəyə ideoloji dəstək vermək üçün İranın qədim tarixi və mədəniyyəti ilə daha geniş şəkildə və miqyasda tanış olmaq nəticəsində ziyalılarda milli kimlik şüuru güclənir və romantik nasionalizm ideologiyasının meydana gəlməsinə zəmin yaranırdı. Bunun nəticəsində "şanlı qədim tarixi mədəniyyəti" canlandırmaq, bərpa etmək və ya İran yolunu müəyyən edib həmin yolla getmək ideyaları ortaya atılırdı [204, s. 30].

Həmin ideoloji-mənəvi hərəkatın ana xəttini İranın qədim dövr əzəmət, qüdrət və mədəniyyətini təbliğ etməklə onun itirilmiş nüfuzunu yenidən qaytarmaq ideyası təşkil edirdi. Qeyd edilməlidir ki, həmin hərəkat Birinci Dünya Müharibəsindən sonra da davam edir və genişlənirdi [204, s. 20-31]. Başqa sözlə, iranizm ideoloqları İranın tərəqqi, nicatını qədim İran adət-ənənələrini, hakimiyyət formasını canlandırmaq və bərpa etməkdə və ya keçmiş milli kimliyə qayıtmaqda görürdülər. Bu hərəkatı gələcək naminə keçmişə üz tutmaq kimi qiymətləndirmək olar.

Digər tərəfdən, 1917-ci ildə Rusiyada baş vermiş hadisələr, tamamilə yeni siyasi, ictimai, mədəni, iqtisadi sistemin qurulması və

xalqın, konkret olaraq zəhmətkeşlərin adından çıxış edilməsi, tamamilə yeni xarici siyasət kursunun elan edilməsi və verilən ilk dekretlər İranda ictimai həyata təsirsiz ötüşə biməzdi. İranda həmin vaxta qədər mövcud olan sosial yönümlü qruplar, təşkilatlar daha da fəallaşdılar, yenidən təşkil olunmağa başladılar (1917-ci ildə Bakıda "Ədalət" partiyasının, Təbrizdə "Demokrat" partiyasının yaradılması). İran ictimai fikrində sosial yönümlü siyasi sistemin yaradılması ideyası nisbətən geniş təbliğ olunurdu. Həmin qüvvələr millətin adından çıxış edirdilər. Başqa sözlə, İran ənənələrini dirçəltmək ideyası ilə yanaşı, sosial yönümlü siyasi sistem yaradılması ideyası da güclənirdi.

1918-ci ildə Rəşt və Ənzəlidə rus əsgərlərinin nümayəndələrinin iştirakı ilə yerli sovetlər təşkil olundu [36, s. 266]. Həmin ildən başlayaraq "Ədalət" partiyasının İranda təsiri güclənməkdə idi [36, s. 267; 8, s. 28]. 1919-cu il İran-ingilis müqaviləsinə qarşı geniş hərəkat başlandı. Bütün ölkə çalxalanırdı [36, s. 275].

Qlobal səviyyədə Rusiyada gedən proseslərin mühüm tərkib hissəsini yeni siyasi sistemin təsiri ilə Avropada cərəyan edən hadisələr təşkil edirdi. Müharibədən məğlub çıxmış Almaniyada və süqut etmiş Avstriya-Macarıstan imperiyasının yerində meydana gəlmiş ölkələrdə inqilablar baş verdi və Sovet respublikaları elan olundu. Belə ki, 1918-ci ilin noyabrında Almaniyada, 1919-cu ilin martında Macarıstanda, aprelində Bavariyada, iyun ayında Slovakiyada Sovet respublikaları elan olundu. 1919-cu ilin ikinci yarısında həmin respublikaların varlığına son qoyulsa da, Sovet Rusiyasının Avropaya təsiri tam neytrallaşdırıla bilmədi. Sovet siyasi sisteminin tərəfdarları fəallaşmağa və təşkilatlanmağa başladılar. Artıq 1918-ci ildə Avstriya, Macarıstan, Polşa, Finlandiya, Almaniya Kommunist Partiyaları yaradıldı. Sovet Rusiyasında həmin partiyaların fəaliyyətini istiqamətləndirmək, koordinasiya etmək, yeni partiyaların yaranmasını stimullaşdırmaq üçün onların vahid qlobal

bir təşkilatda birləşdirilməsi qərara alındı. Belə ki, 1919-cu ilin mart ayının 2-də Moskva şəhərində 30 ölkədən gəlmiş 51 nümayəndənin iştirakı ilə Kommunist İnternasionalının əsası qoyuldu. Kominternin əsas məqsədi dünya dövlətlərinin kapitalizmdən sosializmə keçidinə, həmin prosesin sürətləndirilməsinə, müstəmləkə və asılı ölkələrin müstəqilliyinə yardım etməkdən ibarət idi [17, s. 56-89].

Sovet Rusiyasının əsas məqsədi özünü qorumaq və "düşmənləri" ilə onların daxilində mübarizə aparmaq olsa da, ona rəğbət getdikcə artırdı və tamamilə yeni inkişaf yolunun mövcud olması təsəvvürü güclənirdi, çünki hər halda, Qərbdən fərqli yeni siyasi sistem meydana gəlmiş və dünyaya tamamilə yeni prinsiplər və dəyərlər elan etmiş, öz nüfuzunu genişləndirmək üçün yeni inkişaf yolunun mövcudluğunu nümayiş etdirməyə çalışırdı. Həmin yolu sovet, sosialist, yaxud yeni Şərq yolu adlandırmaq olar.

Məhz belə bir milli, regional və qlobal şəraitdə S.H.Tağızadə iranlıları qərb mədəniyyətini mənimsəməyə, avropalaşmağa çağırmaqla İranın nicatı, tərəqqi və inkişafının qədim ənənələri dirçəltməkdə və Şərq yolunda yox, sınaqlardan keçmiş, özünü dəfələrlə təsdiqlənmiş Qərb yolunda olduğunu vurğulayır.

S.H.Tağızadə istənilən məqsəd və formada diktaturanı qəbul etmirdi. S.H.Tağızadə, həmçinin ideya və əxlaqi baxımdan romantik nasionalizmi də qəbul etmirdi [204, s. 30]. Məhz buna görə o, qərbləşmə şüarını irəli sürdü. Başqa sözlə, o nə sovetləşməni, nə də iranlaşmanı qəbul edir, yalnız avropalaşma şüarını irəli sürürdü.

Beləliklə, S.H.Tağızadə qərbləşmə ideyasını irəli sürməklə formalaşmaqda olan sosialist, uzun tarixi yol olan ənənəvi İslam, yeni yaranmaqda olan İran yolu ideyasını rədd edərək inkişaf və tərəqqinin yeganə bir yolu - Qərb yolu olduğunu elan edir.

S.H.Tağızadə "Kave" jurnalı səhifələrində (1920-1922) öz ideyalarının təbliğini davam etdirmiş, onu müxtəlif aspektlərdən şərh etmiş, eyni zamanda opponentlərinə də cavab vermişdir.

XIX əsrin II yarısından etibarən asılı və yarımmüstəmləkə halına düşmüş İranda xaricilərə dərin neqativ münasibət yaranmış və 1918-ci ildən və xüsusən 1921-ci ildən ölkənin müstəqilliyinin möhkəmlənməsi istiqamətində atılan addımlar həmin münasibəti bir qədər gücləndirmiş və leqallaşdırmışdır. Xaricifobiya eyni zamanda avropalaşma ideyasına qarşı çevrildiyindən S.H.Tağızadə "Kave" jurnalının nəşrinin dayandırılması ilə (güman edilirdi ki, müvəqqətidir) əlaqədar 1922-ci ilin mart ayında "Fövqəladə vərəq" nəşr etdi. Həmin yazıda S.H.Tağızadə "xarici" məsələsinə öz münasibətini bildirərək yazırdı: "Məqsəd İranın inkişafıdır və biz bilməliyik ki, bu işdə xaricilər bizə yardım etməyəcəklər, amma həmişə də bizə düşmən deyillər. Bütün nöqsanlarımızın günahını xarici amillərin üzərinə atmamalıyıq … Doğrusunu bilmək istəsək, İrana nə xaricilərdən böyük təhlükə var, nə də nicat yolu kimi avropalıları kənar etməkdir. Böyük təhlükə xaricdən gəlmir, təhlükə xaricdə yox, daxildədir" [120, s. 60].

S.H.Tağızadənin fikrini konkretləşdirsək və açıqlasaq, görərik ki, o, ingilislərə nifrət bəsləyib sovetlərə ümidlə baxmağın əleyhinə olmuşdur. Bunu dolayısı ilə onun 1921-ci ilin fevral ayının 21-də imzalanmış Sovet-İran müqaviləsini tənqid etməsi [147, s. 5] də göstərir. "Kave" jurnalının nəşrinin dayandırılması ilə S.H.Tağızadənin ideoloji fəaliyyətində fasilə yaranır və onun 1924-cü ilin avqustunda İrana qayıtmasına qədər davam edir. İrana qayıtdıqdan sonra, qeyd edildiyi kimi, o, baş nazir Rza xanın təşkil etdiyi qeyri-formal Məşvərət şurasının işində iştirak edir.

İranda milli və tarixi kimlik şüurunun formalaşması [84], modernləşmə ideyasının geniş yayılması, modernləşmənin subyektinin, üsul və formalarının müəyyən edilməsində Avropada fəaliyyət göstərən iranlı ziyalılar, o cümlədən "Kave" jurnalının II dövrü ərzində onun redaksiyasına və ətrafına toplanan ziyalılar mühüm rol oynamışlar. "Kave" jurnalında dərc olunmuş yazıları araşdıran

Bəhmənyar Hüseyn belə qənaətə gəlir ki, modernləşməni həyata keçirməli olan elita 3 qrupa ayrılır:

1. Öz şəxsi maraqlarının ardınca gedənlər;
2. İstibdad tərəfdarı və islahat;
3. Yeniləşmə (modernləşmə) tərəfdarları.

Üçüncü qrupu da üç yerə ayırmaq olar:

a) peşəkar siyasətçilər; b) məsələlərə səthi yanaşanlar (onların məlumatsızlığı və məhdud təfəkkürü zəhmətin hədərə getməsinə səbəb olur); c) milli eqoizm və yalançı vətənpərvərlik tərəfdarları.

Onun fikrincə, dar düşüncəlilər vətənpərvərlik deyəndə yerli adət-ənənələrə bağlılıq və onların digər xalqların adət-ənənələrindən üstün olduğunu sübut etməyi başa düşürdülər. Onlar modernləşməyə səthi yanaşdıqlarından mədəniyyətin ruhunu anlamadıqlarından hər hansı bir iş görməyə qadir deyillər. "Kave" jurnalında göstərilir ki, yalnız azsaylı yenilikçilərə ümid bəsləmək olar, jurnal nəzərə çatdırırdı ki, islahatın birinci şərti güclü mərkəzi hakimiyyət, stabillik, təhlükəsizliyin bərqərar edilməsidir. Bunsuz islahat aparmaq olmaz [120, s. 61].

1925-ci ilin noyabr ayına qədər davam etmiş Məşvərət şurasında S.H.Tağızadə və həmfikirləri, çox güman ki, Rza xanı modernləşmə istiqamətində addımlar atmağın zəruriliyinə inandırmağa çalışmışlar. Başqa sözlə, öz ideyalarını məhdud miqyasda təbliq etməklə məşğul olmuşlar. Bu dövrdə S.H.Tağızadənin modernləşmə sahəsində baxışları yığcam şəkildə 1925-ci ildə yeni nəşrə başlayan "Ayəndə" jurnalının redaktorunun xahişi ilə yazdığı proqram [120, s. 61] xarakterli "Moqəddemati ayəndeyi rouşən" ("İşıqlı gələcəyin ilkin şərtləri") adlı məqaləsində öz əksini tapmışdır [140]. S.H.Tağızadə göstərirdi: "Mənim fikrimcə, İranın istiqlalı, tərəqqisi və mədəniyyəti üçün dörd ümdə sütun və qaçılmaz şərtin yerinə yetirilməsi zəruridir. Həmin dörd əsas dayağı təmin etdikdən sonra dörd əsas sahədə işləmək lazımdır" [140, s. 18]. Müstəqillik,

tərəqqi və mədəniyyətin dörd əsas dayağı milli vəhdət, təhlükəsizlik, dövlət idarələrinin islahı, xüsusən maliyyə, milli hakimiyyət və milli nümayəndəlik üsulunun islah olunmasından ibarətdir [140, s. 19]. Həmin dayaqlar haqqında qısa şərh verən müəllif qeyd edir ki, İranın bir dövlət və ölkə kimi mövcud olması onun bütün əhalisinin (millət) birliyi, ittifaqından asılıdır, ona görə "bu həmvətənlilik və birlik hissini hər vasitə ilə gücləndirmək və təsdiq etmək lazımdır" [140, s. 19]. Təhlükəsizlik və güclü mərkəzi hakimiyyətin əhəmiyyətini qeyd edən müəllif "təhlükəsizliyin milli birliyin əsas şərti olduğunu" vurğulayır [140, s. 19]. Müəllif sonra növbəti dayaqdan danışaraq qeyd edir: "Dövlət idarələrinin islah edilməsi hər bir addımın və tərəqqinin əsasıdır. Bunun üçün, ilk növbədə xarici müşavirlər dəvət olunmalıdır" [140, s. 19]. S.H.Tağızadə yazır: "İslahatları möhkəmləndirmək və ümumi təhlükəsizliyi təsdiq etmək və zəruri tədbirləri sürətləndirmək üçün yaxşı və ali milli Məclis lazımdır" [140, s. 20]. Həmin vaxt ölkədə seçki kampaniyası getdiyindən redaktor bu mövzuda danışmağı təbliğat kimi qiymətləndirərək müəllifin sonrakı fikirlərini üzr istəyərək dərc etməmişdir.

Müəllif daha sonra qeyd edir ki, göstərilən dörd şərt ödənildikdən sonra digər – dörd əsas sahədə islahatlar aparılmalıdır. Həmin sahələr iqtisadi inkişaf, xüsusən yol çəkilməsi, əkinçiliyin islahatıdır. Xarici asılılığı azaltmaq üçün müəyyən dərəcədə maşın sənayesi yaradılmalıdır, lakin əsas diqqət kənd təsərrüfatına yönəlməlidir. Çünki həmin sahə xarici dövlətlərin nəinki rəqabəti və maneələri ilə üzləşməyəcək, əksinə, onların tərəfindən təşviq ediləcəkdir [140, s. 21]. İkinci sahə səhiyyə, üçüncü sahə ümumi ibtidai təhsildir [140, s. 21-22]. S.H.Tağızadə ibtidai təhsili "bütün milli məqsədlərin və məqalədə haqqında danışılan bütün əsas işlərin ən mühümü" hesab edir [140, s. 22].

Müəllif təəssüflə qeyd edir ki, digər sahələrdən fərqli olaraq ictimai fikirdə həmin sahəyə qətiyyən diqqət edilmir. Bunun da əsas

göstəricisi odur ki, hər şeyə pul tapılır, maarifdən başqa. Gülüş doğuran odur ki, maarif büdcəsinin də böyük bir hissəsi Tehranın ali və orta məktəblərinə sərf edilir. Tehran istisna olmaqla ölkənin maarifə ayırdığı vəsait büdcənin yüzdə birindən (0,01%) azdır [140, s. 22]. S.H.Tağızadə qeyd edir ki, ən təəccüblüsü bu ölkənin azsaylı alimlərinin də həmin məsələyə diqqət verməməsidir [140, s. 23]. Göründüyü kimi, təhsilin rolunu son dərəcə yüksək qiymətləndirən müəllif ondan daha çox bəhs etmişdir. S.H.Tağızadə "Ayəndə" jurnalının 3, 6 və 7-ci saylarında təlim-tərbiyə və təhsil məsələsinə aid xüsusi məqalələr dərc etdirərək ümumi və ali təhsilin təşkili və genişləndirilməsinin həyati əhəmiyyətini vurğulamağa çalışmışdır [146].

Tərəqqinin dördüncü əsası millətin mədəniyyətə, tərəqqiyə, modernləşməyə və azadlığa doğru hərəkətidir. Bu, çox geniş sahədir. Burada ilk addım bizim millətin tərəqqi yolunda dəmir səddə çevrilmiş, insanın ağlına, əl-qoluna vurulmuş zəncir olan cahil təəssübkeşliyə qarşı müharibədir. Reqressiv təəssüb tilsimini sındırmaq üçün qəhrəman (igid-rəşid), əxlaqlı və ləyaqətli öndərə ehtiyac vardır və belə şəxsləri tədricən məktəblər hazırlayacaqdır [140, s. 25]. Birinci iki şərt nəzərə alınmasa və icra üsulları və vasitələri, əsasən, göstərilməsə də, S.H.Tağızadə islahatlar dövrünə qədəm qoymuş İran cəmiyyətinin diqqətini əsas iqtisadi, siyasi və sosial məsələlərə yönəltməklə yığcam modernləşmə proqramı irəli sürür.

S.H.Tağızadə zahirən avropalaşmaq məsələsinə toxunmur. Amma nəzərə alsaq ki, o, islahatların keçirilməsi üçün xarici mütəxəssislərin dəvət olunmasını zəruri hesab edir, onda demək olar ki, yenə də avropalaşmaq ideyasını müdafiə edir. Xarici mütəxəssislər, təbii ki, islahat aparılacaq sahələri Avropa təcrübəsi əsasında yenidən qurmağa yardım edə bilərdilər. Həmin proqramda vesternizasiya ideyası öz əksini tapmamışdır.

Qeyd etmək lazımdır ki, Rza xanın ölkənin istər faktiki (1922-ci ildən), istərsə də formal (1925-ci ilin sonundan) başçısına çevrilməsindən sonra İranda modernləşmə istiqamətində tədbirlər həyata keçirilməyə başlanır. Bu işdə ona Avropada təhsil almış ziyalılar siyasi və ideoloji dəstək göstərirdilər. Onlar 1922-ci ildə təsis edilmiş "Təcəddüd" (yeniləşmə, modernləşmə) partiyasında birləşmişdilər. "Təcəddüd" partiyasının proqramının əsas istiqamətlərini İranın sənayeləşdirilməsi, dinin siyasətdən ayrılması və qeyri-fars xalqların assimilyasiyası təşkil edirdi [197].

Rza xan ilk vaxtlar, əsasən, ölkənin mərkəzləşdirilməsi ilə məşğul olurdusa, şah olandan sonra mərkəzləşdirmə siyasətini davam etdirməklə yanaşı, digər sahələrdə də modernləşmə tədbirləri həyata keçirirdi. 1922-ci ildə İran ordusunun yenidən qurulması prosesi başa çatdırıldı. Maliyyə sisteminin, ədliyyə, vergi idarəsinin, Daxili İşlər Nazirliyinin yenidən qurulmasına başlandı. 1924-cü ildə soyad tətbiq edildi, 1925-ci ilin mart ayının 21-dən isə yeni təqvimə keçildi. Qeyd edilir ki, yeni hicri şəmsi təqviminə keçilməsində S.H.Tağızadənin mühüm rolu olmuşdur [210]. Belə ki, S.H.Tağızadə 1918-ci ildən başlayaraq qədim İran təqvimi haqqında araşdırmalar aparmağa başlamış və "Kave" jurnalında həmin mövzuda yazılar dərc etdirmişdi [159; 161]. Onu da əlavə etmək lazımdır ki, "Kave" jurnalının saylarının nəşr tarixi üç təqvim: İran (Yezdəgerd), ərəb (hicri-qəməri) və miladi tarixi ilə göstərilirdi. 1926-cı ildə Məclis Transiran dəmir yolunun çəkilişi haqqında qərar qəbul etdi.

Mərkəzləşdirmə siyasətinin birinci mərhələsi başa çatdıqdan sonra islahatlar daha geniş şəkildə davam etdirildi. 1927-ci ildə ümumi ibtidai təhsil haqqında, hərbi mükəlləfiyyətin tətbiqi haqqında qanunlar qəbul edildi. 1928-ci ildə ölkənin müstəqilliyinin təmin olunmasında mühüm addım hesab olunan kapitulyasiya rejiminin qəti ləğv olunması haqqında qərar qəbul edildi. Milli bank açıldı. Xaricdə tələbələrin təhsilinin maliyyə təminatı məqsədi ilə xüsusi

fond təsis edildi, geyimin eyniləşdirilməsi və avropalaşdırılmasına başlandı. 1932-ci ildə Dil və Ədəbiyyat Akademiyası, 1934-cü ildə Tehran Universiteti təsis edildi. 1934-cü ildən başlayaraq çadranın qadağan olunmasına yönəlmiş tədbirlər həyata keçirildi və 1920-30-cu illərdə davamlı olaraq məhkəmə və ədliyyə sisteminin yenidən qurulması, 30-cu illərdə fabrik-zavod sənayesi yaradılması sahəsində təbdirlər həyata keçirilirdi.

Göründüyü kimi, modernləşmə ictimai həyatın bütün sferalarını əhatə edir və vesternləşmə ilə müşayiət olunurdu. Siyasi sferada XX əsrin 20-ci illərindən başlayaraq genişlənməkdə olan modernləşmə prosesi, yəni partiya sisteminin meydana gəlməsi və genişlənməsi, parlament sisteminin bərqərar edilməsi istiqamətində hərəkat uğursuzluğa düçar oldu. "Əksəriyyət partiyasının şəxsində monarxiyanın möhkəm ictimai dayağını yaratmağın mümkünlüyünə inamını itirən Rza şah açıq şəkildə hərbi diktatura bərqərar etmək kursu götürdü" [37, s. 44].

Beləliklə, ölkədə ziddiyyətli modernləşmə, mühafizəkar və müxalif qüvvələrin müqaviməti şəraitində vesternləşmə siyasəti həyata keçirilirdi. Belə ki, S.H.Tağızadə, onun təsis etdiyi "Tərəqqi" partiyası, "Təcəddüd" partiyasında birləşmiş modernləşmə və vesternləşmə tərəfdarları, Ə.Dəşti, Z.Rahnəma və S.H.Tağızadənin başçılığı ilə sol liberal millətçilər qrupu ev əşyaları, libas, yemək hazırlamaq üsulları və ictimai davranış qaydalarından tutmuş milli iqtisadiyyatın və dövlət idarəetmə üsullarının yenidən qurulmasına qədər hər şeyi yeni əsasda qurmağa çağırırdılar. Onlar dinin əsaslarına toxunmadan eybəcər dini ayin və mərasimləri, məsələn, Ramazan ayında sağlamlığa ziyan vuran ac qalmaq və həddindən çox yeməyin bir-birini əvəz etməsini, Qurban bayramı zamanı varvarcasına heyvanların kəsilməsini, ailə mərasimlərində və bayramlarda ifrat israfçılığı kəskin tənqid edirdilər. Qəzetlər iranlıların xurafata meylliyini, ulduz fallarına, əlamətlərə inanmalarını pisləyirdilər.

Məhərrəm ayı təziyələri də xüsusilə tənqid edilir, “özünüdöymə”nin millətin nüfuzuna ziyan vurduğu göstərilirdi. 1928-ci ildən başlayaraq iri şəhərlərdə özünüdöymə adəti qadağan edilməyə başladı. Məktəbdə, mətbuatda Avropa həyat tərzi, cəmiyyət və məişətdə yeni davranış qaydaları təbliğ olunurdu. İranlıları bəlağətli nitqdən, ictimai işlərə apatiyadan çəkinməyə, vaxtın qədrini bilməyə çağırırdılar. Lakin Avropa həyat tərzi çox ləng bərqərar olurdu və əsasən, təhsilli şəhər əhalisi arasında yayılırdı [37, s. 81].

Modernləşmə və vesternizasiyaya, əsasən, ruhanilər müqavimət göstərirdilər. 1927-ci ildə hərbi mükəlləfiyyət qanununun tətbiq edilməsi ilə meydana gələn narazılıqdan istifadə edən ruhanilər həmin qanunun və bütünlükdə modernləşmə proqramının ləğv olunmasına cəhd etdilər. Hökumət ali ruhanilərə “İslamın əzəməti və ruhanilərin fəxri mövqeyini qoruyacağını” və Məclisə Əsas qanuna uyğun olaraq qanunvericilik fəaliyyətinə nəzarət etmək üçün beş mollanın daxil ediləcəyini vəd etdi və mollaların karikaturalarını dərc edən “Nahid” jurnalının nəşrini qadağan etdi [37, s. 81]. Bundan ruhanilər daha da cəsarətləndilər. Onlar mətbuat və Məclisdə islahatların tənqidini və “Tərəqqi” partiyasına hücumları gücləndirdilər. Ruhanilər partiyanı Qərb qarşısında təzim etmək və İslama sayğısızlıqda ittiham edirdilər. Ruhanilər əhalini dünyəvi məktəbləri, yeni məhkəmə təsisatlarını boykot etməyə çağırırdılar [37, s. 80]. Həmin vaxt S.H.Tağızadənin avropalaşmaq çağırışından imtina etdiyi, həmin addımı səhv hesab etdiyi barədə şaiyələr yayılırdı. Buna cavab olaraq S.H.Tağızadə 1928-ci ildə nəşr edilmiş “Ümumi təhsilin başlanğıcı və ya mədəniyyətin əsas prinsiplərindən biri” adlı kitabına yazdığı müqəddimədə bütün şübhələrə son qoymaq üçün açıq şəkildə vurğulamağı zəruri sayır ki, onun Avropa mədəniyyətini mənimsəmək fikrində heç bir dəyişiklik baş verməmişdir. O qeyd edirdi ki, vaxtilə dedikləri öz qüvvəsini saxlayır və bu gün də şübhə etmədən onları təkrar etməyə hazırdır. O yazırdı: “İranlılar artırıb-

əskiltmədən, şübhə etmədən, qorxub-çəkinmədən, qeyd-şərtsiz qərb mədəniyyətini – istər maddi, istər mənəvi-əxlaqi dəyərlərini qəbul etməlidirlər..., bu iş bizim həyat fəaliyyətimizə mane olmayan milli ənənələrimizin bir hissəsini qorumağa, həqiqətən, bizim milli mirasımız olan ənənələrin qorunmasına mane olmamalıdır" [120, s. 61].

Dünya iqtisadi böhranının başlanması ilə (1929-1933) Rza şah hökuməti bir tərəfdən maliyyə çatışmazlığı, digər tərəfdən feodal-klerikal dairələrin modernləşməyə müqavimətinin güclənməsi səbəbindən maarif, səhiyyə, inzibati-idarə və s. yeniləşmə proqramını bir qədər azaltdı. Əfqanıstanda islahatçı kral Əmənullanın devrilməsi (1929) və onun islahat proqramının iflasa uğramasından ilham alan ruhanilərin fəaliyyəti canlanmağa başladı. Ruhanilər, ilk növbədə, çadranın qadağan olunması hərəkatı və geyimin avropalaşdırılması, həmçinin maarif və məhkəmə islahatlarına hücumlar edirdilər. 1929-cu ilin yazında bir çox şəhərlərdə islahata etiraz əlaməti olaraq bazarlar bağlandı, bəstə əyləşdilər, küçələrdə qayda-qanun pozuntuları baş verdi. Hökumət çadranın çıxarılması və məişətin yenidən qurulması kompaniyasını dayandırdı. Dünya böhranı və Əfqanıstan hadisələri yenidənqurma tərəfdarlarının məyus olmasına səbəb oldu, onlar iqtisadi-sənaye inkişafının və İranda Avropa həyat tərzinin tətbiq edilməsinin məqsədəuyğunluğuna şübhə ilə yanaşmağa başladılar. Liberal dairələr, ziyalılar mədəni ənənələrin və milli həyat tərzinin saxlanması uğrunda Qərb qarşısında təzim etməyə qarşı çıxırdılar. Həmin dairələrin əsas nümayəndələrindən biri S.Ə.Kəsrəvi idi. Onun 1932-ci ildə çap etdirdiyi "Ayin" kitabı ziyalılar və təhsil alan gənclər arasında geniş populyarlıq əldə etmişdi. Kitabda Qərbin texniki tərəqqisinin nöqsanlı tərəfləri kəskin tənqid olunurdu, müəllif "Qərb mədəniyyəti" barədə illüziyalardan əl çəkməyə çağırırdı. O, həmçinin Rza şahın islahatlarını, eyni zamanda ruhaniləri tənqid edir, sonuncuları İranın geriliyinin əsas səbəbkarı adlandırırdı.

Modernləşmənin daha mötədil tərəfdarları köhnə ənənələri saxlamaqla Qərbin texniki və təşkilatı yeniliklərini tətbiq etməyə çağırırdılar. Həmin baxış şah və onun ətrafı tərəfindən mənimsənildi və qədim, İslama qədərki İran adət-ənənələri, mədəniyyətinin təbliği və dirçəldilməsi sahəsində geniş fəaliyyətə başlandı [37, s. 113-115.]

Beləliklə, modernləşməni (elmi-texniki nailiyyətləri mənimsəmək) qədim ənənələrin bərpası ilə uzlaşdırmağa cəhd edildi. Bu ənənələr İslamdan əvvəlki dövrə aid olduğundan ruhanilər və dini normalarla yaşamağa adət etmiş aşağı təbəqələr üçün vesternizasiya kimi yad bir ünsür idi və müqavimətlə qarşılanırdı. Bununla da İran siyasi elitası ictimai-mədəni sferada modernləşmə sahəsində tam bir xaosun yaranmasına və bütövlükdə modernləşmə ideyalarının da zəifləməsinə şərait yaradırdı.

Belə bir şəraitdə S.H.Tağızadə icra strukturlarında qərar tutduğundan modernləşmə ilə anti-modernləşmə tərəfdarları arasında gedən ideoloji mübarizədən nisbətən kənar idi. Hərçənd həmin mübarizə onun mövqeyinə təsirsiz ötüşməmişdi. Bu, 1928-ci ilə aid yuxarıda qeyd olunan açıqlamasında yeni ünsür və eyni zamanda ilkin proqram-ideyadan cüzi geriləmə – milli adət-ənənələrin qorunması ideyasının irəli sürülməsində özünü göstərir. Bunu S.H.Tağızadənin vesternizasiya ideyasından yenidən modernləşmə ideyasına dönüşünün başlanğıcı hesab etmək olar. Bu yenilik İranda modernləşmə, xüsusən vesternizasiyaya qarşı ruhanilərin başçılığı ilə güclü müqavimətinin təsiri altında yaranmışdı. Onlar modernləşmə və vesternizasiyanı Qərb qarşısında baş əymək kimi dəyərləndirirdilər [37, s. 80].

Əslində, yeniləşməyə ziyalıların münasibəti də müxtəlif idi. Mənşəcə ruhani olan liberal ziyalıların bir qismi baş verən dəyişiklikləri İslam ehkamları ilə barışdırmaq istəyir, digər qismi müsəlman təsisatların yeni şəraitə uyğunlaşmasını tələb edirdilər [37, s. 79].

1928-ci ildən sonra Rza şahın diktatorluq meyli özünü göstərdi və tədricən siyasi həyatda mövcud olan demokratik ünsürlər öz mahiyyətini itirməyə başladı. Belə ki, parlament əslində Rza şahın tərəfdarlarından təşkil olunduğundan onun iradəsinə qanuni forma verməklə məşğul olurdu. Partiya fəaliyyəti siyasi sistemdən kənar edilmişdi, mətbuat öz müstəqilliyini tamamilə əldən vermişdi. Başqa sözlə, siyasi həyatda, siyasi və demokratik azadlıqlar sahəsində Qərb mədəniyyəti ünsürləri tam mənası ilə zahiri xarakter kəsb etmişdi və cəmiyyətin modernləşməsinə xidmət etmirdi. İqtisadi sahədə də İran modernləşmə – sənayeləşmə mərhələsindən çox uzaq idi. Bunun müqabilində, əsasən, yuxarı dairələrdə, hərbi, mülki məmurlar, dünyəvi ziyalılar arasında vesternizasiya elementləri getdikcə daha çox sabitləşirdi. Nəticədə, İranda zahiri modernləşmə və məhdud dairənin güclü vesternizasiyası baş verdi.

Modernləşmənin formal xarakteri və demokratik təsisatların mexaniki fəaliyyəti liberal ziyalıların və liberal əhval-ruhiyyəli insanların siyasi həyatda öz mövqelərini yenidən nəzərdən keçirmələrinə səbəb oldu. Onların bir qismi öz əqidəsindən imtina edərək rəsmi ideologiyanı “qeyri-liberal nasionalizmi” qəbul etdi. Digər qismi elmi-maarifçilik fəaliyyəti və ya məmur funksiyasını yerinə yetirməklə məşğul olmağa başladı [37, s. 146]. S.H.Tağızadə belə bir şəraitdə icra hakimiyyətində fəaliyyət göstərməyə başladı və onun bu fəaliyyəti 1934-cü ilə qədər davam etdi. Bu dövrdə S.H.Tağızadənin ümumi təhsilin zəruriliyi haqqında məqaləsi nəzərə alınmazsa, onun modernləşmə sahəsində ideoloji fəaliyyətdən əl çəkdiyini söyləmək olar. Bu halda onu yuxarıda qeyd edilən ikinci qisim ziyalılara aid etmək olar. Hərçənd o, öz mövqeyinə yenidən baxanlar sırasına aid edilə bilməz. Çünki adı çəkilən yazısında S.H.Tağızadə nəinki modernləşmə, eləcə də avropalaşma mövqeyində heç bir dəyişikliyin baş vermədiyini göstərir. Sadəcə olaraq

modernləşmə uğrunda fəal siyasi və ideoloji mübarizə apardığını söyləmək olmaz.

İcra hakimiyyətində fəaliyyətinin sonuncu mərhələsində, yəni 1933-cü ildə Parisə səfir göndərildikdən sonra S.H.Tağızadə maarif nazirinin təsis etmiş olduğu "Təlim və tərbiyə" jurnalında 1935-ci ildə çap etdirdiyi "Milli ədəbi hərəkat" [132; 150, s. 257-258, qeyd 1.] adlı yazısında fars dilinin alınma sözlərdən təmizlənməsi sahəsində həyata keçirilən tədbirlərin ifrat forma kəsb etdiyini, qeyri-elmi xarakter daşıdığını, şahın həmin işə qarışmasını kəskin tənqid etdi [150, s. 257]. Qeyd olunmalıdır ki, jurnalın həmin nömrəsini yığışdıraraq, baş məqalə kimi çap olunmuş yazını oradan götürüb, yerinə başqa məqalə çap etmişdilər [150, s. 257-258, qeyd 1.].

Müxtəlif səbəblərdən 1934-cü ildə səfir vəzifəsindən kənarlaşdırılan S.H.Tağızadə İrana qayıtmaqdan imtina etdi. Onun İrana qayıtmamasının əsas səbəbi Rza şahın 1929-cu ildən başlayaraq özünün ən yaxın silahdaşlarını, onun hakimiyyətə gəlməsi və hakimiyyətinin möhkəmləndirilməsində mühüm rol oynamış siyasi xadimləri fiziki cəhətdən siyasi səhnədən yox etməyə başlaması idi. Belə ki, 1929-cu ildə maliyyə naziri Firuz Mirzə, ədliyyə naziri Tədəyyun, 1933-cü ildə saray naziri Əbdülhüseyn Teymurtaş, 1934-cü ildə hərb naziri Cəfərqulu Sərdar Əsəd, 1936-cı ildə həmişə nazir olmuş Ələkbər Davər sıradan çıxarılmışdı [37, s. 147].

S.H.Tağızadə mülki şəxs kimi 1935-ci ilə qədər Almaniyada qalmış, 1936-1941-ci illərdə London universitetində Şərq dilləri məktəbində yuxarı kurslarda fars dili və ədəbiyyatını tədris etmiş, 1941-ci ildə Rza şah hakimiyyətdən kənarlaşdırıldıqdan sonra yenidən dövlət qulluğuna qayıtmışdır. İranın İngiltərədəki səfiri vəzifəsində çalışdığı illərdə (1941-1947) ölkənin siyasi, dövlət xadimləri, hökumət başçılarına və üzvlərinə ünvanladığı məktublarda yenidən siyasi modernləşmə prosesinin zəruriliyini vurğulayır və

həmin sahədə öz baxışlarını geniş şərh edirdi. S.H.Tağızadə ifrat millətçiliyi tənqid edir və göstərir ki, belə millətçilik İran əhalisinin milli birliyi və vəhdətinə zərər yetirir. O, Türkiyə türklərinin paniranizmə (panfarsizm) münasibəti haqqında yazırdı: "Hər bir türk inanır ki, İran əhalisinin üçdə ikisi türklərdir və bir ovuc çürük iranlının (farsın - Ş.Ə.) hakimiyyəti altında əsirdir" [148, s. 103].

S.H.Tağızadə başqa bir məktubunda İranda yeridilən ifrat millətçilik - şovinizm siyasətinin nəticələri haqqında yazırdı: "Əgər İran ölkəsi bir gün Allahın qəzəbinə tuş gəlib, milli dəliliyə düçar olaraq, öz sakitliyi naminə belə siyasət həyata keçirsə, Xuzistan, İran körfəzi sahillərinin bir hissəsini, Azərbaycan, Xəmsə, Kürdüstan və Qəzvini tərk etməli, Həmədanın, Mazandaranın, İsfahanın Fereydun, qaşqay və baharlı … xələc və b., paytaxt yaxınlığında, hətta Tehranın Nəcmabad, Xorasanın türkdilli və kürd elatını, Astrabad və Xorasan türkmənlərini, Kerman əfşarlarını İrandan çıxarmalıdır. Hətta İran seyidlərini, Şeybani tayfasını, Qəffari, Əbaziri, Əmini, Səqəfi və yüzlərlə digər ərəb əsilli ailəni vətəndən didərgin salıb, Hicaz və Yəmənə göndərməlidir" [148, s. 60-61].

S.H.Tağızadə İranın qeyri-fars əhalisini dolayısı ilə müdafiə edərək, yazırdı: "Mən şəxsən iranlı olduğum üçün fəxr edir və bundan şərəf duyuram, əslim ərəblə (peyğəmbərə) bağlı olduğuna görə fəxr edirəm və əgər məni ərəb çağırsalar, narahat olmaram. Dilimin türk dili olduğuna və türkdilli vilayətdən olduğum üçün də sevinc və qürur duyuram, əgər mənə türk desələr, özümə təhqir saymaram. Lakin mənim üçün İrandan əziz heç nə yoxdur və mən özümü tam və yüz faiz iranlı hesab edirəm. Yəni Kavə, Firidun və ya Kir, Daranın iranlı olması dərəcəsində iranlıyam və razı deyiləm ki, öz iranlılığımı başqa bir şeyə, hətta ən şərəfli olsa da, mində bir qiymətinə belə dəyişəm və mənim dilimin əzbəri budur: "İran olmasa, olmayım mən də"[148, s. 115]. S.H.Tağızadə öz timsalında

iranlılığın etnik mənsubiyyətə bağlı olmadığını, İran türkləri və ərəblərinin də iranlı olduğunu qeyd edir.

S.H.Tağızadəni yaxından tanıyan, onunla bir müddət əməkdaşlıq etmiş M.Ə.Camalzadə 1967-ci ildə "Yəğma" jurnalında dərc etdirdiyi "Seyid Həsən Tağızadə" adlı bioqrafik yazısında həmin məktubları ümumi şəkildə dəyərləndirərək, qeyd edirdi ki, məktublar onun Qərb mədəniyyətinə münasibətində, bütövlükdə təfəkküründə dərin dəyişikliklər baş verməsinə səbəb olmuşdur. Müəllif göstərir ki, S.H.Tağızadə artıq avropalaşmanı – vesternizasiyanı tənqid edir [171]. Müəllif, həmçinin S.H.Tağızadənin müsəlman ölkələrinin müstəmləkəçi ölkələr qarşısında birliyini dəstəklədiyini, əlifbanın dəyişdirilməsi fikrini tənqid etdiyini nəzərə çatdırır [171]. S.H.Tağızadənin hələ 1928-ci ildə vesternizasiyadan və avropalaşmaq ideyasından geri çəkilməyə başladığını nəzərə alsaq, onda müəllifin mövqeyi ilə razılaşmaq olar.

S.H.Tağızadənin siyasi sistemin modernləməsinə dair baxışları 1941-ci ildə İngiltərədə İran səfiri təyin edildikdən sonra dövlət rəsmilərinə yazdığı məktublarda da öz əksini tapmışdır. O, İranın baş naziri Əhməd Qəvama (Qəvam-ol-Səltənəyə) yazdığı 29 noyabr 1942-ci il tarixli məktubunda göstərirdi ki, hazırda İranın məşrutə hakimiyyətinə, lakin güclü, öz qüvvələrini mərkəzləşdirmiş məşrutə hakimiyyətinə ehtiyacı vardır [148, s. 66].

S.H.Tağızadə 1943-cü ildə xarici işlər nazirinə yazdığı məktubunda vurğulayırdı ki, İrana sabitlik gərəkdir. Sabitlik isə üç əsasa söykənir: 1. Möhkəm, güclü, sabit mərkəzi hakimiyyət; 2. Münəzzəm hüquq-mühafizə qüvvələrinin mövcudluğu; 3. Milli (demokratik – Ş.Ə.) hökumətin, mötədil azadlığın mövcudluğu və onun qorunması [148, s. 76]. O, daha sonra izah edir ki, əgər münəzzəm və işlək demokratiya yaradılsa, güclü hüquq mühafizə qüvvələri də yaranar. Belə ki, hərc-mərcliyi çox güclü mərkəzi hakimiyyətin vasitəsi ilə aradan qaldırmaq olar, azadlığı da əldən almaq olar,

amma bunun yaxşı nəticəsi ola bilməz və uzun perspektivdə stabilliyi təmin edə bilməz [148, s. 77]. S.H.Tağızadə həmin məktubunda vurğulayırdı ki, ordu siyasətə qarışmamalı, öz peşəkar funksiyasını yerinə yetirməlidir.

S.H.Tağızadə İrana qayıtdıqdan sonra modernləşmənin inkişafı yolunda ideoloji sahədə fəaliyyətini davam etdirmişdir. O, modernləşmənin zəruriliyini əsaslandırmaq üçün İranın geriliyinin səbəblərini müəyyən etməyə çalışırdı. 1949-cu ildə çap etdirdiyi məqalədə yenidən İranın qədimdə tərəqqi, yeni dövrə keçid mərhələsindən sonra (Səfəvilərin hakimiyyətindən sonra) tənəzzül etməsinin səbəblərini göstərməyə çalışırdı [162].

Qeyd etdiyimiz kimi, 1947-ci ildən etibarən yenidən qanunvericilik (deputat, senator) fəaliyyəti ilə məşğul olmağa başlayan S.H.Tağızadə 1952-1958-ci illərdə Tehran Universitetinin İlahiyyat fakültəsində tarix fənnindən dərs demiş, 1952-ci ildən Ali Mədəniyyət Şurasının üzvü olmuşdur. Həmin fəaliyyət sahələri ona İran reallığının müxtəlif sahələri ilə daha yaxından tanış olmağa və modernləşmə ideologiyasının təkmilləşdirilməsinə yardım etmişdir.

S.H.Tağızadə modernləşmiş cəmiyyət haqqında təsəvvürlərini və İranda modernləşmənin səviyyəsinə münasibətini, modernləşmənin tarixinə dair çıxışları və yazılarında da əks etdirmişdir. S.H.Tağızadənin 1955-ci ildə İranda Məşrutə inqilabının 50 illiyi münasibəti ilə "İran məşrutiyyətinin əsas amilləri" adlı çıxışı [134] xüsusi maraq doğurur. İranın mövcud siyasi sistemindən danışarkən "zahirən konstitusiyalı rejim olan" İran hakimiyyətinin iki sosial təbəqənin – mülkədar, sərmayədar, onların nümayəndələri olan vəkillərin, jurnalistlərin və qeyri-təbii yaranmış bürokratiyanın əlində olduğunu, həmin bürokratiyanın özəl və dövlət idarə və şirkətlərinin işçilərini onların xeyrinə səs verməyə məcbur etdiyini qeyd edir. Səs verənlər "hətta kağızda nə yazıldığını bilmədən" səs verirlər [147, s. 251]. O göstərir ki, siyasi hakimiyyətə hərbi və xarici qüvvələrin elə

bir təsiri yoxdur, əsas amillər yuxarıda qeyd edilən təbəqələrdir. Hərbi və xarici qüvvələr ictimai rəyə arxalanmır, yalnız bir mərkəzdən asılıdırlar.

S.H.Tağızadə həqiqi konstitusiyalı rejimin bərqərar olmasının şərtlərini müəyyən etməyə çalışaraq, qeyd edir: "Məşrutiyyət əsasında milli hakimiyyətin təşkilinin ilkin şərti Qərb ölkələrindəki siyasi partiyalar nümunəsində siyasi partiyaların yaradılmasıdır". O, daha sonra məşrutə əsasında milli, yəni demokratik dövlətin yaradılması üçün digər vacib şərti qeyd edir. Həmin şərt dövlət idarələrində işləyən və dövlətdən maaş alan insanların siyasətlə məşğul olmaması, ziyalıların və təhsilli adamların peşə borcunun dövlətə xidmət etməkdən ibarət olmasıdır. S.H.Tağızadə belə hesab edir ki, hakimiyyətdə iştirak edən təbəqələrin miqyası genişlənməli, aşağı təbəqələrin dövlətin işlərində iştirakı təmin edilməli, ziyalılar ümumi işlərə maraq göstərməli, bütün imkansız təbəqələrin maraqları nəzərə alınmalı, təbəqələr arasında təhlükəli həddə çatmış nisbət azaldılmalıdır. Bu yolla məşrutə idarə forması təkamül edərək, arzu olunan mərhələyə qədəm qoya bilər. "Bu yolu keçmədən, gücə və zora arxalanmağın yalnız, şübhəsiz, təhlükəli nəticəsi ola bilər" [147, s. 251].

Beləliklə, S.H.Tağızadə XX əsrin 50-ci illərinin ortalarında ölkədə artan narazılıqlar şəraitində hakimiyyətin iri sərmayədarlar, tacirlərin əlində olduğunu və məşrutiyyət idarə formasının formal xarakter daşıdığını qeyd edir. Seçkilərin formal xarakter daşıması özəl və dövlət idarələrində, şirkətlərdə çalışan idarəetmə personalı və işçilərinin seçki hüququndan formal şəkildə istifadə etməsi, səs verməyə məcbur edilməsi ilə şərtlənir.

S.H.Tağızadə siyasi sistemin təkmilləşməyə ehtiyacı olduğunu nəzərə alaraq, onun yolunu müəyyən etməyə çalışır. Bu, əslində Qərb demokratiyasının bərqərar edilməsi yoludur. Demokratiyanın, parlament sisteminin bərqərar olmasının birinci şərti partiya sisteminin yaradılmasıdır. Məşrutə sisteminin demokratikləşməsinin

ikinci şərti dövlət idarə və müəssisələrini, orada çalışanları hakim rejimin iradəsinin icraçıları funksiyasını yerinə yetirməkdən azad etməkdir. Dövlət idarə və müəssisələrində çalışan ziyalı və təhsilli adamların siyasətdən uzaqlaşdırılmasına və öz funksional vəzifələrini yerinə yetirmələrinə nail olunmalıdır. Nəhayət, demokratik rejimin bərqərar olması əhalinin əksəriyyətini təşkil edən aşağı təbəqələrin dövlətin və cəmiyyətin işlərində yaxından iştirakı və onların maraqlarının təmin olunmasını tələb edir.

Beləliklə, S.H.Tağızadə parlament rejiminin bərqərar edilməsinin zəruriliyi və onun Qərbdə təcrübədən keçmiş və keçməkdə olan sosial stabilliyi təmin edən üsullarını göstərir.

S.H.Tağızadə İranın modernləşməsi tarixini, ona təsir edən və maneə olan amilləri də yaxşı bildiyindən həm İranda, həm də xaricdə (ABŞ-da) həmin məsələlər haqqında öz baxışlarını geniş şərh edir. Nyu-Yorkun Kolumbiya Universitetində "Qərb ideyalarının İrana sirayət etməsi" mövzusunda oxuduğu mühazirənin [147, s. 207-219] qeydlərindən məlum olur ki, beynəlxalq münasibətlər məktəbi və Yaxın və Orta Şərq məktəbində əsasən "Şərq ölkələrinin qərbləşməsindən danışıldığı, öyrənildiyi" üçün S.H.Tağızadə əvvəlki planından imtina edərək, Qərb ideyalarının İrana nüfuz etməsi, Qərb-Şərq təması və İranın xarici siyasəti barədə danışmağı qərara alır [147, s. 208-209]. S.H.Tağızadə öz çıxışında "1905-1911-ci illər inqilabından əvvəlki dövrün" siyasi, ictimai, mədəni xarakteristikası, İranın beynəlxalq vəziyyətinin təsvirini verir, modernləşdirmə sahəsində edilən təşəbbüsləri sadalayır və onların natamam qalmasının səbəblərini və ictimai həyata cüzi təsir göstərdiyini vurğulayır. O, İranın həmin baxımdan tarixini üç mərhələyə: 1905-1911-ci illər inqilabına qədərki modernləşdirmə cəhdləri mərhələsinə, 1905-1911-ci illər – 1925-ci illər – mütəşəkkil formada modernləşdirməyə başlanması mərhələsinə və 1925-ci ildən sonrakı – İranın yeni mədəniyyət yoluna daxil olması mərhələlərinə ayırır.

S.H.Tağızadə İranın xarici siyasəti və beynəlxalq mövqeyindən danışarkən Rusiya və İngiltərənin onun modernləşməsi və tərəqqisinə mane olmasından, xüsusən Rusiyanın neqativ rolundan nisbətən geniş danışır [147, s. 209-219]. S.H.Tağızadə Qərb ideyalarının yayılma zamanı, üsul və vasitələrindən ötəri söz açır, əsasən siyasi, ictimai, mədəni məsələləri və s. işıqlandırmağa çalışır və qısa bir mühazirədə bir əsr və ya əsr yarımlıq İran tarixi haqqında qoyulan mövzu baxımından dolğun təsəvvür yaradır. Müqayisə üçün deyə bilərik ki, S.H.Tağızadənin İran tarixi haqqında icmal, konspekt və tezis formasında söylədikləri fikirlər elmi tarixşünaslıqdan çox az fərqlənir. Bu da onun, özünün də qeyd etdiyi kimi, yüksək dəyərləndirdiyi təəssübsüz, bitərəflik və həqiqətə üstünlük vermək prinsiplərinə [147, s. 208] əməl etməsindən irəli gəlir.

S.H.Tağızadənin Nyu-Yorkun Kolumbiya Universitetində oxuduğu "İslam və xristianlıq" mövzusunda mühazirəsindəki qeydlərindən [147, s. 204-206] aydın olur ki, onun fikrincə, bütövlükdə xristianlıq və İslam dini arasında dini prinsiplər baxımından fərq çox azdır. Amma mədəni cəhətdən xristianlıq yunan, roma, bir qədər ellinizmə qaynayıb qarışdığı halda, İslam daha çox Şərq mədəniyyəti, o cümlədən hind, İran və s. mədəniyyətlər ilə qaynayıb qarışmışdır. İslam alimləri yunan kitablarını tərcümə etdikdən sonra yunan fəlsəfi fikirlərini yaysalar da, həmin fəlsəfənin İslam ideyalarına təsiri dərin olmamışdır [147, s. 204]. S.H.Tağızadə qeydlərində bir daha vurğulayır ki, biz şərqlilər Qərb mədəniyyəti ilə rəqabət aparmaq istəmirik, əksinə, xüsusən elm, bilik, mənəvi və maddi mədəniyyət, sənaye, texnika, incəsənət sahələrində ona borcluyuq və ona təslim olmalıyıq [147, s. 205]. Qeydlərdə S.H.Tağızadə Qərb elm, texnika və mədəniyyətini Qərbin müstəmləkəçiliyindən fərqləndirir və həmin cəhətin Şərq xalqlarının etirazına səbəb olduğunu vurğulayır [147, s. 205]. S.H.Tağızadə bir daha xatırladır ki, o, öz ölkəsində Qərb mədəniyyətinin vəkili olmuşdur [147, s. 206].

1951-1953-cü illər İranda neftin milliləşdirilməsi ilə bağlı gərgin siyasi hadisələrdən sonra İranın ABŞ-la yaxınlaşmağa başlaması vesternləşmə prosesini sürətləndirir. İran cəmiyyətinin imkanlı təbəqələri arasında geniş yayılan vesternizasiya meylləri ənənəvi həyat tərzi sürən böyük kütlələrin və əksəriyyətin maraqlarını təmsil edən ziyalıların arasında anti-vesternizasiya hərəkatı və ideologiyasının yaranmasına zəmin yaradır. Həmin ideologiyanın tənqid edilən hədəflərindən biri S.H.Tağızadə oldu. Lakin İran ziyalılarının bir qrupu Qərbi və yeniləşməni tənqid etmək və pisləməkdən başqa bir şey təklif etmirdilər.

Uzun müddət susduqdan sonra S.H.Tağızadə ona qarşı yönəlmiş ittihamlara cavab vermək məqsədi ilə 1960-cı ilin noyabr, dekabr aylarında Tehranın "Mehrqan" klubunda siyasət və mədəniyyət xadimləri, müəllim və tələbələri qarşısında "Xarici mədəniyyətin qəbul edilməsi" ümumi adı altında iki məşhur "xitabəsini" (çıxışını) etmişdir. Hər iki çıxış "Yəqma" jurnalının (1960) 9-cu və 10-cu nömrələrində çap olunmuşdur.

S.H.Tağızadə birinci çıxışında [135] özünün Qərb mədəniyyətini mənimsəməyin zəruriliyini elan etmək məsələsində pioner olduğunu vurğulayaraq, həmin ideyanın bugünkü baxımdan bir qədər ifrat və səhv olduğunu etiraf edir, çünki o, Qərb mədəniyyətini mənimsəmək şüarı əvəzinə avropalaşmaq çağırışı etmişdir. Natiq onun avropalaşmaq ideyasına müxtəlif baxışların və şərhlərin olduğunu qeyd edərək, öz baxışlarını özünün şərh etməsi və dəqiqləşdirməsini daha məqsədəuyğun hesab edir. Özünün, o vaxtkı radikal çağırışının səbəbini İranın geriliyi ilə əlaqələndirərək, qeyd edir ki, onunla həmfikir olan gənclər Qərb mədəniyyətini bütünlüklə qəbul edərək, bir sıçrayışda fasiləni aradan qaldırmağa ümid edirdilər [135, s. 419]. S.H.Tağızadə hərtərəfli qərbləşmək ideyasının Türkiyədən qaynaqlandığını göstərir və qonşu ölkədə həyata keçirilmiş islahatları avropalaşmaq ideyasının reallaşdırılması hesab edir [135, s. 419]. Onun

fikrincə, təcrübə göstərir ki, milli mədəniyyətdə bəzi dəyişikliklər yersiz yeniliyə, hətta dildə də bəzi təbəddülata səbəb olur. O, məşhur yazısında radikal və inqilabi çağırışla çıxış edəndə fars dilini istisna etdiyini diqqətə çatdırır [135, s. 419]. S.H.Tağızadə Qərb mədəniyyətinin mənimsənilməsinin zəruriliyini vurğulayaraq, bu işdə bir qədər ehtiyatlı davranmağa, lazım olanı qəbul etməyə çağırır [135, s. 419].

Qısa girişdən sonra natiq mədəniyyət anlayışının tarixi-elmi şərhini verir. O, mədəniyyətin dörd inkişaf mərhələsindən keçdiyini qeyd edir: "Yazının meydana gəlməsi, yunan, İslam və yeni dövr Avropa mədəniyyəti". S.H.Tağızadə Yunan mədəniyyətinin elmə əsaslandığını vurğulayır [135, s. 422]. Natiq IX-XIV əsrlərdə – İslam mədəniyyəti mərhələsində elmlərin və rasional elmlərin inkişafının ən yüksək mərhələyə çatdığını göstərir. Əsasını elm və texnika təşkil edən Avropa mədəniyyətinin əsas xüsusiyyəti mədəni inkişafın ictimai, siyasi azadlıq, dini islahatın genişlənməsi ilə müşayiət olunması idi [135, s. 423-424]. Müəllif belə hesab edir ki, monqol istilasından sonra Şərq və İslam aləmində tənəzzül başlanır, hətta dini elmlər, fars dili və yazısı da tənəzzül edir, xurafat geniş yayılır. [135, s. 425]. Həmin dövrdən başlayaraq fasilə meydana gəlir və böyüyür. Həmin fasilənin artmasında hakim dini şüurun mühüm təsiri vardır. Çünki yeni mədəniyyət xristian aləmində meydana gəldiyi üçün onu mənimsəmək caiz hesab edilmirdi [135, s. 425]. Natiq əvvəlcə Osmanlı imperiyasının, sonra Misirin Avropa mədəniyyətini mənimsədiyini qeyd edir və yazır: "Şiə İranı sünni və qubti (kopt - Ə.H.) ölkələrini təqlid etməyə maraq göstərmədi, hərçənd Türkiyə təcrübəsi ilə yaxından tanış olan İran siyasi xadimləri həmin ölkənin nümunəsində islahat aparmağa təşəbbüs etdilər" [135, s. 425-426].

İranın modernləşmə tarixinə qısa nəzər salan, atılmış addımları təhlil edən S.H.Tağızadə belə hesab edir ki, İranın oyanışı və yeniləşmə mərhələsinə daxil olması 1905-1911-ci illər inqilabı –-

Məşrutə inqilabı ilə bağlıdır. O dövrdən keçən 50-55 ildə həyata keçirilmiş modernləşmə tədbirlərinə qiymət verərkən həmin sahədə çox az iş görüldüyünü obrazlı şəkildə ifadə edərək, qeyd edir ki, 1000 addımdan cəmi 5 addım atılmışdır. O, daha sonra vurğulayır ki, sivilizasiyalı cəmiyyətə çevrilmək üçün İranın qarşısında hələ çox mərhələlər durur. Modernləşmə hərəkatının gücləndiyini göstərən natiq vurğulayır ki, hərəkatın güclənməsi üçün ictimai və siyasi azadlıq məhdudlaşdırılmamalı, mövcud olandan daha məhdud olmamalıdır.

S.H.Tağızadə, hətta modernləşmə ilə bağlı proqnozlarını da verir. O qeyd edir ki, hicri-qəməri təqvimi ilə XV əsrin sonuna kimi (miladi 2076-cı ilədək) İranda həqiqi mədəniyyət işığı çoxalacaq, istibdad və cəhalət təəssübü məhv olmağa üz qoyacaqdır. Yeni mədəniyyət Tehran ali məktəblərinin tələbələri və Avropa dilləri ilə tanış olan gənclərlə məhdudlaşmayacaq. İranın ən ucqar məntəqələrinə – Bəlucistan, Luristan, Türkmənsəhra və s. yayılacaqdır [135, s. 426]. O, proqnozun bədbin xarakter daşıdığını qeyd edərək, göstərir ki, ümumi savadlılığın genişlənməsi ilə həmin mərhələyə daha tez çatmaq olar. S.H.Tağızadə daha sonra qeyd edir ki, mədəni cəmiyyət səviyyəsinə yüksəlmək zahiri mədəniyyət, yəni vesternizasiya yolu ilə əldə edilmir. Mədəni cəmiyyətə çevrilmək üçün mədəniyyətin ruhu və mahiyyətini dərk etmək, yetkinlik, ictimai inkişaf, dözümlülük, xüsusən ifrat təəssübkeşlikdən xilas olmaq, ideya mətinliyi, güclü, amma mötədil, qərblilərin vətənpərvərliyinə oxşar vətənpərvərlik hislərinin formalaşması, öz əqidəsi uğrunda fədakarlıq tələb olunur. O, bir daha təəssüflə qeyd edir ki, İran cəmiyyəti həmin mərhələyə yaxınlaşmamışdır [135, s. 426].

S.H.Tağızadə mədəni cəmiyyət mərhələsinə yüksəlməyin əsas şərtlərini göstərməyə çalışır. Mədəni cəmiyyətin birinci şərti azadlığın genişlənməsi, bütün təbəqələr üçün azadlığın təmin olunması, həmin təbəqələrin ümumi məsələlər haqqında öz

mövqeyini bildirmək və həmin məsələlərin həllində iştirak etmək hüququna malik olması, əkin torpaqları üzərində orta əsrlər ərbab-rəiyyət münasibətlərinin, əkinçi olmayanların mülkiyyət hüququnun ləğv edilməsi, Qərb tipində milli hakimiyyət, yəni xalqın öz siyasi hüquqlarını həyata keçirməkdə tam azad olması, təəssüb, xurafatdan, mövhumatdan təmizlənmiş həqiqi dinin inkişaf etdirilməsi və təmin olunması, ədalət, etedal və insafa əməl etməklə həqiqi vətənpərvərlik və həmin vətənpərvərliyin formalaşması üçün şəraitin yaradılması, yəni insanların ümumi rifah, ədalət və azadlıq şəraitində öz hislərini ifadə edə bilməsi, yalançı vətənpərvərlikdən və son dövrlərdə bəzi şərq millətləri arasında güclənməkdə olan ifrat millətçilikdən qaçılmasından ibarətdir [135, s. 426].

S.H.Tağızadə ifrat millətçilik məsələsi üzərində bir qədər ətraflı dayanaraq, onun əsaslarını (milli eqoizm, üstünlüyə meyl, ifrat milli qürur), verdiyi (alman nasional-sosializm) və verə biləcəyi (beynəlxalq və milli təhlükə, milli düşmənçilik) ağır nəticələrini, fəsadlarını (tarixin saxtalaşdırılması, tarixi-mədəni etno-sentrizm) göstərir və bunları qətiyyətlə pisləyir [135, s. 427]. S.H.Tağızadənin fikrincə, ifrat millətçilik mənfəətpərəst, cahil, lakin özünü dindar kimi qələmə verən rəhbərlərinin arxasınca gedən avam, təəssübkeş və zülmətə qərq olan geniş kütlə və eqoist, mənfəətpərəst, əqidəsiz və mənəviyyatsız ziyalı təbəqəsi – “avropalaşmışlar” mədəni, modernləşmiş cəmiyyətin bərqərar olmasında əsas maneə təşkil edirlər [135, s. 427].

S.H.Tağızadənin “avropalaşmışlar” haqqında dediklərini bir qədər ətraflı şərh etmək zəruridir. O göstərir ki, “avropalaşmışlar”ın əsas məqsədi pul əldə etməkdir, onların mənəviyyata bağlılığı yox-dur, vətənpərvərlik hissindən xalidirlər, çoxu öz vətəni və millətinə nifrət edir. Avropaya, onun adət-ənənələrinə, qaydalarına açıqdırlar, milli kompleksə tutulmuşlar, ailələrini İrandan uzaq tutur, uşaqlarına kiçik yaşlarından Avropa dillərini öyrətməyə çalışır, fars dilinə ögey

münasibət bəsləyir, “ərəb və türkə düşmənçilikdən dəm vurur və özlərini Avropa arilərinin qohumları hesab edirlər” [135, s. 292-294].

S.H.Tağızadə 1959-cu il iyunun 19-da Senatda ingilis dilinin ölkədə sürətlə yayılması və fars dili üçün təhlükə törətməsi, ibtidai siniflərdə tədris olunması, hətta ingilisdilli uşaq bağçalarının təsis edilməsinə qarşı çıxış edərək, vəziyyəti düzəltməyin zəruriliyini vurğulayır. S.H.Tağızadənin çıxışını əsas göstərərək, “İradeyi Azərbaycan” qəzeti özünün “Risaləti tarixi senator Təqizade” (“Senator Tağızadənin tarixi missiyası”) adlı yazısında (04.12.1959) İranda vesternizasiyanın səviyyəsi və təzahür formaları haqqında daha geniş məlumat verir. Qəzetdə göstərilir ki, S.H.Tağızadənin qaldırdığı məsələ əksər mətbuat orqanlarında geniş əks-səda tapdı [182, s. 105]. Qəzet qeyd edir ki, ifrat vesternizasiyada xalq günahkardır və dəqiqləşdirir ki, xalq deyəndə daha çox “imkanlı və nüfuzlu təbəqələri” nəzərdə tutur. Vesternizasiyanın təzahür formaları aşağıdakılardır:

1. Varlı təbəqələrin 7-8 yaşlı övladları London və Nyu-Yorkda təhsil alır; 2. Varlı təbəqələrin övladları xüsusi ingilis kursları keçirlər, müxtəlif şəhərlərdən kiçik yaşlı uşaqlarını İsfahanda açılmış ingilis məktəbinə göndərirlər; 3. Fars dilində bu dilin qrammatikasına dair əsər yazılmamışdır; 4. Son otuz ildə dünya səviyyəsində bədii əsər yazılmamışdır; 5. İranda xarici müəssisələr İran müəssisələri ilə yazışmaları xarici dildə aparırlar; 6. İranlı öz övladını İran mühitində, iranlı qardaşları arasında tərbiyə etməkdən xəcalət çəkir; 7. Uşaq yeriməyə başlamamış ona “roknrolle” rəqsi öyrədirlər; 8. Uşaq dil açmamış ona “bay-bay” sözünü öyrədirlər; 9. Uşaq sağ və solunu fərqləndirməyi öyrənməmiş ona latın hərflərini öyrədirlər; 10. Uşaq əmi və xalasını tanımamış “Bricit Bordo” və “İndqrid Bermən”ə aşiq olur [182, s. 106-107].

Diqqətəlayiqdir ki, bu çıxış dərhal SAVAK-ın da nəzərini cəlb edir. SAVAK-ın hesabatında qeyd edilir ki, S.H.Tağızadənin

çıxışından sonra gözlənilmədən mövzu “İttilaat”, “Keyhan” və əksər qəzetlərin müzakirə mövzusuna, günün aktual məsələsinə çevrildi. Bu barədə fikir bildirən bütün şəxslər və qəzetlər razılaşırlar ki, fars dilinin tədrisinə daha çox diqqət yetirilməlidir. Amma məhdud qrup fars dilinin vəziyyətinin ingilis dilinin tədrisi ilə bağlı olmadığını iddia edir. Fars dili və ingilis dilinin paralel öyrənilməsini zəruri sayır [182, s. 109].

“İradeyi Azərbaycan” qəzetində məqalədən bir neçə sitat gətirdikdən, bu barədə ayrıca hesab hazırlayacağını qeyd etdikdən sonra məsələyə SAVAK-ın münasibəti də elan edilir: 1. Uzun illər mövcud olan və kəskinləşən mədəni məsələnin birdən-birə aktuallıq kəsb etməsi təəccüb doğurur. Qəzetlər və yazıçılar yalnız indi əl-ayağa düşüblər. Həm də bu məsələ hökumətin gərgin siyasi mübarizə ilə məşğul olduğu bir vaxt meydana çıxmışdır; 2. Nəzərə alınmalıdır ki, Tağızadənin tarixi missiya yerinə yetirdiyindən danışan “İradeyi Azərbaycan” qəzeti İran-ABŞ müqaviləsinin əleyhinədir və sovetlərin mədəni xidmətlərini (fars dilinin qrammatikası, Bertelsin fars ədəbiyyatı haqqında kitabları və s.) xatırlatmağı lazım bilir; 3. İranın siyasi kursunun müsbət nasionalizm olduğu və dövlətin və millətin məqsədinin milli vəhdət, milliyyət və qovmiyyət prinsiplərini ayaqda saxlamaq olduğu halda, məlum deyil ki, niyə xaricilərin davranışını təbliğ edənlər xaricilərin adət-ənənələrini kor-koranə təqlid etməkdə o qədər sərbəst qalmışlar ki, indi qəzetlərin bu məsələnin tənqid etməsi xalqa məntiqi görünür [182, s. 110-111].

Hesabat müəllifi vesternizasiyanın miqyasını göstərmək üçün əlavə misallar göstərir. Hazırda kinoklubların, mehmanxanaların, şirkətlərin əksəriyyətinin, bəzi mağazaların adları xaricidir. Barların, rəqs zallarının əksəriyyətində ikinci dərəcəli xarici artistlər çıxış etmək və pul cəm etməklə məşğuldurlar, günbəgün İran mahnıları və rəqslərinin dəyəri azalır, uşaqların və gənclərin qulaqları xarici musiqi, gözləri xarici adət-ənənələri ilə daha tez tanış olur [182, s. 111].

Beləliklə, S.H.Tağızadə vesternizasiyanın – zahirən avropalaşmanın onun idealına uyğun gəlməyən "acı" nəticələrindən çıxış edərək, qərbləşməni kəskin tənqid edir və qeyri-məqbul sayır. Bununla da S.H.Tağızadənin hələ 1928-ci ildən başlanan vesternizasiyadan uzaqlaşması özünün ən yüksək mərhələsinə çatır və o, anti-qərbçilik tərəfdarları sırasına daxil olmaq istəyir.

Bununla belə, S.H.Tağızadə Avropa mədəniyyətinə münasibətinin əsaslı şəkildə dəyişmədiyini xüsusi vurğulayır. O qeyd edir ki, Qərb mədəniyyətini, elmini, təfəkkür tərzini, təhsil sistemini, zəruri olan fəzilətlərini qəbul etməyin vacibliyinə inanır, eyni zamanda zərərsiz və bəyənilən milli adət və ənənələrin qorunmasını da lazım bilir. [135, s.427-428]. S.H.Tağızadə bir sıra ölkələri və xalqları nümunə göstərərək, Avropa mədəniyyətinin qəbul edilməsinin milli adət-ənənələrə heç bir xələl gətirmədiyini vurğulayır. O, həmçinin yad millətin hakimiyyəti altında olmalarına baxmayaraq, assimilyasiyaya uğramayan xalqların da olduğunu göstərir və həmin keyfiyyəti yüksək qiymətləndirir [135, s. 428-429].

Beləliklə, S.H.Tağızadənin vesternizasiya mövqeyindən modernləşmə mövqeyinə keçməsi mərhələsi başa çatır.

S.H.Tağızadənin Qərb mədəniyyətinə fərqli mövqeyinin yaranması vesternizasiyanın modernləşməyə elə bir təsir göstərmədiyini müşahidə və dərk etməsi ilə izah oluna bilər. Belə ki, vesternizasiya İranda sosial bərabərsizliyin mədəni göstəricisi idi. Digər tərəfdən, anti-qərbçilik ideologiyasının hədəfinə çevrilmiş S.H.Tağızadə sosial-demokrat imicini qorumaq üçün aşağı təbəqələrlə həmrəylik nümayiş etdirməyə məcbur idi. O, sosial bərabərsizliyə deyil, mədəni bərabərsizliyə etiraz əlaməti olaraq anti-qərbçilik mövqeyində durduğunu nümayiş etdirirdi. S.H.Tağızadə tam anti-qərbçilik, yəni anti-modernləşmə mövqeyinə keçmədiyindən əslində modernləşmə ilə vesternləşməni, daha doğrusu, anti-qərbçiliklə qərbçiliyi daha rasional şəkildə sintez etməyin tərəfdarı

kimi çıxış edirdi. O, Qərb mədəniyyətinin ruhunu, prinsiplərini, mahiyyətini mənimsəməyin və eyni zamanda zamanın tələbinə cavab verən milli adət-ənənələrin, dəyərlərin və normaların saxlanmasının zəruriliyini vurğulayırdı.

S.H.Tağızadə yuxarıda qeyd etdiyimiz çıxışından bir ay sonra eyni mövzuda ikinci dəfə çıxış etdi [136]. Bir qədər konkretləşdirilərsə, ikinci çıxış mədəniyyətin, modernləşmənin əsas anlayışlarından olan azadlıq, vətən, millət və tolerantlıq anlayışlarının şərhinə və qismən həmin dəyərlərin İranda vəziyyətinə həsr olunmuşdur. Natiq azadlıq, müstəqillik və insan heysiyyəti anlayışlarının tarixinə qısa nəzər salaraq, onların Yunanıstanda meydana gəldiyini, məhdud miqyasda Romada özünü göstərdiyini və digər millətlərə yad olduğunu qeyd edir. O həmçinin azadlıq anlayışının müasir mənada Fransa və İngiltərədə (XVIII əsr) formalaşdığını göstərir [136, s. 466]. Azadlıq anlayışından geniş bəhs edən S.H.Tağızadə onu "Allahın insana bəxş etdiyi ən böyük nemət", ağıl və təfəkkürün inkişafının şərti adlandırır və əsas prinsipinin "başqalarının hüququna təcavüz etməmək" olduğunu vurğulayır [136, s.466-467]. İnkişaf və azadlığın münasibəti sahəsində mübahisələrə toxunaraq, azadlıqsız inkişafın mümkün olmadığı fikrini irəli sürür, ədalət və azadlıq arasında münasibətə öz mövqeyini bildirərək, azadlıqsız ədalətin mövcudluğunu təsəvvür etməyin qeyri-mümkün olduğunu göstərir [136, s. 468]. S.H.Tağızadə azadlıq ideyasının geniş yayıldığını, bu səbəbdən də, hətta ən müstəbid dövlətlərin belə özlərini azadlıq tərəfdarı kimi göstərdiyini qeyd edir [136, s. 468]. Göründüyü kimi, S.H.Tağızadə azadlığı inkişaf və ədalətin ən vacib şərti hesab edir.

S.H.Tağızadə vətən anlayışını siyasi mənada (dövlət) şərh edərək, onun müəyyən sərhədlərlə məhdudlaşan və vahid hakimiyyət altında olan ərazidən ibarət olduğunu qeyd edir. O, millət anlayışına münasibət bildirmədən əhalidən, vətəndaşlıqdan danışmağa üstünlük verir və göstərir ki, həmin ərazidə – vətəndə yaşayan insanlar din,

dil, irq eyniyyətinə malik olub-olmamalarından asılı olmayaraq eyni qanunlara tabe olaraq, mənafe və zərərdə, şadlıq və qəmdə şərikdirlər. Onların vətənə və bir-birinə bağlılığı rifah və azadlığın səviyyəsi ilə müəyyən olunur [136, s. 469]. S.H.Tağızadə fikrini əsaslandırmaq üçün polikonfessional, polietnik ölkələri misal gətirir və xüsusi vurğulayır ki, həmin ölkələrin rəsmi (dövlət) dili yoxdur. Rəsmi dilə malik ölkələrdə belə həmin dilin digər dillər üzərində qələbə çalmasını təmin edən siyasət yeridilmir [136, s. 469]. Belə ölkələrin əhalisi vahid millət təşkil edir. Hər bir vətəndaş özünü həmin millətin üzvü hesab edir, çünki siyasi və mədəni sahələrdə heç bir üstün hüquqlara malik deyildir [136, s. 469].

Natiq qeyd edilən müqəddimədən sonra İranda həmin məsələ ilə bağlı vəziyyətə qısa nəzər salır. Əvvəlcə İran konstitusiyasının (1906-1907) vətəndaşların qanun qarşısında bərabərliyi maddəsini (8-ci Maddə) xatırladır [136, s. 469]. Daha sonra göstərir ki, İranda bəzi tayfa və firqələrin vətənpərvərliyinə şübhə ilə yanaşır, bunun dəlili kimi onların bəzi xarici dövlətlərə meylliyini nəzərə çatdırırlar [136, s. 469]. İran əhalisinin polietnik (təqribi sayları göstərilməklə), polikonfessional struktura malik olduğunu qeyd edən natiq bu müxtəlifliyin “ictimai ədalət, azadlıq və rifahın təmin olunması şərti ilə” iranlıların vətənpərvərliyi və milli vəhdətinə heç bir xələl gətirməyəcəyini vurğulayır. O deyir: “Əgər qeyd edilən şərtlər təmin olunsa, həmin dil və din, məzhəb fərqləri heç bir nigarançılığa səbəb olmayacaqdır” [136, s. 469].

İsveçrəni nümunə göstərən müəllif belə nəticəyə gəlir: “Deməli, həqiqi vətənpərvərlik azadlıq və ədalət əsasında möhkəm olur, məcburi vətənpərvərlik heç vaxt dərin kök sala bilməz” [136, s. 469-470]. S.H.Tağızadə İranın qeyri-fars etnik birliklərinin milli hüquqlarının pozulduğunu və həmin hüquqları müdafiə etdiyini çox mülayim və ümumi şəkildə belə ifadə edir: “Vətən sevgisi doğru hədis olsa da, insan təbiəti də rahatlıq, rifah, azadlıq, öz yaşadığı

məntəqədə, din və dildə azadlıq istəyir, zülm və çətinliklər altında ölməyə, azadlıqdan məhrum olmağa asanlıqla razı olmur. Bizim böyüklərimiz demişlər ki, dövlət küfrə davam gətirər, amma zülmə yox” [136, s. 470].

Beləliklə, S.H.Tağızadə həqiqi vətənpərvərliyin ədalət, rifah və azadlıq, o cümlədən dil və din azadlığı əsasında formalaşdığını vurğulayır. Millətçilik, ifrat millətçilik və ya şovinizmdən danışarkən həmin hadisənin Şərqdə yeni əsrdə meydana gəldiyini və İrana da sirayət etdiyini göstərən natiq onu “xəstəlik əlaməti” adlandırır və çox təhlükəli, düşmənçiliyə səbəb olan hadisə hesab edir.

İfrat millətçiliyin İranın həm daxili stabilliyi, həm də beynəlxalq münasibətləri üçün təhlükəli olduğundan əhatəli danışan müəllif İranın çox geniş əraziyə malik olan çoxmilyonlu türklər və ərəblərə qarşı ədavət yaratmasının ölkəyə böyük zərbə vurduğunu belə qeyd edir: “İfrat millətçilik İslam prinsiplərinə də ziddir və ərəb və türklər müsəlman olduqlarından İslam birliyi üçün də təhlükə yaradır” [136, s. 470-471].

S.H.Tağızadə, yuxarıda da qeyd edildiyi kimi, XX əsrin 40-cı illərindən başlayaraq milli təəssübkeşliyə, etnik millətçiliyə və ya ifrat millətçiliyə, şovinizmə qarşı çıxmışdır. Haqqında ətraflı danışılan xitabələrdən əlavə S.H.Tağızadə tarixi məlum olmasa da, Cənubi Azərbaycandakı çıxışlarının birini “hamını millətçiliyin tənqidinə çağırışa” həsr etmişdir [147, s. 300-303]. S.H.Tağızadə qeydlərinin əvvəlində göstərir ki, onun Cənubi Azərbaycanda “Zərdüştün zamanı” mövzusunda çıxışında ifrat milli təəssübkeşliyə zidd fikirləri bəzi millətçi alimlərin, xüsusən Fazil Ədibin iradlarına səbəb olmuşdur [147, s. 300]. O, daha sonra ifrat millətçiliyin və ya şovinizmin bütün dövrlərdə nəinki sağlam düşüncə, insaf və ədalətdən uzaq olduğunu, həmçinin böyük milli və beynəlxalq zərərə səbəb olduğunu, təhlükə, səbəbsiz düşmənçilik yaratdığını göstərir [147, s. 301].

S.H.Tağızadə şovinizmin son 60-70 ildə bir sıra Şərq ölkələrinə sirayət edib, kəskin xarakter aldığını göstərir. O, qeyd edir ki, xəstəlik əlaməti olan şovinizm 50 il və ya bir qədər çox müddət bundan əvvəl İrana da gəlib çatmışdır. S.H.Tağızadə şovinistlərin digər millətlərin ünvanına söylədikləri söyüş və təhqir xarakterli sözləri təkrar etmək istəmədiyini qeyd etsə də, lakin şəxsən eşitmədiyi və doğruluğuna zəmanət verə bilmədiyi bir neçə nümunəni göstərir. O yazır ki, deyilənə görə, yüksək dərəcəli alimlərdən biri hamının hüzurunda bəyan edir ki, "türk və ərəb və ya ilan və əqrəb" və belə xarakteristikadan, deyəsən, "xoşu da gəlmişdir" [147, s. 302-303], yaxud başqa birisi İslam millətlərindən birini kafir adlandıraraq dedi ki, əslində biz onları müsəlman hesab etmirik, amma bundan da irəli gələrək, Atlantik okeanının qərb sahillərinə və ekvatorun yaxınlığına qədər "o yığcam əraziyə malik olan" bütün ərəb qövmlərinə tənə etdi və onları "Sami qövmi" olduqlarına və bizi "aryayi" olduğumuza görə "əcnəbi adlandırdı". S.H.Tağızadə həmin fikirlərə münasibət bildirərək, eləcə də şovinizmi pisləyərək, qeyd edir: "Əlbəttə, bu heç yaraşan iş deyil" [147, s. 303].

S.H.Tağızadə şovinizmin, ümumiyyətlə və İran üçün xüsusən təhlükəli olduğunu qeyd edir. O yada salır ki, kürdləri, bəlucları dil qohumluğu baxımından, türk dilliləri isə dillərini nəzərə almamaq şərtilə özününkü hesab edən iranlılar bəs qalan xalqları kim hesab edirlər? Müəllif özü bütün iranlıları İran vətəndaşı, qardaş və Əsas qanuna əsasən bərabər hesab edir. O, daha sonra millətçiliyin İslam ruhuna zidd olduğunu vurğulayır. S.H.Tağızadə burada millətçiliklə bağlı maraqlı açıqlamalar edir: Hər hansı bir millətin, yaxud hakim dairələrin, hətta bir nəfərin yaramaz sözləri qarşısında cavab vermək (qaytarmaq) həqiqi (real) cavab deyil, məsələni həll edən cavab haqqında fikirləşmək lazımdır. O inkar etmir ki, hər bir millət öz hüquqlarını qorumalıdır, həmləyə məruz qalanda sülh əhval-ruhiyyəsini saxlamaqla, dərindən fikirləşməklə və ağıllı, rasional

şəkildə qarşı çıxmalıdır. Bununla belə, dözümlülük, ədəblilik və yola verməyin, daha təsirli olduğunu və “yaxşılığa yaxşılıq”, zərb məsələnin fars dilində Sədinin şer variantını xatırladır [147, s. 303].

Düşünürük ki, S.H.Tağızadənin son iki fikri azərbaycanlılara ünvanlanmışdır. Çox güman ki, Təbrizdə olarkən şəxsi söhbətlərdə fars şovinizminin təzahür formalarından ona şikayətlər olunur və mövqe bildirməsini xahiş edirdilər. S.H.Tağızadə üstüörtülü şəkildə bəyan edir ki, təhqir və söyüşlərə sadə reaksiya göstərmək yox, həll yolunu tapmaqla məşğul olmaq, başqasının təcavüzü qarşısında öz hüquqlarını qorumaq və bunu sakit, düşünülmüş və ağıllı şəkildə etmək lazımdır.

Xitabələrdə olduğu kimi, haqqında danışılan qeydlərdə də S.H.Tağızadə Azərbaycan xalqının öz hüquqlarını qorumaq haqqı olduğunu və həmin istiqamətdə hərəkətin üsulunu göstərmişdir. Amma nə S.H.Tağızadənin çıxışları, nə də azərbaycanlı yuxarı dairələrin bizə məlum olmayan öz hüquqlarını qorumaq tədbirləri hakim millətçilik siyasətinə 1979-cu ilə qədər elə bir təsir göstərməmişdir. Ona görə S.H.Tağızadənin həmin fikirləri hazırki İran şəraiti üçün də öz aktuallığını saxlayır.

S.H.Tağızadə daha sonra beynəlxalq münasibətlərin xarakteri və ona münasibət barədə maraqlı fikirlər irəli sürür. O, Şərq və Qərb millətləri arasında fərq qoymağı təklif edir. Şərq millətlərinin İrana uzaq keçmişdə, Qərb millətlərinin isə yaxın keçmişdə təzyiq göstərdiklərini nəzərə alan natiq deyir: “Odur ki, zalım və məzlumu bir gözlə görə bilmərik, istismarçıları tam mənası ilə özümüzə qardaş hesab edə bilmərik” [136, s. 471].

Göründüyü kimi, S.H.Tağızadə vesternziyasiya ideyasından bir addım da geri çəkilmədiyini nümayiş etdirməyə çalışır. Eyni zamanda S.H.Tağızadənin dünyagörüşündə baş vermiş həmin dəyişikliyi onun realizmi ilə də izah etmək olar. Burada 1951-1953-cü illər hadisəsinin, qərb dövlətlərinin müstəmləkə xalqlarının

azadlığına qarşı mübarizəsinin təsirini, S.H.Tağızadənin Şərq, İslam xalqları ilə həmrəylik nümayiş etdirmək meylini göstərmək olar.

S.H.Tağızadə mötədil formada olsa da, iranlıların, əslində farsların ifrat millətçiliyinin türklərə və ərəblərə qarşı yönəldiyini göstərir. O, göstərir ki, milli münasibətlərdə elə siyasət yeridilməlidir ki, qeyri-fars millətlər zorakı linqvistik və mədəni assimilyasiyaya uğradıqları, ərazilərinin isə müstəmləkə olması haqqında fikirləşməsinlər. S.H.Tağızadə xəbərdarlıq edir: "Belə təəssüb göstərən bəzi ölkələr heç bir fayda görmədilər" [136, s. 473].

Beləliklə, S.H.Tağızadə ölkədə yeridilən hakim millətçilik siyasətinə qarşı çıxaraq, onun milli (dövlət daxili) və beynəlxalq miqyasda meydana gətirdiyi təhlükəni xüsusi qeyd edir. Bəzi ölkələrin mənfi və müsbət tarixi təcrübəsini xatırladan natiq ifrat millətçiliklə bağlı fikirlərini yekunlaşdıraraq, deyir: "Xülasə, polietnik tərkibə malik olan ölkə ağıllı (rasional) siyasət həyata keçirmək istəyirsə, müştərək (ümumi, ortaq) vətənə əsaslanmalı, ölkədə olan müxtəlif etnik birliklər arasında ayrı-seçkiliyi rəva bilməməli, hamının könlünü ədalətlə almalı və milli birlik bağını (ipini) möhkəm tutmalıdır, əks halda həmin etnosları güclü bir mərkəzin hakimiyyəti altında müəyyən müddət saxlamaq mümkün olsa da, mahiyyətcə bu ittifaq məcburi xarakter daşıyır" [136, s. 478].

Maraqlıdır ki, S.H.Tağızadə keçmiş SSRİ-ni də belə zorla yaradılmış ittifaq hesab edir və qeyd edirdi ki, hər hansı bir sarsıntı yaranarsa, həmin ölkənin dağılmaq qorxusu vardır, çünki SSRİ-də azadlıq yoxdur [136, s. 478].

İranda milli münasibətlər sahəsində mövcud vəziyyətdən danışan natiq deyirdi: "Bəzən İranda ifrat millətçilər ölkədə müxtəlif dillərin və etnosların mövcudluğunu tamamilə inkar edir və güman edirlər ki, ifrat söz, tünd xasiyyət və mücadilə ilə həmin etnoslar həzm olunacaqlar, başa düşmürlər ki, yalnız ədalət, dözümlülük, qardaşlıq və onların rifahına adi qaydadan daha yüksək diqqət,

mərkəzi hakimiyyətin həzmetmə gücünü artırır, nəinki zor, təzyiq və bu barədə nəsihət edənlərə tənə” [136, s. 478] S.H.Tağızadənin sonuncu fikri onun dövlət rəhbərlərinə, ifrat millətçi ideoloqlara milli siyasətin ədalətli prinsipləri haqqında məsləhət verdiyini, lakin qəbul edilmədiyini göstərir. Onun məsləhət bildiyi siyasət təbii assimilyasiya konsepsiyasına çox yaxındır, həmin konsepsiyaya görə vahid dövlət daxilində xalqların azad şəkildə artan iqtisadi, siyasi, mədəni əlaqələri zorla dövlət dili tətbiq etmədən onların tədricən yaxınlaşması və assimilyasiya olunmasına şərait yaradır.

S.H.Tağızadənin ifrat millətçilik, fars şovinizmini, anti-ərəb, anti-türk ideologiyası və düşmənçiliyini kəskin tənqid etməsinin nə hakim siyasi kursa, nə də fars millətçi ideoloqların təfəkkürünə heç bir təsiri olmamışdır. XX əsrin 60-cı illərində bəzi ifrat millətçilər iddia edirdilər ki, ərəblərin öz etnik dili olmamış, leksik fondu fars dilindən almışlar. Zəbih Behruz və doktor Məhəmməd Müqəddəm sübut etməyə çalışırdılar ki, Məhəmməd və Müqəddəm fars sözləridir və ərəblər onları fars dilindən götürmüşlər [217, s.105].

S.H.Tağızadənin çıxışının ifrat millətçiliklə bağlı hissəsinin əsas cəhəti natiqin çox qısa və sxematik şəkildə olsa da, İranda milli münasibətlərin mövcud vəziyyətini təsvir edərək, hakim millətçilik siyasətinin eybəcər, ölkənin milli birliyi və beynəlxalq münasibətləri üçün təhlükəli formalarını təsdiq etməsidir. S.H.Tağızadənin hakim siyasi elitaya mənsub olduğunu, senatorluğunu nəzərə alsaq, onun hakim millətçilik siyasətini tənqid etməsi və pisləməsini cəsarətli addım hesab etmək olar. Həmin çıxışın əhəmiyyəti onda idi ki, nəinki hakim elitanın üzvləri, hətta sıravi, lakin hakim millətçilik bəlasına düçar olan ziyalılar belə İranda milli siyasətdə, milli münasibətlərdə problemin olduğundan, hətta əhalinin etno-milli tərkibindən, milli situasiyadan danışmağı rəva bilmirdilər. Hərçənd 1956-ci ildə keçirilmiş siyahıya alınmada əhalinin dil mənsubiyyəti öz əksini tapmış və əhalinin etno-dil strukturu haqqında qısa ümumiləşdirici

yazı nəşr olunmuşdur [212, s. 121]. Amma bundan sonra da hakim fars millətçilik siyasətində qeyri-fars xalqların etno-mədəni hüquqlarının təmin edilməsi sahəsində heç bir dəyişiklik baş vermədi.

S.H.Tağızadə nəinki İran cəmiyyətinin etno-milli tərkibindən danışır, eyni zamanda hakim millətçilik siyasətini kəskin tənqid edir və pisləyir. S.H.Tağızadə bütün məsələlərdə olduğu kimi milli münasibətlər və hakim millətçilik siyasətinə hərtərəfli, obyektiv və elmi yanaşmağa, İranın, İran əhalisinin ümumi maraqlarından çıxış etməyə çalışır. Bununla belə, S.H.Tağızadə milli məsələnin demokratik prinsiplər əsasında həllindən söz açmır, hərçənd tam azadlığın bərqərar edilməsi və şovinizmin aradan qaldırılması etno-milli hüquqların təmin edilməsinə şərait yaradardı.

S.H.Tağızadənin ikinci çıxışının sonuncu hissəsi tolerantlığa, dözümlülüyə həsr olunmuşdur. O, haqqında danışdığı anlayışı "əqidə müxtəlifliyinə dözümlülük" adlandırır [136, s. 478] və əlavə edir ki, məsələnin mahiyyəti hər bir kəsə öz sözünü deməyə imkan yaradılmasından ibarətdir [136, s. 479]. Başqa sözlə, S.H.Tağızadə siyasi, mədəni plüralizm tərəfdarı kimi çıxış edir. S.H.Tağızadə çıxışının həmin hissəsinin mahiyyətini bir neçə kəlmə ilə ifadə etməyə çalışır. Onun fikrincə, ictimai, siyasi, mədəni, milli münasibətlər sferasında optimal vəziyyətin yaranmasına nail olmaq üçün aşağıdakılar nəzərə alınmalıdır. Birincisi, başqasının hüquqlarına təcavüz etməmək şərti ilə ən yüksək səviyyədə ictimai, siyasi və mədəni-mənəvi azadlığın bərqərar olması; ikincisi, vətəndaşların rifah şəraitinin yaxşılaşdırılması, ədalət və azadlıq bərqərar edərək, vətəndə yaşamağı şərəf dərəcəsinə yüksəldib, vətəndaşların həqiqi vətənpərvərliyinə, vətəni qorumaq üçün fədakarlığa hazır və əzmli olmalarına nail olunması; üçüncüsü, bütün həmvətənlər arasında qardaşlıq münasibətlərinin bərqərar olunması, irqçilik və şovinizmdən uzaq olma və nəhayət, dördüncüsü, müxtəlif əqidə, fikir

və davranış (səliqə) sahiblərinin bir-birinə qarşı mümkün qədər dözümlülük göstərməsi [136, s. 479].

Beləliklə, S.H.Tağızadə modernləşmə və modernləşmiş müasir mədəni cəmiyyət haqqında öz baxışlarını ilk dəfə geniş şəkildə elan etmişdir. Həmin baxışlarda həm S.H.Tağızadənin özünün elmi, siyasi, ideya-mənəvi baxımdan kamillik səviyyəsinə yüksəlişini, həm də İran cəmiyyətinin modernləşmə və vesternləşmə təcrübəsinin təsiri aydın görünür.

İctimai fəaliyyətə modernləşdirici – praktik kimi başlayan S.H.Tağızadə XX əsrin 20-ci illərinin əvvəllərində qatı vesternləşdirmə tərəfdarı kimi çıxış edir və tədricən modernləşmənin vesternizasiya xəttindən uzaqlaşaraq, kamil modernləşmə mövqeyində bərqərar olur.

S.H.Tağızadə ilk vaxtlar modernləşmənin subyekti, sonra həm də təbliğatçısı kimi çıxış edirdisə, indi onun ideoloqu səviyyəsinə yüksəlir. S.H.Tağızadə modernləşməyə İran dövlətinin və İran xalqının (əhalisinin, vətəndaşlarının) mənafeyi baxımından yanaşaraq, həmin hadisənin əsas ünsürlərinin geniş şərhini verir, modernləşmiş cəmiyyət modelini İranın real durumu ilə müqayisə edərək, İran cəmiyyətinin inkişaf və tərəqqisinin XX əsrin 60-70-ci illərdə yeganə obyektiv-elmi proqramını irəli sürür. Artıq qeyd edildiyi kimi, həmin proqramın əsas komponentlərini tam (ən yüksək) azadlıq, həqiqi vətənpərvərlik, sağlam millətçilik (dövlətçilik) və plüralizm təşkil edir. Modernləşmiş cəmiyyət mərhələsinə yüksəlmək üçün həmin dörd əsas prinsip bərqərar edilməlidir.

S.H.Tağızadə cəmiyyətin həyatının bütün sahələrində azadlığın bərqərar olmasını vurğulayır, vətənpərvərliyin bir tərəfdən insanların maddi rifah halı, digər tərəfdən azadlığı ilə bağlı olduğunu göstərir. S.H.Tağızadə dövlət-millət anlayışını vətəndaşların hüquqi cəhətdən bərabərliyinin istənilən sahədə təmin edilməsi kimi xarakterizə edir.

Plüralizm obyektiv gerçəkliyi olduğu kimi qəbul etmək və ona uyğun davranmaq kimi şərh edilir.

S.H.Tağızadə həmin çıxışlarında modernləşmiş cəmiyyətin ən əsas və həlledici şərtindən – sənayeləşmədən danışmır, hərçənd modernləşmiş cəmiyyətin formalaşmasında onun rolunu yaxşı dərk edirdi. O, Təbriz Universitetinin filologiya fakültəsində çıxış edərkən demişdir: "Hər bir islahatın əsası, bu gün ən mühüm və təxirə-salınmaz olan hər bir işin başlanğıcı hesab edilən iqtisadi islahatlar aparmadan geniş ölçüdə və ümumi şəkildə sərvət istehsal etmədən, bu sahədə tərəqqiyə nail olmadan bütün digər sahələrdə işlər ləng gedəcəkdir" [149, s. 1].

Bununla belə, S.H.Tağızadə bu iki çıxışında iqtisadiyyat məsələlərinə toxunmamışdır. Bunun izahının Şərq ölkələrində, o cümlədən İranda modernləşmənin əks istiqamətdə, yəni siyasi, mədəni, sosial sferalarda modernləşmədən iqtisadi sferaya doğru aparılması ilə bağlı olduğunu güman etmək olar. Doğrudan da, 1920-ci illərdən başlanmış islahatlar nəticəsində İranın ictimai həyatının bir sıra sahələrində Qərb prinsip, norma və dəyərləri möhkəmlənməkdə və zahirən modernləşmə və ya vesternləşmə prosesi davam etməkdə idi. İranda üstqurumunda Qərb mədəniyyəti ünsürləri bərqərar olduğundan, S.H.Tağızadə modernləşmiş cəmiyyətin yalnız siyasi, mədəni, mənəvi və s. xüsusiyyətlərini nəzərdən keçirir.

Yuxarıda deyilənləri yekunlaşdıraraq, S.H.Tağızadənin modernləşmiş cəmiyyət haqqında ideologiyasının, hətta nəzəriyyəsinin əsası, strukturu və əsas ünsürləri haqqında fikir söyləmək olar: S.H.Tağızadənin modernləşmə ideologiyası elmi, obyektiv əsaslara dayanır. O, mədəniyyət anlayışının elmi izahını – insan fəaliyyətinin məhsulu, yaradıcılıq prosesində istifadə edilən üsul və vasitələrdən ibarət olduğunu irəli sürür. Kulturologiya elmində mədəniyyət hadisəsinə vahid tərifin olmadığını nəzərə alaraq S.H.Tağızadənin mədəniyyət anlayışına verdiyi şərhi belə cəhdlərdən

biri hesab etmək olar. S.H.Tağızadə digər çıxışlarında və yazılarında mədəniyyətin bir-biri ilə vəhdətdə, qarşılıqlı fəaliyyət və asılılıqda olan maddi və mənəvi mədəniyyətdən ibarət olduğunu qeyd edir. Modernləşmiş cəmiyyət yüksək mədəni səviyyəyə çatmış cəmiyyətdir. Onun əsas struktur komponentlərini azadlıq və dözümlülük, mühüm ünsürlərin vətənpərvərlik və vətəndaşların etnik, konfessional, sosial hüquqlarının təsbit və təmin edilməsi təşkil edir.

S.H.Tağızadənin çıxışlarından az sonra (1962-ci ildən) İranda modernləşmənin daha əsaslı və geniş mərhələsi - sənayeləşmə, aqrar islahat, mədəni tərəqqi və s. başladı və mühüm nailiyyətlər əldə edildi. Kənddə yarımfeodal münasibətlərə son qoyuldu, torpaqsız kəndlilər torpaq sahələri ilə təmin olundu, ölkənin sənayeləşdirilməsi sahəsində böyük işlər görüldü. Mədəniyyət, səhiyyə, sosial sferanın digər sahələrində nəzərə çarpacaq nailiyyətlər əldə edildi [37, s. 314-409].

Ölkənin əsas mərkəzlərində müasir sənaye müəssisələri inşa edilir, yeni istehsal üsulunun tətbiqi genişləndirilirdi, kənddə yarımfeodal təsərrüfatlar tamamilə ləğv edilir, köhnə üsullarla icarədar işləyən kəndlilər torpaq mülkiyyətçisinə çevrilir, savadlılığın səviyyəsi daim artaraq yüksəlirdi [37, s. 334, 364, 381]. Bir sözlə, qeyd edildiyi kimi, iqtisadi, sosial, mədəni sferada sürətli və geniş modernləşmə baş verməkdə idi. İran feodalizmdən kapitalizmə keçid mərhələsinin son fazasına daxil olmuşdu [37, s. 409].

Lakin S.H.Tağızadənin modernləşmə ideologiyasında irəli sürdüyü şərtlərin heç biri təmin olunmadı, əksinə, mövcud vəziyyət daha da pisləşdi. XX əsrin 70-ci illərinin əvvəllərində şah qanunvericilik və icra hakimiyyətini, daxili və xarici siyasətin həlli məsələlərini, dövlət idarəsinin bütün işlərini qəsb etmişdi və bu hal normaya çevrilmişdi [39, s.27]. Siyasi azadlıq şahın hərbi-polis diktaturası ilə, dözümlülük, hərtərəfli və ardıcıl izləmələr və təqiblərlə, milli münasibətlərin gərginləşməsi, hakim millətçiliyin

son dərəcə güclənməsi, vətənpərvərliyin məcburi xarakter kəsb etməsi ilə əvəz olundu.

Modernləşmənin, vesternizasiyanın geniş vüsət aldığı, eyni zamanda modernləşmənin əsas siyasi və digər prinsiplərinin, mahiyyətinin tapdandığı bir şəraitdə modernləşmə, qərbçilik tərəfdarları ilə anti-modernləşmə, anti-qərbçilik tərəfdarları arasında mübarizə, xüsusən ideoloji mübarizə genişlənərək, kəskin xarakter aldı.

Qeyd etmək lazımdır ki, Qərb dəyərləri ruhunda modernləşmədən geri çəkilmə hərəkatı XX əsrin 60-cı illərindən başlanır və müsəlman ölkələrinin əksəriyyətini əhatə edir. Həmin ölkələrdə modernləşməni milli-mədəni dirçəliş əsasında davam etdirmək istəyirdilər [42, s. 20]. Bunun əsas səbəblərindən biri vesternizasiyanın əsas sosial problemlərin həllini təmin etməməsi idi.

Əhalinin siyasi fəallığının artması, siyasi elitanın öz hakimiyyətini qorumaq məqsədi ilə geniş kütlələrə üz tutmağı, onların maraqlarını nəzərə almağı, nəhayət, bütün sahələrdə milli ünsürlərə əhəmiyyət verildiyini nəzərə çatdırmaq tələbatı və s. amillər geriləmənin, daha doğrusu, milli (dini) amilin ön plana çıxmasına şərait yaradırdı. Əslində isə əsas səbəb vesternizasiyanın modernləşməni, xüsusən də siyasi sistemin modernləşməsini təmin etməməsi, geniş mənada modernləşmənin həyata keçirilməməsi idi. Həmin dövrdən başlayaraq müsəlman ölkələrində İslam dini siyasi mədəniyyətin, siyasi hərəkatın tərkib hissəsinə çevrildi [42, s. 20]. İranda, qeyd edildiyi kimi, modernləşmə bütün sferaları əhatə edirdi və geniş vesternizasiya ilə müşayiət olunurdu. Siyasi sferada modernləşmə zahirən müasir görünən, əslində feodal-istibdad idarə üsulunun bərqərar olunması modernləşməyə qarşı geniş siyasi müxalifət və müqavimət yaradırdı. İqtisadi, sosial sferanın modernləşməsi nisbətən geniş kütlə olan ən aşağı təbəqələrin sosial statusunu nisbətən pisləşdirmişdi [39, s. 19]. Monarxın hakimiyyətinin güclənməsi, ruhanilərin mövqeyinin zəifləməsi və ziyalılara

etinasızlıqla müşayət olunurdu. Ümumi iqtisadi, mədəni, sosial inkişaf müxtəlif sosial təbəqələr arasındakı fərqləri, xüsusən vesternləşməyə (sivilizasiyaya) cəlb olunan və olunmayan təbəqələr arasında fərqləri daha aşkar nümayiş etdirirdi. Sosial bərabərsizlik, sosial status fərqləri, şah diktaturasına qarşı etiraz modernləşmə və vesternizasiyaya qarşı hərəkat formasında təzahür edirdi. Siyasi istibdadın güclənməsinə, eyni zamanda modernləşmə və vesternizasiyaya qarşı çıxan qüvvələr, xüsusən həmin qüvvələri təmsil edənlər vesternləşməni rədd edərək, yeni yol axtarışı ilə məşğul olurdular.

O zamankı iki qütblü dünyada iki inkişaf yolunun olduğunu bilən İran ideoloqlarının bir hissəsi Sovet-Şərq (kommunistlər, Tudə partiyası, ona yaxın qrup və cərəyanlar), digər hissəsi (yeni istehsal, mədəni, sosial münasibətlərin daşıyıcılarının nümayəndələri) Qərb yolunun tərəfdarı idilər. Bunlarla yanaşı, hakim təbəqələr arasında rejimə müxalif mövqedə duran və ya orta və aşağı təbəqələrin maraqlarını ifadə edən ideoloqlar "üçüncü yol" axtarışı ilə məşğul olmağa başlamışdılar. Anti-qərbçilik əhval-ruhiyyəsinin güclənməsi şəraitində "üçüncü yol" axtarışı ideya-mənəvi, ideoloji həyatın əsas istiqamətinə çevrilmişdir. Rejimə yaxın ideoloqlar əsas diqqəti İranın qədim mədəni, milli dəyərlərini, adət-ənənələrini bərpa etməyin zəruriliyini əsaslandırmağa yönəldirdilər [43, s. 125-199]. Məhdud sayda alim-ideoloq (M.Ə.Eslami Noduşan və Ə.Zərrinkub) "üçüncü yol" axtarışının mənasız olduğunu vurğulasa da, modernləşmənin əsas şərtləri, üsul və vasitələri haqqında öz mövqelərini zahirən bəyan etmirdilər. Əslində isə onlar bəşəri mədəniyyətdən, mədəniyyətlərin qarşılıqlı təsirindən, milli mədəniyyətin inkişafının zəruriliyindən və s. danışaraq [39, s. 91-94], modernləşmənin mahiyyətcə oxşar və eyni xüsusiyyətlərə malik olduğunu vurğulayırdılar.

İranda feodal münasibətlərindən yeni dövr münasibətlərinə keçid mərhələsinin son fazasında siyasi istibdadın getdikcə güclədiyi, vesternləşmənin genişləndiyi şəraitdə, orta və aşağı

təbəqələrin əksəriyyət təşkil etdiyi, ənənəvi həyat tərzinin aparıcı rol oynadığı cəmiyyətdə İslam dininə ictimai həyatın ən mühüm komponenti kimi baxan üçüncü İran yolu ideologiyası daha geniş yayılır, etiraz və müxalifətin əsas təzahürü kimi çıxış edir. İslam dininin əhəmiyyətinə diqqət yetirən qruplar onun roluna müxtəlif cür yanaşırdılar. Bu baxımdan C.Al-Əhməd, Ə.Şəriəti və M.Bazərqan İslamı, İran yolunun fərqli xüsusiyyətlərini əks etdirən əsas ideoloqlar idilər. C.Al-Əhməd 1962-ci ildə çap etdirdiyi "Qərbzədegi" ("Qərbçilik" və ya "Qərbvurmuşluq") romanı ilə anti-modernləşmə və anti-vesternizasiya bayrağı qaldırmış oldu. İran ədəbiyyatının "atalığı" hesab edilən C.Al-Əhməd kitabda vesternləşmiş iranlının obrazını yaratmış və onun əsas xüsusiyyətlərini göstərərək, kəskin tənqid etmiş və çıxış yolunu İran İslam (şiə) ənənələrinin bərpa edilməsində görmüşdür [169; 202; 78; 39, s. 78]. C.Al-Əhməddən fərqli olaraq, Avropa təhsili almış alim-filosof, İran gənclərinin kumiri olan Ə.Şəriəti [43, s. 13-117] İslam mədəniyyətinə etina etməyənləri tənqid edir və əsas diqqətini İran yoluna qayıdışın əsasını təşkil edən ideal İslam ideologiyası işləyib hazırlamağa yönəldir [78]. C.Al-Əhməd daha çox tənqidlə məşğul olduğu halda, Ə.Şəriəti yeni ideologiya (dini) yaradılması ilə məşğul olur. Ə.Şəriəti ruhanilərin deyil, ziyalıların köməyi ilə "həqiqi İslama" qayıdış tərəfdarı idi [39, s. 86]. M.Bazərqan isə İslam dini və ruhanilərdən siyasi mübarizədə vasitə kimi istifadə etməyə çalışdığından daha çox "İslam institutuna arxalanmaq" tərəfdarı idi [39, s. 84].

İranda cərəyan edən, genişlənməkdə və güclənməkdə olan ideoloji proseslərdə S.H.Tağızadə özünəməxsus yer tuturdu. S.H.Tağızadə İslama istinad edən "üçüncü yol" ideoloqları kimi geriyə deyil, önə doğru hərəkətin ideoloji əsaslarını irəli sürmüşdür. O, müxalif ideoloqlar arasında İslam dininə və ruhanilərə diqqətin artması ilə bağlı deyirdi: "Bəzi yeniləşmə tərəfdarları din və dindarlığı məsləhət bilirlər. Bu çox puç fikirdir və əslində dinsizliyin

dəlilidir”. O, fikrini belə izah edirdi: “Əgər kimsə qəlbən və həqiqət əsasında dindar olmasa, onu nəsihət və məsləhət üzündən dindar olmağa vadar etmək olmaz. Çünki din vicdan və qəlb işidir. Din ölkə və cəmiyyət üçün gərəklidir deyib, nəsihətlə insanları dindar etmək ona bənzəyir ki, sevmədiyi qadınla evlənməyə məcbur olan kişiyə deyəsən ki, məsləhətdir sən bu qadına aşiq olasan” [144, s. 192].

S.H.Tağızadə “Qərb mədəniyyətinin İrana təsiri” adlı yazısında deyirdi: “İranlıların aşkar mədəni geriliyi Qərb elm və biliklərini qəbul etməkdən imtina etməsinin nəticəsi olub və nəticəsidir. İndiyə qədər davam edən cahilanə və lüzumsuz təəssübkeşlik Qərb elm və mərifətinə tam təslim olunmayana qədər davam edəcəkdir” [147, s. 247].

Göründüyü kimi, S.H.Tağızadənin ideoloji baxışlarında nə qədim İran, nə də İslam dini dəyərləri heç bir müstəqil rol oynamır. O, həqiqi mənada inkişaf etmiş, demokratik cəmiyyət – modernləşmiş cəmiyyət ideoloqu kimi dəyişməz qalırdı. Onun modernləşmə ideologiyası ən ümumi şəkildə iki dayağa – elmi şüur və azadlığa əsaslanırdı. Başqa sözlə, onun modernləşmə ideologiyasının əsas elementini liberalizm (şəxsiyyətin azadlığı) təşkil etdiyindən, demək olar ki, o, İranda modernləşməni liberalizm səviyyəsinə yüksəltmiş və ya liberal modernləşmə səviyyəsinə yüksəlmiş yeganə ideoloq idi. Haqqında danışılan ideoloji cərəyanların, onların əsas ideoloqlarının mənəvi-ideoloji irsində məsələnin bu cür qoyuluşuna rast gəlinmir. Bu da S.H.Tağızadəni həm hakimiyyət, həm də müxalifət düşərgəsini təmsil edən ideoloqlardan əsaslı surətdə fərqləndirirdi. Əslində o, həmin proseslərdə yad ünsür təsiri bağışlayırdı, çünki heç bir düşərgəyə aid edilə bilməzdi. Məhz buna görə onun ideyalarını dəstəkləyən və inkişaf etdirən ideoloqlar qrupu formalaşmadı və cəmiyyətin ideya – mənəvi həyatına heç bir təsir göstərə bilmədi.

Bütün bunların nəticəsində İran inqilabı İslam xarakteri kəsb etdi, İslam dininin və ruhanilərin hakimiyyəti bərqərar oldu və

S.H.Tağızadənin əsas şərtlərini göstərdiyi modernləşmə mərhələsinə keçid qeyri-müəyyən müddətə təxirə salındı. S.H.Tağızadənin öz ideoloji baxışlarında modernləşmənin bərqərar edilməsi üçün müəyyən etdiyi proqram öz icrasını gözləməkdədir: 1) İctimai, siyasi, iqtisadi, mədəni-mənəvi, etnik və s. sahələrdə ən yüksək səviyyədə və hərtərəfli azadlıq; 2) Azadlıq, rifah və ədalət əsasında həqiqi vətənpərvərlik; 3) İrqçilik, ifrat millətçilik və ya şovinizmin ictimai həyatdan kənar edilməsi; 4) Dözümlülük, tolerantlıq və ya plüralizmin bərqərar edilməsi.

İranın sivil qaydalarla inkişaf perspektivi aktual ictimai, siyasi, mədəni problem kimi açıq qaldığından S.H.Tağızadənin modernləşmə ideologiyası da öz aktuallığını saxlayır.

# NƏTİCƏ

İranda modernləşmə prosesi və həmin prosesdə İranın görkəmli, siyasi, ictimai və elm xadimlərindən biri olmuş Seyid Həsən Tağızadənin rolunun ətraflı araşdırılması aşağıdakı nəticələrə gəlməyə əsas verir:

XIX əsrin sonu XX əsrin əvvəlləri İranın xarici asılılığı və daxili ictimai-siyasi ziddiyyətləri son dərəcə kəskinləşir. XIX əsrin son rübündən başlayaraq İranın dünya təsərrüfat sisteminə daha intensiv cəlb edilməsi iqtisadiyyatın və siyasi, sosial, mədəni sferaların strukturunda mühüm dəyişikliklər yaranmasına şərait yaradır. İctimai həyatın bu dəyişiklikləri və onların daşıyıcıları formalaşmağa, hakim yarımfeodal siyasi sisteminə qarşı çıxış etməyə başlayır. Həmin münasibətlərin xarakteri və sosial daşıyıcılarının tərkibi və statusu daxili ziddiyyətlərin mahiyyətini müəyyən edirdi. Sosial-iqtisadi proseslər XIX əsrin əvvəlində başlanmış hərbi, iqtisadi, qismən siyasi və hüquqi sferada epizodik, əsasən uğursuz, mədəni sferada məhdud, lakin davamlı və əsrin sonlarına doğru genişlənməkdə olan modernləşmə tədbirləri fonunda cərəyan edirdi.

Bütün xarici təzyiq və daxili ziddiyyətlərə baxmayaraq, İranın modernləşmə istiqamətində hərəkət etdiyinin ən əsas göstəricisi həmin prosesin mənəvi inikası olan modernləşmə ideologiyasının əsasən formalaşması idi. Başqa sözlə, İranın müstəqilliyinin möhkəmləndirilməsinin, tərəqqisinin təmin edilməsinin bir sıra əsas şərtlərini müəyyən edən fəaliyyət proqramı mövcud idi. Belə bir şəraitdə gənc yaşlarından mənəvi-mədəni, qismən siyasi fəaliyyətə başlayan S.H.Tağızadə modernləşmə proqramı ilə tanış olub, onu qəbul edərək, modernləşmə uğrunda çıxış edən qüvvələrə qoşulur, tədricən bu hərəkatın tanınmış nümayəndələrindən, qısa müddətə siyasi liderlərindən birinə çevrilir. Həmin dövrdən başlayaraq S.H.Tağızadənin fəaliyyətinin tərkib hissələrini mədəni, siyasi sfera-

nın, elmi fəaliyyət üsulunun modernləşdirilməsi və modernləşmənin ideya-mənəvi inikası, ideologiyasının hazırlanması təşkil etdi.

Onun həyatı və fəaliyyəti bir sıra obyektiv və subyektiv səbəblərdən fərqli mərhələlərdən keçdiyindən modernləşmə sahəsində fəaliyyətini də şərti olaraq bir neçə mərhələyə ayırmağı məqsədəuyğun hesab etdik. S.H.Tağızadə fəaliyyətinin birinci mərhələsində (1898-1905) maarifçi-praktik, ikinci mərhələsində (1905-1910) siyasi sistemin modernləşdiricisi kimi çıxış edirdi. O, ikinci mərhələdə modernləşmiş siyasi sistem haqqında təsəvvür və ideyalarını reallaşdırmaq uğrunda gərgin mübarizə apararaq İran konstitusiyasına Əlavənin (əsl konstitusiyanın), mütərəqqi maddə-lərin qəbul olunmasına nail oldu. Bununla belə, İranda mövcud olan ictimai-siyasi münasibətlər, sosial strukturun arxaik xarakteri, orta əsrlərə xas olan dini şüurun hakim vəziyyəti dünyəvi məzmun və xarakter daşıyan Əsas qanunun qəbul olunmasına imkan vermədi. Konstitusiyanın qəbul edilməsi, parlamentin təşkili və fəaliyyəti İranın yeni dövrə daxil olduğunu göstərirdisə, Əsas qanunun İslam dini prinsip və normalarına, parlamentin fəaliyyətinin ruhanilərin nəzarətinə tabe edilməsi 1908-ci ildə parlamentin hərbi çevriliş, 1911-ci ildə Rusiyanın və İngiltərənin təzyiqi ilə zorakılıqla buraxılması İranın yeni həyata tam hazır olmamasını, mühafizəkar qüvvələrin aparıcı rol oynadığını, İranın modernləşməsi uğrunda gərgin mübarizə aparılmasının zəruriliyini göstərirdi.

Mühafizəkar qüvvələrin təzyiqi və ruhanilərin fitvası ilə İranı tərk etməli olan S.H.Tağızadənin həyatının 1911-1924-cü illəri əhatə edən III mərhələsi şəraitə uyğun olaraq müxtəlif fəaliyyət növlərinin bir-birini əvəz etməsi ilə xarakterizə olunurdu.

Birinci Dünya Müharibəsinin başlanması ilə S.H.Tağızadə Almaniya dövlətinin ideoloji strukturlarında yer alan və bundan İranın İngiltərə və Rusiyaya qarşı mübarizəsində istifadə etməyə çalışır. Müharibənin başa çatması ilə yaranmış beynəlxalq

münasibətlər sistemində İranın yerini və inkişaf perspektivini müəyyənləşdirmək məqsədilə formalaşmaqda olan paniranizm idealının əksinə olaraq daha qlobal miqyas və tarixi perspektiv nəzərə alınaraq 1920-ci ildə qərbləşmə modelini irəli sürdü. Beləliklə, S.H.Tağızadənin fəaliyyətinin üçüncü mərhələsi onun xaricdən İran cəmiyyətinə vesternizasiya modelini seçməyi təklif etməsi ilə xarakterizə olunur. Bu, S.H.Tağızadənin modernləşmə sahəsində fəaliyyətinin yeni cəhəti idi.

S.H.Tağızadənin fəaliyyətinin üçüncü mərhələsi bütövlükdə onun publisist, elmi araşdırıcı kimi formalaşma mərhələsi hesab edilə bilər. Həmin dövrdə ədəbiyyatşünaslığa dair məqalələr yazmış və əsas elmi əsəri olan "Qədim İran təqvimi" üçün material toplamaqla məşğul olmuşdur. Bundan sonra elmi araşdırmalar onun ictimai fəaliyyətinin ayrılmaz tərkib hissəsinə çevrilir.

S.H.Tağızadənin fəaliyyətinin dördüncü mərhələsi 1924-1928-ci illəri əhatə edir. Həmin mərhələdə S.H.Tağızadə elmi publisistik fəaliyyətini davam etdirməklə yanaşı, peşəkar siyasətçi (deputat, partiya lideri) rolunda çıxış edir və ölkədə həyata keçirilən modernləşmə siyasətinə geniş dəstək verir.

İranda modernləşmə siyasətinin yeni mərhələsi 1922-ci ildən başlamış və S.H.Tağızadənin bilavasitə iştirakı olmadan yeni qüvvələr tərəfindən həyata keçirilirdi.

Modernləşmə hərəkatı S.H.Tağızadənin təklif etdiyi vesternləşmə ruhunda başlandığından, 1926-cı ildən daha da genişləndiyindən S.H.Tağızadə ona hərtərəfli siyasi (deputat və "Tərəqqi" partiyasının lideri) və ideoloji dəstək göstərirdi. Eyni zamanda modernləşmə prosesinin kənarlaşmalara məruz qalması, siyasi sistemin modernləşməsinin dərinləşməsi və genişlənməsi əvəzinə arxaik və ya feodal monarxiyası formasına faktiki qayıdışı S.H.Tağızadənin modernləşmənin bir sıra əsas prinsiplərini müdafiə etməsinə və nəticədə həmin prosesdən müvəqqəti olaraq kənarda

qalmasına səbəb oldu.

S.H.Tağızadənin fəaliyyətinin beşinci mərhələsi 1929-1934-cü illəri əhatə edir. Həmin mərhələdə icra strukturlarında çalışan S.H.Tağızadə siyasi həyatda elə bir əhəmiyyətli rol oynamır və həmin mərhələ Rza şahın diktatorluğunun güclənməsi illərinə təsadüf etdiyindən S.H.Tağızadənin siyasi hakimiyyətdə iştirak etməkdən kənarlaşması ilə nəticələnir.

S.H.Tağızadənin fəaliyyətinin altıncı mərhələsi 1934-1941-ci illəri əhatə edir. Həmin mərhələdə S.H.Tağızadə sırf elmi, elmi-pedaqoji fəaliyyətlə məşğul olur və əsas elmi əsərlərini həmin illərdə yazıb çap etdirir. Bu mərhələni S.H.Tağızadə xüsusi şəxs kimi Almaniyada və İngiltərədə (London universiteti) keçirir. Həmin mərhələdə S.H.Tağızadənin Qərb tipli elmi yanaşma, araşdırma üsul və prinsiplərini, elmi idrakın məqsədlərini mənimsəmiş, öz araşdırmalarında tətbiq edən bir alim kimi formalaşması başa çatır. S.H.Tağızadə elmi araşdırmaya həqiqəti üzə çıxarmağın vasitəsi kimi baxaraq tam, hətta ifrat obyektivliyə əməl etməyə böyük önəm verir. Onun İran tarixi və ədəbiyyatı ilə bağlı araşdırmalarının nəticələri güclənməkdə olan paniranizm ideologiyasının prinsiplərinə uyğun deyildi və ona xidmət etmirdi.

Ş.H.Tağızadənin fəaliyyətinin sonuncu mərhələsi 1941-1968-ci illəri əhatə edir. O, hakimiyyət strukturlarına qayıdaraq əvvəlcə icra (1941-1947), sonra qanunvericilik hakimiyyətində (1947-49 – deputat, 1950-1968 – senator) fəaliyyət göstərir. Həmin mərhələdə o, siyasi hakimiyyətdə yüksək vəzifə tutsa da, bir siyasətçi kimi deyil, daha çox ictimai xadim, alim, pedaqoq və ideoloq kimi çıxış edir. Bu dövrdə maarifçilik, elmi, elmi-pedaqoji fəaliyyətini davam etdirən S.H.Tağızadənin modernləşmə hadisəsinə baxışları müəyyən dəyişikliyə uğrayır, ölkədə genişlənməkdə olan vesternizasiyanın siyasi, sosial problemləri həll edə bilməməsi, təbəqələrarası ziddiyyətlərin mədəni sferada anti-qərbçilik kimi təzahür etməsi,

Qərb dövlətlərinin Şərqdə olan müstəmləkələrini saxlamaq uğrunda gərgin, bir sıra hallarda geniş silahlı mübarizəsi onu vesternləşmə ideyasından imtina etməyə sövq edir. S.H.Tağızadə vesternizasiya ideyasından geri çəkilsə də, modernləşmə ideyasının qızğın tərəfdarı olaraq qalır və modernləşmənin ideologiyasını yaratmağa cəhd edir.

S.H.Tağızadənin modernləşmə ideologiyasında modernləşmiş cəmiyyət müəyyən inkişaf səviyyəsinə yüksələn və bir sıra atributlara malik olan sistem kimi çıxış edir. Həmin cəmiyyətin siyasi sistemi partiya sisteminə əsaslanan, geniş kütlələrin siyasi proseslərdə iştirakını, dövlət orqanları və müəssisələrinin siyasi iradənin icraçısı funksiyasından kənarlaşdırılmasını, müxtəlif sosial qrupların maraqlarının uzlaşdırılmasını təmin edən parlament idarə forması kimi nəzərdə tutulur. Belə siyasi sistemdə tam şəkildə siyasi, sosial, iqtisadi, etnik, mədəni, dini və s. azadlıq bərqərar olur.

Modernləşmiş siyasi sistemin ikinci atributu milli birlik və milli vəhdətdir. Milli birlik vətəndaşların siyasi, dini, sosial, etnik və s. mənsubiyyətindən asılı olmayaraq hüquqi bərabərlik, azadlıq, siyasi proseslərdə fəal iştirakı, mənafe ümumiliyi əsasında formalaşır.

S.H.Tağızadə bütün digər modernləşmə, vesternizasiya, “üçüncü yol” ideoloqlarından fərqli olaraq milli münasibətlərə xüsusi diqqət yetirərək, ifrat millətçiliyi, şovinizmi kəskin tənqid etmiş, onun beynəlxalq münasibətlər, daxili birlik və stabillik üçün daşıdığı təhlükəni açıb göstərməyə çalışmışdır.

Modernləşmiş cəmiyyətin üçüncü mühüm ünsürü tolerantlıqdır. Tolerantlıq siyasi, sosial, dini, mədəni, əxlaqi və s. müxtəlifliyi qəbul etməyi və dözümlülüyü nəzərdə tutur.

Nəhayət, S.H.Tağızadənin modernləşmiş cəmiyyət haqqında baxışlarının dördüncü ünsürünü vətənpərvərlik təşkil edir. Həqiqi vətənpərvərlik insanların, sosial-etnik, sosial-dini və s. qruplarının azadlığının bərqərar olması, fərdlərin rifah halının yüksəldilməsi ilə meydan gələ bilir. Yalnız azadlıq şəraitində yaşayan, qrup maraqları,

maddi və mənəvi ehtiyacları təmin olunan vətəndaş həqiqi vətənpərvər ola bilər.

